*“Vətən!” deyə döyüşlərə girsəm də mən,*
*Dinc həyatın sənətkarı deyin mənə!*
*Gözlərimlə qara günlər görsəm də mən,*
*Ağ günlərin nəğməkarı deyin mənə!*

*Sinəsini oda tutub fəlakətin,*
*Yaxasına günəş taxdıq səadətin.*
*Yalnız bir il ömür sürən hökumətin**
*Bəyaz saçlı yadigarı deyin mənə!*

*Döyüş sazı çalmasam da neçə yurdda,*
*Zəfər səsi salmasam da neçə yurdda,*
*Şöhrət tacı olmasam da neçə yurdda,*
*Öz yurdumun iftixarı deyin mənə!*

**1979.**

ƏLİ TUDƏ

# NƏĞMƏLİ GECƏLƏR



"AZƏRBAYCAN" NƏŞRİYYATI

BAKI-2016

T14(16)

*Azərbaycanın görkəmli şairi Əli Tudənin "Nəğməli gecələr" adlı bu kitabı sənətkarın çapı nəzərdə tutulmuş 20 cildliyinin 7-ci cildidir. 1946-cı ildə İran şahı Məhəmmədrza Pəhləvi tərəfindən Cənubi Azərbaycan Milli hökuməti devrildikdən sonra 22 yaşlı Əli Tudə Şimali Azərbaycana mühacirət etmək məcburiyyətində qalır. 1979-cu ildə İranda şahlıq üsuli-idarəsinə qarşı kütləvi nümayişlər başlanır, qurbanlar verilir və nəhayət İslam inqilabı qələbə çalır. Kitabda toplanan əsərlərin əksəriyyəti inqilab ərəfəsində, o qanlı günlərdə yazılmışdır. 33 ildən sonra şairdə vətənə qayıtmaq ümidi yaranmışdı. Təəssüf ki...*

**Əli Tudə**
T14(16) Nəğməli gecələr. VII cild. – Bakı, "Azərbaycan" nəşriyyatı, 2016. – 408 s.

**T** $\frac{\textbf{4804000000–014(16)}}{\textbf{M 670(07)–2016}}$ **Sifarişlə**

©"Azərbaycan" nəşriyyatı, 2016.

# ƏLİ TUDƏ

Əslən Ərdəbilin Çanaxbulaq kəndindən olan atası Qulu və anası Şahbəyim Şimali Azərbaycana köçmüş və Əli 1924-cü il yanvarın 31-də Bakıda anadan olmuşdur. Atası Qulu neft mədənində fəhləlik etmiş, sonra isə buruq ustası vəzifəsinədək yüksəlmişdir. Əli 1 yaşında olarkən atası, 5 yaşında isə anası dünyasını dəyişmişdir. O, nənəsi Qəribin himayəsində böyümüşdür. 150 saylı orta məktəbdə oxumuşdur. Bu dövrdə Bakı Pionerlər Sarayının nəzdində Osman Sarıvəllinin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvü olmuşdur. Artıq 13 yaşında ikən Əlinin ilk şeirləri Heydər Rzazadə imzası ilə "Kommunist", "Yeni yol" qəzetlərində çap olunub, radioda səslənib. 1938-ci ildə həmin ədəbiyyat dərnəyinin nəşr etdiyi almanaxda da şeirləri dərc edilib. 1938-ci il repressiya dövründə 7-ci sinifdə oxuyarkən o, Cənubi Azərbaycan mənşəli olduğundan nənəsi ilə birlikdə İrana sürgün edilir. Təhsili yarımçıq qalır. İranda təsərrüfat işləri və fəhləliklə məşğul olaraq ağır həyat tərzi keçirir. Lakin şəxsi mütaliəsi, ədəbiyyata güclü meyli onda yazıb-yaratmaq həvəsini söndürmür. 50 ildən artıq bir müddət ərzində bircə gün belə olsun qələmini yerə qoymayan Əli Tudə dərəli-təpəli bir həyat və yaradıclıq yolu keçmişdir. 1940-cı illərdə Cənubi Azərbaycanda

başlanan azadlıq hərəkatına qoşulub silahı və qələmi ilə mübarizə aparır. Milli ruhlu şeirləri ilə xalqı istiqlala çağırır. 1944-cü ildə "Vətən yolunda" qəzetində Əli Tudə imzası ilə şeirləri çap olunur. 1944–1946-cı illərdə Ərdəbildə çıxan "Ziddi-faşist", "Cövdət" qəzetlərində, ədəbi almanaxlarda, Təbrizdə çıxan "Vətən yolunda", "Azərbaycan" qəzetlərində, "Şəfəq", "Azərbaycan" məcmuələrində, "Şairlər məclisi" almanaxlarında şeirləri müntəzəm çap olunmuşdur. O, "Hizbitudeyi-İran" partiyasının üzvü olur (1944). Bir ildən sonra, 1945-ci il sentyabrın 3-də Təbrizdə yaranan Azərbaycan Demokrat Firqəsi sıralarına qoşulur. İran xalq partiyası Ərdəbil vilayət komitəsində təbliğatçı (1944–1945), Milli hökumət yarandıqdan sonra Təbrizdə Maarif Nazirliyində tədris şöbəsinin müdiri (1945–1946) işləyir. "Ana dili" kitabının tərtibi və çap olunmasında xüsusi rol oynayır. Sonra isə İran tarixində ilk dəfə olaraq Təbrizdə Milli filarmoniya yaradır, onun ilk və son müdiri olur. Mahal-mahal, kəndbəkənd gəzərək istedadları bu böyük mədəniyyət ocağına cəlb edir. Əli Tudə Cənubi Azərbaycan Demokratik ədəbiyyatının yaradıcılarından biridir. İctimai-siyasi fəaliyyəti ilə bərabər şair öz qələminin qüdrətindən inqilabın nailiyyətlərinin qorunub saxlanılması üçün ustalıqla istifadə edir. Yaradıcılığını, yüksək əqidəsini, mütərəqqi fikirlərini mübarizə yollarında məşələ çevirən Əliyə Təbrizin “Şairlər məclisi”ndə müdriklər tərəfindən Tudə, yəni Xalq təxəllüsü verilir. Milli hökumət onu ali mükafat "21 Azər" medalıyla təltif edir. O vaxt şairin cəmi 22 yaşı var idi və ilk şeirlər kitabı da çap ərəfəsində idi.



Lakin tale burda da öz qəddar hökmünü verdi. Bu xoş günlər, azadlıq və səadət uzun çəkmədi. Min bir əzabla, qanlar bahasına qurulmuş Milli hökuməti İran dövləti beşikdəcə boğdu. Şairin üsyankar ruhlu şeirlər kitabı mətbəədəcə yandırıldı. Tutulduğu anda məhkəməsiz-filansız qətlə yetirilməsi barədə şahın fərmanı verildi. Şair mübarizəni davam etdirmək və qayıtmaq məqsədilə öz məsləkdaşları ilə bir daha Vətəndən Vətənə mühacirət etmək məcburiyyətində qaldı. 1946-cı il dekabrın 12-də sərhəddə yazdığı "Mən nə gətirdim" şeiri Cənubi Azərbaycan mühacir ədəbiyyatının ilk nümunəsi oldu. O taydan gələn qardaş-bacılarımızın manifestinə, həyat məramına dönən bu şeir tez bir zamanda dillər əzbərinə çevrildi.

Milli demokratik hökumət irtica qüvvələri tərəfindən boğulduqdan sonra Bakıya mühacirət zamanı "Ədəbiyyat qəzeti" redaksiyasında ədəbi işçi vəzifəsində işləyir. Ona ali təhsil almaq imkanı yaranır. BDU-nun filologiya fakultəsini fərqlənmə diplomu ilə bitirir (1947–1952). 1958-ci ildən Azərbaycan və SSRİ Yazıçılar İttifaqının üzvü. Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Ali Partiya Məktəbində müdavim, "Azərbaycan" qəzetində (Azərbaycan demokratik firqəsinin orqanı) ədəbi-şöbə müdiri olur (1952–1962). Sonra bütün həyatını bədii yaradıcılığa həsr edir. Ümumittifaq tədbirlərində, Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə, Tbilisidə SSRİ Yazıçılar İttifaqının plenumunda və s. iştirak etmişdir. "21 Azər" (1946), "Əməkdə fərqlənməyə görə" (1959) medalları ilə mükafatlandırılmışdır. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri

Fərmanı ilə təltif olunmuşdur (1984). Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü seçilmişdir (1960-cı ildən). Əmək veteranı (1986), Əməkdar incəsənət xadimi (1987). 50 poemanın, 40-a yaxın kitabın müəllifidir. Əsərləri özbək, qırğız, hind, ukrayna, rus, ingilis və s. dillərə tərcümə olunmuşdur. Əli Tudə ömrü boyu siyasi mühacir olaraq qaldı. Sovet pasportu daşımadı. Bir çox yüksək titul və mükafatlardan məhrum oldu.

1996-cı il fevralın 26-da Bakıda vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.



## KÖKDƏN DÜŞMƏYƏN RÜBAB

XX əsr Azərbaycan poeziyasında öz səsi, öz sözü, öz yeri olan, Vətən sevgisi ilə köklənən, şeir rübabından süzülüb gələn odlu və hikmətamiz misralar, cild-cild kitablar, zəngin bir ədəbi irs yaradan, 50 ildən artıq bir müddət ərzində bircə gün qələmini yerə qoymayan görkəmli şairimiz Əli Tudə çox çətin, iztirablı, həsrətli, lakin şərəfli, başqalarının qibtə edə biləcəyi yaradıcılıq yolu keçmişdir.

Bakıda həyata göz açan Əli çox erkən, ömrünün 13-cü baharında ilk qələm sınaqlarını ağ səhifələrə köçürməyə başlamışdır. Tay-tuşları və müəllimləri hələ o zaman hiss edirdilər ki, şeir aləminə gənc bir istedad gəlir. Fəqət, 1937-1938-ci illərdə Əlinin göz açdığı yerlərdə əsən qara yellər onu körpə bir fidan kimi doğma yurddan qoparıb sıxıntılı və əzablı şahlıq rejiminin amansız dalğalarının qoynuna atdı. Taleyə bir bax! O, öz ata-baba yurduna bir suçlu kimi sürgün edildi. Bəli, Əlinin əsli Ərdəbilin Çanaxbulaq kəndindən idi. Onun atası işləmək üçün Bakıya gəlmiş, neft mədənlərində buruq ustası olmuş, Əli də məhz Bakıda dünyaya göz açmışdı. Lakin Əli elə körpəliyindən həyatın çətin və sərt sınaqları ilə qarşılaşmışdı. Belə ki, 1 yaşı olar-olmaz atası vəfat etmiş, 5 yaşına çatar-çatmaz anası da dünyasını dəyişmişdi. Əlini qoca ana nənəsi Qərib böyütmüş, 1938-ci ildə isə onu götürüb İrana qohumlarının yanına köçmüşdür. Nə etməli? Tale öz amansız hökmünü vermişdi. Çətin, əzablı fəraq və həsrət illəri başlamışdı.

Amma insanın xarakteri, onun bəşəri idealları, deyəsən, ağır sınaqlar qoynunda daha sürətlə formalaşır.

40-cı illərin əvvəllərindən Əlinin Vətənində çağlayıb coşan xalq hərəkatı onun poetik ilhamının qanad çaldığı tufanlı, qasırğalı, bununla yanaşı, gənc şairin qələmini ciddi sınaqlarda bərkidən təlatümlü bir okean rolu oynadı.

Əli Tudə Cənubi Azərbaycan demokratik poeziyasının ilk təməl daşlarını qoyan sənətkarlardan olmuşdur. O zaman yenicə formalaşmağa başlayan demokratik ədəbiyyat yeni dünya qurmaq uğrunda gedən tarixi savaşların döyüş meydanlarında, səngər vuruşlarında özünün ilk addımlarını atırdı. Söz ordusunun sədaqətli əsgəri kimi Əli Tudə həmişə xalqla bir sırada olmuş, onun istək və arzularını, döyüş və mübarizə əzmini, gələcəyə inamını qələmə almağı sənətinin əsas qayəsi hasab etmişdir. Sənət dostları onun ünvanına səngər şairi ifadəsini təsadüfi işlətməmişlər:

**Nə qədər döyüş var, mübarizə var,**
**Bayrağım vətəndir, silahım qələm!**

Əli Tudə yüksək ideallar şairi idi. Elə buna görə də seçdiyi mövzuları dövrün mütərəqqi ideyalarına, xalqın müasir tələblərinə cavab verə biləcək bir şəkildə, oxucuları mübarizlik, döyüşkənlik, vətənpərvərlik ruhunda tərbiyə edə biləcək bir səpkidə işləməyi özü üçün əsas tələb hesab edirdi.

Şairin lirik "mən"i həyatın isti-soyuğunu görmüş, insanlar və hadisələr haqqında nəticə çıxarmağı bacaran bir zəka sahibidir. O, Vətən, ana, namus, vicdan, inam, qeyrət kimi bəşəri sifətlər haqqında düşünür. Necə? Bu düşüncələrdən başqalarının bəhrələnəcəyi bir şəkildə. İnsanlara xeyir verə biləcək bir tərzdə. Nə məqsədlə? Öz əməyi və qayəsi ilə insanlara xeyir vermək niyyətilə.



Əli Tudə oxucusunu Vətəninin gözəlliklərinin, naz-nemətlərinin alovlu vurğunu, dönməz keşikçisi və müdafiəçisi kimi görmək üçün könül rübabını belə bir kökdə səsləndirir:

**Qardaş, xəyalımı soraqlasan sən,**
**Vətən çox genişdir...**
**Sən hər yanda gəz.**
**Ancaq ürəyimi tapmaq istəsən,**
**Başqa yerə getmə,**
**Savalanda gəz.**

Amma kim deyə bilər ki, şairin Vətən sevgisi Savalanın ana qucağı kimi isti qoynunda, ancaq doğma kəndi Çanaxbulağın sərhədləri çərçivəsində məhdudlaşıb qalır. Bu sevgi Vətən deyilən müqəddəs diyarın hər qarışına çatacaq qədər tükənməzdir.

Dünyada ətir çoxdur. Sadalamaqla qurtaran deyil. Gül ətri, bahar ətri, gözəllərin sünbül zülflərinin bənzərsiz ətri... Bəs şairin lirik qəhrəmanının üstünlük verdiyi ətir hansıdır? Zəhmət ətri! Nə gözəl ədəbi tapıntıdır! Və şair oxucusunu öz qəhrəmanının haqlı olduğuna inandıra bilir. Oxucu inanır ki, bu ətir insanlara bəxş etdiyi naz-nemətlə, istiyə, tufana, yağışa, ən çətin sınaqlara dözümü ilə hər bir ətirdən üstündür:

**O yaşayır insanın**
**Kamında, muradında.**
**Bəşəri yüksəklərə**
**Qaldırır qanadında...**

Əli Tudənin "Borc" adlı bir şeiri var. İlk baxışda borcun əsl sənət əsəri üçün mövzu ola biləcəyi qəribə görünür. Lakin şairin ustad qələmi bu adi, çox prozaik faktı poetik yüksəkliyə qaldırır. Birisi borcu olanda, hətta

gecələr belə gözlərinə yuxu getmir. Borclu olanın keçirdiyi hiss və duyğular heç nə ilə müqayisəyə gəlmir, tamam başqadır. Şair insanın Vətən qarşısında borcunu belə mənalandırır:

**Vətən, o şadlığı, o abadlığı**
**İndidən görürəm öz ovcum kimi...**
**Bir gün gözlədiyin o azadlığı**
**Sənə verməliyəm öz borcum kimi.**

Əli Tudənin sənət rübabında ana dilinə məhəbbət kükrəyib-çağlayır desək, səhv etmərik. Bütün həyatı boyu doğma xalqını, onun taleyini tərənnüm etməyi yaradıcılığının baş qayəsi hesab edən sənətkar üçün ana dili zirvələrin zirvəsi, müqəddəs bir idealdır.

Əli müəllim həmişə deyərdi ki, əgər bir xalqı məhv etmək istəyirsənsə, əvvəlcə onun dilini əlindən almaq lazımdır.

Bəli! Şairin könül rübabı saf və büllur suları xatırladan ana dilinin xoş ahəngi üstündə köklənmişdir:

**Mənim dilim dünyada**
**Vətənə sədaqətdir.**
**Ataya ehtiramdır,**
**Anaya məhəbbətdir...**
**O yaranan zamandan**
**Od yanır binəsində.**
**Dilim hərarətini**
**Vətənin sinəsində**
**Babalar qaladığı**
**Ocaqlardan alıbdır...**

Şair çox səmimi bir ehtirasla oxucusunu Savalanın seyrinə dəvət edir. Bulaqlarının zümzüməsini eşitməyə, güllərinin ətrini duymağa çağırır:



**Gedək doğma kəndim Çanaxbulağa,**
**Bulaqla öpüşək dodaq-dodağa.**
**Savalan balını qatıb qaymağa**
**Dönə-dönə dadaq, sən deyən olsun.**

Əli Tudə xalqın keçmişinə, onun yetişdirdiyi tarixi simalara dərin hörmətlə yanaşan şairdir. Vətənin söz və qılınc sərkərdələrini xatırlamaqda, onların müasir nəslə təqdimində şairin özunəməxsus sənətkar səliqəsi vardır. O bu fikirdədir ki, dünən olduğu kimi, bu gün də xalqın oğullarının işğalçılar qarşısında Babək dəyanəti, Koroğlu hünəri, Səttarxan dözümü göstərmələrinə tarixi zərurət vardır. Şair Babək irsinin ən yüksək dəyərini bu keyfiyyətlərində görür:

**Ya müstəqil olaq, ya "ölək" sözü,**
**Döyüş bayrağının şüarı oldu!**

Şairin yarım əsrdən də çox əvvəl bəstələdiyi həyat nəfəsli, vətən rayihəli, döyüş ruhlu nəğmələrinin nəqəratı kimi səslənən bir himni də vardır. Onun ünvanı belədir: "Mən nə gətirdim".

1946-cı ildə şairin vətənində xalq hərəkatı şah və onun imperialist hamiləri tərəfindən qan dəryasında boğuldu. Bir sıra silahdaşları kimi şair də doğma yerləri tərk etməyə məcbur oldu.

Bəs vətəndən iraq düşən şair fəraq günlərinə hansı hisslərlə gəlirdi?

**Mən öz qardaşıma mehman gələndə**
**Bir qələm, bir dəftər, bir can gətirdim.**
**Dağların döşünü toplar dələndə,**
**Bir ləkə düşməyən vicdan gətirdim!**

Xatırladım ki, 22 yaşlı şairin qələmindən çıxmış bu ədəbi sənəd, hicran və ayrılıq illərində yaranan Güney poeziyanın ilk nümunəsi oldu və manifest rolunu oynadı.

Əli Tudə vətəndən ayrı yaşadığı, 50 illik mühacirlik həyatında hicran və həsrət deyilən amansızlığın əlindən daim dad çəkmiş, onu birdəfəlik bu xalqın həyatından silib atmaq arzusu ilə yanmışdır:

**Yollarda olsam da ürək, ay ürək,**
**Heç yanda görmədim nişan vüsaldan.**
**Mən hardan biləydim, ürək, ay ürək,**
**Vəfalı olurmuş hicran vüsaldan.**

Xalqımız dilsiz-ağızsız, ürəksiz və şüursuz varlıq olan "sərhəd"dən nələr çəkməmişdir? Xalqının şair oğlu "sərhəd" deyilən məfhuma necə münasibət bəsləyirdi:

**Doğma məcrasında dinc axır, fəqət,**
**Sərhədə dəyəndə diksinir çay da.**
**Nədir o səksəkə? Nədir o zülmət?**
**Sərhəddə təlaşla boylanır ay da.**

Sərhəddə çayın diksinməsini, ayın təlaşla boylanmasını yalnız ayrılıqdan dodaqları cadar-cadar olmuş xalq və bu xalqın sənətkar oğlu bu qədər həssaslıqla duya və beləcə, poetik şəkildə qələmə ala bilərdi.

Odlu-alovlu şairin keçdiyi təlatümlü, keşməkeşli ömür yolu onun həyata fəal münasibətini müəyyənləşdirmişdir. Bu mərhələdə o, sadəcə olaraq müşahidəçi deyil. Varlığa olduğu kimi qiymət verməyə girişən bir zəka və təfəkkür sahibidir. Onun həyata mütəfəkkiranə baxışının öz dəsti-xətti var. O, varlığın mahiyyətini tapmaq üçün özünü sorğu-suala tutur. Tapdığı cavabda onun sirlərini kəşf etmək istəyir:



**Gizlədən də sənsən, bildirən də sən,**
**Yaşadan da sənsən, öldürən də sən.**
**Saxlayan da sənsən, sildirən də sən,**
**Sən yumşaq fırçalı, sərt şeirlisən.**
**Sən nə sirlisən?**

Yazı mizi arxasında keçən ömür, sərf edilən əmək bir daha geri dönən deyil. Əli Tudə şam ilə şairin yanması arasında bir yaxınlıq kəşf edir. Lakin yanğıların da fərqi var. Nədir bu fərq?

**Ah, şam yanır həyatda**
**Əbədi sönmək üçün.**
**Mən yanıram əbədi –**
**Həyata dönmək üçün.**

Əli Tudənin Təbrizə həsr etdiyi şeirlərində çox zərif və bakir bir meyl özünü göstərir. Bu da Təbriz ilə şairin taleyi arasındakı oxşarlığın əyaniləşdirilməsidir. Bu misralarda şair ilə Təbriz iki bədəndə bir ürək kimi çırpınır. Onlar arasındakı bu doğmalıq qüdsiyyət səviyyəsinə qədər yüksəlir:

**Mən nəyəm? Gülzardan ayrılmış çiçək,**
**Yadımdan çıxmamış nə duz, nə çörək.**
**Könlümdə doğsa da gündə bir dilək,**
**Arzumun qatarı Təbrizdə qaldı.**

Təbiət mövzusunda Əli Tudə çox mahir bir bağbandır. Şairin lirikasında çiçəklər təbəssüm dolu gözə, lalələr çöldə-çəməndə şölələnən alov tağına bənzədilir. Şairin dağlar gözəli Şuşaya həsr etdiyi misraların ətrini bu şəhərin güllü-çiçəkli yaylalarından, vüqarını sıldırım qayalarının əzəmətindən, şirinliyini ağızlarda bal dadan bulaqlarının şərbət sularından alır. Düşünürsən, təbiətmi Şuşaya yaraşıq verib, yoxsa Şuşamı təbiəti gözəlləşdirmişdir. Şairin

lirikasında qanad açıb ətrafa yayılan təranələr bu suala belə cavab verir:

**Dağlar başındakı meşəliklərin**
**Yaşıl baxışında məhəbbət yatır.**
**Şuşa yaşındakı meşəliklərin**
**Hər tumurcuğunda şeiriyyət yatır.**

Əli Tudə vətənin şəhid oğullarının şərəfinə yazdığı şeirlərində çox yığcam bir şəkildə öz rəyini açıqlamışdır. Şairə görə şəhidlərə ağı demək yox, onları cəngilərin, qələbə marşlarının melodiyalarının müşayiəti ilə yad etmək lazımdır:

**Bizə ağı nə gərək,**
**Ya zildə, ya da pəsdə.**
**Qar deyil, cəngi yağsın**
***Şəhidlər qəbri üstə.***

Güney poeziyasının qüdrətli nümayəndəsi olan şairin keçdiyi yaradıcılıq yollarına nəzər salarkən heyrətamiz bir mənzərənin şahidi oldum. Əli Tudə elə bir şair idi ki, heç kəsdən mərhəmət gözləməmiş, müqəddəs tutduğu, inam bəslədiyi əqidəsindən bir addım belə kənara çıxmamışdır. Kişi kimi, halal zəhmətlə, sadə bir insan, sənətkar ömrü yaşamışdır. Məğrur, əyilməz! Onun üçün ən böyük mükafat xalqının məhəbbəti və ona bəslədiyi sevgi hissləri olmuşdur.

**Saçlarımda dən olubsan,**
**Gözlərimdə çən olubsan,**
**Döyüşlərdə sən olubsan**
**Mənim rütbəm, çinim xalqım.**

Əqidən, düşüncən, inamınla sənə əbədi sənətkar ömrü çox yaraşır, şair. Sənin könül rübabını daim çağlayıb coşan, susmaq bilməyən lira hesab etmək tam ədalətli olardı.

*Sabir NƏBİOĞLU,*
*filologiya elmləri doktoru.*





## ŞAİRİN XƏYALI

Haçan fasiləsiz qələm çalıram,
Uzun gecələrdə oyaq qalıram,
Sıx tüklər uzanır solğun üzümdə,
Elə bil işıqdan düşür gözüm də.
Qapımı şəfqətli əlilə açan,
Yazı otağıma təbəssüm saçan
Dostlarım deyir ki, az dal xəyala,
Səni xəyallardır salan bu hala.
Mən gülüb onlara nəzər salıram,
Ağır əməyimdən ləzzət alıram.
Deyirəm mənim də zəhmətim bəlkə
Sənət gülşənində bircə gül əkə!
Mehriban dostlarım bilməyir, nədir,
Bir quru ağacdır xəyalsız şair.
O vacib sansa da məsləhətləri,
Xəyalla yaradır həqiqətləri...
Bəli! Xəyal uçur bir qartal kimi,
Ən uca, ən təmiz bir amal kimi...
Yaşayır tarixin yaddaşında o,
Məğrur zirvələrin ağ başında o.
Ülviyyət axtarır kəşf eləməyə,
Qüdsiyyət istəyir vəsf eləməyə.
Ya düçar olaraq ildırımlara,
Düşür aslan dişli sıldırımlara
Yanmış qanadını çırparaq daşa,
Ömrünü mərdliklə yetirir başa.
Ya da məqsədinə çatır uğurla,
Keçdiyi yollara baxır qürurla...
Zirvədə qıy çəkir... o səs, o səda,
Zəfər nəğməsini gətirir yada...

***1979.***



## ZİRVƏDƏN ZİRVƏYƏ

Sən nəsən? Arabir təlatümlü çay,
Arabir qanadlı xəyal, əməyim!
Sən nəsən? Arabir bədrlənən ay,
Arabir incələn hilal, əməyim!

Sən elə dağsan ki, qarın təmizdir,
Sən elə bağsan ki, barın təmizdir,
Sən elə ərsən ki, yarın təmizdir,
Yediyin, içdiyin halal, əməyim!

Kim deyir, nə dalğan, nə hücumun var,
Əjdaha nəfəsin, fil xortumun var,
Fəqət min dostun var, min qohumun var,
Gözümdə dincliyi sual əməyim!

Nə qəm, əzabınla üzsən məni sən,
Sənət süzgəcindən süzsən məni sən,
Şeirə misra-misra düzsən məni sən,
Arxamda səflənər cəlal, əməyim!

Demirəm dəbdəbə yolunda baş qoy,
Vicdanla, namusla yaş üstə yaş qoy.
Qoyduğun təmələ sən elə daş qoy,
Üstündə yüksəlsin mahal, əməyim!

Nə ilhamdan ayrıl, nə də qocal sən,
Hələ sabahdan da bu gün bac al sən,
Məğrur uçuşunla daim ucal sən, –
Zirvədən-zirvəyə, qartal əməyim!

Bil ki, qorxutmayır qocalıq məni,
Ömrün yolundakı haçalıq məni,
Əgər gözləməsə ucalıq məni,
Təki sən, təki sən ucal, əməyim!

Üstünə boz duman gəlsə dağ kimi,
Qaldır amalını bir bayraq kimi.
Çağlayıb sussan da gur bulaq kimi,
Qoy səni yaşatsın amal, əməyim!

***1978.***

## ŞAİR SAÇLI AĞAC

Payızdır. Dumanda itir uzaqlar,
Baxıram ağacda şax budaqlara.
Şehdə xınalanmış sarı yarpaqlar
Ağacda qarışır göy yarpaqlara.

Gözünə qaranlıq düşəndə yerin
Ağac yandırsa da min əlvan çıraq,
Saçı tufan görmüş ustad şairin
Çallaşmış saçına bənzəyir ancaq.

Ağaclar nurani olana qədər
Baharlı, payızlı bir ömür sürür.
Şairlər kamala dolana qədər
Baharlı, payızlı bir dünya görür..

***1977.***

## YAŞAYIR

Sən dedin: "Gəncliyində sən bir qəşəng oğlandın",
Mən dedim: "Xatirələr könüllərdə yaşayır".
Buna mən də inandım, buna sən də inandın,
Bir kitabın mənası fəsillərdə yaşayır.



Kim deyir, sənətkarın istedadı vergidir?
Sənət ki, ilham, hünər, zəhmət dolu güzgüdür!
Sənətkarın həyatı möhtəşəm bir sərgidir,
Qələmlə yaratdığı şəkillərdə yaşayır.

Təbiətin baharı, təbiətin xəzanı,
Meyvələrin növbəsi, yarpaqların əlvanı,
Zirvələrin şəfəqi, dərələrin dumanı
Paltarını dəyişən fəsillərdə yaşayır.

Günəş Yer kürəmizin ən ülvi şeiriyyəti
Səhər qızılgüllərlə bəzəyir təbiəti.
Axşamlar onun odu, işığı, hərarəti
Bir-birindən aralı qəndillərdə yaşayır.

Ümman diləyimizin yoxdursa da sahili,
Həm şirin vüsalı var, həm də acı nisgili.
Vüsalın da hasili, nisgilin də hasili
Sonsuz yolumuzdakı mənzillərdə yaşayır.

Yolumuzun uzunu, yolumuzun vüsəti,
Yolumuzun axarı, yolumuzun siqləti,
Yolumuzun taleyi, yolumuzun qisməti
Uğurlarda yazılır, nisgillərdə yaşayır.

Rəssama da məhəbbət, şairə də məhəbbət,
Memara da məhəbbət, nasirə də məhəbbət,
Peşəsində hər işdə qadirə də məhəbbət
Tunc güllərdən hörülmüş əklillərdə yaşayır.

Atanın ehtişamı, ananın təravəti,
Kamalı, əqidəsi, namusu, dəyanəti,
Ən nadir, ən müqəddəs, ən ülvi əmanəti
Nəsillərdə yaşayır, nəsillərdə yaşayır!

***1977.***

## BİR AN

*Təxəyyülü zəif olan yazıçı yalnız həyatda gördüklərini eynilə əsərə köçürdükdə onu fotoqrafa bənzədirlər. Lakin mən elə fotoqraf tanıyıram ki, köçürdüyü lövhələrlə xəyalları qanadlandırmaqla, duyğuları təmizləməyə, xatirələri canlandırmağa qadirdir!*

Zaman nəhayətsiz yol,
Hər döngəsi bir andır.
Zaman sonsuz simfoniya,
Hər nəğməsi bir andır.
Zaman qapanmaz kitab,
Hər varağı bir andır.
Zaman qocalmaz ağac,
Hər yarpağı bir andır.
Zaman intəhasız çay,
Hər dalğası bir andır.
Zaman ölçüsüz zəncir,
Hər halqası bir andır.
Zaman sahilsiz ümman,
Hər ləpəsi bir andır.
Zaman yuxusuz ana,
Hər körpəsi bir andır.
Zaman hüdudsuz murad,
Hər hasili bir andır.
Zaman aramsız rəssam,
Hər şəkili bir andır...
Anların vəhdətindən
Yaranmırmı əsrlər?
Qoca tarixdə an-an
Aranmırmı əsrlər?
Tək bircə an çiynində
Neçə əsri saxlayır.
Həm bütövü yaşadır,
Həm də kəsri saxlayır...



Adi bir fotoqraf da
Nə rəssamdır, nə nəqqaş.
Fantaziya vüsəti
Yoxdursa da, a qardaş,
Ya bir tarla içində,
Ya bir dəzgah başında,
Ya bir körpü üstündə,
Ya bir qaya qaşında
Bir parça həqiqəti
Elə çəkir bir anda,
Cansız kağıza köçür
Təbiət də, insan da...
Gün gedir, insanınsa
Gəlir qocalıq yaşı.
Şəkildəsə dəyişmir
Nə saçı, nə də qaşı...
Gün gəlir. İnsan isə
Gedir gözəl dünyadan.
Sanki damla ayrılır
Dağ dalğalı dəryadan...
Fəqət o şəkil qalır
Anın övladı kimi.
Fotoqrafın bir parça
Canlı həyatı kimi...

***1977.***

## TƏLƏSİR

Sanma dağdan-dağa uçmaqdan ötrü
Təkcə quş qanadlı yellər tələsir.
Geniş düzənləri qucmaqdan ötrü
Ləngərlə kükrəyən sellər tələsir.

Araz Kürə axır kürləşmək üçün,
Durula-durula dürləşmək üçün,
Sanki bir məcrada birləşmək üçün
Dalğalara dönən əllər tələsir.

Dənizə qarışıb dəniz olmağa,
Bəlkə də ümmana əkiz olmağa,
Daha da, daha da təmiz olmağa
Suları çağlayan göllər tələsir.

İlləri fəth edir zaman sürətlə,
İnsan işlə qalxır, nəğmə hikmətlə...
Sevdiyi gözələ hisslə, hörmətlə
Sözünü deməyə dillər tələsir.

Bəmdə həzin-həzin tar gəlir dilə,
Dərdini dərd bilən insanla bölə,
Dərdi duyulmasa can atıb zilə,
Dərddən bağırmağa tellər tələsir.

Yazın gəlişini alqışlamağa,
Çəmənin donunu naxışlamağa,
İnsana çələnglər bağışlamağa
Əlvan təbəssümlü güllər tələsir.

Al günəş – göy çəmən həmdəmlər kimi,
Güllər öpüşəndə məhrəmlər kimi,
Odlu üzlərindən şəbnəmlər kimi
Sürüşüb düşməyə tüllər tələsir.

Min rəngə çalanda o dərə, o dağ,
Hər düzdə min sərgi açanda torpaq,
Onun cəlalını ellərdən qabaq
Doyunca görməyə çöllər tələsir.



Baxıb dünyamızın qəlb həycanına,
Aran leysanına, dağ boranına,
Hər oğul toyuna, qız nişanına
Uğurlar deməyə ellər tələsir.

Gümüş ay çəkilir dağda batmağa,
Qızıl günəş doğur məşəl tutmağa.
Ömürdən getsə də, kama çatmağa,
Tarixə dönməyə illər tələsir...

***1978.***

## ETİRAZ

Ey fələk! Xəyalda insanlar bir-bir,
Sənsə həqiqətdə min-min sayırsan.
Göz yaşı içməkdən doymursan nədir,
Yanar ürəyi də ağlar qoyursan.

Bir dostum ömrünün bahar çağında
Getdi... Yanan könlüm sızladı udtək.
Bir dostuma dedim: – Ömür bağında
Yamanca tökülür insanlar tuttək.

O susdu... Gözündə çağlayan bulaq
Etirazla dindi: – Nahaq tökülür.
Tut dəyib vaxtında tökülür, ancaq
İnsanlar vaxtından qabaq tökülür.

Yox! Yüz yaşında da cavandır insan,
Yazını döyməsin vaxtsız qar onun.
Həyatı yaradan insandır, insan,
Uzun yaşamağa haqqı var onun.

Gərək öz qırovlu çiçəyini yox,
Sənin dağlarını saya insanlar.
Öz odlu-alovlu ürəyini yox,
Səni gözü yaşlı qoya insanlar.

Biləsən həyatın sonsuz yolunda
Arzunu yarımçıq saxlamaq nədir?
Sinədə qabaran dağlar dalında
Əriyə-əriyə ağlamaq nədir?

***1978.***

## SİZ ÖZÜNÜZ DEDİNİZ

*Sakinə oda giryan,*
*Mən giryan, o da giryan.*
*Dedim bir qədər isin,*
*Demədim oda gir, yan.*

Siz ey bu bayatını
Yaradan mərd babalar,
Öz əsrində həm kövrək,
Həm də ki, sərt babalar!
Sizin hər sözünüzə
Hörmətlə qulaq asdım.
Öz ömür kitabımın
İlk varağına yazdım!
Yazdım hikmətlə dolu
Bir həyat qanunu tək.
Sevdim gözəlliyini
Füzuli Məcnunu tək.
Sevgimdə tək bircə yol
Tərəddüd eyləyirəm.
Min dəfə üzr istəyib
Sizə – Yox! – söyləyirəm.



Qol çəkə bilməyirəm
Sizin bu sözünüzə.
Axı zidd çıxırsınız
Özünüz-özünüzə.
Siz günahkar sanmayın
Bizi tərsdən də betər.
Siz özünüz dediniz
Ot kökü üstə bitər!
Bizə siz öyrətdiniz
Yanmağı, alışmağı.
Hayandasa susmağı,
Hardasa danışmağı.
Siz elə yandınız ki,
Yer-göy şəfəqə batdı.
Odunuzun şöləsi
Gəlib bizə də çatdı.
Bizim gözlərimizdə
Sizin nurunuz vardır!
Bizim ürəyimizdə
Sizin qorunuz vardır!
Nədəndir, bizi tərslik
Üstündə döyən də siz!
Ürək yanmasa, gözdən
Yaş çıxmaz deyən də siz!
Yaş çoxdur, odla dolu
Gözün öz yaşı deyil.
Soyuq dərə suyudur,
İsti göz yaşı deyil.
Bəli! Üzdə axsa da
Göz yaşı adında o,
Qaynayıb dağ olmayır
Ürəyin odunda o.

Siz özünüz dediniz
“Bal tutan barmaq yalar”.
Fəqət mərdin yolunda
Boran olar, qar olar!
Əfsus! Bəzisi güddü
Ömrünün xilasını.
Nə balını istədi,
Nə də ki, bəlasını.
Biz isə – Vətən! – deyə
Oda girdik qərəzsiz.
Yandıq başdan-ayağa
Təmənnasız, əvəzsiz.
Biz belə yanmasaydıq
Buz bağlardı fəsillər.
Bizdən gözlər dolusu
İşıq uman nəsillər –
Deyərdi isinmədik
Bir gün də istisindən,
O qədər göz dikdik ki,
Kor olduq tüstüsündən...
Həyatda el yolunda
Bütöv ömrü itirmək,
Sənətdə neçə-neçə
Nadir dürrü itirmək,
Qəlbə nə peşmançılıq,
Nə də məğlubiyyətdir.
Etibarı itirmək
Daha böyük dəhşətdir!
Yandıq nəfəsimizlə
Sönsün intizarımız.
Alovlanan məşələ
Dönsün etibarımız!



Daş tarixin qaranlıq
Köksünü yara-yara,
Sizin işinizi də
Nura boyayaq, nura!
Müqəddəs şəhidlərin
Qəbri də nurla dolsun.
Ölməz xatirələri
Şəfəq çələngi olsun!
Yandıq, elə yandıq ki,
Bəşər duysun dərindən.
Alovumuz görünsün
Dünyanın hər yerindən...
Həm dünənki zəfərlər
Üstünə işıq salaq,
Həm sabahkı səfərlər
Yolunda günəş olaq!

***1979.***

## DAN YERİ

Sonuncu ulduzlar solur üfüqdə
Payız güllərinin çətirləritək.
Günəş bir nəğməkar olur üfüqdə
Şəfəqlər nəğmənin sətirləritək...

O qırmızı iplə toranı boğur,
Yolu aydınlaşır küləklərin də!
Sanki bir günəşdən min günəş doğur
Göyün təlatümlü ətəklərində...

Sanki şəfəqlərdən toxunan xalça
Köksündən asılıb bir uca qəsrin.
Yox! Mavi qolunda qırmızı parça
Keşiyində durur dan yeri əsrin.

Günəş dəftərini açandan bəri
Nəğməyə döndərir mənzərələri.
Gündoğana baxıb haçandan bəri
Taybatay açmışam pəncərələri.

Bəlkə üfüqlərdə təbiətin də
Dolaşıq düyünü hələ açılır.
Bəlkə baxışlarda məhəbbətin də
Qapalı hikməti belə açılır.

İnsanın dan yeri öz ürəyidir,
Günəş müjdəlidir, bulud şələli.
Ürəyin aynası göz bəbəyidir,
Vüsal işıqlıdır, hicran şöləli.

İnsan zəmanəni yedəkləyəndə
Bürküdə təngiyir, şaxtada donur.
Bəslədiyi arzu çiçəkləyəndə
Yorğun simasına təbəssüm qonur.

Günəşi qürubda görəndə insan
Nə sinəsi qızır, nə də kürəyi.
Sanki günəş dağdan endiyi zaman
Kiminsə dərəyə düşür ürəyi.

Mən o lövhəni də sevirəm, düzü,
Sabahkı günəşə vurğunlar kimi.
Yaranmış deyilmi o gözəl özü,
Niyə dincəlməsin yorğunlar kimi?

Günəş batanda da şiddətlə yanır,
Min günəş alışır keçdiyi yerdə.
O yanır, torpağa həsrətlə yanır,
Dünyaya doğacaq o bir də, bir də... ***1977.***



## PƏRSƏNG

Tərəziyə döndərib
İnsan qoşa əlini,
Daşsız gözlərdə çəkir
Yaxşı-pis əməlini.
Çəki düz gəlsin deyə
Bir daş yerinə ürək –
Gah bu gözə, gah da ki,
O gözə olur pərsəng...

***1981.***

## ÖMÜR-ARZU

Ömür ovçu, arzu ov,
Yaman düşüb qovhaqov...
Çatınca arzumuza
Ömür çevrilib buza,
Əriyir parça-parça...
Düşürük qaça-qaça
Arzuların dalınca,
Ən son parça qalınca.
Həyatımız da şirin,
Muradımız da şirin...

***1981.***

## DAMARLAR

*Göy üzü damar-damar,*
*Göydən yerə nur damar.*
*Könlüm nazik şişədir,*
*Sən sındırsan, kim yamar?*

Qardaş! Ağ zirvələr, yaşıl hamarlar
Yolları olsa da ömür fəslinin,
Alovlu ilhamla dolu damarlar
Həyat çaylarıdır insan nəslinin.

Qısa ömrümüzlə elə sədd olaq
Kinlə məcrasından çıxmasın çaylar!
Gəl, elə xeyirxah, elə mərd olaq,
Kimsənin evini yıxmasın çaylar!

İnsan övladına qoy zaval deyil,
Səadət ulduzu gətirsin suyu.
Ömür gülşənində boz qanqal deyil,
Güllər, əlvan güllər bitirsin suyu...

***1981.***

## KİŞİ

Kişi milyon-milyon... Əsil kişilik
Nə boyda, nə bığda, nə papaqdadır.
Yox, hamar yollarda deyil kişilik,
Sınağı, dözümü bərk ayaqdadır...

Dilsiz göbələk də ağ papaq qoyur,
Nə yerə zirvədir, nə göyə dayaq.
Buluddan başına dağ papaq qoyur,
Qardan paltar geyir, çəməndən başmaq.

Kişi həm qüruru, həm dəyanəti
Göbələkdən deyil, dağdan öyrənir.
Kişi həm hünəri, həm cəsarəti
Həqiqətdən alır, haqdan öyrənir.

Kim deyir kişilər içində kişi
Təkcə arvadına yaxşı ər olsun?
Yox! Gərək kişinin vədilə işi
Çəkidə hər zaman bərabər olsun!



Kişi müdrikliklə danışan zaman
Sözləri ağzında dürləşməlidir.
Hər hansı məqsəddən yapışan zaman
Dili ürəyiylə birləşməlidir!

Gərək təmiz qalsın kişi ürəyi,
Nə həsəd, nə tamah yığışsın orda!
Bir təranə çalsın kişi ürəyi,
Min ümid nəğməsi sığışsın orda!

Kişi cəsur olar! Məğrur vicdanı
Nə alovda yanar, nə buzda donar.
Dəmir iradəsi, büllur vicdanı
Namusu hər şeydən müqəddəs sanar.

O, can sirdaşının tabutu üstə
Tutular günəşsiz asiman kimi.
Məslək yoldaşının tabutu üstə
O əyər başını qəhrəman kimi...

Ağlamaq bacarmaz! Ağlasa hərgah
Təlatüm yaradar göz yaşından o.
Səsi dalğa-dalğa çağlasa hərgah
Qartalı uçurar dağ başından o.

Kişi əzizləyər gələn mehmanı,
Kömək istəyənə neyləyim deməz!
Sabaha addımlar atan dövranı
Yolunda xeyrimə əyləyim deməz!

Unudar öz şəxsi duyğularını
Nə gücünə baxar, nə yaşına o.
Həyatda bir nəslin qayğılarını
Çiynində daşıyar təkbaşına o.

Qızılgül tikana bürünən təki
Şəfqəti gizlənər sərtlik içində.
Alov dost baxışda görünən təki
Qəzəbi alışar mərdlik içində.

Dostunun zəfərli sabahlarını
Sevinə-sevinə alqışlar kişi.
Ürəyinə dəyən günahlarını
Düşünə-düşünə bağışlar kişi.

Sanma payız gəlsə xəzəllərilə
O bahar günəşi sönər dünyada.
Öləndə şəfəqli əməllərilə
Müqəddəs ocağa dönər dünyada.

***1978.***

## DESİN

Azad doğulub ki, dünyada bəşər,
O astara astar, üzə üz desin.
Gözünə gülləni sıxsalar əgər,
O əyriyə əyri, düzə düz desin.

Dünya özü günəş, insanlar nurdur,
Andları nə yalan, nə də ki, zordur.
Gözləri olsa da o insan kordur,
Dünyada yüzə bir, birə yüz desin.

İnsanı müqəddəs edən də insan,
İnsanı dişiylə didən də insan!
Gərək bu dünyadan gedəndə insan,
Dalınca insanlar yaxşı söz desin!

***1980.***



## KÖRPÜ

Qaranlıq dərəyə, kükrəyən çaya,
Sıldırım qayaya gərəkdir körpü.
Yox! Bir yana qalsın çay, dərə, qaya,
Dostluq yollarına bəzəkdir körpü.

Yoldaşın yoldaşa sədaqətində,
Sevənin sevənə məhəbbətində,
Qohumun qohumla ünsiyyətində
Rabitə deyildir, məhəkdir körpü.

Üstündə dörd fəsli yerləşdirər o,
Altında torpağı dürləşdirər o,
Uzanan əlləri birləşdirər o,
Yardımsız qalana köməkdir körpü.

Yalqız dolaşmayır gözəl mahalı
Aranın ceyranı, dağın maralı...
Sirdaşdan, həmdəmdən, dostdan aralı
Adama ülfətdə örnəkdir körpü.

Biri o körpüdən qənimət umsa,
Özgə hesabına mənfəət umsa,
Yalnız öz xeyrinə kəramət umsa,
Düşün ki, əynində köynəkdir körpü.

Biri sevdiyini qısqansa əgər,
Pərişan-pərişan dolansa əgər,
Yalan sözə uyan insansa əgər,
Demək aralıqda kövrəkdir körpü.

Döşündə mehriban qayğılar qaynar,
Hisslər, düşüncələr, duyğular qaynar,
Tənələr, gileylər, sorğular qaynar,
Ömür şanımızda pətəkdir körpü.

Arazın üstündə baxımsız qalan,
Bağbansız, yarpaqsız, salxımsız qalan,
Qayalı hasarı lağımsız qalan
Bir bağ yolu boyda tənəkdir körpü.

Sənətkar dalmasın boş xəyallara,
Yaşıl işıq düşsün xoş xəyallara,
Göydə qanad çalan quş xəyallara
Yerdə etibarlı dirəkdir körpü.

O əsrin yükünü asiman kimi
Çiynində saxlayır qəhrəman kimi...
Hardasa uzanır kəhkəşan kimi,
Hardasa qarışdan gödəkdir körpü.

Payızın dumanı, qışın tufanı
Yolda pərdə-pərdə kəssə aranı,
Ucalıq axtaran cəsur insanı
Zirvəyə qaldıran ətəkdir körpü.

O qoymaz iddia keçə milləti,
– Böyük! – Kiçik! – deyə seçə milləti,
Səadət uğrunda neçə milləti
Möhkəm birləşdirən məsləkdir körpü!

***1977.***

## SİYASƏT

Məslək düşmənindən qisas alanda
Sanma ki, mərhəmət duyar siyasət.
Yox! Yanan gözləri qanla dolanda
Nə ana, nə bacı sayar siyasət!



Kövrəlməz yoluna göz yaşı çıxsa,
Yaxud bir qocanın ağ başı çıxsa,
Qarşısına doğma qardaşı çıxsa
Doğma qardaşına qıyar siyasət.

Sındırar baxtının güzgüsünü də,
Tapdayar ömrünün sərgisini də,
Dil açıb yalvaran sevgisini də,
Vüsala tamarzı qoyar siyasət.

Sanma ki, ümmanda əl-qol atanda,
Neçə istəyinə birdən çatanda,
İnci xəzinəsi üstə yatanda,
Daha bəsdi deyib doyar siyasət.

Yox! Bacarsa udar ulusları da,
Arxalıları da, yalqızları da...
Göyün yaxasından ulduzları da
Uzun əllərilə soyar siyasət.

Sərrast nişan alıb daş qələsini,
Toplar tuşlayanda öz lüləsini,
Odlu silahının son gülləsini
Soyuq gicgahına dayar siyasət.

***1978.***

## DEYİL

Sevdiyi peşəni duymasa hərgah,
Şirin yuxusuna qıymasa hərgah,
Bu yolda ömrünü qoymasa hərgah,
Həvəskar mən deyən həvəskar deyil.

Əsas dərs həyatdır dərslər içində,
Yaşayan, yaradan kəslər içində –
Səsi seçilməsə səslər içində,
Sənətkar mən deyən sənətkar deyil.

Duyan ürəklərə yatmasa səsi,
Sevincə, kədərə batmasa səsi,
İllərdən-illərə çatmasa səsi,
Bəstəkar mən deyən bəstəkar deyil.

Təzə, ülvi, dərin söz həvəsilə,
Yanaşı durmasa dağ zirvəsilə,
Könül isitməsə od nəfəsilə,
Nəğməkar mən deyən nəğməkar deyil.

Qədim muzeylərdə söhbət açmasa,
Hələ də qapalı niyyət açmasa,
Dünəndən sabaha hikmət açmasa,
Yadigar mən deyən yadigar deyil.

Xeyirxah yaranmış anamız torpaq,
O nə yaxın bilir, nə də ki, uzaq,
Tək öz uğuruyla sevinsə ancaq,
İftixar mən deyən iftixar deyil.

Ad, şöhrət, dəbdəbə, mükafat, nəmər,
Ünvanına axsa istəyi qədər,
Güləndə ürəkdən gülməsə əgər,
Bəxtiyar mən deyən bəxtiyar deyil.

Könül atəşilə yazsa andını,
Ömrün üfüqündən assa andını,
Yolun yarısında pozsa andını,
Etibar mən deyən etibar deyil.



Sevib-sevilənə timsal olmasa,
Çılğın gözəlliyə kamal olmasa,
Gəncliyin döşündə medal olmasa,
İxtiyar mən deyən ixtiyar deyil.

İnsan yaya-yaya gül nəfəsini,
Bağa döndərəndə öz həvəsini,
Nə gülünü dərsə, nə meyvəsini,
İqtidar mən deyən iqtidar deyil.

Ətirli qoynuna girməsə bir kəs,
Füsunkar hüsnünü görməsə bir kəs,
Əlvan güllərindən dərməsə bir kəs,
Laləzar mən deyən laləzar deyil.

İnsan körpü salsa nə qədər çaya,
Özü həsrət qalsa bir qurtum suya,
Cilovlasa seli, yarsa da qaya,
Peşəkar mən deyən peşəkar deyil.

Uzanan yollarda yara dönməsə,
Nisgilli gözlərdə tora dönməsə,
Dalğalı saçlarda qara dönməsə,
İntizar mən deyən intizar deyil.

Haqlını haqsızdan seçməsə əgər,
Uğrunda od-alov içməsə əgər,
Öz haqqından belə keçməsə əgər,
Havadar mən deyən havadar deyil.

Kimdir öz dərdini ana bilməyən,
Ya dost kədərini qana bilməyən,
Dünyanın halına yana bilməyən
Fədakar mən deyən fədakar deyil.

Yanğın söndürməsə dodaqlarıyla,
Qaya qoparmasa dırnaqlarıyla,
Bir cığır açmasa ayaqlarıyla,
İnadkar mən deyən inadkar deyil.

Darda qalanlara qəhmər deyilsə,
Təpədən dırnağa hünər deyilsə,
Ölümə də hazır əsgər deyilsə,
Xilaskar mən deyən xilaskar deyil.

*1978.*

## TƏRƏDDÜD-QƏTİYYƏT

Tərəddüd niyyət ilə
Mənzilin arasında,
Tufanlı dəniz ilə
Sahilin arasında,
Öz yolunu itirən
Avara dalğa olur.
İnsanın ayağına
Dolaşan halqa olur.
Bəzən səsdə titrəyir,
Bəzən gözdə görünür...
Bir papağın altında
Neçə üzdə görünür.
Dünyada qətiyyətin
Dili bir, sözü birdir.
Andı bir, eşqi birdir,
Yolu bir, üzü birdir.
Qətiyyət gözlərini
Yummur sərhədçi kimi.
O, məğrur insanlara
Yaxın bələdçi kimi



Taleyin taleyidir,
Təməlin təməlidir,
Körpünün körpüsüdür,
Məşəlin məşəlidir.
Ünvanın ünvanıdır,
Cürətin cürətidir,
Dözümün dözümüdür,
Qeyrətin qeyrətidir.
İlqarın ilqarıdır,
Muradın muradıdır,
İnamın inamıdır,
Qanadın qanadıdır.
Vüqarın vüqarıdır,
Gümrahın gümrahıdır,
Əməlin əməlidir,
Sabahın sabahıdır.
Uğurun uğurudur,
Həyatın həyatıdır,
İlhamın ilhamıdır,
Büsatın büsatıdır...
Qətiyyət "Zəfər!" – deyə
Gedər yıxıla-qalxa,
Yollarda tərəddüdlə
Döyüşər əlbəyaxa...
Qələbədə başına
Bayram çələngi taxar,
Çevrilib iftixarla
Keçdiyi yola baxar.
Döyüşdə məğlub olsa,
Qara matəm saxlamaz!
Düşünər ki, özləri
Yıxılanlar ağlamaz.

Bilər ki, basılsa da
Fəlakətin döşüylə,
Yenə də qalib gəlib
Tərəddüdə işilə...

*1977.*

## MƏHƏBBƏT-NİFRƏT

Məhəbbət-nifrət! Nədir?
Təzadlı əsər kimi!
Yaxınlıqla uzaqlıq,
Şəkərlə zəhər kimi...
Nə minnət, nə qadağan,
Nə günahdır məhəbbət.
Yox! Fədai məsləkli
Xeyirxahdır məhəbbət!..
Məhəbbət nə yaxşıdır
Susanda, kövrələndə!
Məhəbbət nə yamandır
Nifrətə çevriləndə!..
Nifrətin yağışında
Nə gül bitir, nə də ot...
Baxışından, dilindən,
Nəfəsindən axır od...
Sanma ki, rəqibinə
Minnətçi göndərir o.
Öz canlı ürəyini
Səngərə döndərir o!
Döyüşdə basılsa da,
Nə əyilir, nə qaçır.
Ürəkdə lülələnib,
Gözlərdən atəş açır...



İki duyğu dolaşır
İnsanların qəlbində;
Məhəbbət dağ başında,
Nifrət dərə dibində...
Düzü mat qoyur məni
Ürəyin məharəti.
Həm nifrəti yaşadır,
Həm də ki, məhəbbəti!
Yox! Yox! İnsan insana
Dünyada zamin olcun!
Ürəkdə nifrət deyil,
Məhəbbət sakin olsun!
Məhəbbət dodağında
Sözləri dürləşdirir.
Dəyanət yollarını
Ovcunda birləşdirir.
Nifrət səmimiyyəti
Parçalayır, dağıdır.
Yox! Təlatümə gələn
Sellərində axıdır...
Məhəbbətin gizlisi
Aşkarından şirindir.
Nifrətin örtülüsü
Açığından dərindir!
Məhəbbət də, nifrət də
Üzdə açıq yaxşıdır.
Bəli! Gizli nifrətdən
Aşkar acıq yaxşıdır.
Sanma insanlar təkcə
Təbiət möhtacıdır!
Həm də bahar nəfəsli
Məhəbbət möhtacıdır!

Dünyanın nə dincliyi,
Nə də ki, yuxusu var.
Nifrətin alovunda
Kül olmaq qorxusu var!
Yox! Yox! Haraya gəlsin
İnsanlar vicdanıyla!
Nifrət alovu sönsün
Məhəbbət leysanıyla!..

***1977.***

## QONŞULAR

*"Yaxın qonşu*
*uzaq qohumdan əfzəldir"*
***Atalar sözü.***

Bir zirvə fəth etsəm bu həyatda mən,
Sanma həsəd ilə baxar qonşular.
Yox! Zəfər qazansam hər muradda mən,
Əlimi fəxr ilə sıxar qonşular.

Sevinər fərəhli ürəklər kimi,
Gülər təbəssümlü bəbəklər kimi,
Öz məhəbbətini çiçəklər kimi
Nəğməli sinəmə taxar qonşular.

Doğma binamızda axşam-səhər mən,
Tanış qapıları döysəm əgər mən,
Görmərəm nə acıq, nə də kədər mən,
Qarşıma gülüşlə çıxar qonşular.

Nə adından umar, nə də yaşından,
Min məna oxunar çatıq qaşından...
Yanına gedəndə, süfrə başından
Hörmətlə ayağa qalxar qonşular.



Qardaşdan yaxındır, bacıdan qabaq,
Evdə xəstələnsə kiçik bir uşaq,
Xəyalında şəfqət, könlündə sazaq,
Çalışar, düşünər, qorxar qonşular.

Bəli! Dar günümdə köməyə qalxar,
Mən yan desəm yanar, ax desəm axar,
İşini nə məğrur başıma qaxar,
Nə dalğın gözümə soxar qonşular.

Düşünsəm, anlayar hissimi mənim,
Kükrəsəm, soyudar hirsimi mənim,
Dostdan tez eşidər səsimi mənim,
Nisgili yandırar, yaxar qonşular.

Şair ürəyimdə qubarım olsa,
Səyyar xəyalımda baharım olsa,
Ya yasım, ya da ki, mağarım olsa,
Evimə dəstəylə axar qonşular...

***1970.***

## PIÇILTI

Dalğa dəyməsə də gözə dənizdə,
Sahili dəmadəm döyər pıçıltı.
Neçə yığıncaqda, neçə məclisdə
İnsan qulağına dəyər pıçıltı.

Bir həzinlik yaşar ixtiyarında,
Adamı saxlayar intizarında...
Hər tərəddüdün də, etibarın da
Səbəbkarı deyil məgər pıçıltı?

Bəzən dağ axtarar çiçək dolusu,
Bayatı diləyər tütək dolusu...
Məqamı gələndə, ürək dolusu
Demədiyi sözü deyər pıçıltı...

Bəzən mızıldayar güman içində,
Nəfəsi təngiyər həycan içində,
Özü uydurduğu yalan içində
Doğruluq paltarı geyər pıçıltı.

İnsanlar! Ayırın siz misi zərdən,
İpəyi kətandan, şəbnəmi tərdən,
Doğrunu yalandan, xeyiri şərdən,
Xəlvətdə düzü də əyər pıçıltı.

Beyin işıqlanar, könül açılar,
Meyvə şirələnər, sünbül açılar,
Min-min düyümlənmiş müşkül açılar,
Düzü bərkdən desə əgər pıçıltı.

*1978.*

## KEÇİR

Yer altdakı sular yoluna varıb,
Sanma hər cığırdan, hər izdən keçir.
Döşüylə qranit qayalar yarıb,
Sinəsi incili kəhrizdən keçir.

Odlu buludların al karvanları
Səf-səf naxışlayır asimanları...
Qəlbin dalğa-dalğa həyəcanları
Günəşli, yağışlı bənizdən keçir.

Bir insan müşkülə düşsə, doğrusu,
Könlünü talasa vicdan oğrusu,
Təkcə öz canında qalmır ağrısı,
Min dostdan, yaxından, əzizdən keçir.

Dünya səfərinə çıxan xəyalım,
Zirvədən-zirvəyə qalxan xəyalım,
Gözəl şəhərlərə baxan xəyalım
Uçub əvvəl-axır Təbrizdən keçir.

*1977.*



## DÜNYA

Ey ana təbiət! Dinc keşiyində
Sayıq dayandığın qalan dünyadır.
Sənin ilk beşiyin, son beşiyin də
Öz günəş ürəkli balan dünyadır.

Həyatı sevsə də əzəldən insan,
Min dastan desə də gözəldən insan,
Qarğıdan ilk tütək düzəldən insan,
İnsanlıq himnini çalan dünyadır.

Bəzən sakitləşən, bəzən gurlayan,
Bəzən sahmanlayan, bəzən korlayan,
Hansı baxışdasa par-par parlayan,
Hansı baxışdasa solan dünyadır.

Nə qədər bəzənsə muzeylər kimi,
Könül isitməsə güneylər kimi,
Yanğı söndürməsə quzeylər kimi,
Həqiqət olsa da yalan dünyadır.

İnsanın yaxşı-pis niyyətini də,
Hardasa xilaskar şəfqətini də,
Hardasa qəsbkar nifrətini də,
Duyub xəyallara dalan dünyadır!

Mehriban qoynunda qırğın düşəndə,
Odlu ocaqlara çovğun düşəndə,
Qarlı zirvələrə yanğın düşəndə,
Yaralanan torpaq, talan dünyadır!

Mən şəhər uçurub, şəhər qaldırıb,
Min ülkər endirib, ülkər qaldırıb,
Nəhəng pərdəsini səhər qaldırıb,
Axşam yer üzünə salan dünyadır.

O nadir tamaşa, şah mənzərədir,
Meyli nə atəşə, nə səngərədir...
Hüsnü özü boyda bir pəncərədir,
Baxıb-gedən insan, qalan dünyadır.

İnsan nə asılı, nə borclu qalmaz,
Fəqət kim deyir ki, lütfkar olmaz?
Göndərdiyi payı geriyə almaz,
Verdiyi töhfəni alan dünyadır.

Həm günəş, həm də ay yerində qalır,
Neçə-neçə sirri dərində qalır,
Min aləm bir ulduz sirrində qalır,
Aşkarda boşalıb-dolan dünyadır.

Yerlər də, göylər də naxış-naxışdır,
Kainat sərgidir, ömür baxışdır!
Cəsarət hakimdir, zaman yarışdır,
Axırda müzəffər olan dünyadır!

***1979.***

## SÜD-ATƏŞ

İki yelini var göyün haçandır...
Bəli! Biri aydır, biri də günəş!
Yer daş əllərilə neçə zamandır
Birindən süd sağır, birindən atəş!

Fəqət mavi göyün döşündə əgər
Gecə ay yanmasa, gündüzsə günəş,
Yerin qapısını fəlakət döyər,
Bəşər nə süd tapar, nə də ki, atəş!



Yox! Yox! Qatar-qatar keçən fəsillər
Nə aysız dolansın, nə də günəşsiz.
Dünyaya növbəylə gələn nəsillər
Nə südsüz yaşasın, nə də atəşsiz!

***1980.***

## HƏYAT

Həyat! Mərd ucalır zəmanətinlə,
Namərd cəzalanır ədalətinlə...
Deyirəm təzadlı təbiətinlə
Sən sakit Arazlı, dəli Kürlüsən!
Sən nə sirlisən?

Bir tarda sən neçə havalı simsən,
Sən gülən sevincsən, ağlayan qəmsən,
Sən həm mərhəmətli, həm lütfü kəmsən,
Sən rəhmi xeyirli, hirsi şərlisən,
Sən nə sirlisən?

Arabir vüsallı sözə dönürsən,
Arabir hicranlı gözə dönürsən,
Arabir karvanlı düzə dönürsən,
Sən ağca mayalı, qara nərlisən,
Sən nə sirlisən?

Nəsən bu dünyada? Nəhəng bir kitab!
Sabaha pəncərə, insana xitab...
Gözəllik himnidir çaldığın rübab,
Sən ürkək marallı, məğrur şirlisən,
Sən nə sirlisən?

Doğmadan doğmadır nəfəsin, həyat,
Daim aşıb-daşır həvəsin, həyat,
Aləmdə yoxsa da əvəzin, həyat,
Sən adi çınqıllı, nadir dürlüsən,
Sən nə sirlisən?

Səni oxumasa düz yolda bəşər,
Başı dolaylarda daşlara dəyər...
Tamaşana duran görmürmü məgər
Sən ucuz dəmirli, baha zərlisən,
Sən nə sirlisən?

Ömürdə nəqşəni çəkib qol kimi,
Sən ya uzadırsan sonsuz yol kimi,
Ya da doğrayırsan yaşıl kol kimi,
Sən isti nəfəsli, soyuq tərlisən,
Sən nə sirlisən?

Gizlədən də sənsən, bildirən də sən,
Yaşadan da sənsən, öldürən də sən,
Saxlayan da sənsən, sildirən də sən,
Sən yumşaq fırçalı, sərt şeirlisən,
Sən nə sirlisən?

***1979.***

## TORPAQ

Torpaq ana dünyamıza gələn insana
Güldən təmiz həyat verir canlı təməltək.
Diriliyi qaytarmırsa ölən insana,
Ayıbını, nöqsanını örtür xəzəltək...

***1981.***





# Yurdum-anam



## YURDUM – ANAM

Sən qışsan qışam, sən yazsan yazam,
Sən mehsən mehəm, sən sazsan sazam,
Sən notsan notam, sən telsən teləm,
Sən bəmsən bəməm, sən zilsən ziləm,
Sən sədsən səddəm, sən selsən seləm,
Sən xarsan xaram, sən gülsən güləm,
Sən çənsən çənəm, sən nursan nuram,
Sən şehsən şehəm, sən qorsan qoram,
Sən qəlbsən qəlbəm, sən gözsən gözəm,
Sən ruhsan ruham, sən sözsən sözəm,
Sən susan suyam, sən odsan odam,
Sən dostsan dostam, sən yadsan yadam,
Sən lalsan lalam, sən dilsən diləm,
Sən tərsən tərəm, sən yelsən yeləm,
Sən süstsən süstəm, sən şaxsan şaxam,
Sən düzsən düzəm, sən dağsan dağam,
Sən hədsən həddəm, sən yolsan yolam,
Sən duzsan duzam, sən balsan balam,
Sən gəncsən gəncəm, sən pirsən pirəm,
Sən cütsən cütəm, sən birsən birəm,
Sən azsan azam, sən çoxsan çoxam,
Sən varsan varam, sən yoxsan yoxam,
Sən ilksən ilkəm, sən sonsan sonam,
Ey mənim yurdum, ey mənim anam!

***1978.***

## ÜRƏYİM

Yaylaqlı-qışlaqlı adam görürsən,
Mənim dağ ürəyim, aran ürəyim!
Dünya böyüksə də tamam görürsən,
Vüsalı Vətəndən soran ürəyim!



Sən yanan ocaqsan, sanma kösövsən,
Kinim itilənən canlı bülövsən...
Deyirsən bütövəm, hanı bütövsən?
O tayda qalıbdır paran, ürəyim!

Ulduzlar odluydu, buludlar sərin,
İnsanlar başlıydı, sirrlər dərin...
İtibdir sərhəddi göy ilə yerin,
Sənin qovuşmadı aran, ürəyim!

Yağı qəzəbini atəşə qatdı,
Dostunu vuranda o sənə atdı...
Qaranlıq gecənin rənginə batdı
Yaxana taxdığın qaran, ürəyim!

Hələ də yarandan sarıq düşməyir,
Yazıq o adamdır ayıq düşməyir,
Bu gözdən o gözə işıq düşməyir,
Yalnız özündədir çaran, ürəyim!

Havanı soyutsa yağış, qar, külək,
Donmaz nə məhəbbət, nə də ki, dilək!
Odlu nəfəsində qızınsın gərək
Fırtına, qasırğa, boran, ürəyim!

Səadətin yolu könüldən keçir,
Zirvəyə çatmağa özüldən keçir.
Sən döyüş! Görsünlər müşküldən keçir,
Ağır zəncirləri qıran ürəyim!

Bütün nisgillərin tökülə bəlkə,
Dan yeri qoynunda sökülə bəlkə...
Yeni sətirlərlə tikilə bəlkə
Ağrılı-acılı yaran, ürəyim!

***1978.***

## İSTƏRƏM

Bu gecə qapımı döymə, küləyim,
Bir səssiz-səmirsiz otaq istərəm.
Dolub-boşaldıqca sözlü ürəyim
Bir qələm, bir də ki, varaq istərəm.

Söykənib nənəmin qollarına mən,
Qalxdım Savalanın yallarına mən.
Taleyin dolaşıq yollarına mən
Yaşıl işıq salan çıraq istərəm.

Vətən nəğməkarı əsgər say məni,
Yandırıb-yaxsa da odlu yay məni,
İsitməz nə günəş, nə də ay məni,
Baba yadigarı ocaq istərəm.

Seləm! Yadlar batar dalğamda ancaq,
Ulduzlar doğular yaxamda ancaq,
Tufana döş gərsəm, arxamda ancaq
Savalan dağını dayaq istərəm.

Təzə nəğmə yazıb görüş çağından,
Haçan keçəcəyəm Səhənd dağından?
Mehriban Təbrizin neçə bağından
Sinəmə basmağa yarpaq istərəm!

Mən ki çox yaşadım hicranda, yetər,
Qüsur da, nisgil də, qurban da yetər,
Sınaq da, dözüm də, zaman da yetər,
Gecikmiş vüsaldan soraq istərəm.

***1973.***



## VƏTƏN

Ürəyimə sığıb aran da, dağ da,
Ürəyim vətənin xəritəsidir!
Həmişə füsunkar vətəni haqda
Ürəklər ovlayan söz ötəsidir!

Savalan ağ saçlı məğrur xalqımın
Dünyada müdriklik abidəsidir.
Xəzər üsyan səsli cəsur xalqımın
Alovlu döyüşlər salnaməsidir.

Ağ xalatlı anam Savalanda mən
Təmizlik, igidlik, mərdlik öyrəndim.
Xəzər sahilində yurd salanda mən
Genişlik, coşğunluq, sərtlik öyrəndim.

Yazmaq ixtiyarım özümdə deyil,
Cilovsuz-ovsarsız ilhamımdadır.
Sabahkı taleyim sözümdə deyil,
Günəşli Vətənə inamımdadır.

Dünyada bir günəş olsaydım əgər
Səni al bəzərdim, ey ana torpaq.
Nə zərər, hər səhər dan yerin məgər
Mənim ağ saçımda ağarmır ancaq?

Vətən! Mən yandıqca yanan Təbrizə
Yuxusuz gözlərim mayağa döndü.
Kədərim bir coşub daşan dənizə,
Sevincim bir sısqa bulağa döndü.

Təbrizdə arabir çağlayıb-coşan
Min ümman sinəli təbriz olubdur.
Arabir hiddətlə qaynayıb-daşan
Min səbir kasası ləbriz olubdur.

Od yağıb ətirli nəfəsindən də,
Düşməyib inqilab həvəsindən də,
Ən ləziz sandığı meyvəsindən də
Təbrizə azadlıq ləziz olubdur.

Bürkü də görübdür Təbriz, sazaq da,
Silah da qaldırıb Təbriz, bayraq da,
İstər qələbədə, istər sınaqda
Təbriz elə yenə Təbriz olubdur.

Vətən! Özün uçur bir qartal kimi
Təbrizə, Urmuya, Səraba məni.
Səninçin yanıram bir tonqal kimi,
Sərin Acıçayda sər aba məni...

***1981.***

## DOĞMALIQ

Vətən! Yaşlı ana! Övladın kimi
İnqilab tarixli yaşına qurban!
Qəzəbdən gərilmiş qanadın kimi
Arası düyünlü qaşına qurban!

Sinəndə nə qədər bala dağı var,
Alovlu səsində həzin ağı var...
Mərd dayan! Qarşında hələ yağı var,
Gözlərində yanan yaşına qurban!



İnsanam! Könlümdə hər nisgilim sən,
Ata təfəkkürüm, ana dilim sən...
Mənim ilk mənzilim, son mənzilim sən,
Doğma torpağına, daşına qurban!

Başından aşsa da dərd övladının,
Acığı soyumaz mərd övladının...
Şəhər övladının, kənd övladının
Döyüşdə qabaran döşünə qurban!

Nəğmə yazanıyam nəvələrinin,
Dizləri yaralı dəvələrinin...
Budaqlarda yanmış meyvələrinin
Elə şirininə, turşuna qurban!

Müdriklik yaraşır ağ birçəyinə,
Özün yol açırsan öz diləyinə...
Sənin qız ismətli hər çiçəyinə,
Həyat təranəli quşuna qurban!

Kim deyir, günlərin keçir sükutda?
Sən ki döyüşürsən... Göstər sübut da!
Ayağın torpaqda, başın buludda,
Ayağına qurban, başına qurban...

***1978.***

## SAVALANIM

*Bu dünyada talan var,*
*Vədə dolu yalan var,*
*Yaxşı ki, həqiqətin*
*Qalası Savalan var!*

Savalan mövzudur neçə əsərə,
Hələ də müqtədir rəssam istəyir.
Köksündə doğacaq azad səhərə
Məhəbbət diləyir, inam istəyir.

Uzaqdan tarixin həzin səsini
Eşidib deyirəm, hardadır Behzad?
Ana Savalanın gözəl əksini
Neçin yaratmamış o böyük ustad?

Bildim! İstəməmiş o məşhur dağı
Göstərsin adicə bir əsər kimi.
İstəmiş kim isə inqilab çağı
Çəksin Savalanı bir səngər kimi.

Mənim Savalanım! Şair ürəyim
Sənin yadigarlıq əksin deyilmi?
Odlu misralardan doğan diləyim
Sənin məğrurlaşan səsin deyilmi?

Duymadım şeirimə çöKübdür haçaq
Sənin başındakı həm günəş, həm qar...
Şairlər sənə də söz yazır, ancaq
Səni məndən yaxşı tanıyanmı var?

Düşmən hücumundan saxlamadınmı
Sinəndə yerləşən kəndimi mənim?
Döyüş tarixinə bağlamadınmı
Keçmişimi mənim, indimi mənim?

Hələ ehtiyatla qoruyur zaman
"Pələngli"yə düşən ləpirlərimi.
Hələ ehtiramla oxuyur çoban
"Qatar qaya"dakı sətirlərimi...

Hələ ürəyimin sirri qalıbdır
Qızları çimdirən "Su qovşağı"nda.
Hələ dodağımın yeri qalıbdır
Dişləri göynədən "Qırxbulağ"ında.



Hələ Mehdixanlı yaylaqlarının
Təmiz havasında nəfəsim durur.
Hələ "Canıyarlı" torpaqlarının
Üstündə yaratmaq həvəsim durur...

Hələ nərildəyən "Qara çay"ında
Parıltısı vardır şəvə saçımın.
Hələ ildırımı çaxan yayında
Şırımı qızarır qəzəb qamçımın...

Səndən ayrılanda döyüşdə qəfil,
Çalışdım sənətdə təzə yol açım.
Bəlkə qara bəxtin hökmüylə deyil,
Ağ günün eşqiylə ağarsın saçım...

Haçan ağ saçıma nəzər salanda
Sanma ya qar yağıb, ya da ki noğul.
Yox! Yox! Mənim anam! Yaşa dolanda
Ağ saçlı anaya bənzəyər oğul...

İstiqbal möhürlü ləpirlərimlə
Xəzər sahilində saldığım cığır,
İnqilab dalğalı sətirlərimlə
Uzanıb quşqonmaz zirvəyə çıxır.

İlhamın alovlu nəfəsilə mən
Dağlara qalxıram, səni görürəm.
Zirvəyə ucalmaq həvəsiylə mən
Zirvəyə baxıram, səni görürəm.

Kimlə şəffaf sudan, əlvan çiçəkdən
Söhbət eləyirəm, səni görürəm.
Hansı başı qarlı dağa ürəkdən
Günəş diləyirəm, səni görürəm.

Sənin xəyalınla girib yatağa
Yuxuya gedirəm, səni görürəm.
Ata-ana kəndim Çanaxbulağa
Səyahət edirəm, səni görürəm.

Səninlə bərabər, ay böyük anam,
Qaynar gəncliyimi səndə görürəm.
Həm mübarizəmi, ay müdrik anam,
Həm də dincliyimi səndə görürəm.

Sevincdən yuxudan ayılıram mən,
Fəqət görməyirəm bir əsər səndən.
Sanıram təzədən ayrılıram mən,
Uzağa düşürəm bir səhər səndən.

Doymuram kecikmiş vüsal çağından,
Gözümü yumuram uzanan yerdə.
Yatmaq istəyirəm, bəlkə yaxından
Səni bir də görəm yuxuda, bir də...

Yox! Yuxular azır çəndə-dumanda,
Görmək istəyirəm səni həyatda.
Sən də taleyindən vüsal umanda
Görmək istərdinmi məni həyatda?

***1977.***

## HERAN

Vətən dağlarına yolun düşəndə
Heranın başına qalxmısanmı sən?
Yadına qaragöz oğlun düşəndə
Qaragöz laləyə baxmısanmı sən?



Heran təbiətə bir pəncərədir
Ərdəbil-Astara yolunun üstdə.
Ana nəvazişli bir mənzərədir,
Gözəllik bəsləyir qolunun üstə...

Cığır ehtiyatla gedir Herana,
Mahir dağ keçisi sürüşür orda.
Dörd qardaş fəsilsə dözmür hicrana,
İstədiyi zaman görüşür orda.

Mən yazda keçəndə Heran yolundan,
Dumana qarışıb duman olmuşam.
Günəş boylananda meşə dalından
Heranın hüsnünə heyran olmuşam.

Sanmışam dağılan ağ duman deyil,
O dərədən çıxıb, dağdan aşıbdır.
Gördüyüm nə kağız, nə kətan deyil,
Kiminsə ocaqda südü daşıbdır.

Üfüqə söykənmiş təpələr üstə
Alyanaq lalələr dalğalanıbdır.
Sanmışam yanğın var ləpələr üstdə
Alovun dilləri halqalanıbdır...

Dərədə axan çay sahillərinə
Sərin nəfəsilə mahnı deyibdir.
Göyün salxım-salxım qəndillərinə
Tənəkdə ağaran şanı deyibdir.

Birdən hərarətli ulduzlar qədər
Üstümə qar yağıb, çovğun gəlibdir.
Mənə gədikdəki bir günlük səfər
Bir aylıq yoldan da uzun gəlibdir.

Herana dəyəndə qışın nəfəsi
Zirvəsi daha da məğrurlaşıbdır.
Karvanlarla dolu buzlu sinəsi
Ayın işığında büllurlaşıbdır.

Sonra ay gizlənib tufan içində,
Dərənin dibində güman itibdir.
Göz-gözü görməyib boran içində,
Sarbanla qarışıq karvan itibdir.

Yorğun yolçuları titrədib Heran,
Mən bir çayxanada mehman olmuşam.
Nə qədər fəlakət törədib Heran,
Heyran olduğuma peşman olmuşam.

İgid fədailər Heranın üstdən
Tüfənglə, qatarla, mahnıyla keçib.
Dərənin, təpənin, yarğanın üstdən
Vətənin şöhrəti-şanıyla keçib.

Azadlıq, iradə, məhəbbət, inam
Təntənə gətirib ürəklərə də!
Musiqili səhər, şeirli axşam
Herandan yayılıb ətəklərə də...

Oxucum! Dünənki ayaq izləri
Bu gün də Heranın naxışlarıdır.
Dalğın lalələrin qara gözləri
Mərd fədailərin baxışlarıdır...

***1978.***



## ŞİBLİ

Dağların qoynunda gədikdir Şibli,
Təbriz-Sərab yolu birləşir burda.
Sanma öz boynundan incikdir Şibli,
Min dəvə karvanı yerləşir burda.

Kirpik kirpik üstə qoymayan gözlər
Şibliyə nisgillə ətəkdən baxar.
Qalxanda, Təbrizdən doymayan gözlər
Şəhərin hüsnünə yüksəkdən baxar.

Şiblinin başından gözəl diyarı
Görər təbiətin aynası kimi.
Eynal-Zeynaldakı nadir baharı
Sevər şeiriyyətin mənası kimi.

Az qala günəşdən gözü qamaşar,
Əlini-üzünü yuyar bulaqda.
Bir qədər su səpər quru lavaşa,
Kiçik süfrə açar yumşaq otlaqda.

Hardasa çalınan çoban tütəyi
Döyüş mahnısını yada gətirər.
Yoxsul süfrədəki pendir-çörəyi
Dağlar havasıyla dada gətirər.

Bəlkə həmin adam böyük həsrətlə
Azad günlərini anar Təbrizin.
Dərin məbəbbətlə, kövrək şəfqətlə
Dərdinə ürəkdən yanar Təbrizin.

Şirin duyğularla dolu sinəsi
Gah qalxar, gah enər körüklər təki.
Udmaq istəsə də yolu sinəsi,
Cığırlar uzanar hörüklər təki.

Zənn etmə Şiblinin başından keçən
Təkcə karvanların həyat yoludur.
Yox, yox! O gədiyin qaşından keçən
Dumanlı Təbrizin nicat yoludur.

Təbriz, ana Təbriz darda qalanda
Bu yolla igidlər gəlmiş haraya.
Təbrizdə özgələr məskən salanda
Şəhəri doğmalar almış araya.

Astara, Ərdəbil, Miyana, Sərab
– İnqilabdır! – deyə axmış Təbrizə.
Nə qədər sahibkar, nə qədər ərbab
Titrəyə-titrəyə baxmış Təbrizə.

Şiblinin dikini qalxdığı dəmdə
Asta yerisə də tövşüyür adam.
Hələ günəş göydə şaxdığı dəmdə
İsti paltarda da üşüyür adam.

Ancaq fədailər hücum zamanı
Pilləli yoxuşda tövşüməmişdir.
İnam isitmişdir burda insanı,
Şaxtaya düşsə də üşüməmişdir.

Sanma dediklərim bir əfsanədir,
Demə nə sorağı, nə nişanı var.
Hər nazik cığır da bir təranədir,
Hər kiçik daşın da öz dastanı var!



Nədir o qayalar? Dilsiz şahidlər!
Şirin xatirəylə doludur o yol.
İnqilab bayraqlı mərd mücahidlər,
Dönməz fədailər yoludur o yol...

***1978.***

## URMİYƏ

Füsunkar Urmiyə! Yaşıl Təbrizin
Həm yaşıl, həm də ki, kiçik qardaşı!
Saçı gümüşlənən qızıl Təbrizin
İgidlik, cəsurluq, mərdlik qardaşı!

Bəli! İkinciydin ana Vətəndə
Böyük övladların arasında sən!
Fəqət cəbhələrdə döyüş gedəndə
Durdun birincilər sırasında sən!

Sən də meyvə dolu budaqlarınla
Bağlar ünvanısan Azərbaycanın!
Sən də yarpaq-yarpaq varaqlarınla
Yaşıl dastanısan Azərbaycanın!

O yaşıl dastanın varaqlarında
Nadir gözəllikdən söz açır qələm.
Nurani Zərdüştün torpaqlarında
Bu gündən sabaha nur saçır qələm.

Sənin torpağını zinətləndirən
Dağ çiçəyin də var, bağ gülün də var.
Sənin ünvanını vüsətləndirən
Şirin üzümün də, şor gölün də var.

Halal bərəkətli odlar yurdunun
Müqəddəs suyundan doğulub onlar.
Qoca Urməvinin qədim udunun
Odlu nəfəsilə yoğrulub onlar.

O ud ağlayanda, göz yaşı axıb
Gölün sularında ağ duza döndü!
Güləndə şəfəqli nəğməsi qalxıb
Salxımlı bağlarda ulduza döndü!

O göl ulduz-ulduz ağ duzlarıyla
Ürəyi yandıran nəməkdan oldu.
Bağlar əlvan-əlvan ulduzlarıyla
Arılı-pətəkli gülüstan oldu.

Dünən Avropadan gələn səyyahlar
Sənə əsrlərin şahidi dedi.
Yaşıllıq qədrini bilən səyyahlar
Sənə Qoca Şərqin Madridi dedi.

Büllur salxımların çıraq-çıraqdır,
Yanır ürəyinin sözləri kimi.
İri gilələrin şəffaf, parlaqdır
Gözəl qızlarının gözləri kimi.

Gülgün şərabından qələm çalmağa
Ətrindən məst olan ilham gərəkdir.
Qızıl şöləsini şeirə salmağa
Əli qızıl camlı Xəyyam gərəkdir.

Yox! Xəyyam nə gərək! Öz torpağında
Sən hikmətlə dolu sinə kimisən.
Mənim sənətimin əlvan bağında
Sən qızıl salxımlı meyvə kimisən.

***1978.***



## MEŞKİN

Hələlik yoxsa da əsərlərimdə
Təbriz əzəməti, Səhənd zirvəsi,
Sənət incisidir nəzərlərimdə
Urmu təravəti, Araz nəfəsi.

Bəs Meşkin? O nədir? Bağlar şəhəri!
Yoxuşlar dağlara qalxan pillələr...
Gecə parıltıyla yanan ülkəri
Büllur salxımlarda iri gilələr!

Meşkinin boynunda meyvə düzümü
Uzun olmasa da Marağa kimi,
Şehdə xınalanmış kişmiş üzümü
Ağızda şaqqıldar qovurğa kimi.

Yox! O məğrur başı bəlalı yurddu,
İnsandan gizlətdi fil dözümünü.
Meşkin Savalanın qarını uddu,
Bəylərsə Meşkinin ağ üzümünü.

Düyünlər qabardı qaşının üstdə
Qalxdı Ərdəbilin kiçik bacısı.
Haqqını istədi! Başının üstdə
Dindi İsabəyin simli qamçısı.

Fəqət Savalanın döyüş papağı
Ağardı Babəkin çalması kimi.
Fədai qızların solğun yanağı
Qızardı Unarın alması kimi.

Bəzən sakitləşən, bəzən çalxanan
Ərdəbildə bitdi döyüşün sonu.
Sabaha apardı ana Savalan
Bir çiynində bunu, birində onu...

Döyüş təranəmin misralarını
Səngərlərdə yazdım mən də qələmlə!
Kəndli dostlarımın yaralarını
Sağaltmaq istədim sözlü məlhəmlə.

Məhəbbət! O təşnə dodağı neyli,
Çağladı səadət eşqində daha.
Ağalar nə xanlı, nə də ki bəyli
Daldalana bildi Meşkində daha...

Yox! Gecə ağartdı Tehran yolunu,
Ağa ağasına pənah apardı.
Cibində bir dünya millət pulunu,
Boynunda dağ boyda günah apardı.

Yolları yollara qatdı günlər də
Döyüşən ordunun düzümü təki.
Şəkərə-noğula batdı günlər də
Larının kəhrəba üzümü təki.

Yatmış qayaları oyadan cəngi
Neçə nəğməkarın sözünə çökdü...
Nuğdunun güleyşə narının rəngi
Məsum körpələrin üzünə çökdü.

İndisə o yurdda tarimar kimi
Çaylar şaxəlidir, yollar haçalı.
Yorğun təbiətin sənətkar kimi
Nizam yaratmağa hanı macalı?



Döyüş davam edir...
Öz dövranından
Yazan qələmim də söz düzür səfə.
Deyir istibdadın daş zindanından
Meşkin həmişəlik çıxar bu dəfə...

Təzəcə doğulmuş nəvələrilə
Bahar günəşinə bürünər Meşkin.
Öz dadlı, ətirli meyvələrilə
Dünya sərgisində görünər Meşkin!

***1977.***

## TƏBRİZ

Bilmirəm şəfəqli təbiət niyə
Dumandan toxuyur şalını, Təbriz.
Günəş ki, səhərlər qalxanda göyə
Sənə çevirməyir dalını, Təbriz!

İndi qələm ilə vuruşuram mən,
Zamanın özüylə yarışıram mən,
Səhərin mehindən soruşuram mən
Hələ də pərişan halını, Təbriz!

Nə qədər yazsam da səndən, doymuram,
Nisgilli qələmi yerə qoymuram,
Qoyanda, könlümə yaxın duymuram
Dərəni, düzünü, yalını, Təbriz!

Demə ki, taleyim nə yaman olub,
Büsatım ya xəyal, ya güman olub,
Ələsgər demişkən, bir zaman olub
Qaymağa qatmışam balını, Təbriz!

Sanma ki, uğrunda döyüşmərəm mən,
Ustad şairlərlə deyişmərəm mən,
Min zəngin saraya dəyişmərəm mən
Sənin bir naxışlı xalını, Təbriz!

Vüqarlı durursan dağlar içində,
Barı qışa qalan bağlar içində...
Heyif ki, ürəklər ağlar içində
Yadlar dağıdanda malını, Təbriz!

Dünyada nə qədər alovlar gördün,
İztirab da çəkdin, dövran da sürdün...
Qışda yaz ətirli güllərlə hördün
Sərdarın atının yalını, Təbriz!

Yüklənsən də tay-tay qayğılarla sən,
Döş-döşə gələndə yağılarla sən,
Haraylar, cəngilər, ağılarla sən
Tökdün atlarının nalını, Təbriz!

Sinəni səngərli yurda döndərdin,
Harda düşmən gördün, orda döndərdin,
Yanar nəfəsinlə oda döndərdin
Sən qarı, yağışı, dolunu, Təbriz!

Mən də səngərlərdə qışlayacağam,
Zülmün qapısını daşlayacağam,
Yaralı sinəndən başlayacağam
Qəti azadlığın yolunu, Təbriz!

***1978.***



## TƏBRİZ AXŞAMI

Qızıl ulduzlarla göydə yazılan
Müqəddəs amaldır Təbriz axşamı!
Bəzən rövnəqlənən, bəzən pozulan
Möhtəşəm cəlaldır Təbriz axşamı!

Göy başı üstündə varaqlansa da,
Ulduzlar dəstəylə pardaqlansa da,
Kim öz ülkəriylə maraqlansa da,
Günəşsiz iqbaldır Təbriz axşamı!

Yox! Qığılcımları göyə səpilən,
Tara, kamançaya, neyə səpilən,
Şərbətə, gülaba, meyə səpilən,
Alovlu tonqaldır Təbriz axşamı!

O kimdir oxuyur öz həvəsilə,
Ulduzlar titrəyir zənguləsilə?
Yanan müğənninin od nəfəsilə
İsinmiş qavaldır Təbriz axşamı!

Göyün not dəftəri bükülər indi,
Naxışlı cibləri sökülər indi,
Şabaş ulduz-ulduz tökülər indi,
Nəğməli mahaldır Təbriz axşamı!

İşıq zolaqları düşür yollara,
Enir dərələrə, qalxır yallara...
Qarışır nəğmədə şirin xallara,
İlhamlı xəyaldır Təbriz axşamı!

Meydana, küçəyə, dalana sığmaz,
Yurdçuya, Xalxala, Gilana sığmaz,
Yer kürəsi boyda salona sığmaz,
Ağ dilli royaldır Təbriz axşamı!

Saibin şeirilə naxışlar salan,
Gülüstan bağının ətrilə dolan,
Nəsildən-nəsilə yadigar qalan,
Nəhəng bir dəsmaldır Təbriz axşamı!

Nə rəhmə möhtacdır, nə də sığala,
Xalları oxşayır gümüş medala,
Başını söykəyib Eynal-Zeynala,
Uyumuş maraldır Təbriz axşamı!

Bakının gecəsi bədrlənmiş ay...
Yerdə də, göydə də ulduzları say!
Həsrətdən sınıxmış qızlarına tay –
İncəlmiş hilaldır Təbriz axşamı!

Bəli! Hicran yüklü, vüsal qanadlı,
Əfsanə uçuşlu, real qanadlı,
Təzə-tər nəfəsli, xal-xal qanadlı,
Qocaman qartaldır Təbriz axşamı!

Dünya min suala cavab alsa da,
Musiqi, təranə, rübab alsa da,
Səadət müjdəli kitab alsa da,
Cavabsız sualdır Təbriz axşamı!

***1977.***



## ƏRKİM MƏNİM

Bu bürkülü, bu sazaqlı dünyamızda
Havaları öncə bilən Ərkim mənim!
Bu qayğılı, bu şıltaqlı dünyamızda
Sığnacağım, umacağım, ərkim mənim!

Döyüşlərdə bir inqilab bayrağıtək,
Səngərlərdə bir fədai yanağıtək,
Zirvələrdə bir sərkərdə papağıtək
Güllələrdən deşik-deşik börküm mənim!

Sellər-sular can evimə atdı lağım,
Qərq olanda neçə bağçam, neçə bağım,
Mərd dursa da neçə qayam, neçə dağım,
Cəsarətdə, dəyanətdə təkim mənim!

“Həyat!” – deyə çarpışanlar arasında,
“Günəş!” – deyə alışanlar arasında,
Şan-şöhrətli qəhrəmanlar arasında
Yerim mənim, ölçüm mənim, çəkim mənim!

Döyüşümü, sənətimi, vicdanımı,
Zəfərimi, bayrağımı, nöqsanımı,
Həyat dolu bütün ömür dastanımı
Daş köksündə əks eləyən güzgüm mənim!

Öz eşqimi öz şeirimlə yetirdiyim,
Xəyalında vüsal gülü bitirdiyim,
Sevgilimi zirvəsində itirdiyim
Kövrək, şirin, əziz, nakam sevgim mənim!

Şüarıyla, çağrışıyla, cürətilə,
Vüqarıyla, hünəriylə, qeyrətilə,
Dözümüylə, nisgiliylə, həsrətilə
Bu dünyada qəhrəmanlıq sərgim mənim!

***1977.***

## GÜLÜSTAN BAĞI

Biz ömrün dadını odlu fişənglə
Vətənə azadlıq gələndə duyduq.
Daş heykəli atdıq... Şehli çələnglə
Yerində Sərdara tunc heykəl qoyduq.

Köhnə görkəmindən sən də bezikdin,
Azadlıq bir illik yaşındı sənin.
Sanki bağ deyildin, nəhəng üzükdün,
O heykəl qiymətli qaşındı sənin.

Hər gün işdən sonra nə qədər adam
Tələsik gələrdi doğma gülzara.
Ay Səhəndin üstdə doğanda axşam
Hesabat verərdi şanlı Sərdara.

Sərdar da görərdi axşam çağları
Toplaşan dostların görüşlərini.
Gizlədə bilməzdi eşmə bığları
Qalın dodağının gülüşlərini.

Deyərdim ki, Sədi – böyük sənətkar
Görsəydi hər güllü xiyabanını,
Kim bilir, bəlkə də ölməz nəğməkar
Sənə həsr edərdi "Gülüstan"ını.



Gözəlsən! Baxışın yaz səhəridir,
Çox da nə çayın var, nə də kəhrizin.
"Gülüstan" Sədinin şah əsəridir,
Yeri var desəm ki, sən də Təbrizin!

İndisə insanlar mənim ölkəmdə
Səni tanısa da gülüstan kimi,
Yazın oğurlanıb... Solğun görkəmdə
Gözümə dəyirsən zimistan kimi.

Məni görməyirsən öz sinəndə sən,
Elə zənn etmə ki səndən küsmüşəm.
Yox, şən günlərinlə yaşayıram mən,
Səndən nə inciyib, nə əl üzmüşəm.

Sinəndə gəzməyən tək mən deyiləm,
Mehriban dostlar da uzaq düşübdür.
Mən sabaham indi, dünən deyiləm,
Sanma ki əlimdən bayraq düşübdür.

Nifrət odu yağır dilimdən yenə
Sərdarın yerinə qalxan heykələ.
Zorla dikəldilən özüldən sənə
Qanlı gözləriylə baxan heykələ.

Bil ki o heykəli yıxmağa qadir
Qollarım təzədən boynunda olar.
O heykəl uçular... Zəfərə dair
İzdihamlı mitinq qoynunda olar...

***1977.***

## ŞAH GÖLÜ

De görüm sənə kim Şah gölü dedi,
Sən ellər gölüsən, ellər, Şah gölü!
Sözünü zülümlə dəyişdi nədi,
Laylalı-qoşmalı dillər, Şah gölü!

Yayın gözlərinin qızışan vaxtı
Yelpikli xanımlar sahilə axdı...
Canlı güllərinə heyrətlə baxdı
Süni ləçək açmış "güllər", Şah gölü!

Ağalar sahildə meydən doymadı,
Büllur sularında ləzzət duymadı...
Bir ovuc içməyə məni qoymadı
Döyüşlərdə keçən illər, Şah gölü!

Yanında sazını çaldı bir aşıq,
Tehranı lərzəyə saldı bir aşıq...
Sazıyla min aşıq oldu bir aşıq,
Təlatümə gəldi tellər, Şah gölü!

Sazlar arasında sanki yarışdı,
Dillər deməyəni sazlar danışdı...
Sakit sularına axıb qarışdı
İnqilab dalğalı sellər, Şah gölü!

Səadət diləkli, sevgi sətirli,
Fədai nəfəsli, şair xətirli,
Torpaq bərəkətli, vətən ətirli
Nəğmələr bitirdi çöllər, Şah gölü!



Zülmün bayrağını saldırdı burda,
Azadlıq sürudu* çaldırdı burda,
Bir aşıq heykəli qaldırdı burda
Günəşə uzanan əllər, Şah gölü!

Sanki günəş özü doğdu təpədə,
Üstünə dalğa da gəldi, ləpə də...
Qranit aşıqdan bircə qəlpə də
Qopara bilmədi yellər, Şah gölü!

Gördü milyon-milyon göz vüqarını,
Sənət hünərini, söz vüqarını,
Fəqət öz hüsnünü, öz vüqarını
Səndən oğurladı fellər, Şah gölü!

Gün gələr, əriməz nisgilində o,
Ucalar yenə də sahilində o,
Nəğmələr deyəndə öz dilində o,
Səni alqışlayar göllər, Şah gölü!

***1978.***

## GÖY MƏSCİD

Səhər gün çıxanda bilməzdim ki, mən,
Mavidi, sarıdı, aldı Göy məscid.
Axşam ay doğanda bilməzdim ki, mən,
Bəyazdı, yaşıldı, çaldı Göy məscid.

Elə alovlanıb yandı ki, özü,
Yerdə bir günəşə döndü hər közü...
Dünyada yeddi rəng olsa da, düzü,
Bir gündə min rəngə çaldı Göy məscid.

* himn

Bəli! Öz bakirə naxışlarıyla,
Göyə ulduz-ulduz baxışlarıyla,
Yerə əlvan-əlvan yağışlarıyla
Rəngbərəng işıqlar saldı Göy məscid.

Sanki Acı çayın qıraqlarında,
Anam Azərbaycan torpaqlarında,
Gözəl Təbrizimin yanaqlarında
Nəhəng, əlvan, nadir xaldı Göy məscid.

Bir günsə ayrıldı öz balasıyla,
Çarpışdı taxt-tacın min bəlasıyla,
Bahadır sinəli Ərk qalasıyla
Səngərdə baş-başa qaldı Göy məscid.

Göydə qızıl ocaq çatdı ulduzlar,
Alışdı, parladı, batdı ulduzlar,
Sabah oyanmaqçın yatdı ulduzlar,
Yatmadı, xəyala daldı Göy məscid.

Eşidə bilmədi kəlamlarımı,
İnqilab çağrışlı eyhamlarımı.
Sədaqətlə dolu salamlarımı
Uçan durnalardan aldı Göy məscid.

Gəlmədi təyyarə, tank, top eyninə,
Fədai paltarı geydi əyninə.
Döyüşlərdə Ərklə çiyin-çiyinə
Şahı öz taxtından saldı Göy məscid.

***1979.***





# Şirin xatirələr



## KİMƏ BƏLLİ DEYİL

*İran Xalq Partiyasının*
*60 illiyinə ithaf edirəm.*

Kim deyir saralmış kağızlardadır
Tarixin, xatirən, şöhrətin sənin?
Hələ də dillərdə, ağızlardadır
Məramın, əməlin, söhbətin sənin.

Sənin doğuluşun bir həqiqətdir,
Hər uca şüarın bir ədalətdir,
İnqilab övladı bir səadətdir
Ən böyük, ən gözəl niyyətin sənin.

Sənin ünvanını tanıdı dünya!
Sənə uğur dedi böyük bir düha...
O illər arxada qalmışsa daha,
Kimə bəlli deyil xidmətin sənin?

Xadimlər yetirdin qəhrəman kimi,
Ölməz Pişəvəri, Heydərxan kimi...
Zəkalar parladı kəhkəşan kimi
Ulduz-ulduz yandı hikmətin sənin.

Ərani can verdi soyuq zindanda,
Fəqət sadiq qaldı sənə hər anda.
Ruzbeh mərdlik rəmzi oldu cahanda,
Yenə tükənmədi möhnətin sənin.

Sinən döyüşlərdə meydana döndü,
Sözün dodaqlarda dastana döndü,
Düşmənlə vuruşda ümmana döndü
Acığın, qəzəbin, nifrətin sənin.



Yenə yurdumuzda nəfəsin vardır,
Öz yolun, öz səmtin, öz səsin vardır!
Azadlıq diləkli varisin vardır,
Hədərə getməmiş zəhmətin sənin.

Əməlin bu gün də gərəkdir bizə,
Arxadır, dayaqdır, köməkdir bizə.
Hər addımbaşında örnəkdir bizə
Qürurun, iradən, cürətin sənin...

***1979.***

## İYİRMİ BİR AZƏR

Sən mənim dilimdə, əziz bayramım,
Qəhrəman xalqıma salam kimisən!
Məsləki büllurdan təmiz bayramım,
Sən nağıla dönən bayram kimisən!

Dil yasaq olanda, tale buxovlu,
Sən saçı, saqqalı, qaşı qrovlu,
Döyüş səngərləri odlu-alovlu
Sınaqlardan çıxan adam kimisən!

Ehtiyac yaratdı səni döyüşdə,
İstiqlal bayraqlı yeni döyüşdə...
Bərkidə-bərkidə məni döyüşdə
Uğurlar diləyən atam kimisən!

Yarımçıq günəşdin... işığın hanı?
Min sazlı, avazlı aşığın hanı?
Gözlərin yaşarmış, yaylığın hanı?
Ayı oğurlanmış axşam kimisən.

Yox! Yox! Bir nəğməsən qulaqlarda sən,
Kim deyir, susubsan sazaqlarda sən?
Azadlıq təşnəsi dodaqlarda sən,
Dünənimdən gələn sədam kimisən!

Hardasan? Evimdə qonaq ol mənə,
Təbriz hərarətli ocaq ol mənə,
Qaynar gəncliyimdən soraq ol mənə,
Sən qartal qanadlı ilham kimisən!

İsindir sinəmi məhəbbətinlə,
Şirin xatirəli səadətinlə...
Sən dağlardan ağır əzəmətinlə
Mehriban ülfətli anam kimisən!

Dünya heyran qaldı ustadlığına,
Hər addım başında abadlığına...
Vətənin sabahkı azadlığına
Sən mənim könlümdə inam kimisən!

***1975.***

## VAHİD YOLLU ÜNVANLAR

Vətən! Ey qarşısında
Baş əydiyim mehrabım!
Yazılmış, yazılmamış
Ana dilli kitabım!
Sənin hər varağında
Bir dövrün əksi vardır.
İmza qoyan oğlunun,
Qızının səsi vardır.



Neçə-neçə meydanda
Döyüşəndə millətin,
Təbrizdə Mir Mehdinin,
Ərdəbildə Qüdrətin
Böyük arzular dolu
Kiçik dükanı vardı.
Qapısında sabahın
Aydın ünvanı vardı.
O məhrəm dükanlara
Biz tez-tez yığışardıq.
Bir gələcək ünvana
Hamımız sığışardıq.
Adicə bir dəmirçi,
Bir pinəçi dükanı, –
Bizə həm məktəb idi,
Həm də döyüş meydanı.
Hər döyüşçü çırmayıb
Qılınclaşan qolunu,
Düz sözlü inqilabın
Kələ-kötür yolunu,
Sərkərdə diqqətilə
Nizamlayırdı burda,
Sanki inqilab məşqi
Tamamlayırdı burda.
Kəndlərdən şəhərlərə
Axıb gələn kəndlilər,
Gözləri intizarlı,
Ürəkləri dərdlilər,
Bir məhəbbətlə dolu
Ülfət görərdi burda.
Kəndlərin taleyindən
Xəbər verərdi burda.

Şair qəlbli Mir Mehdi
Qırx beşin baharında,
Bir xəritə asmışdı
Dükanın divarında.
Avropada faşistlər
Şəhər-şəhər qaçırdı.
Mir Mehdi əllərilə
Kiçik bayraq sancırdı
Sovet əsgərlərinin
Aldığı şəhərlərə.
Azadlıq təranəsi
Çaldığı şəhərlərə.
Həyat dəyişən yerdə
İnsan da dəyişirdi.
Ancaq kinli faşistlər
İnadla döyüşürdü.
Bir səhər Mir Mehdinin
Qalın dodağı qaçdı,
Al bayrağı inamla
Berlinin üstə sancdı.
Dedi bilirəm tez-gec
Berlin təslim olacaq.
Bu bayraq Reyxstaqın
Üstdə qanad çalacaq!..
...Sonra bu bayraq altda
Birləşdi o ünvanlar.
Bir qələbə yolunda
Yerləşdi o ünvanlar.
Yanaşı addımladı
Səadət dünyasına.
Şöhrəti miras qaldı
Həqiqət dünyasına...



Fəqət qəddar düşmənin
Qar-çovğunlu nəfəsi,
Hiddətlə söndürəndə
Hər alovlu həvəsi,
Dağıdanda hər isti,
Hər mehriban daxmanı,
Sərnizəylə doğmadan
Ayıranda doğmanı,
Ürəklərdə hürküşən
Gümanlar da ayrıldı.
O köhnə, o mötəbər
Ünvanlar da ayrıldı.
Hardasa intizamla
Yerləşməkçin ayrıldı.
Sabah bir də təzədən
Birləşməkçin ayrıldı.

***1976.***

## FƏDAKAR İNSANLAR

*Qocaman fədailərimizə*

Siz adi insanlar deyilsiniz, yox,
Odlu döyüşlərdən yadigarsınız!
Qəlbiniz genişdir, gözləriniz tox,
Neçəniz ağsaçlı ixtiyarsınız.

Yandınız zamanın şimşəyində siz,
Qarında, buzunda, küləyində siz...
Hələ də Vətənin ürəyində siz
Bir iftixarsınız, bir vüqarsınız.

Dumanlı Təbrizin qarlı qışında,
Nələr demədiniz tonqal başında?
Bəziniz döyüşdü cavan yaşında,
Ellər də gördü ki, vəfadarsınız.

Dardan qurtardınız həqiqəti siz,
Ülviyyət sandınız səadəti siz,
Şeirə döndərdiniz məhəbbəti siz,
Hələ o zamandan fədakarsınız.

"Fədai" nəğməsi tanışdır mənə,
Məğrur səsinizlə oxuyun yenə!
Yerlər də, göylər də ilhamla dinə,
Deyə ki, ən gözəl nəğməkarsınız!

Alim deyilsiniz dünyada əgər,
Yaman görmüsünüz yaşınız qədər.
Yanan ömrünüzdə doğacaq səhər,
Siz də o səhərə intizarsınız.

Şəvə saçınıza səpilsə də qar,
Susmur qəlbinizdə bir yanıqlı tar...
Nə qədər desəniz xatirəniz var,
Xatirə sarıdan bəxtiyarsınız!

Yox! Yox! Xatirələr qalsın bir yana,
Vətən dediyimiz mehriban ana
Dardadır... Azadlıq gərəkdir ona,
Siz ki, azadlığa havadarsınız.

Yenə cəbhələrdən qalxsın səsiniz,
Səngərdən-səngərə axsın səsiniz...
Düşməni yandırıb-yaxsın səsiniz,
Vətən də desin ki, xilaskarsınız!

***1976.***



## VER MƏNƏ!

Göydəki işıqlı ülkər yerinə
Qəlbimdə alışan çıraq ver mənə!
Neçə kənd yerinə, şəhər yerinə
Vətəndən bir ovuc torpaq ver mənə!

Könlümün telləri min nəğmə çalır,
Hər dosta, tanışa, həmdəmə çalır...
Bircə yurda deyil, aləmə çalır,
Bir saz düzəltməkçin çanaq ver mənə!

Qələmim qurşundur, paltarım zireh!
Başqadır könlümdə çırpınan fərəh...
Nəyimə lazımdır mey dolu qədəh,
Yanları yarpızlı bulaq ver mənə!

Xeyirsiz bir şimşək nəyimə gərək,
Nəsibsiz bir dilək nəyimə gərək,
Narahat bir döşək nəyimə gərək,
Çəmən otlarından yataq ver mənə!

Axar çaya dönüb ömür də gedir,
De, nədir şüşədə saxlanan ətir?
Gözəldir güllərin başında çətir,
Gülləri sayrışan yaylaq ver mənə!

Palıdı yaşadan nədir? Rişələr!
Vətən torpağında doğma guşələr...
De, nəyə gərəkdir yanmış meşələr?
Bir üstü meyvəli budaq ver mənə!

Gah ağlayır bəşər, gah gülür bəşər,
Yaşamaq şirindir, döyüşmək hünər...
Xəyal nəhayətsiz bir meydan istər,
Səhəndin özünü oylaq ver mənə!

Vətənim qədimdir, əcdadım ulu,
Nəğməli ürəyim arzuyla dolu...
Gözdən uzaqlaşsa səadət yolu,
Uzun yolu yoran ayaq ver mənə!

*1970.*

## MÖHÜRLÜ XALÇA

Satıcı bir fərşi göstərib mənə
– Alın, yaraşıqlı xalıdır, – deyir.
Sanki tanıyırmış məni... O yenə
– O taydandır, Təbriz malıdır, – deyir.

Bu adı eşitcək ürək ağlayır
Anadan ayrılan bir körpə kimi,
Köksümü gah sancır, gah da doğrayır
Bədəndə gizlənən bir qəlpə kimi.

Xalıya baxıram. Sıx naxışları
Bir tovus quşunun lələkləridir.
Yox, o ilmələrin lal baxışları
Səhəndin təzə-tər çiçəkləridir.

Xalını alıram. Yük aparmağa
Nə fayton gərəkdir, nə də ki, dəvə.
Qapının ağzında dayanmış "volqa",
Minib univermaqdan gəlirəm evə.

Xalını açıram. Ey xalçaçı qız,
Bəlkə tanıyıram Təbrizdən səni?
Bəlkə tanımıram. Nə isə, yalnız
Sənətin ilhama gətirir məni.



İşinə valehəm, bacım! Elə bil
Təbrizin baharı gözümə dəyir.
İşıqlı, ətirli, aydın, mötədil
Gözəl havası da üzümə dəyir.

Fəqət bu baharın al qucağında
Nə toy, nə saz, nə ud, nə ney görürəm,
Birdən həşyələrin bir qırağında
Yamağa bənzəyən bir şey görürəm.

"Hacı filan fərşçi" yazılı möhür...
Deməli xalının odur yiyəsi?!
İki təzadlı iş, təzadlı ömür,
Duyduqca adamın yanır nəfəsi...

Sənin barmaqların hananın üstə
Gah rəngə boyanır, gah çatlayırdı,
Onun barmaqları divanın üstə
Təsbeh çevirirdi, pul qatlayırdı.

Sənin bəbəklərin qərardan düşüb
Solğun ilmələrə nur çiləyirdi,
Onun bəbəkləri şərabdan şişib,
Şəhvətlə dörd yana od ələyirdi...

Sən mahnı deyirdin zillət içində
Ağır zəhmətini unutmaq üçün,
O mahnı deyirdi işrət içində
Keyfini daha da saz tutmaq üçün.

Alver sənətkarı... Fərş sənətkarı...
Nə qədər böyükdür aranızda fərq!
De, nədir illəti, nədir əsrarı,
Biri kefdən yorğun, biri dərdə qərq?!

O sənin işinin rövnəqlərini
Niyə öz tüfeyli adına çıxır?
Sənin gözlərinin şəfəqlərini
Qızıla döndərib sandığı yığır!

Yox, yox, qoparmaram o yazını mən,
Qoy qalsın o möhür, o ad, o famil!
Nə olar, dünyanı nura qərq edən
Günəşin özü də ləkəsiz deyil.

Görən biləcək ki, o fərşdə hər gül
Sənin alın tərin, ürək odundur!
Hər naxış, hər ilmə, hər buta, hər göl
Sənin familindir, sənin adındır!

***Fevral, 1960.***

## SƏNİN TƏRANƏN HANI?

Tehranı dinləyirəm,
Musiqi çalır yenə.
Eşidən dərin-dərin
Xəyala dalır yenə.
Səhərdən axşamadək
Susmaq bilmir o şərqi.
Hava dalğalarında
Dolaşır qərbi, şərqi...
Mənim Təbrizli dostum,
Ərdəbilli qardaşım,
Marağalı həmdəmim,
Miyanalı sirdaşım,
Sənin gözəl musiqin
Haçan səslənəcək bəs?
Sənətinə ehtiram
Haçan bəslənəcək bəs?!



İyirminci əsrdə
Neçə millət oyandı.
Dilinin, adətinin
Keşiyində dayandı.
Ənənədə təzəylə
Köhnəni üstələdi.
Əlifba da yaratdı,
Nəğmə də bəstələdi...
Səninsə nə musiqin,
Nə şeirin gəlir dilə.
Əsrlərin yaşıdı
Rübabın susur hələ...
O yanıqlı telləri
Özgəsi çalmayacaq.
Şeirinin qayğısına
Başqası qalmayacaq!
Hanı muğamatında
Azərbaycan gözəli?
Üzeyirin notları,
Füzulinin qəzəli?
Hanı sənin şikəstən?
Hanı sənin bayatın?
Hanı sənin "Segah"ın?
Hanı sənin "Heyratı"n?
"Cəngi" çal, "Dəlilər"in
Döyüşü düşsün yada.
"Şahnaz" çal, sevənlərin
Görüşü düşsün yada.

"Zabul" çal, ataların
Hikməti düşsün yada.
"Şüştər" çal, anaların
Xiffəti düşsün yada.
Elə bir nəğmə başla,
Həm qədim, həm də təzə.
Zəfər simfoniyasından
Soraq gətirsin bizə...

***1976.***

## MAVİ DALĞALARDA

"Dərya"* çağladıqca təzə həvəslə
Dənizdə dərə, düz, yoxuş oxuyur.
Soyuq dalğalarda odlu nəfəslə
Dəstədən ayrılan bir quş oxuyur.

"Ayrılıq, ayrılıq, aman ayrılıq,
Hər şeydən olurmuş yaman ayrılıq".

Bəli! Qar altında qoyub gəldiyim,
Yolunu alovla yuyub gəldiyim,
Təlaşlı könlünü duyub gəldiyim,
Bir də görmədiyim tanış oxuyur.

O səsdən şikayət yağır hicrana,
Nə zaman, nə dözüm sığır hicrana,
Övladın səndən də ağır hicrana
Etiraz, ittiham, qarğış oxuyur.

* İranda radiostansiya



Atalar nisgilin qulları kimi,
Yox! Məğrur çinarın qolları kimi,
Vüsalın uzanan yolları kimi
Alınlarda çin-çin qırış oxuyur.

Görüş həsrətlisi könlünə hopan,
Həzin nəğmələrlə təsəlli tapan,
Kövrək anaların köksündən qopan
Ah dumana dönür, yağış oxuyur.

O nəğmə günəşli muradlarıyla
Uçur zəncirlənmiş qanadlarıyla...
İnqilab nəfəsli fəryadlarıyla
Şahsevən, Xalxallı, Talış oxuyur.

O gəzir səngərli Ərkin başında,
İgidlik dastanı açır qarşında...
Qədim Göy məscidin bircə daşında
Neçə əlvan-əlvan naxış oxuyur.

Araz çağladıqca diləklər təki,
Dalğalar çırpınır ürəklər təki,
Sahildə yanıqlı tütəklər təki
Düzümü sahilsiz qamış oxuyur.

Yaşıl Savalanın təpələrində,
Büllur Şah gölünün ləpələrində,
Şimşəyin buluda zərbələrində
Döyüş tarixinə alqış oxuyur.

İnsan yaşamasa yaz həvəsində,
Arzu pardaxlanmaz döş qəfəsində.
O mərd nəğməkarın gül nəfəsində
Hicransız dövrana çağrış oxuyur...

***1976.***

## TƏBRİZ NƏĞMƏSİ

Bir vaxt azad idim torpağında mən,
Zəncirli deyildi dilim, Təbrizim!
Bir vaxt oxuyurdum qucağında mən:
"İzzətim, şövkətim, gülüm, Təbrizim".

Sonra o nəğməni məhbəsdə dedim,
Dəmir pəncərəli qəfəsdə dedim,
Bəzən axırıncı nəfəsdə dedim,
Bəmə endirildi zilim, Təbrizim!

Yox, mən bir sazam ki, zilim susmayıb,
Səadət istəyən elim susmayıb.
Dünyada bir gün də telim susmayıb,
Nəğməsiz keçməyib ilim, Təbrizim!

Fəqət dinclikdən yox, döyüşdən deyib,
Məhbus insanlarla görüşdən deyib,
Gözlərdə ağlayan gülüşdən deyib
Könlümdə kükrəyən selim, Təbrizim!

Günəş Səhənd üstə məşəllə gəzər,
Odlu şəfəqlərdən dilimlər düzər...
Babəkin taxdığı qılınca bənzər
Hər odlu-alovlu dilim, Təbrizim!

Hər xalq bir rəhbərin dalınca getdi,
Döyüşdə and içdi qılınca, getdi,
Axır damla qanı qalınca getdi,
Sən Sərdardan aldın təlim, Təbrizim!

Döşündə görmədim dik başını mən,
Yox, bir səngər gördüm hər daşını mən...
İzin ver, vətənin göz yaşını mən
Döyüş bayrağıyla silim, Təbrizim!



Doğma Ərk qalası, gözəl Göy məscid
Dünənə, bu günə, sabaha şahid...
Yatır qucağında nə qədər şəhid,
Yanır başı üstə könlüm, Təbrizim!

Sinən dalğalanan dənizdir mənə,
Bütün dənizlərdən təmizdir mənə!
Ən gözəl mərmərdən əzizdir mənə
Hər daşım, torpağım, gilim, Təbrizim!

Nə qəm, əsrin yükü kürəyindədir,
Arzular ümmanı ürəyindədir.
Daha azadlığın ətəyindədir
Mənim şeir yazan əlim, Təbrizim!

***1968.***

## TƏBRİZ NOTLARI

Təbriz daş cildli bir nəhəng kitab,
İlk oxucuları nəsilləridir...
Bağmeşə, Əmrəxiz, Dəvəçi, Surxab
O qədim kitabın fəsilləridir...

Təbriz yaşamamış xətərlər üstə
Vətənin başına bir qaxınc kimi.
O Ərk qalasını səngərlər üstə
Göylərə qaldırmış bir qılınc kimi.

Hələ aldanmamış Təbriz, doğrusu,
O həm mehribandır, həm də inaddır!
Qurtuluş həsrəti, zəfər arzusu
Dünyada Təbrizə qoşa qanaddır!

Bəzən zəncirlənmiş dili sussa da
Söz dolu ürəyi danışmış yenə.
Bəzən taleyinə qulaq assa da
Azadlıq eşqiylə alışmış yenə.

Hüsnü pərdələyən palçıq hasarlar
İzini itirən ordularmıdır?
Gözə görünməyən yaşıl çinarlar
Ürəkdə gizlənən arzularmıdır?

Samanlı divarlar arxasında sən
Büllur fəvvarəli gülşən görərsən.
Hər kiçik həyətin yaxasında sən
Bir parça günəşli Vətən görərsən!

Təbrizin füsunkar "Gülüstan bağı"
Yazda da, qışda da bir gülüstandır.
Eynal – Zeynal dağı hər axşam çağı
Keşiyində duran bir pasibandır.

Sözləri məzəli adamlarında
Təbrizin öz hüsnü, öz siması var!
Şeirli-nəğməli axşamlarında
Ulduzlarla dolu bir səması var!

Təbrizli çağlayan ilhamlar təki
Sevir ziyafəti, məclisi, toyu.
Ağır günlər görmüş adamlar təki
Qənaətlə içir bir fincan suyu...

Yaşayır həmişə könlü-gözü tox,
Nə yerə yalvarır, nə də ki, göyə.
O döyüş zamanı tək varından yox,
Canından da keçər "inqilab!" – deyə.



Təbrizə göydələn evlərdən qabaq
Azadlıq gərəkdir, yalnız azadlıq!
Sonra quruculuq, sonra təmtəraq,
Sonra firavanlıq, sonra abadlıq!

Kim deyir dövranın möhnətini o
Üsyankar səsiylə tənqid etməmiş?
Bayrağa döndərib şöhrətini o,
Heç nəyi, heç zaman təqlid etməmiş!

Qabağı kəsilmiş durğun bir çaya
Sellər-sular axsa, qaynayıb-daşar.
Nə sədlərə baxar, nə də ki, haya,
Dərələr adlayar, təpələr aşar.

Nə dizini büküb məhkum sayağı,
Nə də ki, başını əyəcək Təbriz.
Saçları ağarmış hakim sayağı
Sonuncu sözünü deyəcək Təbriz!

***1977.***

## TURİST

Bir məclisdə idik neçə yaxın dost,
Vətənin naminə qaldırıldı tost...
Dedilər başdakı o qadına bax!
Mən baxdım...
    Gördüm ki, ağdır saçı, ağ.
Dedilər turistdir, o taydan gəlib.
Dedilər... Bu qəfil xəbəri bilib,
Ürəyim sızladı bir an içində.
Sonra təntənəli həycan içində

Titrədi qədəhdə beş barmağım da.
Öz vətənim durdu öz qabağımda.
Təbrizin badamı, Meşkinin narı,
Muğanın laləsi, Səhəndin qarı
Gözümə göründü...
Dedim, anacan,
Ricam var! O taya qayıdan zaman,
Sən bir anlıq diz çök görüş qabağı.
Mənim əvəzimdə öp o torpağı!
Nə olsa vətəndir! Mənası xoşdur,
Vətənsiz insanın ürəyi boşdur.
O baxdı...
Gözlərdə sıxlaşdı nisgil.
Köhnə yarasına dəydim elə bil.
Qadın aram-aram dedi ki, inan,
Yola o tayda da çıxdığım zaman –
Gəldi, dost da gəldi, tanış da gəldi.
Həm də ki, şıdırğı yağış da gəldi.
Dedilər utanma! Görüş qabağı
Bizim yerimizə öp o torpağı!
O tay da vətəndir! Mənası xoşdur,
Vətənsiz insanın ürəyi boşdur!
Vətən! Mən yerimdə susdum doğrusu,
Deməli, bir xalqın birmiş arzusu.
O nədir? Nə hicran, nə də ki, sərhəd,
Yalnız vahid vətən, bir də səadət!
Düşündüm, tarixdə min il keçsə də,
İnsan yer üzündən aya köçsə də,
Bu arzu dinəcək tələbat kimi,
Böyük bir nəğmədə nəqarət kimi!

***1964.***



## ŞEİR TƏŞNƏSİ

Bir məclisdə qonaqdım... Masabəyi sözüylə
Büllur qədəhlərdəki günəş dolu ilhamdı.
Tanış deyildimsə də mən, doğrusu, özüylə,
Qayğısından duyurdum o mehriban adamdı.

O təzəcə dönmüşdü o taya səfərindən,
Gözlərində Təbrizin ulduzları alışdı.
Nəğməkar taleyimin döyüşkən şəhərindən
O ürəyi dolusu məhəbbətlə danışdı...

Dedi bir adət yaşar bu yurdun özəyində:
Qonaq gedən özüylə hədiyyə də aparar.
Məhəbbət ağacının kökünü ürəyində,
Yaşıl yarpaqlarını hədiyyədə aparar.

Mən də neçə hədiyyə aparmışdım özümlə
Yaraşıqlı Təbrizdə yaxın bir qohumuma.
Hədiyyələr arada toplananda düzümlə,
Ulduz səpdi könlümdə ləyaqət duyumuma.

O baxdı, dedi, qohum, payın çox olsun... ancaq
Ticarət yollarının üstə bazardı Təbriz.
Sən uzaq yolda yüklə zəhmət çəkibsən nahaq,
Bu şeylərdən burda da tapmaq olardı şəksiz.

Neçə nəğməkarımız qələm çalır o tayda,
Şeirinin həsrətində qalan da var, ölən də.
Sən də Əli Tudənin heç olmasa əl boyda
Tək bircə kitabını gətirəydin gələndə.

Doğrusu, incimədim, qohumum haqlıydı çox,
Dedim insanı yalnız insan düşünəsidir.
Duydum, qohum qiymətli şeylər tamarzısı yox,
Azadlığın carçısı şeirlər təşnəsidir.

Nə qədər nakam arzu eşitsəm də, doğrusu,
Kövrəldə bilməmişdir könlümü hələm-hələm.
Fəqət vətən oğlunun bir yanıqlı arzusu
Könlümün tellərini əritdi birəm-birəm.

Səssiz fəryad qopduqca qəlblərin tellərindən,
Mənə ilkin gördüyüm adamlar da baxırdı.
Hələ odlu-alovlu cavanlıq illərindən
Məni tanıyanların gözündən yaş axırdı.

Sən qaynayan çeşməyə adi göz yaşı demə,
O bulud-bulud dolub yağırdı leysan kimi.
Həyəcan yüklü sellər töküldükcə sinəmə,
Təlatümə gəlirdim özüm də ümman kimi.

Duyurdum, yanağımı alnımın təri yuyur,
Əllərim tir-tir əsir şeh düşmüş yarpaq təki.
Bu ümmanın içindən sevinclə dolu qürur
Qalxıb göyə yüksəlir əzəmətli dağ təki.

Mənimsə gözlərimin ağında, qarasında
Sevinc, kədər çeşməsi yanaşı çağlayırdı.
Nə gizlədim, o həssas insanlar arasında
Bir gözüm gülürdüsə, bir gözüm ağlayırdı.

Gülürdü, inqilabçı bir şairin büstünü
Xəyal üfüqlərində xalqı ucaldır deyə.
Ağlayırdı, hər təzə kitabının üstünü
Özü yazıb xalqına niyə verməsin, niyə? ***1980.***





## SAVALAN ZİRVƏSİ

Savalan! Sən dünyada
Ülviyyət heykəlisən!
Əzəmət heykəlisən,
Qüdsiyyət heykəlisən!
Necə də vüqarlıdır
Hər xırdaca daşın da!
Yay günündə bərq vurar
Pəmbə qarın başında.
Qartal qonan çiyninin
Bir parçacıq buludu,
Bəlkə də nəğmələşən
Bir bulaqdan suludu.
Təşnə zirvənə baxıb
Dayansa ətəyində,
Yanğısı bulaqsız da
Soyuyar ürəyində.
Sənin hikmətlə dolu
Hər bulağın cəlaldır.
Məhrəmləşən yaxanda
Yazılmamış medaldır.
Danış! Kimin bu qədər
Medal var yaxasında.
Kimin bütün milləti
Dayanıb arxasında?
Bəlkə tanımayıbdır
Savalanı Savalan?
Dünyada qəhrəmanlar
Qəhrəmanı Savalan.
Hələ min nəğmə yatır
Sənin hər çiçəyində.
Vətənə yaraşıqdır
Zirvən də, ətəyin də!



Yaxşı ki mən də sənin
Yollarından keçmişəm.
Muncuq-muncuq qaynayan
Sularından içmişəm.
Yoxsa dözə bilməzdim
Bu uzun hicrana mən.
Haradasa dönərdim
Bir adsız qurbana mən.
İndi şeirim dinsə də
Yanıqlı udlar kimi,
Səndə xatirələrim
Göyərir otlar kimi.
“Segah”ı, “Humayun”u,
“Çahargah”ı, “Şüştər”i,
Həzin ləpələrində
Zilə çəkir Neştəri*...
Yalqız qalmasın deyə
Həsrətin yollarında,
Sanki munis axtarır
Muğamın xallarında.
Sənətdə ən möhtəşəm
Zirvəyə qalxsam da mən,
Həyatda ən müqəddəs
Zirvəm sənsən daim, sən!
Dünyada sərvət hanı
Sənin zümrüd varın tək?
Kaş bəxtin də ağara
Başındakı qarın tək.
Səadət duyğuların
Yandıqca ürəyində,
Sabahın günəşləşə
Alovlu şimşəyində...

***1988.***

---
*çay adıdır

## İKİ ÇANAXBULAQ

Qarşımda bir dağ var, o iki kəndi
Öz qoşa çiynində qaldırmış göyə.
Görüş çəmənində daşlaşan dərdi
Bəlkə də yer görsün, göy duysun deyə!

Sanki o dağ deyil, çiyni xurcunlu
Bir nəhəng, intizar, müdrik insandır!
O döşü günəşli, başı çovğunlu
Kimisə gözləyir orda haçandır.

"Vüsal! Vüsal!" deyən dodaqlarının
Mahnısı qurtarmır on iki ayda.
Torpağa dirənmiş ayaqlarının
Biri bu taydadır, biri o tayda.

Öndə bir cığır var sinəsi otlu,
Hələ də bilinmir yönü haradır?
Sanki cığır deyil, alovlu-odlu
Hicran nəğməsindən düşən misradır.

Pozmaq istəyirəm mən sərhəd boyu
O zalım misranı ayaqlarımla!
Öpmək istəyirəm hər iki tayı
Vüsalın təşnəsi dodaqlarımla.

O dağ güllərilə ülkərlə dolu
Uzaq kəhkəşana şəfəq salıbdır.
Həsrətlə, qubarla, kədərlə dolu
Bir cığır əlində aciz qalıbdır.

O taya baxıram... Güzəranlıqda
Alovlu günəş də sönük görünür.
Kəndin yanındakı qəbristanlıq da
Gör kənddən nə qədər böyük görünür!



Baxıram... Daş evlər çox uzaq deyil,
O tayda dümqara, bu tayda dümağ!
Yox! Evlər adicə daş-torpaq deyil,
Ömür günlərinin rəmzidir ancaq.

Baxıram... Düyünlü sirri çox kimi,
Səyyar xəyalıma min sual gəlir.
Buludlar içindən süzüb ox kimi
O taydan bu taya bir qartal gəlir.

Boz yelkənə dönən qanadlarını
Gah açır, gah da ki, büküb gəlir o.
Sanki əsarətin fəsadlarını
Sərhəddən o tayda töküb gəlir o.

Bir kəndli sevinclə uşaqsayağı
Görməli yerləri göstərir mənə.
Maraqla baxıram qonaqsayağı
Lalədə alova, zirvədə çənə...

Sanki görüşürəm bir laləzarla,
Deyirəm! Bu kəndin adı nədir bəs?
"Çanaxbulaq!" deyir o iftixarla,
Sanki parçalayır sinəmi bu səs...

Yaralı ürəyim baxmır sözümə,
Təzədən ikiyə bölünür burda.
Hicran yaşlarıyla dolan gözümə
İki Çanaxbulaq görünür burda.

Ey ürək! Demə ki, məndə hədd də var,
Min dərdə dözmüsən, döz bu dərdə də!
Bilirəm dünyada elə dərd də var,
Ağırdır min dərdə dözən mərdə də!

Dinlə biçənəkdə, zəmidə, bağda,
Yayda da, qışda da zəhmətli kəndim!
Ümidsiz zamanda, inamlı çağda
Səbrli, hünərli, qeyrətli kəndim!

Şair Savalanın vüqarı qədər
Sənin yüksək arzun əziz deyilmi?
Cəngavər Səhəndin ağ qarı qədər
Sənin pak namusun təmiz deyilmi?

Bircə gün mehmanın olmaq istədim,
Hikmətli suyundan içə bilmədim.
Qolumu boynuna salmaq istədim,
Doğrusu, Təbrizdən keçə bilmədim.

Mən səni ömrümün gənclik yaşında
O tayda itirdim, bu tayda tapdım.
Həmişə baharlı dağlar başında
Ayların gözəli bir ayda tapdım.

Mən səni itirdim əzizim kimi,
Dekabrın haraylı küləklərində.
Mən səni tapmışam əzizim kimi
Mayın təbəssümlü çiçəklərində.

Kəndliyə deyirəm, axı bizim də
Kəndimizin adı Çanaxbulaqdır!
Alma da, armud da, nar da, üzüm də
Geniş süfrəsində tabaq-tabaqdır...

Fəqət xatirimə bağda yediyim
Nə alma, nə armud, nə üzüm düşür.
Bir dağ ətəyində pəsdən dediyim
Qədim el sözündən bir düzüm düşür:



"Bu dağın o üzündə,
Ceyran otlar düzündə.
Mən yarımı tanıram,
Qoşa xal var üzündə".

Demirəm o nəğmə tarixdə donan
Sözlər arasında söz boyatıdır.
Yox! İndi yanıqlı dilimə qonan
Təzə mənzərəli bir bayatıdır.

O tayda gözləri tox gözəllərçin
Bu tayda bir nəğmə oxuyuram mən.
O tayda qaməti şux gözəllərçin
Bu tayda söz çətri toxuyuram mən:

Bu dağın o üzündə,
Güllər yanar düzündə.
Göz yaşları dən-dəndir
Gözəllərin üzündə...

Mənim qan qardaşım doğma ocağın
Qədim tarixindən danışır ancaq.
Mənim gözlərimdə iki bulağın
Suyu bir-birinə qarışır ancaq...

Bir gün yeddi qardaş gap edə-edə*
O taydan-bu taya ova gəlibdir.
Qardaşlar dağlarda kəl güdə-güdə,
Düzlərdə quş qova-qova gəlibdir.

Göydən buz nəfəsli duman ötəndə
Qara ətəkləri yeri basıbdır.
Göydə yeddi qardaş ulduz itəndə
Yerdə yeddi qardaş yolu azıbdır.

* rəvayətdir

Qardaşlar baxsa da, başları üstdə
Nə ulduz, nə də ki, çıraq görübdür.
Yaşıl bir çəmənin daşları üstdə
Ulduz-ulduz axan bulaq görübdür.

Qardaşlar o gecə bu tayda qalıb,
Duyur nadir suyun dadını ancaq.
Bulağın yanında təzə kənd salıb
Çanaxbulaq qoyur adını ancaq.

Deyirəm ki, qardaş, bu söhbətinlə
Sən açdın düyünlü eyhamları da!
Məni də kövrəltdin öz riqqətinlə,
Sənə qulaq asan adamları da!

İndi əzəmətli bir dayaq kimi
Təsəlli versə də yaşlılar mənə,
Çox məsum görünür bir uşaq kimi
Mehriban gözləri yaşlılar mənə.

Kim deyir heyrətlə dolu söhbətin
Təkcə sizin kəndin rəvayətidir?
Yox! Qardaş, hikmətlə dolu söhbətin
Həm də bizim kəndin hekayətidir.

Dinləmək istəyib hər rəvayəti
Nağıllı nənəmi incitmişəm mən.
Sənin danışdığın bu hekayəti
İlk dəfə nənəmdən eşitmişəm mən.

Yeddi qardaş gəlib ov növrağıyla
Bilmirəm tarixin hansı anında,
Ulduz-ulduz axan su sorağıyla,
Bizim kəndi salıb bulaq yanında.



Bəli! İki kəndin bizdən də qabaq
Tarixi bir olmuş vahid yol kimi.
Sonra taleləri ayrılmış ancaq
Vətənini qucmuş iki qol kimi.

Dost, bizi ayıran, mənə inan sən,
Bu silsilə dağlar olarsa belə,
Odlu nəfəsimlə hamısını mən
Döndərə bilərəm bir qalaq külə.

Ya da daş ürəkli dağ hasarını
Tamam əridərəm göz yaşlarımda!
Görər təlatümlü sel axarını
O taylı, bu taylı qardaşlarım da!

Yox! Yox! Milyonlarla vətəndaşımın
Bütün ixtiyarı tək məndə deyil.
Dağlar nə yanğımın, nə göz yaşımın
İçində əriyib gedən də deyil.

Bugünkü qənaət, niyyət, cəsarət,
Qələmə güvənən bir insanındır!
Sabahkı məsləhət, himmət, qətiyyət
Həm yurdun, həm xalqın, həm zamanındır.

Mənim doğma kəndim! Daş yapıncında
Gərək bu yollardan keçəsən sən də.
Çal-çarpaz görünən yol ayrıcında
Özünə doğru yol seçəsən sən də!

***Yardımlı, may 1977.***

## KƏNDİMİZİ İSTƏYİRƏM

Yol üstdəki bulağıyla,
Kəndimizi istəyirəm.
Gəncliyimin dodağıyla
Kəndimizi istəyirəm.

Mənə "şair balam" deyən,
"Şeir-sənət qalam!" deyən,
Durnalardan salam deyən
Kəndimizi istəyirəm.

Yazda novruz növrağıyla,
Üsgüsüylə, ocağıyla,
Bacasıyla, qurşağıyla
Kəndimizi istəyirəm.

"Gülqasım"lı yarğanıyla,
"Gülburnu"lu bostanıyla,
Günəşilə, dumanıyla
Kəndimizi istəyirəm.

Günəş doğar yavaş-yavaş,
Yaqutlaşar "Dəlikli daş"...
Yaşıl boynu tamam daş-qaş
Kəndimizi istəyirəm.

Çoban neyi sazlananda,
Tox quzular nazlananda,
"Naxır yolu" tozlananda
Kəndimizi istəyirəm.



Oğlan dağda, qız aranda,
Ağ yanaqlar qızaranda,
Daşda bir xətt qaz aranda:
"Kəndimizi istəyirəm".

Bir kölgəlik buluduyla,
Bir dərəlik sükutuyla,
Bir sütüllük noxuduyla
Kəndimizi istəyirəm.

"Pələngölən" buğdasıyla,
"Babanəzər" nəvasıyla,
Uzun ömür sevdasıyla
Kəndimizi istəyirəm.

Təndiriylə, gərməsiylə,
Pendir-lavaş dürməsiylə,
Kətanıyla, tirməsiylə
Kəndimizi istəyirəm.

Pətək-pətək dərəsiylə,
Çalxam-çalxam kərəsiylə,
Yarpaq-yarpaq tərəsiylə
Kəndimizi istəyirəm.

Dağda günəş sozaranda,
Yolda duman bozaranda,
Bağda narlar qızaranda
Kəndimizi istəyirəm.

Suya gələn qızlarıyla,
Eyham bilən qızlarıyla,
Deyib-gülən qızlarıyla
Kəndimizi istəyirəm.

Qışda sazlı ozanıyla,
Sözə qulaq asanıyla,
Səmənili qazanıyla
Kəndimizi istəyirəm.

Sərnicilə, nəhrəsilə,
Darağıyla, cəhrəsilə,
Odunuyla, dəhrəsilə
Kəndimizi istəyirəm.

Xalça-xalça hanasıyla,
Çeşmə-çeşmə aynasıyla,
Kisə-kisə hənasıyla
Kəndimizi istəyirəm.

Pendirilə, qarpızıyla,
Dovğasıyla, yarpızıyla,
Qələmilə, kağızıyla
Kəndimizi istəyirəm.

Yüklü atı-ulağıyla,
Dəyirmançı ocağıyla,
Fətirinin qazmağıyla
Kəndimizi istəyirəm.



Dəyirmanı tayla dolu,
Taxta novu suyla dolu,
Bizəkçəsi* çayla dolu
Kəndimizi istəyirəm.

Kim deyir ki, duyanı yox,
Uğrunda can qoyanı yox,
Mən bu boyda dünyanı yox,
Kəndimizi istəyirəm.

Babamın söz gülzarıyla,
Nənəmin gül məzarıyla,
Sadiq nəvə ilqarıyla
Kəndimizi istəyirəm.

Təmiz abu-havasıyla,
Doğma xeyir-duasıyla,
Öz gözəllik dünyasıyla
Kəndimizi istəyirəm.

Səngərilə, silahıyla,
Savabıyla, günahıyla,
Daha parlaq sabahıyla
Kəndimizi istəyirəm.

Qocasıyla, qarısıyla,
Nə qədər gənc varisiylə,
Dicvicini, Barısıyla**
Kəndimizi istəyirəm.

---
*saxsı dolça
**kənd adlarıdır

Xəyal hicran dumanında,
Könül vüsal gümanında...
"Çanaxbulaq" ünvanında
Kəndimizi istəyirəm!

*1977.*

## GÖRÜŞSÜZ GÖRÜŞ

Göyə pillə-pillə qalxan dağların
Şeir məclisindən çıxırıq, qardaş!
Üzü insanlara baxan dağların
Dalına çəkilir gün yavaş-yavaş...

Büllur zirvələrdə uca ağaclar
Sanki qatarlanmış yaşıl karvandır.
Ha gedir, ha gedir qoca ağaclar,
Mənzilə çatmayır neçə zamandır.

Qızılyurd, Kömürgöy qardaşlar kimi
Almas Savalanla durur üz-üzə.
Danışmaq istəyir sirdaşlar kimi,
Ancaq heç birisi başlamır sözə...

Maşın karvanımız yola düşür ki,
Bizi ləngitməsin nə yağış, nə çən.
Ürəyim də haldan-hala düşür ki,
Bəlkə Savalanı görə bildim mən.



O mənim çırpınan xəyalımdakı
Əlvan xatirələr abidəsidir!
O mənim çalxanan mahalımdakı
Döyüşən nəslimin iradəsidir!

Qalxırıq sərhəddə dönən yal üstə,
Birdən xəfif-xəfif mehləyir hava.
Qıvrılır-açılır duman yol üstə,
Mirvari-mirvari şehləyir hava...

Vüsal döyüşçüsü qoçaqlar təki
İndi də dumanla giririk cəngə.
İstəsən əl uzat uşaqlar təki
Yol üstdə dumanı yığ çəngə-çəngə.

Deyəsən bu hicran yoxuşlarında
Bizi duya-duya kövrəlir duman.
Güllərin mehriban baxışlarında
Soyuq göz yaşına çevrilir duman.

Fəqət alovlanan aşıqlar kimi
Dilimiz yandırır dodağımızı.
Lalələr qırmızı işıqlar kimi
Yana-yana kəsir qabağımızı...

Bəlkə bilə-bilə ana Savalan
Hicran dumanına bürünür özü.
Vətən həsrətilə vaxtsız ağaran
Bəyaz tellərimi görməsin gözü.

Başımın üstünü alsa da duman,
Qaşıma qırovlar salsa da duman,
Odlu gözlərimə dolsa da duman,
Sanma tünlüyünə girə bilmədim.

Girdim! Dəmirdəndir şair inadı,
Şeirimə o verib qartal qanadı...
O mənim anamdır, mənsə övladı,
Anama mən salam verə bilmədim.

Bahar təravətli lalələrinin,
Günəş hərarətli lalələrinin,
Şair təbiətli lalələrinin
Bircə ləçəyini dərə bilmədim.

O itdi dumanda gümanım təki,
Dünyada birinci ünvanım təki,
Doğma Təbrizdəki dövranım təki,
Sanki mən özümü görə bilmədim.

Uzaqdan olsa da Savalanımı
Mən görərəm deyə görüşə gəldim,
Yox! Görə bilmədim qəhrəmanımı,
Bəs niyə, bəs niyə görüşə gəldim?

Nə olar? Çoxdankı əzəmətilə
Öz doğma, öz əziz yerimdədir o.
Həm də əbədilik təravətilə
Bu təzə yazdığım şeirimdədir o.



Maşın yol açmayan qatı dumanı
Xəyalımda doğan günəş dağıdır.
45-ci ildə döyüş zamanı
Təbrizdə açılan atəş dağıdır.

Məğrur Savalanın zirvəsindəki
Buludlar kişnəyir, şimşəklər çaxır.
“Qatar qaya”sının sinəsindəki
Yaradan Ağ çaya qəlpələr axır...

Sanma o günlərin ildırımları
Qarala-qarala sönür gözümdə.
Yox! Hər ildırımın qığılcımları
Tale ulduzuna dönür gözümdə...

***Yardımlı, may 1977.***

## SƏRHƏD DƏRƏLƏR

Ey vulkan nəfəsli harayı udan
Əjdaha ağızlı dərin dərələr!
Bəzən qarlı dağın altda od tutan,
Bəzən ağ zirvədən sərin dərələr!

Hicran şığıyanda ildırım kimi,
Yolu bağlayanda aşırım kimi,
Kim dedi qorxulu sıldırım kimi
Siz də aralığa girin, dərələr!

Zolaqlı dirəklər, qoruqlu mərzlər,
Tikanlı məftillər, durbinli gözlər
Məgər bəs deyildi? Sədd çəkdi sizlər
Döşündə bu doğma yerin, dərələr.

Yox! Siz də Vətənin paralarısız,
Kim deyir üzləri qaralarısız?
Torpaqda hicranın yaralarısız,
Tarixdə şəmşirli şirin, dərələr!

Köhnə yaranıza bağrımda yanan,
Gündüzlü-gecəli ağrımda yanan,
Taleyimə doğan, uğrumda yanan,
Təzə lalələri sərin, dərələr!

O yanğılı gözlər sönməsin deyə
Qoymayın nə dolu, nə yağış döyə...
Göy qanadınızı qaldırın göyə
Al gözlər üstündə gərin, dərələr!

Yanınızdan keçən quş da, insan da,
Şimşək də, gurşad da, yel də, duman da
Görsün necə yanır soyuq hicranda
Ləçəkli odları şeirin, dərələr!

Gəldim, yaxınlıqdan deyim o elə:
Hicranla döyüşdə mən sağam hələ...
İlhamım çıraqdır, sənətim halə,
Vətən məhəbbətim şirin, dərələr!

Gedirəm, o tayda gözlərim qalır,
Dodağımdan uçan sözlərim qalır...
Bu tayda şəfəqli izlərim qalır,
Vüsal yolu qədər zərrin dərələr.



Gedirəm, bir dəstə qönçə nəğməmlə,
Gözləri şəbnəmli incə nəğməmlə.
Görüş həsrətlisi neçə nəğməmlə
Siz də əks-səda verin, dərələr!

***1977.***

## EY VƏTƏN!

Sənin "gəl" səsinə, sənin adına
Deyirəm, mən qurban olum, ey Vətən!
Nə malım gələcək sənin dadına,
Nə də cibimdəki pulum, ey Vətən!

Özüm gələcəyəm hayına, özüm,
Müqəddəs andımdır hər sadə sözüm,
Gələrəm! Döyüşdə itsə də gözüm,
Qulağım, ayağım, qolum, ey Vətən!

Sən darda qaldıqca, mən intizarda,
Dinc yata bilmərəm o lal məzarda,
Vətən! – deyib dinər, ağlar ruzgarda,
Hər otum, çiçəyim, kolum, ey Vətən!

Yox! Yox! Arxayınam, öz bəhərim var,
Evimdə balaca bir əsgərim var,
Daha nə nisgilim, nə kədərim var,
Nə də pərişandır halım, ey Vətən!

Nə qəm, ağ gününü görməsəm hərgah,
Sənin bayramına, bilirəm, sabah
Mehriban, gülümsər, ağıllı, gümrah
Oğlum gələcəkdir, oğlum, ey Vətən!

***İyun, 1960.***

## SADƏ LƏQƏBLƏR

“Vətən!” deyə döyüşlərə girsəm də mən,
Dinc həyatın sənətkarı deyin mənə!
Gözlərimlə qara günlər görsəm də mən,
Ağ günlərin nəğməkarı deyin mənə!

Sinəsini oda tutub fəlakətin,
Yaxasına günəş taxdıq səadətin.
Yalnız bir il ömür sürən hökumətin*
Bəyaz saçlı yadigarı deyin mənə!

Döyüş sazı çalmasam da neçə yurdda,
Zəfər səsi salmasam da neçə yurdda,
Şöhrət tacı olmasam da neçə yurdda,
Öz yurdumun iftixarı deyin mənə!

*1979.*

* 1945-ci ildə Cənubi Azərbaycanda yaranmış Milli hökumətə işarədir.





# Döyüş illəri



## DÖYÜŞ YOLLARINDA

*Hizbi-tudeyi İrana*

Odlu səngərlərə atılanda biz,
Sənin adın gəzdi bayrağımızda!
Nəmli zindanlara qatılanda biz,
Sənin adın gəzdi dodağımızda!

Haçan təhlükəli döyüşə girdik,
Əllərinlə tutdun əllərimizdən.
Sənə iftixarla hədiyyə verdik
Öz odlu-alovlu illərimizdən.

Azadvətən, Xosrov, Əyyub, Səyamək
Sənin mərd əsgərin, mərd övladındır!
Könlümüzdə doğan günəşli dilək
Sənin öz arzundur, öz muradındır!

Vətənin mübariz övladlarıyla
Hər yerdə, hər zaman görüşən sənsən!
Böyük azadlığın cəlladlarıyla
Hər yerdə, hər zaman döyüşən sənsən!

Bəli! Qırx ildir ki, qaynar İranda
Səadət rəmzidir şöhrətin sənin!
Tək İranda deyil, bütün cahanda
Dildən-dilə gəzir söhbətin sənin!

Yüz il xidmətini tərənnüm etsəm,
Nə susar, nə də ki, yorularam mən!
Cəbhədən-cəbhəyə ardınca getsəm,
Yenə qüdrətinə vurularam mən!



Yağı əl atmasın nahaq qılınca,
Biz gur dalğalarıq, sən coşğun ümman!
Zəfər limanına sənin dalınca
Uğurlarla gedir döyüşən İran!

Səadətin yolu uzun olsa da,
Gecəni-gündüzə qatacağıq biz.
Qarşıda nə qədər çovğun olsa da,
Səninlə günəşə çatacağıq biz!..

***1978.***

## TEHRAN

Adın əzbər idi məndən də qabaq
Rəiyyət babamın dodaqlarında.
Mən də görkəmini görmüşəm ancaq
"Qorxulu Tehran"ın varaqlarında.

Doğrusu, o zaman sən nə qədər də
Mənim gözlərimə aciz göründün.
Taleyin dolaşıq... Sənsə xətərdə
Dalğasız, tufansız dəniz göründün.

Şahlar gül açmamış diləklər kimi
Nakam ürəklərdən qopardı səni.
Başsız uğuldayan küləklər kimi
İstədiyi yerə apardı səni...

Göydən od yağanda hər nazlı dilbər
Sənin yaylağında dincəldi ancaq.
Sən şişdikcə şişdin... Nə qədər şəhər
Sənin ucbatından incəldi ancaq...

Özləri düşmədi, sən saldın dilə
Neçə hökmdarı, neçə varisi.
Səni bəzədilər cənablar hələ
Adına dedilər Şərqin Parisi.

Danış! Yaşadınmı şirin sözlərdə?
Yox! Yox! Kiçilmədin qoltuqlarda sən.
Yaşadın qəzəblə yanan gözlərdə,
Bir də düyünlənmiş yumruqlarda sən.

Məsləklər toqquşdu. Neçə ürəyin
Öz odu özünü yandırdı bəzən.
Tankların altında qalan kürəyin
Bir yol ayrıcını andırdı bəzən.

Yaman ikiləşdin öz içində sən,
Düşdün təzadların sıx dumanına.
Yoxsul tanınsa da, dəyişmədim mən
Fəhlə Tehranını Şah Tehranına.

Sənin ismətini mən harda tapdım?
Yastı daxmalarda! Dar həyətlərdə!
Sənin surətini mən harda tapdım?
Durğun baxışlarda! Mərd sifətlərdə!

Sinəndə yüksələn qəşəng binalar
Həm yadı səslədi, həm də doğmanı.
Ancaq qatarlanan nəhəng binalar
Əridə bilmədi min-min daxmanı.

Sənin əzəmətin, sənin vüsətin
O adsız, o boysuz daxmalardadır.
Sənin gözəlliyin, sənin qiymətin
O pulsuz, o toysuz daxmalardadır.



Sən Firdovsiyə bax! Ağır kədərdən
Daha da ağarmış uzun saqqalı.
Sanki iki karvan keçmiş şəhərdən,
Biri əziyyətli, biri cəlallı.

Düşünür o təmiz, o xoş niyyətli;
Kim açır sabaha aydın yolları?
Firdovsi ilhamlı, Gavə cürətli
Bugünkü Tehranın Rüstəm-zalları.

Postament üstündə dahi sənətkar
Deyəsən qapayır öz dastanını.
Yaratmaq istəyir ölməz nəğməkar
Döyüşən Tehranın söz dastanını.

Gecələr əlimə qələm alanda
Mən səni yazmadım Təbrizdən ayrı.
Yox! Yer bir olanda, göy bir olanda,
Dəniz yaşamamış dənizdən ayrı.

Bil ki, sən ikinci Təbrizsən mənə,
Yatanda o səndən nigaran yatır.
Bir də ona görə əzizsən mənə
Sənin qucağında Səttarxan yatır.

Təbriz döyüşəndə səadət deyə,
Sən də iftixarla baxdın Təbrizə.
– Yaşasın dünyada ədalət! – deyə
Məslək havadarı çıxdın Təbrizə.

Mənim qurbanımdır sənin qurbanın,
Könlümə məhrəmdir odun, alovun.
Nisgillə yazdığım iki dastanın
Biri Əyyubundur, biri Xosrovun...

Sənin gözişləməz üfüqlərində
Körpə təbəssümlü günəş görürəm.
Sənin al köynəkli şəfəqlərində
Ürəklərdən qopan atəş görürəm.

Səni görməsəm də, nə zərər... Axır
Bir gün salamına çıxacağam mən!
O sadiq, o təmiz, o mərd, o ağır
Fəhlə əllərini sıxacağam mən!

*1978.*

## MƏHƏK DAŞI

Ey mübariz Təbriz, döyüşən Təbriz,
Ey çalxanan Təbriz, dəyişən Təbriz,
Doğma ünvanısan sən Səttarxanın,
Odlu ürəyisən Azərbaycanın!
Hər yaşıl dərbəndin, hər yaşıl küçən,
Arzularla dolu bağrından keçən
Yaşıl damarındır, uzanıb gedir,
Qızıl damarındır, uzanıb gedir,
Gedir, arzuların dalınca gedir,
Gedir, arzular kam alınca gedir...
Dünənin, bu günün mücahiditək,
Yeni tarixinin bir şahiditək,
Neçə məğrur baxan şəhərə baxdım,
Neçə şəhər haqda əsərə baxdım,
Başı inqilablar yolunda bəlkə
Sənin başın qədər bəlalar çəkə.
Doğrusu tapmadım elə bir şəhər,
Köksü yaralana səninki qədər.
Min misra doğuldu hər cığırından,
Güllə yağışından, top yağmurundan



Sənin dağların da dilik-dilikdir,
Sənin daşların da dəlik-dəlikdir...
Yanki təbəssümlə baxdı gözünə,
Sənsə darvazanı açdın üzünə.
Hələ ülfətin də mehriban oldu,
Min nemətlə dolu dəstərxan oldu
Zəmili, bostanlı, bağlı qucağın.
Sandın təbəssümlə gələn "qonağ"ın
Özü nəciblikdə özün kimidir,
Sözü bütövlükdə sözün kimidir.
Doğma övladların darda qalanda,
Yerlərə, göylərə haray salanda,
Kimsədən nə kömək, nə vədə aldın,
Döyüş meydanında tək-tənha qaldın.
Elə yıxılanlar olur dünyada,
Niyyəti qönçədə solur dünyada.
Sən yıxıldınsa da qalxdın ayağa,
Niyyətin rişələr atdı torpağa...
Xəcalət çəkmədin ellər içində,
Odunu közərtdin küllər içində...
Sənin qalibiyyət dastanın da var,
Sənin məğlubiyyət nöqsanın da var.
Fəqət çaşdırmadı təzadlar səni,
Oyatdı yuxudan fəryadlar səni.
Bəli! Sən dünənki Təbriz deyilsən,
Yenə gurlayırsan, səssiz deyilsən.
Atıl, fırtınalar qoynuna, atıl,
Minnət qoymasınlar boynuna, atıl,
Üstünə dalğalar gəlsə də dağ-dağ,
Ya dərinliyə bat, ya zirvəyə qalx!
Məhəbbət, sədaqət, himmət başqadır,
Təmənna, umacaq, minnət başqadır.

Başında qaxınca çevrilsə minnət,
Zirvə vüqarını parçalar töhmət.
Ey öz sabahını özü yaradan,
Sərraf ol! Seç, ayır ağı-qaradan!
Vətən bir qiymətli xəzinədirsə,
Hələ neçə yeri dəfinədirsə,
Sənin də hər daşın məhək daşıdır,
Sınaqda dünyanın nəhəng daşıdır!

*1978.*

## İKİ ALƏM

### I

Tehran. Mərmər sarayda
Çilçıraqlar parlayır.
Bu yanda tost deyilir,
O yanda caz gurlayır.
Hökmdara qonaqdır
Neçə ədalı əfsər.
Vaşinqtondan gələn
Neçə xatalı mister.
Süfrədəki xörəklər
Əlvan gülşən təhərdir.
Çiyinlərdə sayrışan
Ulduz sayı qədərdir.
Hökmdar istəyir ki
Öz ömrünü uzatsın.
Meşələrdən sərnizə,
Dağlardan tank yaratsın.
Bəlkə zorla saxlasın
Taxtını, dövlətini,
Bir də, yorğun İrana
Yük olan şöhrətini.



### II

Tehran. Göydə ulduzlar
Sarımtıl xallar təki...
Kasıb adamın əli
Çatmayan pullar təki.
Ananın qucağında
Ac bir körpə ağlayır.
Kövrək hıçqırığıyla
Ürəkləri dağlayır.
Bəlkə o ehtiyacın
Əlləriylə döyülür.
Birdən kiriyir... Kiçik
Yumruqları düyülür.
Sanki deyir, hökmdar,
Nədir o işrət, o şam?
De, səndən əskikmidir
Mənim zəhmətkeş atam?
"Səadət!" deyə-deyə
Çırpınır addımbaşı.
Bu gün keçdi, sabah da
Mən varam sənə qarşı.

Hökmdar görür nə söz,
Nə zor gəlir hayana.
Gündə bir vədə verir
Milyon-milyon insana.
"Torpaq verir" kəndliyə,
"Hüquq verir" qadına.
Bəlkə bir az su səpə
İnqilabın oduna.

Yox! Bir qığılcım deyil,
Sönə bilə o atəş.
Bəs nədir? Sinələrdə
İllərlə yanan günəş!
Hökmdar düşünür ki,
Neçə güzəştlə bəlkə
İnqilabdan çəkinər
İnqilabçı bir ölkə.
Yox, azadlıq təşnəsi
O insanların artıq,
Həkimi inqilabdır,
Dərmanısa azadlıq!

***1978.***

## ALOVLAR

İnsan dalğalı İran
Bir döyüş ümmanıdır.
Üstü açıq olsa da
O xalqlar zindanıdır.
Zindanban şah özüdür
Cəllad atası kimi.
Dərbar cinayətlərin
Qanlı yuvası kimi.
Xalqlar lənət yağdırır
Şaha da, dərbara da.
Vədəsi çox, xeyri yox,
Əmrə də, qərara da.
Şah təlaş içindədir,
Daha ümid nə taca,
Nə də sabaha qalmış.
Yalnız bir Pentaqona,
Bir də silaha qalmış.



Dünən silah atəşi
Sinələrdə alışdı.
Kərpic kürələrinin
Alovuna qarışdı.
Göz yaşıyla yoğrulan
Neçə fəhlə həyatı
Alovlandı...atəşlə
Yandı qolu-qanadı.
Yox! Düşmən bilmədi ki
Onun açdığı atəş,
Günahsız fəhlələrə
Nahaq saçdığı atəş
Aydınlaşdırır döyüş
Yollarını daha da.
Baha başa gələcək
Dərbara da, şaha da!
O alovlar təzədən
Bir meydanda göründü.
Üsyankar tələbələr
Alovlara büründü...
Yox! Atəşin önündə
Gurladı tufan kimi.
Sinif dəftərlərini
Qaldırıb qalxan kimi
Döşünün üstə basdı,
Qısıldı bir-birinə.
Deşilmiş varaqlara
Sonuncu dərs yerinə
İnqilab nəğməsini
Yazdı öz qanlarıyla.
Ölməz dastana döndü
Ömrün son anlarıyla.

O alovlar sazaqlı
Gecənin zamanında
Bir də şırımlar açdı
Təbrizin zindanında.
Öz ana Vətənini
Ağ günə səsləyənlər,
Şöhrətini çiynində
Qaldırmaq istəyənlər,
Özü qara torpağa
Atəşlərlə yıxıldı,
Arzusu istibdadın
Nəfəsiylə dağıldı.
Yox! Qartal xəyallarda
Ucaldıqca surəti,
Baharlı ürəklərdə
Pardaxlandı niyyəti.
Nə qədər ki o xalqlar
Silah almamış ələ,
O alovlar çox yerdə
Görünəcəkdir hələ.
Bir dayaq ola bəlkə
O tüfəng, o sərnizə
Tir-tir əsən Dərbara,
Tir-tir əsən dəhlizə...
Qoy olsun! Şah silahla
Saxlasın dövlətini.
Fəqət qoy unutmasın
Xalqların nifrətini.
Qoy bilsin, yaman olur
Qəzəbin alovları.
Boz küllərə döndərir
Pas atmış buxovları.



Elə ki o alovlar
Şöləlṇndi ocaqtək,
Vətənin başı üstdə
Dalğalandı bayraqtək,
Şahı da, Dərbarı da,
Hənki də, leşkəri də,
Vəziri də, xanı da,
Lordu da, misteri də
Yolumuzun üstündən
Atacaqdır kənara.
Şəfqətli əlimizdən
O müqəddəs diyara
Barıt, tüstü, qan deyil,
Şəfəq saçılacaqdır.
Gecə uzun olsa da
Səhər açılacaqdır!

***1979.***

## ƏFSƏR

Yadımdadır hələ sənin uşaqlığın,
Məsumluğun, nadanlığın, şıltaqlığın,
Hava sakit, yuxu şirin, çəmən yaşıl,
Sən yatardın yanımdaca mışıl-mışıl...
Gözlərimi gözlərinə dikərdim mən,
Keşiyini gözlərimlə çəkərdim mən.
Sən xalamın ciyərinin parasıydın,
Nisgil dolu gözlərinin qarasıydın.
Fəqət indi bir əfsərsən, paqonun var,
Sənin də öz vəzifən var, qanunun var.
Gözlərini mərmər qəsrə dikirsən sən,
Hökmdarın keşiyini çəkirsən sən.

Axı mən də keşikçiyəm!
Səhər-axşam
Yalnız haqqın keşiyində dayanmışam!
Mən yanıram, şimşək olub çaxım deyə,
Mərmər qəsri təməlindən yıxım deyə.
Bu yolda sən mənə qarşı çıxsan əgər,
Unutma ki ilk zərbəm də sənə dəyər.
Bəli! Səni ayaq üstdə haçalaram,
Qohumum yox, qəlbim olsan parçalaram.
Xeyr, xeyr, bilirəm ki, indi sən də
Mərmər qəsrin qapısından durub gendə,
Daim məqam axtarırsan...
Min-min insan
İstibdadın üzərinə gedən zaman
Öz borcunu sən birinci ödəyəsən,
Mərmər qəsri güllələrlə çitəyəsən.
Sən hazırlaş! Ancaq qardaş, addımbaşı
Hər hiyləyə, təhlükəyə, zülmə qarşı
Kinlə yansın baxışların alov kimi.
Sən Səyamək,
Mübəşşiri,
Xosrov kimi
Carçısı ol təntənəli səhərlərin,
Od ürəkli, mərd sifətli əfsərlərin
Dalınca get!
Get əzizim, son nəfəsin qalınca get!

***1979.***



## GÜLLƏR

Şəhər fırtınalı bir ümman təki
Döyürdü sükutun sahillərini.
Azadlıq səsləri bir tufan təki
Keçirdi dözümün mənzillərini.

Qüdrət ucalırdı inamın üstdə
İnsanlar məğrurdu, tələblər haqlı.
Əsgərlər gəlirdi qiyamın üstə
Toplu, pulemyotlu, tüfəngli, tanklı.

İnqilab bayraqlı qoca da, gənc də
Dəmir yumruğuyla daş qoparırdı.
Xəstə də, sağlam da, yorğun da, dinc də,
Əlində bir dənə gül aparırdı.

Əllərdə məhəbbət timsalı olan
Güllər həm əlvandı, həm təzə-tərdi.
Əllərdə ünsiyyət timsalı olan
Güllər əsgərlərin sayı qədərdi.

Güllər neçə-neçə igid insanın
Döyüş dastanının varaqlarıydı.
Güllər neçə-neçə şəhid insanın
Ömür gülşəninin yarpaqlarıydı.

Güllər neçə-neçə məğrur insanın
Təlaşdan titrəyən dodaqlarıydı.
Güllər neçə-neçə cəsur ananın
Qəzəbdən alışan yanaqlarıydı.

Güllər neçə-neçə nakam qalanın
Nəmli gözlərini xatırladırdı.
Güllər neçə-neçə körpə balanın
Məsum üzlərini xatırladırdı.

İnsan dənizinə çatıb sürətlə
Dalğalar içində qaldı əsgərlər.
Üsyançı qoşundan hissi-hörmətlə
Uzanan gülləri aldı əsgərlər.

Tərəddüd kəssə də yolu sədd kimi,
Ürəkdə çarpışdı vicdanla xidmət...
Yolun ayrıcında durub mərd kimi
Hünər bayrağını qaldırdı qeyrət.

Bəli! Çəkinmədi əsgərlər ömrün
Uğursuz taledə qəzasından da.
Qorxmadı ölkədə hakim bir əmrin
Ən ağır, ən müdhiş cəzasından da.

Hiddətli gözlərə şəfəqli güllər
Ədalət işığı çilədi, düzü.
Soyuq tətiklərdə titrəyən əllər
Atəşdən imtina elədi, düzü.

Gözləri şəbnəmli güllərdən ordu
Vətən torpağının ətrini aldı.
Dərindən duyduqca döyüşən yurdu
Boşalmış qolunu yanına saldı.

Elə bil açılmış gül təbəssümü
Qəzəbdən tutulmuş üzlərə qondu.
Vətən məhəbbəti, el təbəssümü
Riqqətdən yaşarmış gözlərə qondu.



Əsgərlər düşündü, çarpışma vaxtı
Niyə qanlar axsın al sellər təki.
Günahsız Vətənin düyünlü baxtı
Niyə açılmasın bu güllər təki?

Sən demə ürəkdə qaya yaranır
Nisgil sərtləşəndə, dərd daşlaşanda.
Fəqət bir ümidli dünya yaranır
Güllələr güllərlə qardaşlaşanda...

***1979.***

## İKİ TÖHFƏ

Müdrik bir anasan, sən, ana Təbriz,
Xoya, Ərdəbilə, Zəncana, Təbriz!
Urmiyə, Marağa, Miyana, Sərab,
Səndən öyrəndi ki, nədir inqilab?
Şəhərim! Sən idin ilk inandığım,
Yenə sən olubsan ilkin andığım!
Şanlı keçmişini yada salıb sən,
Ölməz Sərdarına sadiq qalıb sən,
Döndün inqilabın ilk səngərinə,
İlhamlı sənətin baş əsərinə!
Sən oda-alova vurub özünü,
Acizlik, mütilik, süstlük sözünü
Birdəfəlik atdın öz üzərindən,
Bir tarix yarandı hər hünərindən...
Səni kərpic-kərpic qaldıran zaman
Ülvi pərvazına mat qaldı, inan!
Soyuq səngərlərdə yatan oğullar,
Alova-tüstüyə batan oğullar
Mənim də başımı ucaltdı göyə,
Döyüşən yurdumla fəxr edim deyə.

Axı o mərdlərin yanında idi,
Canımdan ayrılan canında idi
Ümman təlatümlü ürəyim mənim,
Vətən tərənnümlü ürəyim mənim.
Daşlı meydanlarda mərmər döşüylə,
Qəfil atəşlərə sipər döşüylə
İngilis tankını saxlayan qızlar,
– Azad Təbriz! – deyə çağlayan qızlar
Okeanlar dalından gələn topların,
Lüləsi gözləri dələn topların,
– Yanğın! – Ölüm! – deyən qara ağzını,
Ömürləri yeyən qara ağzını,
Büllur yumruğuyla yumdu sinəndə,
Səngərdən-səngərə cumdu sinəndə...
Bir illik dövlətdən yadigar qalan,
Bir vüsal gününə intizar qalan,
Radio həycanla danışdı birdən,
Efirdə gurlayan neçə şeirdən
Biri də mənimdi...
                Dedim nəhayət.
İnamlı səsilə dindi sədaqət.
Zirvədən-zirvəyə qalxsa da qartal,
Dünyaya yüksəkdən baxsa da qartal,
Ana torpağına enər axırda,
Doğma yuvasına dönər axırda...
Başından bəlalar sovdun, şəhərim!
Babək qeyrətilə qovdun, şəhərim,
Canavar tamahlı hökmdarı da,
Əjdaha nəfəsli qəsbkarı da!
Ey əziz diyarım, doğma şəhərim,
Ey ümid çırağım, tale ülkərim,



Vətənin durulan asimanında,
Sabaha uzanan kəhkəşanında
Yenə ulduz-ulduz doğası sənsən,
Birinci inqilab dalğası sənsən!
Yadında varmıdır gənc həyatımın,
Mübariz, bəxtiyar, dinc həyatımın
Bahar çəmənindən güllər dərmişdim.
Qalib şəhərimə töhfə vermişdim.
İndi mənim doğmam! Qalan ömrümün,
Bir baba yaşına dolan ömrümün
Payız çəmənindən güllər dərirəm,
Qalib şəhərimə töhfə verirəm...

***1979.***

## “ZALIM-MƏZLUM”

*Məhəmmədrza Pəhləviyə*

Sən kimsən?
        Sən xalqın sərvətlərini
Özgəyə hədiyyə yollayan satqın!
Ürəkdə boy atan niyyətlərini
Yadın qılıncıyla dallayan satqın!

Sən kimsən? Səngərlər alan mərdlərin
Tozlu başmağına dəyməyən cəllad!
Kininin qurbanı olan mərdlərin
Bircə dırnağına dəyməyən cəllad!

Hanı Xosrov, Pərviz, Firudin, Əyyub?
İnqilab dalğalı sellərlə gəlsin!
Öz doğma dilində hökmünü deyib,
Sərgərdan gününə ürəkdən gülsün!

O mərd igidlərə sorğu günündə
Ölüm fərmanını kəsən sən oldun.
Fəqət buz nəfəsli ölüm önündə
Şax dayanan onlar, əsən sən oldun!

Kişilər qorxmadı, ürək sözünü
Yazdı inqilabın bayraqlarına.
Sən də qorxmurdunsa niyə özünü
Atdın özgəsinin ayaqlarına.

Göydələn Tehranı tapdalayıb sən,
Yad ellərə gedən yola çevirdin.
O boyda İranı xırdalayıb sən,
Qəbzə, qəbaləyə, pula çevirdin...

Haram milyardlara sənmisən çatan?
Bir dünya danışır nə vaxtdır səndən.
Vətənin daşına baş qoyub yatan
Pulsuz dilənçi də xoşbaxtdır səndən.

Xəzinə-xəzinə daş-qaşlarınla
Sən ki, gözlərində yaş, dilənirsən.
Baş qoyub yatmaqçın sirdaşlarınla
Adidən də adi daş dilənirsən.

Hanı gözlərinin bulaqlarında
Zalım təkəbbürün, çılğın hiddətin?
İndi özgələrin torpaqlarında
“Məzlum” bir qiyafə alıb sifətin.

Tarixdə dözərək ən böyük dərdə
İranlı İranı atar odlara!
Öz əlləri ilə yandırar. Bir də
Öz əlləri üstdə verməz yadlara.



Səs verib taxt-tacı devirənlərə,
Zaman neçə şahı devirib, qatil!
Xalqa arxasını çevirənlərə
Xalq da təpiyini çevirib, qatil!

Xalqın dərisini elə soydun ki,
Kimsədə salamat dəri qalmadı.
Ölkəni hərraca elə qoydun ki,
Özünə bir qəbir yeri qalmadı.

Atanın çürümüş sümüyünü sən
Qürbətdən Vətənə gətirdin... fəqət
Sənin sümüyünü bilirəm ki, mən,
Qürbət əridəcək hardasa, qürbət...

***1979.***

## MƏRƏZ

Dedilər şah mərizdir,
Mərəzi də xərçəngdir.
O İranın köksündə
Yanıb-sönmüş fişəngdir.
Dedim xərçəng törəyir
İnsanın bədənində.
Şah özüsə xərçəngdir
İranın bədənində...
Gec olsa da yaxşı ki
İnqilabın bıçağı,
İrandan kəsib atdı
O dəhşətli caynağı...

***1978.***

## SƏRVƏT

Sən hökmdar, mən şair...
Fərqimiz nə təhərdir?
Sən deyərsən dünyada
Yerdən göyə qədərdir.
Tələsmə! Dayan bir az,
Fərqimizi mən deyim.
Sən almasdan libas tax,
Mən şeirdən don geyim.
Qabağımdadır sənin
Sərvətinin surəti.
Neçə sütuna sığmır
Cənabının sərvəti.
Bu sərvətlə nə qədər
Payı ayırmaq olar.
Çılpağı geyindirmək,
Acı doyurmaq olar...
Bu sərvətlə nə qədər
Kənd-şəhər salmaq olar.
Dünyada istədiyin
Torpağı almaq olar.
Bəli! Yalnız torpağı,
Xalq dediyin satılmaz.
Cansız, dilsiz, ürəksiz
Daş-qaşlara qatılmaz.
Sən zülmün mahnısında
Bir nəqərat olubsan.
Gah tacirə dönübsən,
Gah diplomat olubsan.



Fəryad da dinləmisən,
Şadlıq da dinləmisən.
Ancaq sən fəryadı da
Şadlıqda dinləmisən.
Neçə xanəndəni də,
Neçə minacatı da,
Neçə generalı da,
Neçə diplomatı da,
Dayanıb dinləmisən
Sevinclə sən, kinlə sən.
İndi də şeir yazan
Fədaini dinlə sən!
Sənin sərvətin varsa,
Mənim də sərvətim var!
Sənin mənə,
                Mənim də
Sənə min nifrətim var!
Sənin sərvətin daş-qaş,
Mənim sərvətim nəğmə!
Səninki çanaq-çanaq,
Mənimki çeşmə-çeşmə...
Sən sərvət toplamaqçın
Uşağı da soyubsan,
Böyüyü də soyubsan,
Qonağı da soyubsan...
Arzunu da soyubsan,
Həsədi də soyubsan,
Ocağı da soyubsan,
Məbədi də soyubsan.

Mən sərvət toplamaqçın
Ürəyimi soymuşam,
Xəyalımı soymuşam,
Bəbəyimi soymuşam,
Qələmimi soymuşam,
İlhamımı soymuşam,
Səhərimi soymuşam,
Axşamımı soymuşam.
Sən də yola çıxmısan,
Mən də yola çıxmışam.
Sən vətəndən yığıbsan,
Mən vətənçin yığmışam.
Sən oğrular yoluyla
Gedibsən həris kimi.
Mən dahilər dalınca
Düşmüşəm varis kimi.
Sənin topladıqların
Nifrət qazanıb ancaq.
Mənim topladıqlarım
Hörmət qazanıb ancaq.
Sənin sərvətin üstə
Top, təyyarə, tank durur.
Mənim sərvətiminsə
Keşiyində xalq durur.
Sənin sərvətin parlaq,
Gələcəyin sönükdür.
Mənim sərvətim "kiçik",
Gələcəyim böyükdür...

***1975.***



## DÖVRAN TƏZƏLƏNİR

Daha təzələnir köhnə təbiət,
Vətən! Sən də təzə hünər ver mənə.
Bahardan danışır mənə təbiət,
Bahardan yazmağa dəftər ver mənə!

Kim deyər ilhamım dönükdür mənim,
Odlu misralarım sönükdür mənim,
Sənətim dünyadan böyükdür mənim,
Meydanı istəyim qədər ver mənə!

Səttarxan dedi ki, kişidir adım,
Gərək vətən deyə səngərə yatım.
Döyüş meydanında hazırdır atım,
Belinə qoymağa yəhər ver mənə!

"Vətən, vətən!" deyə mən döyüşürəm,
Saçıma düşsə də dən, döyüşürəm,
Yolları alsa da çən, döyüşürəm,
Günəşli dağlarda səngər ver mənə!

Mənim şair dostum, götür varağı,
Sən də tərənnüm et azad növrağı!
Möhtəşəm ölkəni, ana torpağı
Döyüşə aparan əsər ver mənə!

Mən də su yerinə od içərmişəm,
Kim bilmir gah yanmış, gah cücərmişəm.
Haçandır ümidlə bağ becərmişəm,
Bəs meyvəsi hanı? Bəhər ver mənə!

Yetməzmi çay, bulaq, kəhriz ağladı,
Qızılgül, qərənfil, nərgiz ağladı,
Ərdəbil, Urmiyə, Təbriz ağladı,
Dodağı gülüşlü şəhər ver mənə!

Düzdür, məngənədə sıxıldıq bəzən,
Sənə and içməyə yığıldıq bəzən,
Bəsdir, uçrumlardan yıxıldıq bəzən,
Uca zirvələrdə zəfər ver mənə!

***1979.***

## NƏĞMƏLİ GECƏLƏR

Gecələr çağlasa da
Sular şaqqıltılarla,
Sən mənim otağımda
Şirin pıçıltılarla,
Ana dilli nəğmələr
Oxuyan bulağımsan.
Mən sənin qonağınam,
Sən mənim qonağımsan!
Sən dalğalar içində
Dəyməsən də gözümə,
Radionu ikiəlli
Söykəyirəm üzümə.
Hər kiçik sözünü də
Daha yaxşı tutam mən.
Doğma Təbriz havalı
Nəfəsini udam mən.
Sən neçə-neçə şeiri
Söylədikcə sinədən,
Mən gənclik illərimi
Yaşayıram yenidən.



Sənin şeir dediyin
O otaqda haçandır,
Mənim ayaq izlərim
Tarixdən bir nişandır.
Nə zaman fədailər
Uzağa səfər etdi,
Sinəsini sərhəddə
Vətənə sipər etdi,
Mən də şeirimlə keçdim
Mikrafon arxasına.
Döş gərdim radioların
İftira dalğasına...
Sevinirəm, boş deyil
Bir vaxt and içdiyim yol.
Döyüş bayrağı altda
Qürurla keçdiyim yol.
Bu yolda iftixarla
Ölənlərim də vardır.
Arxamca sədaqətlə
Gələnlərim də vardır.
Sahir yeni ilhama
Çağırsın Şəhriyarı.
Azadlıq yollarına
Çevirsin misraları.
Yanaşı addımlasın
Müdriklərlə igidlər.
Başlar üstdə bayrağa
Dönsün ölməz şəhidlər.
Savalan şeir yazsın,
Unutmasın Səhəndi.
Səadətə səsləsin
Hər şəhəri, hər kəndi.

Çayoğlunun sənəti
Dalğa-dalğa danışsın.
Coşğunun ilhamına
Coşa-coşa qarışsın...
Təlatümə gətirsin
Ürəkləri, dilləri,
Tarlardakı simləri,
Sazlardakı telləri...

***1979.***

## OLMASAYDI

Gecələr darıxardım masamın arxasında
O taydakı dostlarla söhbətim olmasaydı.
Addımlaya bilməzdim inqilab dalğasında
Səttarxan iradəli sənətim olmasaydı.

Bəli! Mən təlatümlü bir ümmanda fanardım,
Ya daşqında batardım, ya tufanda sınardım,
Andı da, dözümü də, ümidi də danardım
Döyüşlərdə fədai şöhrətim olmasaydı.

Göydə ağ ulduzları qaraldılan ölkədə
Aya bənzəyim deyə götürərdim ləkə də.
Tənələr axınında boğulardım bəlkə də
Təbiətimdə Səhənd xislətim olmasaydı.

Doğma ocaqdan uzaq ilhamım soyuyardı,
Gündüzüm qaralardı, axşamım soyuyardı,
Günəşli sabahıma inamım soyuyardı,
Vətənin səadəti niyyətim olmasaydı.



İnsanam! İnsanların qayğısına qalardım,
Gələcək nəsilçin də düşüncəyə dalardım,
Ya binalar tikərdim, ya körpülər salardım,
Dünyada şeir yazmaq qismətim olmasaydı.

Varlandıra bilməzdim bir az da təbiəti,
Vətənin məhəbbəti, məsləkin qətiyyəti,
Qardaşın dəyanəti, qələmin məharəti,
Nəğmənin təravəti sərvətim olmasaydı.

Laylalar, bayatılar, qoşmalar şərbət təki,
Nağıllar, əfsanələr, məsəllər hikmət təki,
Söz incisi başımdan yağmazdı dövlət təki,
Ataların hər sözü hikmətim olmasaydı.

Sətirlərim Təbrizin qovuşan yollarıdır,
Azadlığa uzanan fədai qollarıdır,
Kim deyərdi sözlərim bir himnin xallarıdır,
Min arzulu dostlarla ülfətim olmasaydı.

Misralardan gül dəstə bağlayıb dəmət kimi,
Vətənə bağışladım təzətər nemət kimi...
Tarixdə yaşamazdım özüm də surət kimi,
Sənətdə neçə-neçə surətim olmasaydı.

Savalanın ağ qarı qalanır başımda da,
Keçdiyim yolun tozu ağarır qaşımda da...
Xiffətdən titrəməzdi səsim yüz yaşımda da,
– Vətən! – deyə mələyən həsrətim olmasaydı.

***1978.***

## BİLİRƏM

Dost! Səadət soraqlı
Qanadlı ilhamam mən!
Dünənə şahidəmsə,
Sabaha inamam mən!
Demə “bülbül təranəm
Uçsa da eldən-elə,
Öz doğma yuvasına
Qayıtmayıbdır hələ.
Təranəm yeni-yeni
Bağa qonur qədərsiz.
Yuva ondan xəbərsiz,
O yuvadan xəbərsiz.
Qədim Vətənim üçün
Təzə bir əsərəm mən.
Hələ kəşf olunmamış
Sirli bir ülkərəm mən”.
Düşmən məni gəzdi ki,
Özümü gülləməsin.
Tapmadı... İstədi ki,
Sözümü gülləməsin.
Öz xalqım özümü də,
Sözümü də gizlədi.
Doğma sahillərdəki
İzimi də gizlədi.
Bir oğul həsrətilə
Gündüzlər alışdı o.
Gizlətdiyi şəklimlə
Gecələr danışdı o.



Mən Təbrizdən çıxanda
Yolum oddu, tüstüydü.
Qışın günəşi soyuq,
Mənim yaram istiydi.
Dedim yaşıl işıqlı
Haqqa iman gətirrəm.
Təbrizə qayıdanda
Təzə dövran gətirrəm.
İndi mənim qayğıyla
Əkdiyim saf toxumlar,
Şəfəq dolu ülkərdən
Daha şəffaf toxumlar,
Ətirlər saça-saça
O tayda mənsiz bitir.
Göyərir budaq-budaq,
Ucalır çətir-çətir...
Sanma canlı toxumlar
Dilsiz torpaqda bitir.
Yox! Minlərlə danışan
Sözlü varaqda bitir...
Əlimdə bir qəzet var,
Təbriz qoxulu qəzet.
Mətin diləkli qəzet,
Kövrək duyğulu qəzet.
Burda vüqar dağım da,
Arzu dənizim də var!
Səsimi əks eləyən
“Mənim Təbrizim” də var!
Əlimdə bir jurnal var,
“Yoldaş” jurnalıdır o.
Təzə-tər gül nəfəsli
Səhənd qartalıdır o.

Burda mərd dostlarımla
Çıxıram görüşə mən.
Bir sırada gedirəm
“Döyüşdən-döyüşə” mən.
Bəli! Mənim yerimə
İndi canlı əksim də,
Odlu şeirlərimdə
Şimşəkləşən səsim də,
Darısqal daxmalardan
Meydanlara çıxıbdır.
Cilovlanan çaylardan
Ümmanlara çıxıbdır.
Sevinir azadlığa
Çıxan bir dustaq kimi.
Birləşmiş əllər üstdə
Ucalır bayraq kimi...
Axı mənim bayrağım
Elə Vətən olubdur.
Gözlərimdə yaş dolu
Gilə Vətən olubdur.
Nə danım, mən bu günü
Həsrətlə gözləmişəm.
Saçlarımda ağaran
Xiffətlə gözləmişəm.
İndi cavan şairlər
Yetirən məmləkətdə,
Neçə söz ustadını
İtirən məmləkətdə,
Qələmlər söz açanda
Hər doğma sənətkardan,



Təəssüflə danışır
“Sürgün”* bir nəğməkardan.
Danışır Vətənindən
Uzaqlaşan şairdən.
Hər şeirində Vətənlə
Qucaqlaşan şairdən.
Bir xalq vədlər alsa da
Gah şirin, gah da yağlı,
Axır ki, qət eləyib
Kim haqsızmış, kim haqlı.
“Haqq!” deyə, haqq yolunda
Ömrümü qoysam da mən,
Haqq naminə ağrılar,
Acılar duysam da mən,
Ümid dolu könlümü
Bağlamışam xalqıma.
Demişəm məni xalqım
Çatdıracaq haqqıma!

***1980.***

## MƏNİM KİTABIM

*İran İslam inqilabından sonra*
*Təbrizdə şeirlər kitabım nəşr edilmişdir.*

Qələmimdən yağan hər odlu şeiri
Desəm də düşmənə bir cavab kimi,
O yenə tapdadı sevdiyim yeri,
Köksündə dolaşdı bir əzab kimi.

* Tehranda Azərbaycan dilində çıxan “Varlıq” jurnalında
Əli Tudənin vətəndən sürgün olunduğu yazılıb.

O gəzdi mətbəə rəflərini də,
Dağıtdı sexlərin səflərini də,
İlkin kitabımın hərflərini də,
Pozdu bir zərərli haqq-hesab kimi.

Mən didərgin oldum, düşmən sahibkar,
Mən nigaran qaldım, Vətən intizar...
Neçə "ağzıgöyçək" dedi: nəğməkar
Vətəndən süründü bir yatab kimi.

Nəğməmdə səslənən hicran xalları
Keçdi dərələri, aşdı yalları...
Vüsal sorağında tozlu yolları
Ayağıma geydim boz corab kimi.

Ürək yaşamadı bir gün də yurdsuz,
Neçə yurd havası yaratdı notsuz...
Manqalsız, yelpiksiz, tüstüsüz, odsuz
Yandı cızhacızla bir kabab kimi.

Mən uddum hər dərdi əlli-ayaqlı,
Yox! Təmkinlə içdim döyüş bayraqlı...
Ana Vətənimin şəfa soraqlı
Sabahı naminə al şərab kimi.

Susmadım, ağrıdan bağırdım ancaq,
Bir xalqı döyüşə çağırdım ancaq,
Özüm nəğmə-nəğmə yağırdım ancaq
Döyüş meydanına inqilab kimi.

Yağırdım sel olum təki yurdumda,
Ümman çalxalandı sanki yurdumda...
Öz həddini aşan yanki yurdumda
Qalmadı, sürüşdü bir cənab kimi.



Göydə düyünlənən dəmir yumruqlar,
Göydə sıralanan zəncir yumruqlar,
Göydə şeirləşən sətir yumruqlar
Min nəğmə oxudu bir rübab kimi.

Nəğmələr bitməyir deyirlər indi,
Şeirdən zirehlər geyirlər indi,
Həsrətdən yaranan şeirlər indi
Öz yurdumda çıxır bir kitab kimi..

***1980.***

## GƏLLƏM

Vətən! Azad görsəm öz növrağını
Səndən fəsil-fəsil ötməyə gəlləm.
Sənət gülşənimin hər yarpağını
Bir vüsal bayrağı etməyə gəlləm.

Nə qədər yazsam da – Güclüyəm! – deyə,
Düşündüm – Vətənə borcluyam! – deyə,
Fəqət zənn etmə ki, suçluyam deyə
Qarşında utanıb-pörtməyə gəlləm.

Düşmən dağıtdısa cah-calalımı,
Nə səni unutdum, nə amalımı...
Həsrətin bəhəri ağ saqqalımı
Qara torpağına sürtməyə gəlləm.

Gəlləm borc verməyə, borc almağa yox,
Bir də gəncləşməyə, qocalmağa yox,
Sənin hicranında ucalmağa yox,
Sənin vüsalında itməyə gəlləm.

Mən gəlləm taleyin küləklərilə,
Ürəyin təzə-tər diləklərilə,
Şeirin gözüyaşlı çiçəklərilə
Şəhidlər qəbrini örtməyə gəlləm.

Çıxar pişvazıma şəhər də, kənd də,
Təbriz də, Urmu da, Xoy da, Mərənd də,
Mən həm Savalanda, həm də Səhənddə
Gəzdiyim yerlərə getməyə gəlləm.

Eh, qanad açdıqca şair xəyalı,
Gəzərəm gördüyüm neçə mahalı...
Muğanda gah buğda, gah qarğıdalı,
Gah noxud sütülü ütməyə gəlləm.

Mən nəğməli bülbül, sən bahar kimi,
Mən dözümlü aşıq, sən vüqar kimi,
Təzədən göyərən bir çinar kimi
Yanğılı sinəndə bitməyə gəlləm.

***1978.***



# Doğmalarım əzizlərim yaxınlarım



## BÜTÖV KAM

*Atamın xatirəsinə*

Atan sənin adını
Ələmqulu qoyubdur.
Bəlkə də taleyinə
Çıxış yolu qoyubdur.
Sən sabah hər arzunu
Bir əmələ yozasan.
Sonra da ələmində
Qızıl xətlə yazasan.
Həmişə ələminə
Qul olasan dünyada.
Həyatdan yalvar-yaxar
Kam alasan dünyada.
Ancaq sən istəyincə
Nə kam aldın dünyada,
Nə qocala-qocala
Mənə qaldın dünyada.
Arzu yaxşı uzunsa,
Ömür yaman gödəkdir.
Göz yumub-açanadək
Uçub gedən küləkdir.
Bəli! Sənin ələmin
Başın üstə qalxmadı.
Yazıları havada
Dalğa-dalğa axmadı.
Səngərləşən döyüşdə
Nə od gördün, nə alov.
Yox! Dalğalı saçında
Nə çən yatdı, nə qrov.



Ömür dumanda itdi
Körpə quzular kimi.
Hələ qönçə çağında
Solan arzular kimi.
Mənsə bahar yaşımda
Atılmışam döyüşə.
Meydanlarda birinci
Başlamışam yürüşə.
İstəmişəm qoynunda
Boy atdığım torpağa
Şimşək yox, şəfəq düşə,
Dolu yox, ulduz yağa...
Dövran məngənəsində
Məni sıxdıqca hər an,
Bədənim poladdan da
Möhkəm olmuşdur, inan!
Bəli! Bütün ağrılar
Çıxmış canımdan mənim.
Çətinliklər baş əyib
Keçmiş yanımdan mənim.
Mən millətimdən nə şan,
Nə də şöhrət ummuşam.
Ancaq sinəmdən gələn
Sözə rəğbət ummuşam.
Şöhrəti ayaqlayan
Nadir qəhrəman olur.
Şöhrət odunda yanan
Sonra peşiman olur.
Mən başımın üstünə
Qaldırdığım bayrağın,
Şimşəklərin ağzından
Saldırdığım bayrağın,

Yeni, möhtəşəm, təmiz
Təməlinə dönmüşəm.
Mərdin döyüş bayraqlı
Heykəlinə dönmüşəm.
Ancaq nədənsə sənə
Tay olmuşam, tay, ata!
Mən də kam almamışam
Bu həyatdan, ay ata!
Əl atmışam ki dərim
Öz qızılgüllərimi,
Təəssüf ki, tikanlar
Dalamış əllərimi.
Görəsən bu həyatdan
Bütöv bir kam alan var?
Varsa, odur dünyada
Bəxtiyardan bəxtiyar!

*1988.*

## ATA

### I

Bilmirəm ki, mərd sifətin
Sarı imiş, qara imiş.
Könlündəki məhəbbətin
Bütöv imiş, para imiş.

Bir şəklini gördüm yalnız
Bir pasportun kənarında...
Dörd yanında soyuq payız,
Sən də fəhlə paltarında...



Baxdım...
Susdum... Dözdü dərdə
Həsrətimin dodaqları.
Yadımdadır siman. Bir də
Papağının saçaqları.

Sanki məni ovutmaqçın
Bir anlığa qımışdın sən.
Ölümünü unutmaqçın
Dilləndin sən... Danışdın sən.

Qucaqlaşaq deyə hərdən
Mənə sarı uzandın da!
Geyiminə baxıb birdən
Öz oğlundan utandın da.

Nəsə dedin... Yox! Ömrünün
Dastanından dedin mənə!
Ağır dövrün hər əmrinin
Qurbanından dedin mənə!

### II

Sən doğuldun, bir axşam da
Ad qoydular "Ələmqulu".
Məlum oldu qara damda
Bir insanın ömür yolu...

Axı sənin atan-anan
Öz vaxtından tez solmuşdu.
Daxmasında zaman-zaman
"Ələm" duyub, "qul" olmuşdu.

Atan seçdi bu adını,
Baxdı yerə, baxdı göyə.
Nəsillər də fəryadını
Gələcəkdə bilsin deyə.

Sən o adı daşıdın, ah,
Başqaları sərvətini.
Bir yandan din, bir yandan şah
Oğurladı nemətini...

Bilmədin ki, sonra bu ad
Öz oğluna toxunacaq.
Bircə adda ağır həyat,
Bir də tarix oxunacaq.

### III

Bir nəvən var... Ömrün ilki,
Gözlərimin giləsidir!
Hər nəfəsi elə bil ki,
Həyatımın pilləsidir.

Dedim sənə hörmət qoyar,
Mərd daşıyar adını o.
Qorxdum... Dedim erkən duyar
Bu "ələmin" dadını o.

Söz qananda, tez adına
Etiraz da edər uşaq.
Necə ki, mən öz adına
Heyrət etdim ondan qabaq.



Bəli! Adın qəmlidir çox,
Pozdum "ələm" sözünü mən.
Qulunu da pozardım, yox,
Qorxdum adsız qalasan sən.

### IV

Bir şairəm, ata, mən də,
Təzə sözlər yazır qələm.
Yazır... Sabah doğma kənddə
Nə qul görsün, nə də ələm!

Sən olsan da, olmasan da
O gün mütləq gələcəkdir!
Yeniləşən kəndistanda
Nəvələrin güləcəkdir!

Deyəcəyəm ata, səsin
Gəlmirsə də daha nə dərd.
Qoy səadət qulu desin
Sənə indi bu doğma kənd...

***1960.***

## ƏBƏDİ SEVGİ

Ata! Savalanın mehini udmuş
Dili bayatılı bir kənd qadını,
Ələm kəlməsini ucada tutmuş,
Ələmqulu qoymuş sənin adını.

Sən isə sədaqət hissilə hər an
Təpədən-dırnağa dolu olubsan.
Bütün əməllərin fövqündə duran
Sevgi bayrağının qulu olubsan.

İri gözlərinin giləlləri ndə
Bir həyat yerləşib iki aləmtək.
Ömrün zirvələşən pillələrində
Sevgin başın üstə qalxıb ələmtək.

Dünyadan gedəndə əziz həyatı
Apara bilmədin özünlə birgə.
Ah! Şirin, füsunkar, ləziz həyatı
Dolmuş gözlərindən boşaltdın bəlkə.

Daşqını sükutla boşaltdın heyhat,
Səsin nə inlədi, nə haray saldı.
Bütün varlığınla sevdiyin həyat
Özündən sonra da sevginə qaldı.

Anam Şahbəyimin dodaqlarıyla
Xeyir-dua verdi muradlarıma.
Ömrümün yazılı varaqlarıyla
Qalacaq məndən də övladlarıma...

***1981.***

## MƏNİM ANAM

### I

Saatlarla əyləşib
Miz dalında ay anam,
İstəyirəm o doğma
Surətini mən anam.
Nə qədər düşünürəm
Ana bilmirəm ancaq!
Xəyalın qanadında
Anlar keçir bu sayaq...



Sən bəzən körpəsini
Sahibsiz qoyub gedən,
O beş yaşında ikən
Bu dünyanı tərk edən,
Baxışları buludlu,
İntizar bir anasan.
Dodaqları sükutlu,
İntizar bir anasan.
Bəzən şair oğlunun
Döyüşkən həyatını,
Odlu məhəbbətinin
Dörd gümrah övladını,
Kənardan gizlin süzən,
Bəxtiyar bir anasan!
Üzündə gülüş gəzən,
Bəxtiyar bir anasan!

### II

Bir o yadımdadır ki,
Gün qüruba gedirdi...
Qonşu kişi oğluna
Təzə çəkmə gətirdi.
Baxdım tutuldum, sanki
Həsrətdən çəkmə geydim.
Təpiyimi bir yetim
Quzu tək yerə döydüm...
Sanki zalım fələyi
Yerdə ayaqlayırdım.
Vaxtsız ölən atama
Mən indi ağlayırdım.

Sən dözmədin... Geyindin,
Qor ələndi canına...
Məni də geyindirib
Sonra saldın yanına.
Sən yeriyəndə sandım
Nisgillərim əriyir.
Yer titrəyir... Yanımca
Anam yox,  dağ yeriyir...
(Baş əyirəm sizə mən,
Analar!
            Mərd analar!
Bəzən ipəkdən incə,
Bəzən də sərt analar!
Sizsiniz namusun da,
Qeyrətin də şöhrəti!
Axı kişilər özü
Sizdən alır qeyrəti!)
Mağazanın içində
Bir nəzər saldın mənə.
Seçdiyim, bəyəndiyim
Bir çəkmə aldın mənə.
Gəldik... Sanki o gecə
Könlüm çıxdı kədərdən,
Atam da evə gəldi
Ən uzaq bir səfərdən.
Bir o yadımdadır ki
Səni incitdim yaman,
Hirsləndin... Gözlərini
Elə bil örtdü duman.



Qapıb başıma vurdun
İri qulplu çayniki.
Mən qışqırdım... Yuxudan
Ayıldın sən də sanki.
Nə ləyənə su tökdün,
Nə ocağa su qoydun,
Yox, əyilib yaramı
Sən göz yaşınla yudun...
Bir o yadımdadır ki,
Xəstəydin yatağında,
Özünü düşünməyib
Sən ölüm ayağında,
Baxdın açıq başıma,
Baxdın açıq sinəmə,
Məni düşündün...
                    nəsə
Pıçıldadın nənəmə...

### III

Ana! Fədakar insan!
Ana! Müqəddəs ana!
Yox, yox, bu gündən əsil
Tanrı deyirəm sənə.
Ana insan becərir,
Ana övlad yaradır.
Köhnə həyat içində
Yeni həyat yaradır.
Mənə elə gəlir ki,
O ay da, o ülkər də,
Üfüqdə gülümsəyən
O günəşli səhər də,

Dilsiz yaranmış... Amma
Anasız yaranmamış!
Axı xilqətdə heç şey
Mənasız yaranmamış...
Ana! Sənin bətnin də
Bir üsyan kürəsiymiş.
Məni bir əsgər doğub
Döyüşə verəsiymiş!
Hər səhər saçlarımı
Darayanda darağım,
Başımın çanağına
Toxunanda barmağım,
İçimdən yana-yana
Xatırlayıram səni...
Axı niyə dünyada
Vaxtsız tək qoydun məni?
Ana, mehriban ana,
Təki başımı deyil,
Gözlərimə yaraşıq
Qara qaşımı deyil,
Bu dolan gözlərimin
Giləsini çapaydın,
Fəqət nə ölə, nə də
Bu dünyadan qopaydın!
Sənin gözlərin olsa,
Çıraqları neylirəm?
Sənin nəfəsin olsa,
Yarpaqları neylirəm?
Sənin söhbətin olsa,
Kitabları neylirəm?
Sənin zümzümən olsa,
Rübabları neylirəm?



Bir yerim ağrıdımı,
Dərhal ailə bilir.
Yanıma uşaqlarım,
Bir də sevgilim gəlir.
Dərdimi nə övlada,
Nə də ona deyirəm...
Özüm də bilmirəm ki,
Niyə ana! – deyirəm.
Yox! Yox! Mən tək deyiləm,
Sən daim yanımdasan.
Sən daim könlümdəsən,
Sən daim canımdasan!

***1961.***

## ATA EVİNDƏ

Nə qardaş görmüşəm, nə də ki bacı,
Talesiz anadan tək doğulmuşam.
Nə var tənhalığın dadından acı?
Bəlkə də mən üzü bərk doğulmuşam?

Yalqız yaşayanda həsrətlə baxdım
Göydə yeddi qardaş ulduzlara mən.
Qayğıyla yanaşdım, hörmətlə baxdım
Öz yaşıdım olan yalqızlara mən.

Gördüm, zirvəsində xəyal dolaşan
Silsilə dağlar da yoldaşsız deyil.
Duydum, ətəyində qartal dolaşan
Karvan buludlar da sirdaşsız deyil.

Bəs necə? Tək-tənha ömrünü sürən
Səhrada bir qərib səda kimidir.
Həyatda göz açıb özünü görən
Dənizdə bir yalqız ada kimidir.

Böyüdüm! Açıldı qapı üzümə,
Gəzdimsə dünyanın harasında mən,
Qardaş da, bacı da tapdım özümə
Yaxşı adamların arasında mən.

Üç qız qardaşı var təkcə oğlumun,
İndi dörd deyilmi əvəzim mənim?
Ancaq diləkləri qönçə oğlumun
Nəfəsində yaşar nəfəsim mənim...

İlham sənətimin iqbalıdırsa,
Məslək əsərimin iradəsidir!
Oğul mərdliyimin timsalıdırsa,
Qızlar paklığımın abidəsidir!

Dörd uşaq – sabahın dörd təməl daşı
Adi söz üstündə küsür-barışır...
Fəqət ağrıyanda birinin başı,
Hamısının qəlbi gizli alışır...

Deyirəm nə zərər, öz sərtliyini
Kamala dolanda atar oğlum da!
Qızların toyunda öz mərdliyini
Bacı cehizinə qatar oğlum da!

Öz şirin ömrünün baharında o,
Dözər ayrılığın acılarına.
Atası evinin kandarında o,
Xeyir-dua verər bacılarına...



Qardaş qız sevdimi? Hisslər qaynayar,
Sirri bacı bilər hamıdan əvvəl.
Qardaşın toyunda de, kim oynayar,
Əlləri xınalı bacıdan gözəl?

Babalar deyib ki, qız ismətilə
Atanın döşündə gülü andırar.
Oğul öz hünəri, öz şöhrətilə
Atanın evində çıraq yandırar...

***1976.***

## NƏNƏLƏR

Nənələr, nənələr, əziz nənələr,
Sizdən, yalnız sizdən söhbət açıram.
Vicdanı günəşdən təmiz nənələr,
Mən sizdən yazdıqca hikmət saçıram.

O ağlı-qaralı tellərinizdən
Min məna oxunur bir nağıl kimi.
O arıq, o zərif əllərinizdən
Əyilib öpürəm bir oğul kimi.

Sizin əlinizlə qiymətlənibdir
Halal çörəyimiz, təmiz suyumuz.
Xeyir-duanızla zinətlənibdir
Neçə məclisimiz, neçə toyumuz.

Ağır zamanlarda siz doğubsunuz
İgid Tomrisi də, mərd Zeynəbi də!
Ana səsinizlə siz boğubsunuz
Hər küdurəti də, hər qəzəbi də!

Sizin nağıllara qulaq asanda
Dönüb özümüz də nağıllaşmışıq.
Harda bir düşməni bir dost basanda
Bərkimiş, böyümüş, ağıllaşmışıq.

Bəzən xəzan gəldi yağışlarıyla
Əlinizdən aldı sevgilinizi.
Bəzən ilk baharın naxışlarıyla
Xalıda yazdınız nisgilinizi.

Bəzən kişilərin özlərinə siz
Nümunə olubsuz qeyrətinizlə.
Bəzən alnınızda min əzabdan iz,
Kişi böyüdübsüz zəhmətinizlə.

Sizin gümüş rəngli hörüyünüzdə
Zamanın ən qarlı qışı yatıbdır.
Bir yuxu görməyən kirpiyinizdə
Dünyanın ən ağır daşı yatıbdır.

Bəzən məşəqqətli aylarınızı
Əlçimlə daraqda daramısınız.
Bəzən neyli-tarlı toylarınızı
Xalça hanasında aramısınız.

Yanıb-alovlanan ürəyinizi
Siz vətən yolunda alışdırıbsız.
Bəzən yerə atıb örpəyinizi
Nə qədər qanlını barışdırıbsız.

Bəzən əziyyətdən cana doyanda
Taleyi qarğayıb, bəxti söyübsüz.
Bəzən fələk sizi ərsiz qoyanda
Xırmanda vəl sürüb, taxıl döyübsüz.



Bəzən qılınc vuran əllərinizlə
Şeir də yazıbsız, saz da çalıbsız.
Bəzən əkdiyiniz güllərinizlə
Vətən torpağında tənha qalıbsız.

Bəzən neçə-neçə yamağa dönmüş
Təzə dona həsrət əyinləriniz.
Bəzən bir ölkədə dayağa dönmüş
O zərif, o arıq çiyinləriniz.

Nənələr, sinəsi kitab nənələr,
Deyin, kimlər doydu sözlərinizdən?
Nənələr, laylası rübab nənələr,
Ulduzlar boylandı gözlərinizdən.

Nənələr, indi də hər niyyətiniz
Bizim arzumuzdur, mətləbimizdir.
Sizin öyüdünüz, nəsihətiniz
Bəlkə də ən böyük məktəbimizdir!

Nənələr, nənələr, müdrik nənələr,
Bu gün də insana gərəksiniz siz.
Səksən yaşında da çevik nənələr,
Bütün ömürlərə bəzəksiniz siz!

***1972.***

## NİYƏ?

Neçə zamandır ki, mən
Nəslimi itirmişəm.
Ancaq elə sanmayın
Əslimi itirmişəm.

Xeyr! Mən təkbaşıma
Yaşatmışam əslimi.
Bu tərəfdə özümü,
O tərəfdə nəslimi.
Mən yerdən çıxmamışam
Tənha göbələk kimi.
Zamanın tufanına
Düşmüşəm çiçək kimi.
Nə gözəldir dünyada
Qohum da, əqraba da!
Səndən ayrı düşməyə
Bir el də, bir oba da.
Bəli! Dəniz dediyin
Dalğalarla öyünər.
Dağ da dağlar yanında
Əzəmətli görünər.
Uzandıqca gözümdə
İntizarın mənzili,
Unutmaq istəyirəm
Hər qəmi, hər nisgili.
Mən könül sevincinə
Söz vermək istəyirəm.
Nisgilsiz, intizarsız
Toy görmək istəyirəm.
İndi mənim oğlum da,
Qızım da böyüyübdür.
Onlarla bir zamanda
Arzum da böyüyübdür.
Nisgil necə? Susurmu?
Hönkürür qulağımda.
Öz nəslimin həsrəti
Titrəyir dodağımda.



Mənə deməyin ki, siz
Qəmlənməyin nahaqdır.
Nə olsun qohumların
İndi səndən uzaqdır.
Oğlun ki, var, əminin,
Dayının əvəzidir.
Qızının da nəfəsi
Bibinin nəfəsidir,
Xalanın nəfəsidir.
Xeyr! Dostlar, cahanda
Balanın öz yeri var,
Əminin öz yeri var,
Dayının öz yeri var,
Bibinin öz yeri var,
Xalanın öz yeri var.
Sabah tutub üzümü
Arazın o tayına,
Mən öz qohumlarımı
Necə çağırım deyin,
Öz oğlumun toyuna,
Öz qızımın toyuna?
Niyə övladlarımın
Toyunda səhər-axşam,
Çörək yapmasın bibim?
Qazan asmasın xalam?
Öz əmim oynamasın,
Öz dayım oynamasın,
O tayım oynamasın,
Bu tayım oynamasın?

***1976.***

## DƏRZİ

*Əmim usta Qulama*

Əmi! Mən göz açandan
Səni dərzi görmüşəm.
Kəndimizdə nə qədər
Həyat tərzi görmüşəm.
Kimi əyri xışının
Dəstəyindən yapışdı,
Kimi meyvə bağının
Ətəyindən yapışdı.
Sənsə yerə qoymadın
Nə iynəni, nə sapı...
Tikişlərin üstündə
Getdi gözünün tabı.
Mən bir az oxumuşdum,
Sənsə savadsız idin.
Öz doğma kəndimizdə
Şöhrətsiz-adsız idin.
Sən mənim savadıma
Hörmət qoydun, ay əmi!
Adi söhbətimdən də
Ləzzət duydun, ay əmi!
Üzümə də vurmadın
Neçə "qəbahətimi".
Dəyişmədin heç nəyə
Mənim məhəbbətimi.
Həm səhər, həm də axşam
Maşının səsi gəldi
Evindən-eşiyindən.



Sap yerinə gözünün
İşığını keçirdin
İynənin deşiyindən.
Yaman soydu ağalar
Gündüz-gecə kəndlini.
Sənsə öz iynən ilə
Geyindirdin, bəzədin
Neçə-neçə kəndlini...
Ütülü oldusa da
Əynindəki paltarın,
Ütü üzü görmədi
Təlatümlü ruzgarın.
Bilmirəm, nə qədər şah
Görmüsən gənc yaşından.
Zaman keçmiş, şahların
Tacı düşmüş başından.
Sən iynəni atmamış,
Ruzgarla döyüşmüsən.
Nə yerini, nə də ki,
Peşəni dəyişmisən.
Dəyişəndə də yalnız
Silahla dəyişmisən.
– Torpaq! – deyə nə qədər
Ağayla döyüşmüsən!
İynən parıltısıyla
Əyinləri də bəzər,
İnqilab ocağında
Qığılcıma da bənzər...
Köhnəlmişdir vətənin
Əynindəki paltarı.
Zamanın axınında
Qalmamışdır tutarı.

Ah! Sənin öz əlində
Olsaydı ixtiyarın,
Bilirəm ki, çatardı
Qüdrətin, iqtidarın,
Sən o köhnə paltarı
Öz iri qayçın ilə
Doğrayardın, tökərdin.
Sonra köhnə iynənlə
Təzəsini tikərdin...

***1973.***

## GÜLSÜM

Mən öz Gülsüm bibimi
Görməmişəm dünyada.
Ona bircə salam da
Verməmişəm dünyada.
Dünyaya sən gələndə
Səni də görməmişəm.
Dildə Gülsümləşdiyin
Günü də görməmişəm.
Bilmişəm sənin atan,
Mənim bibimin oğlu –
Ürəyi anasının
Məhəbbətiylə dolu,
Dərindən duya-duya,
Şirin övlad dadını,
Sənə verib bibimin
Unudulmaz adını.
Mənsə sənin şəklini
Asmışam otağımda.
Həsrətin şölələnir
Titrəyən dodağımda.



Ümidimlə yanaşı
Dayanıram qarşında.
Özün xalam qızısan,
Yaşın qızım yaşında.
İki munis bəzəyir
Evimizi haçandır.
Biri cansız şəkildir,
Biri canlı insandır!
İkisi də mənimçin
Həm doğma, həm əzizdir.
Baxıram üzlərinə,
Sanıram ki, əkizdir!
Gülsüm! Sən həm gördüyüm
Xalama bənzəyirsən.
Həm sənin görmədiyin
Balama bənzəyirsən.
Səhərlər sən açanda
Təbəssümlü gözünü,
Savalan sularında
Yuyubsan əl-üzünü.
Buz bulağın üstündə
Üzün də büllurlaşıb,
Qara qaşının altda
Gözün də büllurlaşıb.
Al günəşə baxanda
Ürəyin də saflaşıb,
Ağ sulardan içəndə
Diləyin də saflaşıb.
Savalan laləsini
Baxt çırağı sanıbsan.
Özün də lalələşib
Kəndimizdə yanıbsan.

Yanağında lalənin
Yanağının şöləsi!
Gözlərində lalənin
Gözlərinin şəvəsi!
Fəqət baxışlarında
Həsrətin yeri qalıb.
Çatılmış qaşların da
Hamar yox, əyri qalıb!
Hardasa düyünlənən
Hicranlı yollar kimi...
Boynuma dolamaqçın
Gərilən qollar kimi...
Nə qədər talelərin
Dolayları dumandır,
Siz hicranlı yollarda
Ayrılmayın, amandır!
Ayrılmayın! Nə qədər
Geniş olsa da cahan,
Dəstədən ayrılan quş
Qəfəsə düşər, inan!
O taydan heç üzünü
Görmədiyim adamlar,
Baxçasından bir gül də
Dərmədiyim adamlar,
Mənə zəng edib ömür
Yoldaşını soruşur,
Bu tayda bacısını,
Qardaşını soruşur.
Bir ağsaqqal olmuşam
İndi qardaş ellərdə.
Ürəyimdə birləşir
Beynəlmiləl tellər də!



Ulduzlar qonsun deyə
Başıma səhər-axşam,
Vaxt vardı zirvələrə
Qalxardım aram-aram.
Qızıl ulduzlar göz-göz
Uzaqlarda yanardı.
Mənim şəvə saçıma
Gümüş tozlar qonardı.
İndisə zirvələrdə
Durub şan-şöhrətlə mən,
Qət etdiyim yollara
Baxıram heyrətlə mən.
Zirvələrdən başıma
Soyuq qrovlar qonur,
Mənim saçlarımda da,
Qaşlarımda da donur...
Ancaq başımın üstən
Uçub gedən illərdə –
Ürəyim qovuşdurur
İsti-soyuq tellərdə
Bir Vətəndə bir çayla
Ayrılan yoldaşları,
Ayrılan bacıları,
Ayrılan qardaşları...
Demə ki, öz dibinə
İşıq salmayır çıraq.
Nə olar bu tellərdə
Bizdən də tutsan soraq?!
Mənim qartal xəyalım
Sizə sizdən yaxındır,
Fəqət nəğməkar ömrüm
Harda olsam, xalqındır!

Bir də cansız tellərə
Ehtiyac yoxdur, inan!
Siz mənim ürəyimin
Tellərindəsiz hər an!
Ürəyimsə məndə yox,
Vətəndədir həmişə.
İstər sizinlə elə
Vətəndə də görüşə!..

*1986.*

## MƏKTUBLAR

Nənələrdən qalan yumaqlar kimi
Yolları ovcunda düyər məktublar.
Bağlı qapıları qonaqlar kimi
Utana-utana döyər məktublar.

Neçə diyar keçər axar-baxarlı,
Bu gün təyyarəli, sabah qatarlı...
Arzusu işıqlı, sözü tutarlı
İnsandan gəlməyir məgər məktublar?

Ocaqda qonaqsız köz də darıxar,
Dodaqda həyansız söz də darıxar...
Ürək də, nəfəs də, göz də darıxar,
Bir həftə geciksə əgər məktublar.

Sanma düyümlənmiş tumurcuq olar,
Ağızda dolaşan muştuluq olar.
Boğazı yandıran hıçqırıq olar,
Sevinc də, kədər də yeyər məktublar.

Hikmət səpələnər məhrəm sətrinə,
Bilər işi nədir, anlar qədri nə?
Aramızdan gedən dostun xətrinə
Öz məğrur başını əyər məktublar.



Dünyamıza gələn uşaqdan desə,
Təzəcə tapılan bulaqdan desə,
Zirvədə yellənən bayraqdan desə,
Zənn etmə özünü öyər məktublar.

Xeyir ver! Çalışma əvəz almağa,
Ayranın yerinə bəhməz almağa.
Anamız həyatla nəfəs almağa
Ürək sətirlərdir, ciyər məktublar.

Haçan varaq üstə qonar dünəni,
Ömrün bir parçası sanar dünəni,
Kövrələ-kövrələ anar dünəni,
Ümidlə sabahdan deyər məktublar.

Sənə çörək olar çörək tapmasan,
Sənə köynək olar köynək tapmasan,
Sənə kömək olar kömək tapmasan,
Təklikdə dünyaya dəyər məktublar...

*1972.*

## MƏKTUB

Xala!
    Yazdın: Gözlərim
Tutulur ağlamaqdan.
Odlu yaş səhər-axşam
Qurumur çağlamaqdan.
Sən gedəndə körpəmi
Beşikdə ayıltmadın.
Qayıtmağa getmişdin,
Bəs niyə qayıtmadın?

İyirmi ildir səndən
Nə məktub var, nə soraq.
İndi ata olubdur
Sənin gördüyün uşaq...
Gözlərim torlaşır, ah,
Səni görsəm ölmərəm.
Şəklini tez göndər sən,
Sonra görə bilmərəm.
Göndərdim!
        Sən dünyada
Hələ dərdə bax, dərdə!
Özüm gəzə bilmirəm,
Şəklim gəzir o yerdə.
Ev sahibi evinə
Qonaq gedibdir, qonaq!
Məni duymaq istəsən
Gözlərimə yaxşı bax!
O gözlər şəkildə də
Qığılcım çiləyirlər.
Vətənə,
        Bir də sənə
Azadlıq diləyirlər.
Sən şəklimə baxarkən
Nə sızla, nə də ağla!
Yox!
        Bir inqilabçının
Şəklini yaxşı saxla!
Bil ki, düşmən o qədər
Yanıqlıdır əlimdən,
O qədər – üsyan! – deyən
Şeir eşidib dilimdən,



Şəklim əlinə düşsə
O səni sillələyər,
Əvəzimdə günahsız –
Şəklimi güllələyər.

***1966.***

## SEVİMLİ XALAM

Analar həm incədir,
Həm də ki, dözümlüdür!
Doğma analar qədər
Xala da sevimlidir!
Xala! Özün bilirsən
Anamı görmədim mən.
O insana övladlıq
Borcumu vermədim mən.
Ondan-bundan eşitdim,
Öyrəndim nədir ana?
Bəzən övlad körpəykən
Həyatdan gedir ana.
Mən səninlə duymadım
Anamın yoxluğunu.
Sezdim hər zaman sənin
Qayğının çoxluğunu.
Həmişə gözlərində
Məhəbbət oxunurdu.
Sanki qabaqca sənin
Qəlbinə toxunurdu –
Mənim dağda-dərədə
Ayağıma dəyən daş.
Sanki daşa dönürdü
Gözlərində donan yaş.

Axı sənin nəfəsin
Anamın nəfəsiydi.
Axı sənin həvəsin
Anamın həvəsiydi.
Axı sənin əllərin
Anamın əlləriydi.
Axı sənin tellərin
Anamın telləriydi...
Deyən səni də dövran
Çox gördü mənə, xala!
Yolda əlvida dedim
Bir axşam sənə, xala!
Sonra eşitdim yağı
Tapa bilməyib məni.
Həyətin ortasında
Nişan alıbdır səni.
Nə insaf, nə mərhəmət,
Nə aman gözləyibdir.
Silahı qucağında
Körpənə düzləyibdir.
Dəhşətlə qığılcımlı
Kirpiyini qırpmısan.
Uşağı o cəlladın
Təpəsinə çırpmısan.
Körpən ölməmiş, düşmən
Özü sarsılmış ancaq.
Bəli! Sənin dadına
Çatmışdır yaxın-uzaq...
İndi sənin vəzifən
Mərd yaşamaqdır, xala!
Şəhidlərin qəbrinə
Gül daşımaqdır, xala!



Sən Zeynəbin qızısan,
Səriyyənin bacısı.
Gözlərini göynədir
Həyatının acısı.
Hələ də döyüşürsən
Mübariz insan kimi.
Narahatsan haçandır
Səfərbər dövran kimi.
Hər məktubda yazırsan
Nə pay göndərim sənə?
Ay xala! Dünya malı
Vüsal gətirməz mənə.
Nə hədiyyə, nə sovqat
Göndər adıma mənim.
Səndən ayrı düşəli
Gəlmir yadıma mənim,
Gecələr gözlərimi
Rahat yumduğum mənim.
Ay xala! Başqa şeydir
Səndən umduğum mənim.
Baharda Savalanın
Yaşıl döşünə qalx sən.
Yol çəkən gözlərinlə
“Sarı qayaya” bax sən.
Qucaqlamaq istəsən
Məni öz balan təki,
O qayanı qucaqla
Məndən iz qalan təki.
O qayaya nə qədər
Üzümü sürtmüşəm mən.
Şimşək çaxmış, üstünü
Sinəmlə örtmüşəm mən.

Üzümün yerləridir
O qayada qalan da,
Daş aynaya dönən də,
Çopur-çopur olan da.
Sən yemlik yığa-yığa
"Pələngli"dən keçəndə,
Yamacdakı çeşmənin
Buz suyundan içəndə,
Yaxşı bax! Aynasında
Mənim də əksim qalır.
O dağda, o dərədə
Mənim də səsim qalır...

***1978.***

## AYDA GÖRÜŞÜRÜK

On dörd gecəlik ayın
Gözləri mənə baxır.
Dövrəsində qatarla
Karvan buludlar axır.
Mən də nə vaxtdır aya
Zilləmişəm gözümü,
Xatirələr içində
Unutmuşam özümü.
Sanma məni o karvan
Öz yerimdən qoparır.
Yox, xatirə karvanı
Məni çəkib aparır.
Yadıma öz kəndimiz,
Bir də ki, nənəm düşür.
Müdrüklərin müdriki
Böyük bir aləm düşür.



O deyərdi nə zaman
Səmada ay doğanda,
Havadan qucaq-qucaq
Torpağa nur yağanda,
Aydınlıq olur...
kimin
Adamı var uzaqda,
Kimin ürəyi daim
Çapalayır fəraqda,
Gecələr ayna tutur
O ayın qabağına.
Ay işığında düşür
Gedənin sorağına...
Dərdini nə dənizə,
Nə də ki, çaya deyir.
Dilində, ürəyində
Nə varsa, aya deyir.
Deyir ki, əzizimin
Getdiyi yeri göstər.
Ölübsə ölü göstər,
Diriysə, diri göstər!
Mənim mehriban xalam,
Kim bilir, bəlkə indi –
Ay nurunda çimdirir
Bizim də doğma kəndi.
Sən də ayna götürüb
Yerdən aya baxırsan.
Sən məni ana-ana,
Duya-duya baxırsan.
Xala! Bəlkə bu zaman
Mən də aya baxıram.
Hicranlı illərimi
Saya-saya baxıram.

Yalnız ayda birləşir
Fikrimiz, diləyimiz.
Bəli! Birləşsin deyə
Gözümüz, ürəyimiz,
Gör torpaqdan nə qədər
Aralı düşürük biz.
Bir yurdda ola-ola
Ayda görüşürük biz...

***1969.***

## VÜSAL KÖRPÜSÜ

Xala! Hər məktubu yubadanda sən,
Başıma min fikir, min xəyal gəlir.
Hər məktub alanda sanıram ki, mən,
Doğma yuvamızdan bir qartal gəlir.

Qocalda bilməmiş nə zaman məni,
Nə ruzgar, nə sənət, nə dövran məni,
Nə nisgil, nə qubar, nə hicran məni,
Könlümə, ah, necə ehtimal gəlir.

Yazılar arzunun çətirləridir,
Sanma ki, məktubun sətirləridir.
Xeyr, bir şairin ləpirləridir,
İndi sahibinə həsb-hal gəlir.

Yaz göndər, yaz göndər, məktublar bəlkə
Arada bir vüsal körpüsü çəkə...
Sənin yolladığın məktubla birgə
O torpaq, o diyar, o mahal gəlir.



Hələ düyünlüdür arzularımız,
Bəlkə yazılardır ruzularımız.
Bizdən bəxtiyardır yazılarımız,
İstədiyi yerə dalbadal gəlir.

Yaz göndər, dil açsın yazında hər söz,
Yalnız məktublarda qovuşuruq biz...
Biz yox, hicran çökür bu döyüşdə diz,
Üstünə min bəla, min zaval gəlir.

Məktubum geciksə, incimə ki sən,
Hicrandan qüdrətli söz gəzirəm mən.
Düşsə də saçıma-saqqalıma dən,
Gözümün önünə son vüsal gəlir.

Məktubun dalını kəsmə, amandır,
Dönük taleyindən küsmə, amandır,
Hicran yağışında əsmə, amandır,
Qarşıdan günəşli istiqlal gəlir.

***1972.***

## BAYATILI MƏKTUBLAR

*"Mən aşiqəm Gəncə var,*
*Şəki, Şirvan, Gəncə var.*
*Yar yardan ayrılsa da,*
*Məhəbbət ölüncə var".*

Mənim əziz xalamın
Doğma ciyərparası,
Yazdın o bayatını
Sən sətirlər arası...

Sonra məktubla qoşa
Mənə yolladın, mənə.
Ah, köhnə yaralarım
Yaman ağrıdı yenə.
Yox, dustaq bir ölkənin
Dərdi təzədir hər an.
Vətən deyib-gülməsə
Deyib-gülərmi insan?
O vətən bayatısı
Neçə illərdən keçib.
O vətən bayatısı
Neçə ellərdən keçib.
Hərarəti nə sönüb,
Nə də ki, azalıbdır.
Yox, o tayın adından
Bu taya yazılıbdır.
O bayatı yanımda
Nə qədər xətirlidir!
Sanki qartal qanadlı,
Qızılgül ətirlidir.
O bayatı ümidi
Ümidə qatır axı.
Hər mənalı sətrində
Bir dastan yatır axı.
O, nəcib anaların
Südüylə yoğrulubdur.
Kağız üstündə deyil,
Ürəkdə doğulubdur.
Ataların hikmətli
Ağlıyla zənginləşib.
Dərinlərdə gəzəndə
Özü də dərinləşib.



Sevənlər, sevilənlər
Çırpınanda fəraqda,
O gözəl bayatını
Oxuyub son yataqda...
Göndərdiyin şəkildə
Gülümsəyirsən yenə...
Ancaq başqa bir şəkli
Xatırladırsan mənə...
Mən sizdən ayrılanda
Qar sovuran küləkdə,
Sən güllə səslərindən
Diksinirdin bələkdə.
Tək sən hıçqırmayırdın,
Bir ölkə ağlayırdı.
Yaralanmış başına
Qaralar bağlayırdı.
Alıb səni anandan
Mən öpdüm üz-gözündən.
Necə indi öpürsən
Sən oğlunun üzündən.
Vaxt çatmadı özümlə
Bir dəst paltar götürüm.
Sizi dərbənd başından
Evinizə ötürüm.
Götürməyə qalsaydım
Özümdən qalmazdı iz,
Mənim məktubuma da
Həsrət qalardınız siz.
Öz ömür dastanımı
Bitirərdim dünyada.
Min-min bayatını da
İtirərdim dünyada.

Getdim, hara gəldisə,
Ömür əziz, yol uzaq...
Yükümsə şirin-acı
Xatirələrdi ancaq.
İndi ayrı düşmüşük,
Dərdimizsə qoşadır.
Ah, səni də, məni də
Bir məhəbbət yaşadır!
Bayatılı məktublar
Axıb-gəlir dalbadal...
Yalnız o məhəbbətdə
Yaşayır bir istiqbal!
Məhəbbət ölüncə yox,
Məhəbbət əbədidir.
Nisgilli ürəklərin
Müqəddəs məbədidir!
Bil ki, biz olmasaq da
Qalacaq o məhəbbət.
Bəlkə ana torpaqda
Çiçəklənə nəhayət.
Demirəm ki, yerin də,
Göyün də imdadı ol.
Yox, mənim əvəzimdə
Namuslu övladı ol
Övladları özündən
Ayrı düşən vətənin.
Qəlbini gecə-gündüz
Hicran deşən vətənin.
Sən ömrünü-gününü
O torpağa bağışla.
Azadlıq sabahını
Hünərinlə alqışla!



Mən aşiqəm Təbriz var,
Zəncan, Urmi, Təbriz var...
Mənim şair könlümdə
İnam adlı dəniz var...

***1971.***

## MEHRİBANIM

Bu dünyada nə ana,
Nə də ki, ata gördüm.
Ömrümün qönçələnən
Yazında şaxta gördüm.
Bəli! Sığallanmadı
Bəlalı başım mənim.
Bilinmədi həyatda
Uşaqlıq yaşım mənim.
Yaxın-uzaq qohumun
Seyrək mehribanlığı,
İsitmədi könlümdə
Donan nigaranlığı.
Gəncliyimdə döyüşdüm
– Səadət! – deyə-deyə.
Dilimdəki nəğmələr
Səs saldı yerə-göyə.
Məsləkimi, andımı
Sevdim öz gözüm kimi.
Şeirimdəki sözlər də
Sərtləşdi özüm kimi.
Dostlarım aşıladı
Qəhrəmanlığı mənə.
Sənsə öyrətdin ancaq
Mehribanlığı mənə.

Sənin mehribanlığın
Çatdı mənim dadıma.
Bəxtimin göylərində
Ulduz doğdu adıma.
Gah ömrümü bəzədin
Başımın tacı təki.
Gah halımı düşündün
İstəkli bacı təki.
Gah könlümü oxşayan
Doğma anaya döndün.
Gah özümü göstərən
Büllur aynaya döndün.
Sərt şeirimdə yumşaq
İzlərə bənzədin sən.
İsti, mülayim, incə
Sözlərə bənzədin sən.
Məni haçan eşikdə
Bir namərd acılayır,
Göz gözü odlandırır,
Söz sözü qamçılayır,
Üstünə nə coşuram,
Nə də ki, əsirəm mən,
İti addımlarımla
Evə tələsirəm mən.
Bilirəm yol gözləyən
Nigaranım var mənim.
Dərdimi dağıdacaq
Mehribanım var mənim!

***1974.***



## SEVGİLİMİN YUXUSU

Sevgilim yuxudan hərasan qalxdı,
Gəldi, tez-tələsik üzümə baxdı...
Məni möhkəm-möhkəm qucaqladı o,
Nədənsə gah güldü, gah ağladı o.
Düşdü yaxasına iki damla yaş,
Əllərdə titrəyiş, gözlərdə təlaş...
O dedi – yuxuda görmüşəm ki, sən
Daha yoxsan...
Səni itirmişəm mən.
Sanki səhradakı tənha çiçəyəm,
Sirdaşsız, köməksiz, yalqız ürəyəm.
Nə günəş isidir, nə bahar məni...
Döyür tufan məni, döyür qar məni.
Sanki öz yerimdən qoparacaqdır,
Harasa, harasa aparacaqdır,
Mənsə çırpınıram zillət içində,
Səni çağırıram dəhşət içində...
Səsimi yuxuda eşitmədin bəs?
Ah, mənim halıma düşməsin heç kəs! –
Baxırdım, hələ də o ağlayırdı,
Dayanıb boynumu qucaqlayırdı...
Mənsə sevinirdim məhəbbətimlə,
Sevilib yaşayan təbiətimlə...
Deyirdim anamız yer kürəsində,
Bir şair ömrünün son nəfəsində
Mənim də yasımı saxlayanım var,
Başımın üstündə ağlayanım var...

***1967.***

## QISQANCLIQ

Sevgilim! Həyatı ürəklə sev ki,
Günlərin keçməsin şəklə-gümanla.
Doğulduğu gündən döyüşmüş sevgi,
Bəzən qısqanclıqla, bəzən hicranla.

Qısqanclıq faydasız şitilə bənzər,
Alaqla doldurar meyvəli bağı.
Qısqanclıq od qapan fitilə bənzər,
İçindən partladar qayalı dağı.

Qısqanclıq bulanıq sellər kimidir,
Duru çeşmələri qarışdırar o.
Qısqanclıq zəhərli yellər kimidir,
Udanda ürəyi alışdırar o.

Qısqanclıq işaran qığılcım olar,
Yananda dəhşətli yanğın törədər.
Alov dalğa-dalğa ürəyə dolar,
Dağdan əzəmətli eşqi əridər.

İgid Otellonun biləklərini
Nə tale, nə ruzgar, nə döyüş bükdü.
Sevgi gülşəninin çiçəklərini
Əjdaha nəfəsli qısqanclıq tökdü.

Bilirsən ki, Sədi, Füzuli, Hafiz
Nə qədər gözələ qəzəl deyiblər.
Birini seviblər dünyada şəksiz
Ona hər gözəldən gözəl deyiblər.



Sanma hər dühanın qaynar ilhamı
Yalnız neçə kitab qəzəllik idi.
Yox! O şairlərin dərin inamı
Gözəllər deyildi, gözəllik idi.

Bəli! Gözəlliyi sevir hər nəsil,
Gözəllik fövqünə qalxıram mən də.
Qızlara bir kişi gözüylə deyil,
Şair nəzərilə baxıram mən də.

Arının nə ağlı, nə şüuru var,
Təzə şirə yığır min-min çiçəkdən.
Lakin öz ülfəti, öz qüruru var,
Nə olsa, ayrılmır doğma pətəkdən.

Həyatda qızılgül dəstəsi təki
Gözəlliklər üstə səpilsəm də mən,
Böyük Nizaminin nəvəsi təki
Sənət aləmində sevilsəm də mən,

Bil ki, öz müqəddəs istəklərimlə
Bir kimsəyə deyil, sənə bağlıyam.
Gənclikdə təzə-tər diləklərimlə
Sənə bağlanmışdım, yenə bağlıyam.

***1974.***

## TƏZADLI MİSRALAR

Bu çiçəkli dünyamızda,
Bu küləkli dünyamızda,
Bu vulkanlı dünyamızda,
Bu tufanlı dünyamızda,
Bu qılıqlı dünyamızda,
Bu acıqlı dünyamızda,

Bu icadlı dünyamızda,
Bu fəryadlı dünyamızda,
Bu şəkərli dünyamızda,
Bu zəhərli dünyamızda,
Bu vüsətli dünyamızda,
Bu sərhədli dünyamızda,
Bu qardaşlı dünyamızda,
Bu təlaşlı dünyamızda,
Bu niyyətli dünyamızda,
Bu həsrətli dünyamızda,
Bu səfalı dünyamızda,
Bu cəfalı dünyamızda,
Bu döyüşən dünyamızda,
Bu dəyişən dünyamızda,
Bu ucalan dünyamızda,
Bu qocalan dünyamızda,
Yaşıl sevgi köynəyində
Bir cüt güllü yaxa olaq.
Mavi həyat dənizində
Bir cüt büllur dalğa olaq.
Tale deyil, biz taleyə
Bir cüt ötkəm ağa olaq!
Ölüm-dirim döyüşündə
Bir cüt canlı qovğa olaq.
"Kömək!" deyən möhtaclara
Bir cüt zəngin səxa olaq.
Acların boş süfrəsində
Bir cüt isti yuxa olaq.
Uzaq yollar təlaşında
Bir cüt yaxın arxa olaq.
Doğma övlad qulağında
Sırğa olaq, sırğa olaq!

***1978.***



## SƏHƏR DƏ, AXŞAM DA

Sən bəzən fikirli, bəzən gileyli
Deyirsən ülfəti niyə unutdun?
Yox, sən nə Şirinsən, nə də ki, Leyli,
Demə məhəbbəti niyə unutdun?

Dinləyib çağlayan təbin əmrini
Nə mənə baxırsan, nə uşaqlara.
Baharlı, payızlı bütün ömrünü
Sanki köçürürsən ağ varaqlara.

Neçin yorulmursan yazmaqdan axır,
Səhər də, axşam da elə yazırsan.
Gün batır, ay doğur, ulduzlar axır,
Sən hələ yazırsan, hələ yazırsan.

Gündüz də, gecə də düşünürəm mən,
Bir qədər insafa gətirəm səni.
Doğrusu, arabir üşünürəm mən,
Qorxuram, biryolluq itirəm səni.

Dinlədim, sevgilim, gileyini mən,
Kim deyir sevgidən yoğrulmamışıq?
Ancaq bu dünyada nə mən, nə də sən
Təkcə sevilməkçin doğulmamışıq!

Keşməkeşlə dolu öz dünyamızın
Hələ sağalmamış yaraları var.
Sənət dünyamızın, söz dünyamızın
Hələ yazılmamış misraları var.

Bəli! Darda qalan insan oğluna
Gərək biz göstərək hünər yolunu.
Azadlıq təşnəsi zaman oğluna
Gərək biz göstərək zəfər yolunu.

Ölüm qəh-qəh çəkib bizə güləndə
Tufandan da keçək, oda da girək!
Əzizim! Bu yolda lazım gələndə
Şirin ömrümüzü qurban da verək!

Nə qədər zülüm var, döyüşlər də var,
Şairin döyüşü yazmaqdır ancaq!
Düşünən sənətkar, yazan sənətkar
Yaşayır daima ölümdən uzaq!

Mən də yazıram ki, hər axşam-səhər
Ölümün ağzından qapasan məni.
Bir vaxt bu dünyada itirsən əgər,
Şeir dünyasında tapasan məni!

***1970.***

## MƏNİM QIZLARIM

Bəzisi nədənsə qız uşağına
Deyinə-deyinə kəsikdir dedi.
Hələ çəkinmədi, öz uşağına
Ağıldan bir az da əskikdir dedi.

Mənimsə ömrümün üfüqlərində
Ulduzlara bənzər üç doğma qızım!
Şair taleyimin şəfəqlərində
Səhər də, axşam da parıldar arzum!



Oxucum! Nigaran qalmasın könlün,
Hər qızın yanımda öz xətri vardır.
Yaxşı deyiblər ki, hər gözəl gülün
Öz hüsnü, öz rəngi, öz ətri vardır.

Rənanı bircə söz incitsə nahaq,
Ürəyinə yazar şikayətini.
Qara gözlərində gizlədər ancaq
Ataya, anaya məhəbbətini.

Fəqət o səliqə xoşlar hər zaman,
Muzey də nizamsız füsunkar olmaz.
Evdə yaratmayan səliqə-sahman,
Həyatda heç zaman təmizkar olmaz!

Təranə bənzəyər əziz uşağa,
Zirəkdir, sanma ki, özünü öyər.
Könlünün sözünü gələn qonağa
Qəşəng pianonun diliylə deyər...

Kimsənin xətrinə istəməz dəyə,
Duyar hər söhbətin ilk mənasını.
Qızı hamıdan çox istəyək deyə,
Gah məni qucaqlar, gah anasını.

Pərvanə danışmaz, dindirməsək biz,
Xüsusi bir paydır qismətimizdə.
Qızı buyuruğa göndərməsək biz,
Yenə də dayanar xidmətimizdə!

Bir yol gileylənməz qışda yağsa qar,
İstər nazik geysə, istərsə qalın.
Bilər ki, nəyəsə ehtiyacı var,
Deməz filan şeyi mənimçin alın.

Qızlarım! Nənəmin nağılı kimi
Siz nabat, siz şəkər, siz noğulsunuz.
Xoşbəxt bir şairin oğulu kimi
Mənə həm qızsınız, həm oğulsunuz!

Mən bircə oğluma tapşırmışam ki,
Sizin xətrinizə toxunmasın heç.
Sizi sevə-sevə çağırmışam ki,
Gözünüzdə kədər oxunmasın heç.

Sevinirəm, axı hər şeydən əvvəl
Sizi boya-başa yetirmişəm mən.
İndi deyilsiniz keçmişki dəcəl,
Sizi dinc günlərə gətirmişəm mən.

Gəlin, bərk sarılın boynuma mənim,
Yenə qarışdırın tellərimi siz!
Atılın, mehriban qoynuma mənim,
Qaytarın o gənclik illərimi siz!

Gəlin, o nəğməli dillərinizlə
Dağıdın fikrimdə arzularımı.
O yumşaq, o totuq əllərinizlə
Siz alt-üst eləyin yazılarımı.

Gəlin, o məzəli, o şən, o qıvraq
Hərəkətinizdən doymamışam mən.
Yox! Bütün borcumu hər şeydən qabaq
Sizin yolunuzda qoymamışam mən.

Bəli! Mən atayam, ömrüm boyunca
Siz mənim işıqlı çırağımsınız.
İstərəm oxşayım sizi doyunca,
Axı, siz gedəri qonağımsınız.

***1967.***



## SABAHIN HƏKİMİ

*Qızım Rənaya*

Sən hələ nə alim, nə sənətkarsan,
Sabahın həkimi deyirlər sənə.
Qızım, gör nə qədər sən bəxtiyarsan,
Taleyin hakimi deyirlər sənə.

Necə də yaraşır xalat əyninə,
Doğma övladısan sən səadətin.
Duraq keşiyində çiyin-çiyinə
Sən can sağlığının, mən şeiriyyətin!

Sən odla oynayan kəslərə de ki
İnsan odun deyil, dünya da ocaq!
Ölüm haraylayan səslərə de ki
İnsan yaşamaqçın yaranmış ancaq.

Sən oxu hər ömrü bir dilək kimi,
Demirəm sadəcə nüsxə yazan ol.
Yox! Sən insanlara bir kömək kimi
Həmdəm ol, sirdaş ol, dost ol, həyan ol!

Bəzən bəxt mənimlə düz gəlməyəndə
Bəxtə baş əymədim, sən də baş əymə!
Arabir üzünə bəxt gülməyəndə
Boşluqlara baxıb gözünü döymə.

Sən bəxti, ümidi, sevinci ancaq
Mehriban ürəkli insanlarda gəz.
Dürr tapmaq istəsən hər şeydən qabaq
Sinəsi dalğalı ümmanlarda gəz!

İnsanı sən təkcə dərmanla deyil,
Min qayğı, təsəlli, şəfqətlə sağalt!
Hər duyan ürəyi gümanla deyil,
Qətiyyətlə dolu söhbətlə sağalt!

Bir nemətə döndər yaxşı sözü sən,
O dağdan yüksəkdir, dənizdən dərin...
Hər sözdə bir dünya görməsəydim mən,
Əzablı yoluyla getməzdim şeirin.

Sən bütün dünyada ağ gün naminə
Döyüş bu yollarda bir əsgər təki.
Şəfəq tök xəstənin həyat camına,
Yaşa təravətli bir səhər təki!

***1973.***

## PƏRVANƏ

Pərvanə özünü çırağa çırpar,
Arzusu uğrunda alışıb-yanar.
Sanki bu yanmaqda rahatlıq tapar,
Sanki bu yanmağı səadət sanar.

Bəli! Əziz qızım, o incə xilqət
Dünyada alovlar pəhləvanıdır.
Nə qədər qərinə dolanmış... Fəqət
O yenə əsərlər qəhrəmanıdır.

Onun cəsarəti, onun ünvanı
Qalın divanlarda yaşayır hələ.
Sənin boz çantansa məktəb zamanı
Şəkilli kitablar daşıyır hələ.



Sən də Pərvanəsən! Zəif qanadın
Hər zaman çırpınan diləklərindir.
Ülfətin, söhbətin, ağlın, inadın
Həyatda ən gözəl bəzəklərindir.

Pərvanədən öyrən mərdliyi, qızım,
Sən odun-alovun yanından da keç!
Əgər yeri gəlsə, demək nə lazım,
Məsləkin uğrunda canından da keç!

Yaxşı-yaxşı sığın gülşənə dönən
Doğma torpağına, doğma daşına.
Sən də Pərvanəsən, çırağın Vətən,
Səhər də, axşam da dolan başına...

***1969.***

## ƏVƏZ

*Qızım Pərvanəyə*

Boz payız günündə gül dəmətilə
Mənim həkim qızım evə gəlibdir.
Sanki öz vüqarı, öz siqlətilə
Güllərdən tac qoymuş zirvə gəlibdir.

Yox! Zirvə deyildir hələ o dəmət,
O ilkin əməyə ilkin töhfədir.
Fəqət təşəkkürlə dolu bir qismət
İlkinlik fövqündə elə zirvədir.

Qızım döyüşmüşdür xilaskar kimi,
O bir yana olmuş, ölüm bir yana.
Sağalıb baş əymiş minnətdar kimi
Anası yaşında bir qadın ona...

Yox! Qızım qoymamış kəmfürsət ölüm
Möhtəşəm ananın qəddini əyə.
Kiçik əllərilə bu canlı gülüm,
O böyük ananı qaldırmış göyə...

İstər cavan olsun, istərsə qoca,
Şəfa ocağında xəstə xəstədir.
Ya bəstəboy olsun, ya da ki, uca,
Həkimin gözləri xəstə üstədir.

Qızım! Şöləl追ən əlvan güllərin
Bahardan qaranquş müjdələridir.
Sənin əllərini sıxan əllərin
Sənə uğurlardan vədələridir.

Gərək bu güllərin nəfəsində sən
Hüsnü təravətli bahar olasan.
Bu bircə dəmətin əvəzində sən
Hər xəstə könlündə bir bağ salasan.

Kədərsiz insanlar xəzansız yazda
Bağında güllərdən dəstə bağlasın!
Muğamatlı tarda, qoşmalı sazda
Sevinc rübabları coşub-çağlasın!

***1981.***

## QAN

*Qızım Pərvanəyə*

Səs verdim zülmkar bir səltənətin
Tarixdə əbədi süqutuna mən.
Səs verdim döyüşən bir məmləkətin
Zəfər nəqəratlı süruduna mən.



Qızım! Quş qanadlı zirəkliyinlə
Məni astanada qarşıladın sən.
Gözlərinə dolan kövrəkliyinlə
Mənə də kövrəklik aşıladın sən.

Axı neçə-neçə şeirimdə bəlkə
Min yol imza atdım həqiqətə mən.
O tayda çarpışan xalqımla birgə
Səs verə bilmədim ədalətə mən.

İndi əməlini geyib əyninə,
Xəyalım həqiqət, yuxum çin olub.
Səsim Göy məscidin əlvan çiyninə
Qonan ağ qanadlı göyərçin olub.

Sənsə öz qanını veribsən, bala,
O tayda qanını itirənlərə.
Sanki qızılgüllər dəribsən, bala,
Döyüşü zəfərlə bitirənlərə.

Mehriban nənəsi Savalan kimi
Mənim ağ xalatlı tələbə qızım,
Gözümdə bir məğrur qəhrəman kimi
Ucaldın sən neçə mərtəbə, qızım!

Səs həyat nəfəsli səslər içində
Ürəyin carçısı muraddır, quzum!
Qan qələbə səsli kəslər içində
Kiməsə bir yeni həyatdır, quzum!

Cəllad qan axıtdı, təmiz insanı
Sevdiyi həyatdan aparmaq üçün...
Sən isə qan verdin, əziz insanı
Ölümün ağzından qoparmaq üçün.

Bəlkə sənin qanın solan bir qızı
Ölümün ağzından saldıracaqdır.
Döyüşdə yaralar alan bir qızı
Yataqdan ayağa qaldıracaqdır.

Şair intizarla nicat gözləyən
Vətənin yolunda canından keçir.
Həkim etiqadla həyat gözləyən
Xəstənin uğrunda qanından keçir...

Sən ürəyə yatan qiymətlə dolu
Diplom almasan da hələlik ələ,
Bilirsən, sabahkı həkimin yolu
Parta arxasından başlanır elə.

Ay tarimar olsa, ulduzlar talan,
Gün doğan alnına kölgə düşməsin!
Rəngini ananın südündən alan
Təmiz xalatına ləkə düşməsin!

Nənən Savalanın qədim yaşıtək
Ağ xalatda keçsin ömrünün çoxu...
Sular nəğməkarı bir qu quşutək
Həyatda xoşbəxtlik nəğməsi oxu!

***1979.***





## QORUYAQ

*Təbrizdəki qələm dostlarıma*

Dünyanın yaxasında bir güldür Azərbaycan,
Dost! Həmişə təzə-tər gülümüzü qoruyaq!
Hər büllur damlasında bir simfoniya yaradan
Çeşməmizi dinləyək, gölümüzü qoruyaq!

Bizə Dədə Qorquddan yadigardır telli saz,
Əyni qara köynəkli, çanağı ağ güllü saz,
Sözü Vətən havalı, özü şirin dilli saz,
Sazımızda hər gümüş telimizi qoruyaq!

Torpağımız əlvandır günəşli Gülüstan tək,
Tariximiz dərindir ulduzlu asiman tək,
Gələcək nəsillərə qiymətli ərməğan tək,
Hər günü hünər dolu ilimizi qoruyaq!

Dünyanın qayğıları nə yaman ağır oldu?
Dağ boyda yüklər altda belimiz yağır oldu...
Elə ki, geniş bir yol nazik bir cığır oldu,
Üzülmək qorxusundan belimizi qoruyaq!

Dünyanın rübabını dindirək əlimizlə,
Səadət nəğməsinə döndərək əlimizlə,
Oda düşsə, odunu söndürək əlimizlə,
Ancaq kül olmaqdan da əlimizi qoruyaq!

Biz dilimizlə azıq, biz dilimizlə çoxuq,
Biz dilimizlə acıq, biz dilimizlə toxuq,
Dilimiz varsa, varıq; dilimiz yoxsa, yoxuq,
Əbədiyyət yolçusu dilimizi qoruyaq!



Dost! Könlünü ətalət duyğusundan təmizlə,
Gözlərini kəsalət yuxusundan təmizlə,
Bəmimizi sükunət qorxusundan təmizlə,
Günbəgün şaqraqlaşan zilimizi qoruyaq!

Haçan uğur istəsək toplayaq gücümüzü,
Tamah yıxmağa qalxsa qüdsiyyət bürcümüzü,
Daxilin təkanından saxlayıb içimizi,
Xaricin hücumundan çölümüzü qoruyaq!

***1986.***

## İKİ SƏHƏND VARDI

*Şair Səhəndin xatirəsinə*

Bir gün səni gördüm, sandım ki, düzü,
Savalana baxdım, Səhəndi gördüm.
O ana torpaqda şəhərlər gözü
Təbrizi dolandım, Mərəndi gördüm.

Basıb öz bağrıma qardaşım, səni
Vətənin yerinə qucaqladım mən.
Dönə-dönə öpüb sirdaşım, səni,
Sonra da dostları soraqladım mən.

Dedim qayıdanda doğma məskənə
“Vüsal, vüsal” – deyə haray qopar sən!
Gözü yolda qalan ana vətənə
Didərgin oğlundan salam apar sən!

Xəyallar nə qədər şirin olsa da
Vüsal daha gözəl, daha şirindir.
Səhənd! Günəşli göy dərin olsa da
Vüsala inamım göydən dərindir!

Qarı daşa dönmüş hicran dağları
Ayağımız altda alçalacaqdır!
Səhənd sularıyla vüsal çağları
Mənə də, sənə də əl çalacaqdır...

Gərək uzaqgörən sənətkar kimi
Gələcək dövrandan ilham alaq biz...
Vətənin əsgəri nəğməkar kimi
O vüsal uğrunda qələm çalaq biz...

Sən getdin... Mən isə qaldım intizar,
Ölüm xəbərini aldım bir axşam.
Dedim: nədən getdi o mərd sənətkar?
– "Ürəyindən"... dedi bir dostum aram...

Dedim o ürəkdə tüğyana gələn
Bir "günahkar" çaylı Azərbaycandı.
Bu qəfil xəbərdən həycana gələn
O taylı, bu taylı Azərbaycandı.

Yaşıl sahillərdə düşüb yanğına
Dərdi dərd üstünə qatladı ürək.
Arzular deyilən sonsuz axına
Davam gətirməyib partladı ürək.

Ürək, yazıq ürək, zavallı ürək
Özündə vətəni yerləşdirərdi.
O hicranlı ürək, vüsallı ürək
Hər iki sahili birləşdirərdi.

Fəqət ada ürək dözə bilmədi
Arazın dağ boyda dalğalarına.
Vüsal misraları düzə bilmədi
Ayrı sahillərin yaxalarına.



Sənətdə zirvələr fəth etsən də sən,
Həyatda zirvəyə çata bilmədin.
Şeirinlə zəfərə yol getsən də sən,
Zəfərin barını dada bilmədin.

İki Səhənd vardı, biri cahanda
Cəngavər geyimli qadir Səhənddi.
Birisə nəğməkar Azərbaycanda
Sənət fədaisi şair Səhənddi.

Səhənd! Sığındığın ellər dayağı
Görkəmilə səni andıracaqdır.
Şair ürəyinin vaxtsız susmağı
Vuran ürəkləri yandıracaqdır.

Ellər oxuyanda səni Vətəndə
Səhənd hər şeirinə qulaq asacaq.
Sonra xatirənə yaşıl çəməndə
Əlvan çiçəklərlə şeir yazacaq!

***1979.***

## AYRILIQ

*Müzəffər Nəsirliyə*

Qar yağırdı...
Arxada
Düşmən – atəş! – deyirdi.
Güllə yağışı mənim
Kürəyimi döyürdü.
Torpaq yaralanırdı,
İnsan yaralanırdı,
Hava yaralanırdı,
Zaman yaralanırdı.

Xan Arazın buzları
Çatlayırdı atəşdən.
Baxırdım...
Yerdə, göydə,
İz yox idi günəşdən.
Bəli! O təlatümdə
Mən başı lovlu gəldim,
Dili haraylı gəldim,
Könlü alovlu gəldim.
O ananın qoynundan
Bu ananın qoynuna,
Doladım qollarımı
Naxçıvanın boynuna...
Məni öz nəfəsilə
İsindirdi Naxçıvan.
İstəklidən istəkli,
Mehribandan mehriban!
İlk hicranlı şeirimi
Naxçıvanda yazdım mən,
Xoşbəxt nəğmələrindən
Ayrılan bir sazdım mən!
İndi sənlə Bakıda
Görüşürük arabir.
Deyirsən Naxçıvana
Gəlmirsən... Səbəb nədir?
Mən şairəm! Heyranam
Dinc yerə, açıq göyə...
Diqqət ilə baxıram
Həyatdakı hər şeyə.
Bəs, Araza mən baxa
Bilməyirəm nədəndir?
Axı, Arazımızın
O tayı da vətəndir!



Bir zaman simasına
Vüqar ilə baxdığım,
Odu ilə yandığım,
Suyu ilə axdığım,
Nə yolumu, nə də ki,
Andımı dəyişdiyim,
Tüstülü səngərlərdə
Uğrunda döyüşdüyüm,
Keşməkeşli vətənə
İndi baxa bilmirəm.
Suçluyam!
Niyə ona
Arxa çıxa bilmirəm?
Niyə döyüş bayraqlı
Meydanlarda deyiləm,
Alovlarda deyiləm,
Tufanlarda deyiləm?
Dostum! Bildinmi niyə
Gəlmirəm Naxçıvana?
Naxçıvan pəncərədir
O taya...
Savalana...

***1966.***

## GƏL BİR QUCAQLAŞAQ!

*Savalanın şəklinə*
*baxarkən düşündüklərim.*

Gəl bir qucaqlaşaq ana bala tək,
Sakitcə dayanma gendə, Savalan!
Amansız tufanlar döymüş qala tək
Sən də dəyişibsən, mən də, Savalan!

Alovlu inqilab döyüşlərində,
Şimşəyə dönəndə gülüşlərində,
Silahın, qələmin yürüşlərində
Mən öndə getmişəm, öndə, Savalan!

Buz paltar geyəndə bənd də, bərə də,
Ruhdan düşməmişəm mən bir kərə də.
Odlu nəfəsimlə dağda-dərədə
Duman da əriyib, çən də, Savalan!

Təmkin də tanışdır, təlaş da mənə,
Həyat da əzizdir, sirdaş da mənə,
Min həycanla dolu savaşda mənə
Mərd arxa olubsan sən də, Savalan!

Şamı xonçasında alışan toyda,
Çəpik də isidib havanı, qıy da.
Qürurla dönübsən sən özün boyda
Sehirli bir kəllə qəndə, Savalan!

Səni salamlayıb bir təzə əyyam,
Bir ildə min növraq yaradıb ilham...
Təbrizdən danışıb hər səhər-axşam
Misir də, İraq da, Çin də, Savalan!

Sonrasa araya boş yarğan düşüb,
Dünyada ən uzun bir hicran düşüb...
Özüm də bilmirəm nə zaman düşüb
Qara tellərimə dən də, Savalan!

Gəl bir qucaqlaşaq! Qol-boyun olaq!
Daha nə ayrılaq, nə fikrə dalaq...
Daim vüsal dolu bir nəğmə çalaq,
O müdrik də olsun, şən də, Savalan!

***1990.***



## SEHRLİ SAZ

*Aşıq Ədalətə*

Çal, aşıq qardaşım, ehtizazıyla
Soyuq buludları doğrayır sazın.
Sinəsindən axan ehtirasıyla
Çaxan ildırımı haqlayır sazın.

Biləyin saz üstə haçan bükülür,
Köksündə çanaqdan alov tökülür...
Bilinmir, hardasa üfüq sökülür,
Ya şəlalə olub çağlayır sazın.

Dodağın sussa da, saz mənəm deyir,
Yazan sənətkara al qələm deyir,
Bircə hərəkətin min aləm deyir,
Durnanı havada saxlayır sazın...

Sən mizrab vurduqca, simlər danışır...
Bülbül küsdürdüyü güllər barışır...
Nəfəsində ətir ətrə qarışır,
Düşməni gözündən oxlayır sazın.

Təranən tüğyana gəlir arabir,
Xəyaldan dumanı silir arabir...
Görəsən döşündə gülür arabir,
Yoxsa için-için ağlayır sazın?

Görüşə-görüşə neçə dahiylə,
Döyüşə atılır şahlar şahıyla...
Yanıqlı Kərəmin odlu ahıyla
Duyan ürəkləri dağlayır sazın.

Fərhad Bisütunu yarır külünglə,
Qıfıllı tilsimi qırır külünglə,
Zəfərdən-zəfərə varır külünglə,
Hər mərdi, namərdi yoxlayır sazın.

Səsilə min gözəl niyyət açsa da,
Hələ açılmamış hikmət açsa da,
İndidən maraqlı söhbət açsa da,
Bizi gələcəyə bağlayır sazın...

***1980.***

## AY KƏRƏM

*Aşıq Ədalətin "Yanıq Kərəmi"sini dinlərkən*

Munis görünsə də dünya gözümə,
Bu gecə tək səni andım, ay Kərəm!
Öz məşhur yanğınla səni özümə
Bir doğma adamım sandım, ay Kərəm!

Siz bir-birinizə yaraşıq kimi
Gəzdiniz... Əsli ay, sən işıq kimi.
Kim deyir, cəfakeş bir aşıq kimi
Sənin yanmağını dandım, ay Kərəm!

Ancaq bir gözəlin yolunda inan
Aşıq məşəl olsa, nurlanmaz duman...
Vətən – Günəş! – deyə boylanan zaman
Mən günəşi belə dandım, ay Kərəm!

Öz səadətimi tamam dandım mən,
– Vətən! – Xalq! – Azadlıq! – deyə yandım mən,
Sənin tək nə aşıq, nə də xandım mən,
Alovdan yoğrulmuş candım, ay Kərəm!



Gah dönüb düyünlü kələfə yandım,
Gah güllə tək dəyib hədəfə yandım,
Sən yüz dəfə, mənsə min dəfə yandım,
Min dəfə sınandı andım, ay Kərəm!

Bəli! Günəşləşdi söz alovumla,
Bir ürəkdən qopan yüz alovumla.
Mən də öz odumla, öz alovumla
Vətənə şöhrətdim-şandım, ay Kərəm!

Yanmaqda öz ömrüm oldu girovum,
Sənin adın çıxdı, mənim alovum...
Saçımda, qaşımda payız qrovum,
Yandıqca alışıb-yandım, ay Kərəm!

Dinlədim hünərin rübabını da,
Bitirdim şöhrətin kitabını da,
Yanmağın dəhşətli əzabını da
Kül olandan sonra qandım, ay Kərəm!

## SEGAH

*Habil Əliyevə*

Konsert...
Dizinin üstə
Öz kamançan inləyir.
Səni tək qulağım yox,
Ürəyim də dinləyir!
Bir tarix elə bil ki,
Dillənir kamançada.
Bu qədər alov hardan
Soyuq bir kamançada?

Segah yandırır, yaxır,
Sənsə elə gülürsən.
Baxıb mənə gülürsən,
Baxıb telə gülürsən.
Bəlkə sənin segahın
Mənə xoş gəlir deyə,
Düşüncələr yorğunu
Ruhum dincəlir deyə,
Gülürsən...
Bu gülüşün
Xoş gəlir özünə də.
Ürəyinin sevinci
Yayılır gözünə də.
Bəlkə öz sənətini
Mənə andırdığınçın,
Sənətin alovuyla
Məni yandırdığınçın,
Gülürsən...
Bu gülüşün
Xoş gəlir özünə də,
Ürəyinin sevinci
Yayılır gözünə də.
Mən ki, azadlıq deyə
Səngərlərdə yanmışam.
Axşamlar da yanmışam,
Səhərlər də yanmışam.
Yanmışam!
Ürəyimsə
Yanmayıb, möhkəm olub.
Ürəyim özü mənim
Canıma məlhəm olub.



İndisə həzin-həzin
Yandıran zaman segah,
Ürəyim də inləyir,
Ürəyim də yanır, ah!
Yox, yox, dəyiş avazı,
Dinlə, amandır, məni.
Nə elə gül üzümə,
Nə elə yandır məni!

***1964.***

## ATALAR SÖZÜ

*Əbülqasım Hüseynzadəyə*

Hərə bir yol seçdi sarbanlar kimi,
Atalar sözünə vuruldun sən də!
Köksü inci dolu ümmanlar kimi
Gah coşdun, gah da ki, duruldun sən də!

Gəzib hər dağında, hər düzündə sən,
Doğma diyarında dəfinə tapdın.
Sərraf ataların bir sözündə sən,
İncilərlə dolu xəzinə tapdın.

O həm yanğılıdır, həm mərdanədir,
Alovlu ürəyi, dik başı vardır!
O bitib-tükənməz bir təranədir,
Dodaq təbəssümü, göz yaşı vardır!

De, şəkərdən şirin atalar sözü
Hansı işimizdə ülfət olmayıb?
De, ümmandan dərin atalar sözü
Kimə dərs verməyib, ibrət olmayıb?

Ömür fəsil-fəsil yaşa dolduqca,
Hikmət sorağında çevikləşibsən.
Müdrik atalara bələd olduqca
Özün də həyatda müdrikləşibsən.

Atalar sözündə yüksək nəğmə tək
Vətən ülviləşir, millət danışır.
Atalar sözündə büllur çeşmə tək
Məhəbbət çağlayır, qeyrət danışır.

Hər qız nişanımız, oğul toyumuz
Atalar sözüylə zinətlənibdir.
İsti çörəyimiz, sərin suyumuz
Atalar sözüylə qiymətlənibdir.

Halaldır kəşfinə dönən əzabın
Kövrək atalara, sərt atalara!
Atalar sözüylə dolu kitabın
Hər sözü əzizdir mərd atalara!

***1981.***

## YAŞIL DOLAYLAR

*Tələbəlik dostum*
*Vəli Məmmədova*

Dağ dağdır müqəddəs sansan dünyada,
Nə böyük adlanar, nə də ki, kiçik.
Dost dostdur az-az da ansan dünyada,
Nə küskün yaşayar, nə də ki, incik.

Tez-tez biz səninlə görüşməsək də
Bilən yaxşı bilir, ürək dostuyuq.
Hər fərəhli gündə öpüşməsək də
Biz həyat dostuyuq, məslək dostuyuq.



Budur, dostum ilə yol gedirik biz,
Gözəl Yardımlının yolları üstə.
Yox! Eyni şəfqətlə dincəlirik biz
Doğma bir ananın qolları üstə.

Fırça şeiriyyəti, söz ülviyyəti
Sanki məharətlə birləşir burda.
Meşə təravəti, dağ əzəməti;
Astara – Savalan yerləşir burda.

Maşınımız yolda uçur irəli,
Yolsa maşından da qaçır qabağa.
Qardaş məhəbbətli, səfər nəğməli
Muştuluq aparır qədim torpağa...

Haçan maşınımız toza bürünür,
Uçur vahimədən insanın qəlbi.
Burda nə dağların başı görünür,
Nə də altındakı dərənin dibi.

Bizdən yuxarıda ağlı-qaralı
Qanad açmasaydı min nəmli qovuq,*
Deyərdim bürkülü yerdən aralı
Sərin təyyarəylə göydə uçuruq.

Dağ dağa söykənir, uçrum uçruma,
Gör mənim könlümdən neçə söz gəlir.
Bu yaşıl dolaylar ana yurduma
Yaxın olduğuyçun mənə düz gəlir.

* bulud

Suyun axarını, yolun yönünü
Qaya əllərilə dəyişir zaman.
Görsə də zamanın rəng-rəng gününü,
Gözdəki təbəssüm dəyişmir, inan!

Şehdə ayaqyalın gəzən uşaqlar
Ətirli inciyə batır çəməndə.
Daşı ayağıyla əzən uşaqlar
Yorulur, uzanır, yatır çəməndə...

Şehlər şırım açan irmaqlarıyla
Axır uşaqların ayaqlarından.
Lalələr qırmızı dodaqlarıyla
Öpür yatanların yanaqlarından.

Bəlkə ona görə kənd uşağının
Yanağı al olur qızıl lalətək.
Sevinclə qızaran al yanağının
Şöləsi ətrafa düşür halətək...

Görüb bu diyarı, ana torpağın
Min-min uşağını anıram, düzü.
Yox! Təbriz ünvanlı min-min uşağın
Acı taleyinə yanıram, düzü.

Qızıl şimşək çaxan gümüş başında
Dağ da parçalayır sıx dumanını.
Bir qov alışdırıb çaxmaq daşında
Yandırmaq istəyir ağ qəlyanını.

Yandırmaq istəyir... Acı tüstüylə
Bəlkə əvəz edə ağır dərdini.
Tufanlar yeriyib keçsə üstüylə
Yenə uca tuta uca qəddini.



Vəli də hazırdır mənimlə birgə
Fədai paltarı geyə əyninə.
Bəlkə ana Təbriz düşəndə bərkə
Ananı oğullar ala çiyninə...

İstəməz, külək də ürək dostunun
Başından, köksündən, yanından keçə.
O istər nəğməkar məslək dostunun
Zəfəri naminə canından keçə...

Mənsə istəyirəm alovlar sönə,
Yaşıl işıq yana hər kolun üstdə.
Yana! Yaşıl-yaşıl arzuya dönə
Təbrizə uzanan bu yolun üstdə...

***May, 1977.***

## BEŞİNCİ OĞUL

*Berta anaya*

Oğul xəyalında, qız nəzərində
Ana mərd, xeyirxah, əziz yaranmış.
Mənə elə gəlir yer üzərində
Analar tək deyil, əkiz yaranmış!

Sanki göylərdəki xeyir-bərəkət
Yerlərin nəğməli çayına düşmüş.
Nəvaziş, ehtiram, əmək, ünsiyyət
Laylalı ananın payına düşmüş.

Hicran sürü-sürü quzulayanda
Vüsal tənhalıqda mələyir, ana!
Ac – çörək, təşnə – su arzulayanda
Könlüm də anamı diləyir, ana!

Sən duydun halımda pərişanlığı
Şəfəqli gözlərin nəmləndi, ana!
Bütün anaların mehribanlığı
Doğma baxışında cəmləndi, ana!

Sən hardan bilirdin gəlin anamı
Hələ uşaqlıqda itirmişəm mən?
Yanına taleyin nadir ənamı
Dörd ciyərparamı gətirmişəm mən.

Yox! Yox! Anaların şeiriyyət qədər
İncədir, həssasdır duyğuları da.
Bəli! Doğru çıxır həqiqət qədər
Şirinli, acılı yuxuları da...

İntizarla dolu baxışlar kimi
Uzaqda olsaq da, yaxındım sənə.
Odur ki çoxdankı tanışlar kimi
Kövrələ-kövrələ sığındım sənə.

Baxdım gözlərində gülən bahara,
Bilsən ki, nə qədər şən oldum, ana!
Dörd oğul vermişdin doğma diyara,
Beşinci oğlun da mən oldum, ana!

Görmədiyim ana məhəbbətini
Sənin təbəssümlü gözündə gördüm!
Görmədiyim ana ünsiyyətini
Sənin hərarətli sözündə gördüm!

Ana yaşasa da neçə diləkli,
Hər nemətdən artıq övladı istər.
Sən mənə dünyada ana ürəkli,
Ana dəyanətli bir canlı göstər!



Səadət günəşi doğanda burda
Dağlar üfüqlərə baxıb qürurla.
Şəfəq leysanları yağanda burda
Qaranlıq dərələr dolub quldurla.

Övlad itkisində dəhşət duyubsan,
Qundaqla atıbsan ev-eşiyini.
Şirin həyatını girov qoyubsan,
Dardan qurtarıbsan ilkbeşiyini.

Ana! Ayırmadın sən ilkbeşiyin
Qardaşım Vəlidən, bir an da məni.
Elə doğmalaşdı evin-eşiyin
Tərk etdi təklik də, hicran da məni.

Baxdım gözlərində gülən bahara,
Bilsən ki, nə qədər şən oldum, ana!
Dörd oğul vermişdin doğma diyara,
Beşinci oğlun da mən oldum, ana!

***Yardımlı, may 1977.***

## DOĞMA HEYKƏL

O təməl üstündə sakit dursa da
Uzanan yolları darayır gözü.
İlləri sirdaşsız başa vursa da
Sanki dostlarını arayır gözü.

O qanad açmışdır qartal sayağı
Məğrur baxışında gənclik atəşi.
Ayağı altında vətən torpağı,
Başının üstündə səhər günəşi.

Sanki inqilabın qartalıdır o,
Səhər günəşini qucmaq istəyir.
Bakının bir təzə cəlalıdır o,
İllərdən illərə uçmaq istəyir.

O belə ucaltdı əlini göyə
Çılğın tələbəlik illərində də.
Azərbaycan oğlu – Azadlıq! – deyə
Döyüşdü Rusiya ellərində də.

Səadət günəşli yaz həvəsiylə
Dalınca apardı öz taylarını.
İnqilab günəşli od nəfəsiylə
Əritdi Nevada buz laylarını.

O belə ucaltdı əlini göyə
Bakının inqilab sellərində də.
Danışdı – Mehriban qardaşlıq! – deyə
Hiddətli Abşeron yellərində də.

Sanma o sınanmış məharətilə
Təkcə neft işində bir mühəndisdi.
Zəkası, hünəri, ləyaqətilə
İnqilab peşəli mütəxəssisdi.

Ürəyinə səpdi böyük Vətənin
Mehini, ətrini, təravətini.
Diləyinə qatdı müdrik Vətənin
Eşqini, andını, sədaqətini.

O belə ucaltdı əlini göyə
Yanğılı Ağcaqum çöllərində də.
Çağladı – Yaşasın xalqımız! – deyə
Məslək dostlarının dillərində də.



Odlu güllələrə döş gərdi ki, o,
Vətəni döyüşdə yaralanmasın!
Düşmənlər içində can verdi ki, o,
Can candan vədəsiz aralanmasın!

Sanma düyünlənmiş yumruq barmaqlar
Ömür dastanında son nöqtə oldu.
Yox! Kindən titrəyən soyuq barmaqlar
Ovucda birləşən beş qitə oldu!

Bəli! Qaranlığı yırtan barmaqlar
Ucaldı bəşərin arzu-kamı tək.
Ürəyin qanına batan barmaqlar
Toranlıqda yandı ümid şamı tək...

İndi baxa-baxa doğma şəhərə
Nəsə fikirləşir, odur, Məşədi.
Açıb yaxasını mavi Xəzərə,
Dəniz havasından udur Məşədi.

Hələ soyumamış yaralarını
Bakı küləyilə soyudur bəlkə!
Narahat könlünün paralarını
Doğma diyarında uyudur bəlkə.

Ayağı altına sərsə də Vətən
Bağların ən gözəl çiçəklərini,
O tapmaq istəyir elə bil hökmən
Ağcaqumda itən diləklərini.

Aydın baxışında dərin bir maraq,
O görür indi də ana torpağı.
Hanı hisli-tozlu minlərlə barak,
Gözləri yaşardan fəhlə ocağı?

Odur, təlatüm var yenə şəhərdə,
Günəş salamlayır izdihamları.
Yerə, göyə sığmır şehli səhərdə
Azad insanların ehtişamları.

Tətil alovları sönmüş haçaqdır,
Nə jandarm vardır, nə də kazaklar.
Aşkar bəhrələrə dönmüş haçaqdır
Xəlvətdə oxunan gizli varaqlar...

Bayramdır... Dodaqlar desə də mahnı,
Ürəklər sakitdir üfüqlər kimi...
Dağlarda sayrışan lalələr sanı
Bayraqlar qızarır şəfəqlər kimi...

Dövran dəyişmişdir öz paltarını,
Musiqi dil açır şallaq yerinə.
Seyr et adamların sıx qatarını,
Əllərdə dəmət var yaraq yerinə.

Deyəsən hər şeyi bilir Məşədi,
Bir də məhəbbətlə süzür hər yanı.
Deyəsən bığaltı gülür Məşədi,
İnanır, havayı axmamış qanı...

***1970.***

## SULAR DURULUR

*Ölüm ayağında öz cəlladından bir stəkan su istəyən*
*Nurməhəmməd Tərakinin xatirəsinə.*

Hər əsər yazanda o sənət oğlu,
Doğma xalq danışdı tərənnümündə.
Günəşli Vətənin şəfəqlər dolu
Suları çağladı təbəssümündə.



Vətənin dumduru çeşmələrində
Yuyub təmizlədi vicdanını o.
Könlünün çağlayan nəğmələrində
Pakladı sabahın insanını o.

Doğmalar yadlaşıb ana torpağın
Məğrur sinəsinə qılınc da çaldı.
Təzəcə durulan neçə bulağın
Büllur sularına ləkə də saldı.

O mərd nəğməkarı öz bədənində
Öz arzularından uzaq etdilər.
Ah, azad etdiyi öz vətənində
Vətəndən xəlvəti dustaq etdilər.

Kim bilmir ki, suda boğulur insan,
Bu nə əfsanədi, nə də nağıldı.
O su istədiyi əllərin, aman,
Dəmir halqasıyla susuz boğuldu.

Şahidin yanıqlı kəlmələrindən
Səbrli hakimin özü ağladı.
Odlu gözlərinin çeşmələrindən
İntiqam nəğməli sular çağladı...

Sular dalğa-dalğa gəzdi ölkəni,
Təlatümə gəldi, tufan qopardı.
Ayna bulaqlara düşən ləkəni
İnqilab yolundan yuyub apardı.

Sular nəğmə-nəğmə axdı çöllərə,
"Yox! Basıla bilməz həqiqət" dedi.
Sabaha ümidlə baxan ellərə
"Səadət! Qüdsiyyət! Məhəbbət!" dedi.

***1980.***

## HƏLƏ

*Koreyalı dostlara*

Gecə keçir. Masamın
Dalındayam hələ də.
Şeirim tamamlanmamış
Ay da sönür, halə də.
Sanma mənim yazdığım
Adicə bir əsərdir.
Varaq döyüş meydanı,
Sətirlərsə əsgərdir.
Nizamla sözlər axır
Möhtəşəm sıralarda.
Bəli! Vüsal hicranla
Çarpışır misralarda...
Göz də, qələm də, əl də
Yorulmurmu iş çağı?
Qınamıram özümü,
Mən də insanam, axı!
Yatıram, rahatlana
İlhamım da, duyğum da.
Vüsal-hicran davası
Təzələnir yuxumda...
Mən bir dildə danışan
İki diyar görürəm.
Qardaşı qardaşından
Hələ kənar görürəm.
Bir ölkə ürəyimdə
Bir görkəmdə yerləşmir.
Elə parçalanıb ki,
Yuxuda da birləşmir...
Yox! İndi mərd insanlar
Hər ölkədə birləşir.



Bir məsləkin uğrunda
Bir cərgədə birləşir.
Dağlar da, meşələr də,
Dənizlər də qovuşur.
Vüsal nəğməli çaylar
Dənizlərdə qovuşur.
Koreyalı dostlar da
Çatacaqdır vüsala!
Vyetnamın vüsalı
Dönmüşdür bir timsala!
O vüsal tarixin yox,
Bir yurdun hünəridir.
Beş-on nəfərin deyil,
Bir xalqın zəfəridir!

***1981.***

## KÜR ŞAİRİ

*Ə.Kürçaylıya*

Qardaşım! Bir anlıq qulaq as mənə,
Bilirəm, gülabdan gözəldir sənə
Kürün, doğma Kürün bulanıq suyu.
Mən isə dünyada həyatım boyu
Arazı da sevdim, Kürü də sevdim,
Ləpələrdə dinən şeiri də sevdim.
Hansı kitabımı varaqlasan sən,
Doğma yurd görərsən! İnanıram mən,
Sinəndə qaldıqca hicran yarası,
Sən də ayırmadın Kürdən Arazı.
Yandın, şölələrin düşdü qüruba...
Qardaş! Çatmadısa səsin cənuba,
Nəğməylə bir dəstə durna uçurdun,
Elə bil onlarla sən də uçurdun...

Sən də şairisən vətənimizin,
Sinəsi hicranlı gülşənimizin...
Salyandan yazanda Salması da an,
Kürü düşünəndə Arazı da an.
Muğandan deyəndə Ərəşdən də de,
Xatirə düşməyən guşədən də de!
Şeirində şimal da, cənub da dinsin,
Gündoğan da dinsin, qürub da dinsin!
Sözlər çıraq-çıraq alışsın, qardaş,
Bütün Azərbaycan danışsın, qardaş!

***1974.***

## ÜLFƏT

*"Nabat xalanın çörəyi"nin*
*müəllifi N.Həsənzadəyə.*

Neçə ildir qonşuyuq
Səninlə bir binada.
Getsək hansı yerə də,
Düşsək hansı yana da,
Yenə də görüşürük
Yanaşı eyvanda biz.
Sanki iki qardaşıq
Qardaşsız cahanda biz.
Axı, uzaq qohumdan
Yaxın qonşu yaxşıdır.
Ataların bu sözü
Neçə şeirin naxşıdır!
Sən döyüş görməmisən,
Görməyəsən heç zaman!
Ömrün hər mövsümündə
Yaşamaq istər insan!



Mənsə azadlıq deyə
Min döyüşdə olmuşam.
Mən gah müdafiədə,
Gah yürüşdə olmuşam.
Sanıram ki, döyüşdə
Nəyim var, itirmişəm.
Alovların içindən
Tək səni gətirmişəm.
Sən mənə keçən hərbin
Dəhşətindən deyirsən.
Dulların, yetimlərin
Zillətindən deyirsən.
Mən səninlə nə zaman
O taydan danışıram,
Sənin qabağındaca
Tüstüsüz alışıram.
Yox, mən halımı sənə
Andırmaq istəmirəm.
Səni də öz odumla
Yandırmaq istəmirəm.
Fəqət sənin qaşların
Gözün üstə əyilir.
Sonra da yavaş-yavaş
Yumruqların düyülür.
O qonur gözlərində
Neçə səhnə görürəm.
Bir qərinə keçsə də,
Odur, yenə görürəm;
Od ürəkli Səriyyə
Adi Şahsevən qızı,
Nəfəsiylə əridir
Səngərdə qarı, buzu...

Mərdliklə sinə gərir
Neçə-neçə axına.
Bir nəfər düşməni də
Buraxmayır yaxına.
Dörd yana alov saçır
Səriyyənin gözləri.
Qurana inanmayan
Yağıların özləri –
Quran ilə aldadır
Döşü qızmış pələngi.
Soyuq quran susdurur
Odla dolu tüfəngi...
Zərbəli aram-aram
Döyüşlərdən danışır.
Səngər-səngər görünən
Örüşlərdən danışır.
Səyadulla yenə də
Oxuyur yana-yana...
Sən də əlin çənəndə
Qulaq asırsan ona...
O oxuyur, vətəni
Yaman itirdim, deyir.
Bir şairin diliylə
"Mən nə gətirdim" deyir.
Arabir soruşursan
Təbriz necə şəhərdir?
Deyirəm ki, Təbriz də
Elə Bakı təhərdir.
Gözişləməz bağlarda
Üzümü, badamı var.
Görməli səhəri var,
Gəzməli axşamı var.



Mehriban sinəsindən
Yol alır Acı çayı.
Demə ki görməmişəm,
Gəncə çayının tayı...
Özü də söykənibdir
Eynal-Zeynal dağına,
Sanki uşaq sığınır
Ananın qucağına...
Müalicə suları
Axıb gedir havayı,
Hər şeyi var Təbrizin,
Azadlıqdan savayı...

***1974.***

## İLK ADDIMLAR

*(S.Tahirin "Ay işığında" adlı ilk şeir kitabının çapdan çıxması münasibətilə).*

Axşamdır... Havada çiçək ətri var,
Dahi bir şairdir elə bil bahar.
Bəs dəftəri hanı? Açıq asiman!
Yazır... Şah beytlər – qızıl kəhkəşan.
Nöqtələr – ulduzlar...
Belə zamanda,
Dəniz sahilində, yaşıl eyvanda
Kiçicik bir şeir məclisi vardır.
(Varaqda misralar qatar-qatardır),
İki dost üz-üzə əyləşmiş, budur.
Biri min həvəslə şeir oxuyur.
Çiyinləri enli, gözləri iri,
Təzəcə tərləmiş bığının yeri.

Qırğı baxışıdır sanki baxışı,
Burnu bir qədər dik...
Hələlik yaşı
Azdır. Yeni gəlmiş söz ordusuna,
Bəlkə də çatacaq öz arzusuna.
O, bəzən qısılır ancaq bir qədər.
Utanır, alnında muncuqlanır tər...
Biri qulaq asır, qımışır hərdən,
Zövq alır o səsdən, bir də şeirdən.
Fəqət yaxşı duyur, gəncdir o ilham,
Hələ odu azdır, işi natamam.
Hələ düz gəlməyən qafiyələr var,
Arabir qırılır uzun misralar
Səhrada qırılan karvanlar kimi,
Lakin təravətli reyhanlar kimi
Təzə sətirlərdə bir təravət var,
Bir də büllur təki saf məhəbbət var.
Şeir sona çatır... Sevinir şair,
Qalxıb gənc dostunun alnından öpür.

**II**

Bunların biri sən, biri də ki, mən...
Sənətin dolaşıq yollarında sən
Bəzən büdrəsən də qalxdın ayağa,
Sərrast addımlarla getdin qabağa.
Dostum, universitet pillələrindən
Keçərək həyatda ucaldıqca sən,
Sənə körpü oldu o daş pillələr.
Nələr öyrənmədin sən, nələr, nələr?
Sinif otağında əyləşdinsə sən,
Xəyalın o tayda dolaşdı... Bəzən
Şeirlər də dedin sən dodaqaltı.
Duydun Vətəndəki ağır həyatı.



Sən yataqxanada qaldın beş ili,
Nə sirdaş aradın, nə də sevgili.
Başı kəlağaylı, baxışı aydın,
Səhər işə gələn qulluqçu qadın
Görərdi yatıbsan yenə bixəbər.
Sağ əlində qələm, sinəndə dəftər.
Fəqət o bilməzdi sən də şairsən.
Sinəndə dəftərə baxsa da bəzən,
Oxuya bilməzdi... Susardı tənha,
Dinib danışmazdı köhnə əlifba.
Dostum, əziz dostum, mənə söylə bir,
Səni şair edən illətlər nədir?!
Nə göy meşəlikdən bir az aralı
Boyun büküb duran dağlar maralı,
Nə dağ döşündəki buzlu bulaqdan
Qoşa balasıyla su içən ceyran,
Nə gözləri mərcan, sinəsi xal-xal
Buluddan-buluda şığıyan qartal,
Nə təpə üstündə qızaran lalə,
Nə nərgiz kolunda parlayan jalə,
Nə yalın qayadan çıxıb dumduru
Yaşıl çəmənlərə axıb gedən su,
Nə dağlar dalında o batan günəş,
Batarkən min günəş yaradan günəş,
Nə ağ buludlardan örtüb kəlağay
Üfüqdən-üfüqə yuvarlanan ay,
Nə cavan bir qızın gözəl sifəti
Səni şair edib...
Bəs nədir dəlil?!
Bəlkə universitet içində beş il

Ağ saçlı, saqqallı professorları,
Sabahdan söz açan oratorları
Min maraq içində dinləyəndə sən
Bir şair olubsan? Bilməyirəm mən.
Yox, şair olmayır hər bir oxuyan,
Yoxsa şairləri tutmazdı cahan!
Sən gördün talanır Odlar diyarı,
Yoxsul insanların rəngi sapsarı...
Yanır susuzluqdan vətən çölləri.
Bitib tükənməyir aclıq illəri.
Yenə borclu qalır ağaya İmran,
Ağa qapısını döyür hər zaman.
Qızı qəhərlənir... Artır qubarı,
Doğma anasının son yadigarı
Bir cüt sırğası var qulaqlarında.
(Dağ laləsi açmış yanaqlarında).
Qızın gözlərində kin dalğaları
Yanır... Bax, çıxarıb o sırğaları
Atır, yaman atır ağanın üstə,
Deyir: "Bir də nə gəl, nə də borc istə!"
Sonra atasının nəsihətini
Asır qulağından o qız sırğa tək,
Nə şöhrət istəyir, nə də ki, bəzək.
Odur, küçələr qar, dərbəndlər palçıq...
Ayaqları yalın, başısa açıq
Bir uşaq gəzinir sazaq içində.
Ağalar min isti otaq içində
Hələ xumarlanır... Əyni paltolu,
Başı panamalı, cibləri dolu.
O yazıq uşağın ötür yanından...
Tifilin min ağrı keçir canından:



– "Ettilaat"[*] – deyə qışqırır hərdən,
Nə göydən səs gəlir, nə də ki, yerdən.
Yazıq ac qalacaq, haqq almayacaq.
Bəlkə ağası da döyəcək, ancaq
İndi kimdir alan "Ettilaatı",
Onsuz da hər günkü son məlumatı
Yalnız partiyadan alır hər adam.
Yenə "Azərbaycan"[**] hər səhər-axşam
Əllərdə dolaşır...
Bunu uşaq da
Bilir, yumruğunu düyür sazaqda.
Deyir ki, tez gələr yenə səadət,
Bir yuxuya dönər bu məhrumiyyət!
Odur, daş zindana gəlir bir gəlin,
Ala gözlərində xəfif bir ənin...
Gəlir ehtiyatla, çadra içində,
Başdan-ayağadək qara içində.
O gəlir, görüşür sevgilisiylə,
Sanki vidalaşır öz nisgiliylə.
Dustaq o çadranı başına atır,
Dişlərini sıxır, qaşını çatır.
O qaçır zindandan. Köhnə yerini
Tamam dəyişdirir. Gəlin ərini
İgid əsgər kimi əvəz də edir,
Bir anın içində xəyala gedir...
Deyir, ərim gedib döyüşə bəlkə,
Ona göz dikmişdir tapdaq bir ölkə!
O gedir, qurtarsın diyarını da,
Min iztirab çəkmiş dildarını da!

[*] qəzet adıdır
[**] qəzet adıdır

Odur, bir imarət. Bura şirkətdir,
Məqsədi dünyada yalnız sərvətdir.
Qapının başında yazılmış səlis:
İran – İngilis...
Qapı qabağında oturub odur,
Yoxsul əmələlər* boynunu burur.
Nə talan, nə qırğın, nə dava deyir,
Ancaq iş istəyir, çörək istəyir.
Bura gələnlərin sıx cərgəsində
Bir qoca kişi var... Mərd çöhrəsində
Yorğunluq duyulur. Andı səadət!
Gözlərində nur yox, qolunda taqət.
Bir həkim dünən
Onu "azad" etdi köhnə işindən.
Dedi ki, canında yox daha tutar,
Get birtəhər yaşa.
O, yenə naçar
Gəlmiş iş istəsin ağalarından.
İndi qəti cavab aldığı zaman
Qoca öz yerindən qalxır sakitcə,
Sanki gözlərində qaralır gecə...
Birdən o bir bayraq qaldırır göyə,
Bizə çörək verin! İş verin! – deyə.
Bayraq dalğalanır, ucalır, qalxır,
Ardınca minlərlə zəhmətkeş axır...
(Yəqin ki, tanıdın o mərd qocanı,
Sən öz atanı).
Nə qəm, son payızın yarpağı təki
Kişinin bir qədər saralmış rəngi.

*fəhlələr



Bir az da aclıqdan batmışdır ordu,
Ancaq ürəyində inqilab odu
Hələ yanmaqdadır, sönməmiş, xeyr!
O yenə inqilab! İnqilab! – deyir.
Odur, nə zamandır düşüb məhbəsə
Məhbus heykəltaraş yaradır nəsə...
Zindan adamları gəlir yanına,
Sözbaşı and içir şahın canına.
Deyirlər göstərib əməlini sən,
Sabah Rza şahın heykəlini sən
Yaratsan, zindandan azad olarsan,
Hələ bir üstəlik ənam alarsan.
Sənətkar məmnundur. Heykəlsə tamam...
Min talan, fəlakət, zülm, ittiham
Üzündə oxunur bir kitab kimi,
Min illik tarixli iztirab kimi...
Elə bil hökmdar yenə də sağdır,
Kiminsə boynunu vurduracaqdır.
Yenə dəhşət yağır sir-sifətindən.
Şahın o hirsindən, o hiddətindən
İndi polislər də düşür təlaşa,
Zindan rəisi də az qalır çaşa...
Nə onu yerindən qopara bilir,
Nə şaha hədiyyə apara bilir.
Qollarında qüvvət, alnında vüqar,
Yeriyir qabağa o mərd sənətkar.
Deyir, burda nə var, qorxursuz niyə?
Şahın heykəlini qaldırıb göyə,
Bir anın içində çırparaq yerə,
Taxtı, tacı söyür bəlkə min kərə.
Baxır ağalara başdan-ayağa,
Sonra iftixarla düşür qabağa...

## III

Doğma diyarında sən nələr gördün?
Nə qədər dəhşətli səhnələr gördün!
Bunlar şair etdi əziz dost, səni,
Qınama məni!
      Hər sözü eşitdin qulaqlarınla,
Yazdın çəkic tutan barmaqlarınla.
Yerində deyilmiş hər söz, hər sətir
Hədəfinə dəymiş güllə kimidir!
Gəncliyin övladı – əsl istedad
Daim yaşa! – deyir, bir də ki, yarat!
O nə maneəyə, nə səddə baxır,
Bir dağ çayı təki axdıqca axır...
Dostum, istərdim ki, sənin gözlərin
Daim gülümsəsin! Bir də sözlərin
Qoy səpələnməsin sısqa yağış tək...
Yaz gurşadı kimi qoy gurlasın bərk!
Ya da misraların biri-birinə
Dağ təki söykənsin! Sənin şeirinə
Min zərbə dəysə də neçə tufanda,
Yerindən qopmasın kiçik misran da!
Ya da ki, hər sətrin odlu qılınc tək
Ağ varaq üstündə parlasın tək-tək...
Sən də carçısı ol şən dövranların!
Qoy sənin o qorxmaz qəhrəmanların,
Darğanın üstünə sırğasın atan,
Bir gəncin dildarı o gözəl insan,
Yağışda, yağmurda o qəzet satan
Papaqsız, paltosuz zavallı oğlan,
Qara bir çadranı atıb başına,
– Gələcəyəm – deyib can sirdaşına,



Ehtiyat içində zindandan qaçan,
Son döyüşə gedən o mərd qəhrəman,
Gecələr azadlıq eşqiylə yatan,
Şirkət qabağında iş gəzən atan,
Şahın heykəlini "quran" sənətkar,
Dustaq heykəltaraş, odlu nəğməkar
Durub son döyüşün ön sırasında,
Milyonla igidin sıx arasında
Hanı azad yurdum? – deyib döyüşsün,
Boranda bərkisin, alovda bişsin!

## IV

Odur bax, al günəş qalxır ahəstə,
Qızıl pullar səpir dənizin üstə...
Dalğalar gah enir, gah da ki, qalxır,
Bir qız sahil boyu harasa baxır.
Yoxdur bir nöqsanı yaraşığında.
Sənin ilk kitabın – "Ay işığında"
Qoltuğunda durur. (Ah, o bəlkə də,
Sənin dərs aldığın universitetdə
Dərs alır. Oxuyur. Kim bilir, o da
Sənin əyləşdiyin skamyada
Oturur. Dinləyir müəllimləri,
                O nadimləri.
Haçaqdır tərpənmir o öz yerindən.
Sənin kitabının ilk təsirindən
Hələ də, hələ də ayrılmamış, yox,
Şeiri sevir çox...
      Gözünü üfüqə zilləsə də tək,
Qaranlıq ardından doğan günəş tək

Görür o taydakı bacılarının
İndidən aydın
Eşqini, andını, həqiqətini,
Bir də ki, gələcək səadətini!

***1957.***

## NAR

*Həmid Məmmədzadəyə*

Həmid! Göndərdiyin gülöyşə narı
Balaca Şəhriyar gətirdi mənə.
Sənin öz bağından dərdiyin barı
Sənin öz övladın yetirdi mənə.

O narda Abşeron torpaqlarının
Sahili isidən közünü gördüm.
Xəzərin göz qırpan mayaklarının
Dalğalar içindən özünü gördüm.

Baxdım iri narın yanaqlarına
Sandım ki, ovcumda bir atəş yanır.
Şair qardaşının otaqlarına
Qışda şəfəq saçan bir günəş yanır.

O günəş yandıqca, könül dəryamın
Sinəsini döyən tufan dayandı.
Xatirəylə dolu xəyal dünyamın
Qaranlıq yolları nura boyandı.

Gördüm Təbrizdəyik... Diləklərimiz
Danışır, bir aləm sözü var kimi.
Buzlu sinəmizdə ürəklərimiz
Azadlıq eşqiylə yanır nar kimi...



Düşmənlər hər narı sıxanda qəfil
Qığılcım-qığılcım qəlpələnir o.
Üsyan kürəsindən qopub elə bil,
Döyüş yollarına səpələnir o!

...Min dadlı-ləzzətli nemət bir yana,
Narla da bəzənir bayram süfrəsi.
Günəş ağ saçına yaxdıqca xına,
Allanır Səhəndin bom-boz çöhrəsi.

Sakit otururuq süfrə başında
Nəğməsini deyib susan tar təki.
Ürəklər Təbrizin soyuq qışında
Yaratmaq şövqüylə yanır nar təki.

Düşmən süngüsüylə o narlar nahaq
Parçalanırsa da alışır, qardaş!
Şirəsi havayı axmayır ancaq,
Şəhidlər qanına qarışır, qardaş!

Yenə nardan şirin diləklərimiz
Acı ağzımızda dənələnibdir.
Bəzən sığallanan ürəklərimiz
Bəzən tənələrlə iynələnibdir!

Yox! Dənələnməsin o narlar bir də,
“Ehtiyat igidin yaraşığıdır!”
O narlar günəşin batdığı yerdə
Ürək atəşidir, göz işığıdır!

Qoy hər nar dənəsi odu var kimi
Sabahkı döyüşdə atəşə dönsün!
Mərdlərin sinəsi yanan nar kimi
Vətən torpağında günəşə dönsün!

***1978.***

## SƏN HARDAN BİLƏYDİN

*İsmayıl Cəfərpura*

Nə tez ömür yolun yetişdi sona,
İnana bilmirəm ölümünə mən.
Düşmənin sitəmi qalsın bir yana,
Nə deyim taleyin zülümünə mən?

Bir qaynar bulaqdı səndəki hünər,
Qışda da alnından damcılayırdı.
Yazdığın hər böyük, hər kiçik əsər
Zülmün kürəyini qamçılayırdı.

Sən hardan biləydin insanın ömrü
Arzunun ömründən gödək olurmuş.
İnsanın alnına sorğusuz əmri
Yazan da, pozan da ürək olurmuş.

Qardaş! Qalansa da mərd ürəyində
Həsrət qaya-qaya, dərd təpə-təpə,
İnamla çağlardı göz bəbəyində
Səadət çeşməsi nur səpə-səpə...

Soyuq bulud örtdü, ya qara kölgə
Günəş təbəssümlü bənizi, qardaş!
Sanki yer üzündə səninlə birgə
Təzədən itirdim Təbrizi, qardaş!

İllər axınında sayıqlığınla
Görürdün göynəyən yaramızı sən.
Bəs niyə əbədi ayrılığınla
Bir az da seyrəltdin sıramızı sən.



"Vüsal!" deyə-deyə yananda könlün
Hicrandan şikayət eylərdin mənə.
Ata ocağını ananda könlün
Yanıqlı-yanıqlı söylərdin mənə;

Ölsəm, tabutumu körpü eləyin,
Arazın üstündən keçirin məni!
Salmasda ağa yox, şeirə bələyin,
Axır mənzilimə köçürün məni!

Sənin qonaq dolu iş otağını
Heç kəs dəyişməzdi şah sarayına.
Evdə xəstə qoyub öz uşağını
Təlaşla gedərdin dost harayına.

Canından çıxmamış yolun ağrısı
Duyardın – könlünü fəraq incidir.
Mənə zəng edərdin gecə yarısı
- Dadaş, nə var, nə yox? Dostlar necədir?

Birgə ağlamışdıq, birgə gülmüşdük
Həyatda, döyüşdə, rübabda, sözdə...
Anamız Təbrizi iki bölmüşdük,
Yarısı sizdəydi, yarısı bizdə.

Od-alov qatsaq da hər şeirimizə
Yaman kövrəlmişdik uşaqlar təki.
Bərk-bərk qısılmışdıq bir-birimizə
Tufanda sıxlaşan budaqlar təki.

Həyatda müxtəlif peşə seçsən də,
Şeirin mənasında duydun ömrünü.
Özün dünyamızdan vaxtsız köçsən də,
Şeirin kürsüsündə qoydun ömrünü.

Saçım ağarsa da Vətən yolunda,
Vaxtsız qocalıqdan yaşadım uzaq.
Duranda mən fəxri qaraulunda
Beşcə dəqiqədə qocaldım ancaq.

Mən neçə yoxuşda açanda cığır,
Nə çiynim, nə dizim əsən deyildi.
Qara örpək örtən Səhənddən ağır
Tabutunun altda belim əyildi.

Döyüşün illərlə uzanan yolu
Məni yormamışdı öz sınağında.
Fəqət bir saatlıq qəbristan yolu
Məni əldən saldı dost fərağında.

İndi ilhamından yadigar qalan
Sətirlərin qonur dodaqlarıma.
Zindanlar dağıdan, səngərlər alan
Məğrur səsin gəlir qulaqlarıma:

Zülmət gecələrdə çalışdım ki, mən,
Gözümü qırpmayım ülkər sayağı.
Təpədən-dırnağa alışdım ki, mən,
Odumdan rəng alsın zəfər bayrağı!

Səadət uğrunda döyüşdüm, ancaq
İstədim döyüşə qayıdım yenə.
Doğma diyarımdan düşdümsə iraq,
Vətən torpağında uyudum yenə.

Mənim vaxtsız susan rübablarımda
Daşlaşan nisgili qoparın, dadaş!
Məni inam dolu kitablarımda
Bu taydan o taya aparın, dadaş!

***1977.***



## QÜDRƏT

*Əkbər Həmidiyə*

O həmişə deyən, gülən,
Zarafatcıl bir tanışdı.
Yenə işə gəldi dünən,
Nə dilləndi, nə danışdı.

Dedim, sənin söhbətinə
Vurulmuşdum... Bu, sükutmu?
Təbəssümlü sifətinə
Kölgə salan boz buludmu?

O: – İrandan öz yoldaşım
Təzə məktub alıb, – dedi.
Məndən kiçik bir qardaşım
Təyyarəçi olub, – dedi.

Mən ki, çoxdan vermişəm səs
Milyonların niyyətinə!
O nəçidir, o kimdir bəs?
Sözü nədir, niyyəti nə?

Düşünürəm axşamdan, ah,
Bir əfsərəm mən də axı!
Qardaşımla bəlkə sabah
Mən rastlaşdım döyüş çağı.

Görsəm ki, o satqın şaha
Ya nökərdir, ya da kölə,
Məhv edərəm! Nə əfv daha
Məzarından atam gələ...

Belə olsa bəs nə deyər
Məndən böyük bacılarım?
Alovlanıb ərşə dəyər
Könlümdəki acılarım.

Anam öldü... O, anamla
Danışmamış yetim qaldı,
Ancaq mənim hər laylamla
Dinclik tapdı, yuxu aldı.

Gözlərimin birini mən
Vuruşlarda itirmişəm.
Birinisə bilirsən sən,
Sağ-salamat gətirmişəm.

Tək gözümü ən mənalı
Varlıq kimi saxlamışam.
Bir müqəddəs, şən, cəlallı
Günə ümid bağlamışam.

Sağ gözüm də itsə, onu
Mən taparam izlə hökmən.
Bəlkə görüm ömrün sonu
O dostumdur, yoxsa düşmən.

Yox, yaranmaz elə dəhşət,
Qoy qardaşım xalqın olsun!
Lap uzağa düşsün, fəqət
Fikri mənə yaxın olsun!

Mən çatınca son vuruşda
Düşmən üstə... O döyüşsün!
Geyimin də mərd duruşda
Nə gizləsin, nə dəyişsin!



Vətən deyə oda girsin
Yağıların arasında...
Ağ günlərə yer də versin
Gözlərinin qarasında...

O susdu... Mən nəzər saldım
Tək gözdəki o həsrətə.
Düzü, bir də heyran qaldım
İnsandakı bu qüdrətə.

***İyun, 1958.***

## TUFANLI İLLƏR

*Əzizim Adiləyə*

Sən hələ uşaqdın doğma vətəndə
Haradan biləydin intizar nədir.
Sevgi təklənəndə, gənclik ötəndə
Anaya ən əziz yadigar nədir.

İstəyin dinəndə şirin dilinlə
Ananı iş üstdə danışdırardın.
Hiddətə gələndə totuq əlinlə
Atanın saçını qarışdırardın.

Düşmən soxulanda ana torpağa
Yuxudan oyatdı yatanı ölkə.
Ala-toranlıqda qalxıb ayağa
Haraya çağırdı atanı ölkə.

Sən yoldan tələsik sovuşurdun ki,
Buludlu gözlərdə yaşlar çağlayır.
Yanında atandan soruşurdun ki,
Dağ boyda analar neçin ağlayır.

Bilmirdin insanlar düşmüş xətərə,
Yerlər-göylər yanır toplar dinəndə.
Düşünürdün atan gedir şəhərə,
Gəlincik alacaq geri dönəndə.

Atan, doğma atan, candan yananın
Getdi, ətəyindən üzüldü əlin.
Ürəyi nisgilli cavan ananın
Bir üzü qız oldu, bir üzü gəlin.

Nə qədər ləpiri çöllərdə qaldı
Xeyirxah atanın, yetkin ananın.
Nə qədər həsrəti illərdə qaldı
Soraqsız atanın, itkin atanın.

Beş il gözlədin ki, mərd atan gələ
Mehriban üzünə nəzər salasan.
Ağırdan ağırdır həyatda hələ
Atan ola-ola yetim qalasan.

Sənin diyarında tufan qopanda
Cəbhədən uzaqdı məskənim mənim.
Həsrətli gözlərdən işıq qopanda
Sınaq meydanıydı vətənim mənim.

Dolaşıq yollarda xəyal azanda
Hərənin ağzından bir avaz gəldi.
Zəfər uzananda, döyüş qızanda
Mənim köməyimə xan Araz gəldi.

Yollandım sahilə həycan içində
Qucağını açdı təpələr mənə.
Alovlu döyüşü dastan içində
Yaxından göstərdi ləpələr mənə.



Gördüm için-için ağladır düşmən
İnsanın insana məhəbbətini.
Dedim yaşadacaq hər zaman vətən
Sadiq ürəklərin dəyanətini...

Gördüm üstümüzə gəlir istibdad,
Faşistlər Volqanın yaxasındadır.
Dedim mərd dayanıb Stalinqrad,
Aləm o şəhərin arxasındadır.

Gördüm yaralanmış dost torpağını
Döyəcləyir mərmi, fəlakət, sazaq.
Dedim qələbənin ilk sorağını
Moskva yayacaq dünyaya ancaq.

Bir odlu ilhamdım, çağlayan təbdim,
Uymadım ümidsiz diləklərə mən.
Yox! Şeirimlə inam toxumu səpdim
Şübhəylə şumlanmış ürəklərə mən.

Gah arxanı kəsdim, gah qarşını mən,
Köksümü qabartdım bir səngər təki.
Döyüşdə Bakının hər daşını mən
Təbrizdə qorudum bir əsgər təki...

Gün gəldi... Atanın uzaqlığını
Duymadın xalqının büsatında sən.
Söylə hardan tapdın uşaqlığını?
Oğlunun-qızının həyatında sən!..

***1975.***

## BİR QOŞMA OXUDUN...

*“Olaydı” şeirinin müəllifi*
*Mədinə Gülgünə ithaf edirəm.*

Bir qoşma oxudun, dinlədim onu...
Gözəl şeir hər ömrə sirdaş olaydı!
Sən “olaydı” dedin hər bəndin sonu,
Mən dedim: – Nə xoşdur! Ah, kaş olaydı!

Demədim şairə! O gözəl dəmdə
Bir əlvan səhərsən yeni görkəmdə,
Gah nurda çimirsən, gah da şəbnəmdə,
Gərək bahar sənə yoldaş olaydı!

İncə musiqidir səsin otaqda...
Bir əlin havada, biri varaqda,
Səni o hüsnünlə şeirə salmaqda
Şair yox, usta bir nəqqaş olaydı!

Şeirdən güldəstə taxıb yaxana
Müjdə göndərəydin sən gün doğana...
Azadlıq bir gəlin, Təbriz toyxana,
Bahar yağışları şabaş olaydı!

O yuyub siləydi çiçəkləri də,
Başları, gözləri, ürəkləri də,
Ruhları, hissləri, diləkləri də,
Nə hicran, nə də ki, təlaş olaydı!

Yerə nur səpəydi bədirlənmiş ay,
Açaydım qapımı, bacım, taybatay...
Şairlər gələydi qoy alay-alay,
Dörd yan xalı, ipək, qumaş olaydı!



Mən şeir oxuyaydım, Hüseyn divanı,
Məclis qızışaydı gecə zamanı,
Evimin ən əziz, ən dost mehmanı
Bir Mədinə, bir də Balaş olaydı!

***Mart, 1960.***

## AY DOST

*Əhməd Kəngərliyə*

Məclisdə tost deyən dost-tanışdan keç,
Şəninə hər sağlıq nə gərək, ay dost...
Anamız Vətəni masabəyi seç,
Desin: yubileyin mübarək, ay dost!

Zaman bələdçidir, həyat axındır,
Qoynunda ucalmaq sənin haqqındır...
Axı, Vətənindir, axı, xalqındır
Sinəndə döyünən mərd ürək, ay dost!

Ömür nə təntənə, nə əzab deyil,
Gül ətri saçmayan su gülab deyil,
Sənin sağlığına al şərab deyil,
Sirabın gözündən su içək, ay dost!

İnan mərd insana, düz etibara,
Nə həyəcana düş, nə intizara!
De, sevib-sevilən bir sənətkara
Nə şöhrət lazımdır, nə bəzək, ay dost!

Yerə də, göyə də zinətdir insan,
Ağ saçlı tarixə şöhrətdir insan,
Görsən ki, yardıma həsrətdir insan,
Nə qayğı əsirgə, nə kömək, ay dost!

Ömrün yollarından sən vüqarla keç,
Günəşdən işıq al, təbiətdən güc...
Tale ulduzunu söndürməsin heç
Nə yağış, nə dolu, nə külək, ay dost!

Əsgər! Sən çatsan da neçə yaşına,
Bir kədər qonmasın çatıq qaşına,
İstərəm misralar səpəm başına
Qışda tapılmasa bir çiçək, ay dost!

Hamıya mehriban ülfətin vardır,
Yaxında, uzaqda hörmətin vardır.
Nə qədər xilaskar sənətin vardır,
Qəlbində gül açsın hər dilək, ay dost!

***1981.***



# Təbiət danışır



## DAĞLAR

Qartalmı o qanadlanan,
Ey uludan ulu dağlar?
Qoynunuzda rahatlanan
Yolçu neylər pulu, dağlar?

Başınız ağ çətirlidir,
Yolunuz şah sətirlidir,
Çiçəyiniz ətirlidir,
Bulağınız sulu, dağlar!

Hər daşınız xanimandır,
Hər otunuz mehribandır,
Hər zirvəniz qəhrəmandır,
Qayalar da qolu, dağlar!

Ay da sizin, gün də sizin,
Nur da sizin, çən də sizin.
Siz bir dünya... Mən də sizin
Hüsnünüzün qulu, dağlar!

Başım daşdan-daşa dəydi,
Könlüm həzin dinən neydi...
Kürəyimi gah qar döydü,
Gah yağış, gah dolu, dağlar!

İntizar and içəcəkmi?
Gözlərimdən köçəcəkmi?
Bir də sizdən keçəcəkmi
Taleyimin yolu, dağlar?

***1989.***



## DAĞ OXUYANDA

Dərələrdə yatan sükut oxuyur,
Zirvələrdə donan bulud oxuyur,
Ürəklərdə susan umud oxuyur,
Dağ oxuyanda.

Döşlərdə rəqqasə güllər oxuyur,
Düzlərdə bəstəkar sellər oxuyur,
Yollarda nəğməkar yellər oxuyur,
Dağ oxuyanda.

Bəzən od baxışlı şimşək oxuyur,
Bəzən buz nəfəsli külək oxuyur,
Gah odlu, gah buzlu tütək oxuyur,
Dağ oxuyanda.

Səmanın üzündə ulduz oxuyur,
Bulağın gözündə yarpız oxuyur,
Baharın sazında novruz oxuyur,
Dağ oxuyanda.

Göydə qatarlanan durna oxuyur,
Yerdə naxışlanan hana oxuyur,
Sözdə dərinləşən məna oxuyur,
Dağ oxuyanda.

Qayanın qaşında qartal oxuyur,
Çeşmənin başında maral oxuyur,
Gözəllik fövqündə xəyal oxuyur,
Dağ oxuyanda.

***1982.***

## DƏRƏ – ZİRVƏ

Pərvazlansın deyə bir durna kimi
Zirvəni qaldırdı başıyla dərə.
Dalınca mehriban bir ana kimi
Su səpdi gözünün yaşıyla dərə.

Ancaq zirvə göyə qalxdıqca qat-qat,
Dərə yerdə qat-qat içini yedi.
Necə dözümlüymüş xeyirxah həyat,
O yenə zirvəyə – uğurlar! – dedi.

Ah! Günəşə doğru qalxdıqca zirvə,
Gözünə qaranlıq endi dərənin.
Ucadan alçağa baxdıqca zirvə,
Sanki baş daşına döndü dərənin...

***1981.***

## ZİRVƏDƏ QƏBİR

Sanki o möhtəşəm, o sakit məzar
Zirvədə alpinist abidəsidir.
Sanki tufan döymüş qranit məzar
Zirvədə bahadır iradəsidir.

Zirvədən ətəyə sallanan cığır
Dağın sərt alnına qırış salıbdır.
Sanki alpinistin kəndiri axır
Soyuq daşlar üstə düşüb qalıbdır.

O tək-tənha qaya igid cavanın
Dəmir papağımı bozarır elə?
O büllur şəlalə cəsur insanın
İşıqlı yolumu ağarır hələ?



Zirvədəki şəfəq – çılğın qonağın
Alovlu könlünün istisidirmi?
Bulud – yandırdığı köhnə ocağın
Hələ də ucalan tüstüsüdürmü?

Adi ölümlərdə yalnız bir dəfə
İnsanlar hay salır, göz yaşı tökür.
Zirvədə qartallar düzülüb səfə,
Bu məğrur ölümə hər gün qıy çəkir.

Hər təzə mövsümdə bir rəngə batan
Donunu dəyişir əynində dağlar.
Mərmər qucağında alpinist yatan
Zirvəni saxlayır çiynində dağlar!

Zirvə dözsün deyə mərd qoçaq kimi
Şimşək yanğınına, qar şəpəsinə,
O yalqız məzarı ağ papaq kimi
Qürurla qoymuşdur öz təpəsinə.

Zirvə həsrətilə çırpınan kəsin
Sinəsi zirvənin üstə qabarır.
Ülvi inamına tapınan kəsin
Fövqünə zirvə də həsəd aparır...

***1982.***

## ŞÖLƏLİ MƏQBƏRƏ

Səhərdir... Güllərin yaşıl gözündə
Şəfqətli günəşə isti umud var.
Dünənki çiskinli göyün üzündə
Bu gün bir parçacıq bəyaz bulud var.

Sanki yaşıl dağlar ağ dəsmalıyla
O mavi lövhəni silmişdir tamam.
Boz çiskin getmişdir nəmli şalıyla,
Ağ dəsmal lövhədə qalmışdır axşam.

Bir məqbərə vardır... Axar-baxarlı
Yaşıl bir zirvənin başındadır o.
Qayalar dözümlü, dağlar vüqarlı
Nəsimi babamın yaşındadır o.

Sanma o məqbərə sənətin ancaq
Qədim, yaraşıqlı abidəsidir.
Yox! Məğrur məqbərə, müqəddəs ocaq
Ölməz sənətkarın iradəsidir.

Mis rəngli donunda cərgəbəcərgə
Açılan dağların lalələridir.
Yox! Yox! Burda yatan mərdlərin bəlkə
Könül alovunun halələridir.

Sanma ustasının ünvanı kimi
İtirib əvvəlki şöhrətini o.
Yaşadıb gözəllik dastanı kimi
Qədimdən də qədim sənətini o!

İlk təşəbbüsüylə, son inadıyla
Ona dönə-dönə dəyibdi tufan.
Qara nəfəsiylə, boz qanadıyla
Qızıl kərpicləri döyübdü tufan.



Fəqət kərpiclərin içindən, düzü
Lalə-lalə yanan alov qabarıb.
Məqbərədən qalxan hər alov özü
Havada qızaran tufan qoparıb.

Türbəyə məşəllə axan gəlmələr
Uçurmaq istəmiş onu yel təki.
Kərpiclər içindən çıxan lalələr
Etirazla qalxmış yanar əl təki.

O dönüb gülləylə dolu darağa,
Zamanla döyüşdə diş-diş olubdur.
O ulu türbəyə, qüdsi ocağa
Müşküllərə dözmək vərdiş olubdur.

Sanki yaralanmış kərpiclər üstə
Tarix neçə-neçə naxış salıbdır.
Ancaq od içində qızaran misdə
Ustanın üzünün rəngi qalıbdır.

Gündüzlər Xəyyamı anan lalələr
Al şərabla dolu camlara dönür.
Gecələr zülmətlə yanan lalələr
Qətran şeirindəki şamlara dönür.

Lalələr zamanın dağını müdam
Göstərə-göstərə öz sinəsində,
Türbənin yoluna hər səhər-axşam
Sənət nuru səpir yer kürəsində...

***Yardımlı, may 1977.***

## TƏK PALID

*Tək əldən səs çıxmaz.*
***Atalar sözü.***

O yaşıl buynuzlu nəhəng kəl kimi
Yalçın qaya üstdə ucalıb göyə.
Cürətlə uzanır qadir əl kimi
"İstəsə tək əldən səs çıxar!" deyə.

O nədir? Bəlkə də cəsarət haqda
Döyüşdə yazılmış mübariz nəğmə!
Sətirlərə bənzər səf-səf budaqda
Hər yarpaq bir yaşıl alovlu kəlmə!

Yaxındakı dağlar min-min ülkəri
Çinlə qalxsın deyə çiyninə taxır.
O çinsiz, rütbəsiz döyüş əsgəri
Vüqarı, hünəri, əzmilə qalxır...

Bu qədim meşədə sanma o qəsdən
Ağac dostlarından aralanıbdır.
Dayandığı yerdə, gah odlu səsdən,
Gah qarlı sazaqdan yaralanıbdır.

Sanma bir qayada təkəbbürlə o
Nümayiş etdirir əzəmətini.
Yox! Günəş çətirli təfəkkürlə o
Bayrağa döndərmiş sədaqətini.

Palıd qaya taclı yamaclar üstdə
Basılmaz sipərdir, alınmaz qala!
Geniş sinəsilə ağaclar üstdə
Gələn bəlaları qaytarmış dala.



Mənə elə gəlir tənha guşədə
Görsəm də palıdın mətanətini,
Fəqət bir nəfər də böyük meşədə
Duymayır palıdın dəyanətini.

Palıda yazığım gəlir, doğrusu,
Bəli! Sevinmirəm bu mətanətdən.
Deyirəm, ey yaşıl hünər ulduzu,
Nə çıxar arxasız bir cəsarətdən?

Ya soyuq nəfəsli küləklər altda
Özün də sovrulub yelə dönərsən,
Ya gözləri odlu şimşəklər altda
Özün də alışıb külə dönərsən.

Öz arzum uğrunda mən səndən də çox
Döş gərdim zamanın min tufanına.
Uzanılı əlim yetişmədi, yox,
Sonuncu arzumun ilk fidanına.

Özümdən deməyə cahanda indi
Nə sözüm qəhətdir, nə dilim laldır.
Fəqət bu döyüşən dövranda indi
Qəhrəman olmaq da adi bir haldır.

Mən də qəhrəmandım... dərindən duysan
İldırımdan deyil, ahdan yanarsan.
Özünü sən mənim yerimə qoysan
Qasırğadan deyil, dərddən sınarsan!

Sənin göy qalxanlı başında çaxan
Şimşəklər səmanın qasırğasıdır.
O mənim qalxansız təpəmə yağan
Döyüş alovunun bir dalğasıdır!

Döyüşdüm... Döş gərdim odlu yellərə,
Ancaq nə yaramda ağrı göründü,
Nə qəhrəmanlığım düşdü dillərə,
Nə də əməyimin barı göründü.

Sanki ağ saçıma baxan palıdın
Yaşıl dodaqları inamla dindi.
Qayadan təmkinlə qalxan palıdın
Söz dolu ürəyi eyhamla dindi:

Sanma ki əbədi məğrurluğumu
Kimsə ya pərişan, ya ağlar görür.
Vətən görməsə də cəsurluğumu
Bu yollar, bu evlər, bu dağlar görür.

Qəhrəman tanınır gen torpaq üstə,
Döyüşdə əsgərdir, kürsüdə vəkil.
Yoxsa qəhrəmanlıq bir varaq üstə
İmzayla, möhürlə tanınan deyil!

Atıl döyüşlərə sən bir də, bir də,
Alovlu sinəndə ərisin tufan.
Bil ki, mübarizə qurtaran yerdə
Həyatın özü də qurtarır, inan!

Demə ki Vətənə xidmətlərimi
Kim harda, nə zaman, nədən görəcək?
Dünya görməsə də zəhmətlərini,
Sənə oğul deyən Vətən görəcək!

Yaşıl çiyinləri göylərə dayaq,
Dərin rişələri yerlərə bağlı,
Məğrur palıd susdu... Bilmədim ancaq
Görən mən haqlıyam, yoxsa o haqlı..

***1981.***



## ƏTTAR ŞƏLALƏ

Bir ətir dükanı açıb yal üstdə
Meşələr ünvanlı əttar şəlalə.
Gələnə, gedənə yaşıl yol üstdə
Dağların ətrini satar şəlalə.

Sanma tək mehriban Yardımlıların,
Həyatda möhtəşəm addımlıların,
Sənətdə ürəyə yatımlıların
Minnətdar könlünə yatar şəlalə.

Boylanar hər gözəl qızın dalınca,
Hardasa səslənən sazın dalınca,
Gözdən uzaqlaşan yazın dalınca
Özünü qayadan atar şəlalə.

Yox! Yox! Dəyişəndə torpaq rəngini,
Biçənək, aşırım, bulaq rəngini,
Günəş işığını, yarpaq rəngini
Gümüş sularına qatar şəlalə.

Gücünü o, müdrik dağlardan alar,
Bağbansız, qayğısız bağlardan alar.
Həm qədim, həm təzə çağlardan alar,
Yoxsa yarı yolda batar şəlalə.

Suyunda gülləri yeridib axar,
Ayı damla-damla əridib axar,
Səsilə şimşəyi kiridib axar
Nağara, kamança, dutar şəlalə.

Mürgülü zirvədə, xumar ətəkdə,
Susanda bulaq da, quş da, külək də,
Nə çalar bürküdə, mehdə, çisəkdə?
“Humayun”, “Çahargah”, “Qatar” şəlalə!

Durar dağ döşündə kəhkəşan kimi,
Büllurdan hörülmüş pilləkan kimi...
Yox! Nurdan tökülmüş nərdivan kimi
Ətəyi zirvəyə dartar şəlalə.

Suyundan dörd fəslin qoxusu gələr,
Ürəyə sərinlik duyğusu gələr,
Haçan ki, dağlarda yuxusu gələr,
Çağlaya-çağlaya yatar şəlalə.

Sanki ustad zərgər məharətilə,
O gümüş əridər şeiriyyətilə...
Yoxsa nəhayətsiz səxavətilə
Zərərli sevdada batar şəlalə.

Üfüqdən tökülər bir halə təki,
İçən coşub-çağlar şəlalə təki...
İçi nurla dolu piyalə təki
Nəsildən-nəsilə çatar şəlalə...

***May, 1977.***

## BULAQ TƏSƏLLİSİ

Vətən əzəmətli bir sərgi kimi,
O yad torpaq deyil, o yad daş deyil.
Vətənin hüsnünü bir güzgü kimi
Əks etməyən yaddaş bir yaddaş deyil.



Dağda tutulanda qaşım-qabağım,
Bulağa gedərdim bilmirəm niyə?
Mənim nəğmə deyən şəffaf bulağım
Qarşımda dönərdi gümüş bir neyə...

Təbəssümlə dolu büllur dodağı
Təsəlli verərdi mənə, təsəlli!
İntizardan doğan müjdə sayağı
Həmişə sevincə dönə təsəlli!

Mən suya baxdıqca fərəh içində,
Qəmim dərdlənərdi üzümdə mənim.
Günəşsə bir qızıl qədəh içində
Alışıb-yanardı gözümdə mənim.

Mən sudan vurduqca qəmli üzümə,
Əksim də bulaqda qanad çalardı.
Şeh dolu çəmənə çökən dizimə
Güllər də al-əlvan naxış salardı...

Məsud su üzümdə jalələr təki
Qəmin simasına baxıb düşərdi.
Eynim açıldıqca lalələr təki,
Qəmim damla-damla axıb düşərdi.

İndi sərt üzlərlə qabaqlaşanda
Yenə istəyirəm bir dağa qalxam!
Məhrəm bir təsəlli soraqlaşanda
Dodağı gülüşlü bulağa baxam!

Mənə elə gəlir, elə gəlir ki,
Bulaqlar tərənnüm abidəsidir.
Könlüm qətiyyətlə dilə gəlir ki,
Bulaqlar təbəssüm abidəsidir!

***1988.***

## ÇEŞMƏLƏR

Ey payızda, qışda, baharda, yayda
Gümüş yağışlardan təmiz çeşmələr!
Özləri bəstəkar sinəsi boyda,
Şaqraq nəğmələri dəniz çeşmələr!

Zirvələrə qalxan yollar dolaydır,
Axışan buludlar başsız alaydır,
Buz çilçıraq asan dağlar saraydır,
Təpələr ətəkdə dəhliz, çeşmələr!

Axın, dalğalanın ipəklər kimi,
Daşdan-daşa qonan küləklər kimi,
Könlümdə çağlayan diləklər kimi
Sizsiniz şeirimə əziz, çeşmələr!

Bir yol yanınızdan keçən adamın,
Sərini istidən seçən adamın,
Büllur suyunuzdan içən adamın
Nəyinə gərəkdir pəhriz, çeşmələr?

Lalələr ətrafda şölələr təki,
Təzə-tər ləçəklər halələr təki...
Açılar-qızarar lalələr təki
Suyunuza dəyən bəniz, çeşmələr!

Bəzənin şairin sözlərilə siz,
Axın, ana yurdun düzlərilə siz...
Nazlı gözəllərin gözlərilə siz
Əkiz yarandınız, əkiz, çeşmələr!



Həyat gətirdiniz öz suyunuzla,
Gül açdı dağ, dərə, düz suyunuzla...
Təranəyə döndü söz suyunuzla,
Dindi çay, şəlalə, kəhriz, çeşmələr!

Gündüz dəstə-dəstə yarpızınız var,
Gecə topa-topa ulduzunuz var...
Kim bilir, hardasa yalqızınız var,
Siz də gözləyirsiz munis, çeşmələr!

Haçan doğma diyar həycanlı oldu,
Yerlər də, göylər də tufanlı oldu,
Mənim nə xəyalım dumanlı oldu,
Nə də yazdıqlarım qəliz, çeşmələr!

Təbdir Arazım da, Kürüm də mənim,
Yuyunub öz alın tərimdə mənim,
Boya-başa çatdı şeirimdə mənim
Qızılgül, qərənfil, nərgiz, çeşmələr!

***1977.***

## ŞİMŞƏK

Göydə şimşək çaxdı... Baxıb gülən göy
Şimşəyi doladı barmaqlarına.
Şimşək çaxdı... çaxdı... Zara gələn göy
Buludları təpdi qulaqlarına...

Şimşək elə güldü, elə güldü ki,
Ayağı altında zirvə titrədi.
Alovlu şimşəyə elə gəldi ki,
Gözləri yağışlı göy bir qətrədi.

Göy dedi: – Ay şimşək, bəsdir gurladın,
Haçan susacaqsan, danış, haçan sən?
Şimşək dedi: – İşi özün korladın,
Gurlayan mən oldum, meydan açan sən!

Bəli! Sən özünsən günahkar ancaq,
Nə qədər gurlasam nə inci, nə bez!
Ulduz karvanların əssə də zağ-zağ,
Mənim oduma da, səsimə də döz!

Odlu güllə dəyən bayraqlar kimi
Göy gah silkələndi, gah da allandı...
Yox! Qəzəbdən əsən dodaqlar kimi
Göyərə-göyərə yerə sallandı.

Şimşək dedi: – Ey göy, nədir bu meyil,
Bir az xeyirxah ol, bir az da kövrək!
Sən öz günahını qəzəblə deyil,
Vicdanla etiraf edəsən gərək!

***1986.***

## QIZIL QAYÇI

Bir qızıl qayçıdır havada şimşək,
O gündüz bilməyir, gecə bilməyir.
Deyir mavi göyü mən biçəm gərək,
Biçə bilməyir ki, biçə bilməyir.

Alova dönsə də şimşəyin sözü,
Göyün ürəyinə bir qor da salmır.
Sonsuzluq içində qayçının özü
Elə yox olur ki, izi də qalmır.



Axı göy nə kətan, nə də parçadır,
Nə də ki, biçməkdə qayçı mahirdir.
Nə olsun, arzusu dağdan ucadır,
O gərək bilsin ki, nəyə qadirdir!

***1988.***

## YAĞIŞDAN SONRA

Təbəssüm çağlayır üzündə göyün
Çisək təmizlənir yağışdan sonra.
Ulduzlar çeşməkdir gözündə göyün
Çeşmək təmizlənir yağışdan sonra.

Nə başdan-ayağa çiçəkdir səma,
Nə qızıl arılı pətəkdir səma,
Yox! Mavi qəzilli ələkdir səma,
Ələk təmizlənir yağışdan sonra.

Hava duruldluqca buz bulaq kimi,
Yollar ağarışır ağ zolaq kimi,
Salxımlar parlayır çilçıraq kimi,
Tənək təmizlənir yağışdan sonra.

Özünü qayadan dərəyə atan,
Kirpiyi yolların tozuna batan,
Axır bir döngədə qıvrılıb yatan,
Külək təmizlənir yağışdan sonra.

Kim deyir, imkanı dardır dağların,
Örpəyi həmişə qardır dağların,
Yaşıl örpəyi də vardır dağların,
Örpək təmizlənir yağışdan sonra.

Zirvədə bir çəngə bulud olsa da,
Buludlar dalınca gözü dolsa da,
Büllur dağ göləndə əksi qalsa da,
Ətək təmizlənir yağışdan sonra.

Sellərdə kötüklər balınclar təki,
Daşlar şaqqıldayır qulunclar təki,
Göydə suvarılan qılınclar təki
Şimşək təmizlənir yağışdan sonra.

Yelpiklər açsa da quş qanadından,
Hardasa dəysə də daş qanadından,
İsti qan axsa da yaş qanadından,
Lələk təmizlənir yağışdan sonra.

Sanki yarpaq-yarpaq aranır çəmən,
Gümüş daraqlarla daranır çəmən,
Çəməndə təzədən yaranır çəmən,
Çiçək təmizlənir yağışdan sonra.

Günəşli yağışın hüsnünə dalan,
Hər gümüş telindən min ahəng alan,
Bərəkət eşqilə mahnılar çalan
Tütək təmizlənir yağışdan sonra.

Göy qızıl halqalı mavi qaval tək,
Ay təndirdən çıxmış isti qoğal tək,
Ləkdə unudulub qalan dəsmal tək
Ləçək təmizlənir yağışdan sonra.

Qardaş! Nə yer geyir, nə də göy əlcək,
Sənə soyuqdursa, nurdan gey əlcək.
Budaq şümşad qoldur, yarpaq – göy əlcək,
Əlcək təmizlənir yağışdan sonra.



Hələ duman zehi qaşda qalsa da,
Mirvari damlalar daşda qalsa da,
Siqlətli fikirlər başda qalsa da,
Ürək təmizlənir yağışdan sonra.

***1986.***

## AY BAHAR

Bahardır. Sinəmdə danışır ürək,
Hər sözü baxtıma minnətdarlıqdır.
Ömrün payızında baharı görmək
Özü də ən böyük bəxtiyarlıqdır.

Xoş gördük ay bahar! Həmişəkitək
Dağları-daşları çiçəklə bəzə!
Anatək saçlara yenə sığal çək,
Yenə ürəkləri diləklə bəzə!

Yaşıl günəşi ol yazılarımın,
Gündüzlərə çevir gecələri də!
Açılsın baharlı arzularımın
Hələ açılmayan qönçələri də!

Qalxım, qış tufanı istəsə haçaq
Heykələ döndərsin məni zirvədə...
İptək ayağıma sarılıb ancaq
Yıxmasın baharın çəni zirvədə.

Demirəm gözümün yağışlarıyla
Bəlkə dərə, təpə, çəmən bəzənsin!
Deyirəm, arzumun naxışlarıyla
Təpədən-dırnağa Vətən bəzənsin!

Elə çiçəklənsin başdan-ayağa
Zəfərlər dəməti olsun Vətənim!
Dönsün şən nəğmələr deyən bulağa,
Təşnə ürəklərə dolsun Vətənim!

Mən qızıl od alım yaşıl odundan,
Gümüş telli saz tək coşum, ay bahar!
Hər il səadətli Vətən adından
Sənə şən nəğmələr qoşum, ay bahar!

***1981.***

## BƏNÖVŞƏ DÖZÜMÜ

Demə ki, bənövşə kövrəkdir, külək,
Qıyma o boynunu əyə dünyada.
Baharı özüylə gətirən çiçək
Niyə kövrək olur, niyə dünyada?

Bənövşə əssə də, göz yaşı üstdə
Baharın selləri axmırmı məgər?
Boynu əyilsə də, dik başı üstə
Baharın şimşəyi çaxmırmı məgər?

Bənövşə də dözür qəhrəman kimi,
Şimşəkləşən sellər yatana qədər.
Baharın nəfəsi ərməğan kimi
Uzaq yurdlara da çatana qədər.

***1983.***



## YANAN LALƏLƏR

Gördüyüm göyərən çəmən deyil, yox,
Qardaş həsrətidir, bitib ot kimi.
Küləklər döysə də, o məndən də çox
Yanır, qəribsəyir, dinir ud kimi.

Göydəki sıxlaşan duman yerdədir,
Aralığı kəsən bomboz pərdədir,
Yol üstə saçağı girdə-girdədir,
Haraya qaçasan duman əlindən?

Yox! Duman yolumu etməsə də tərk,
Alovlu döyüşün boz tüstüsütək,
Dumanı karvanla mən udaram tək,
Haray şölə çəkən hicran əlindən.

O keçir adamın yeddi qatından,
Min-min ürək yanar bircə odundan...
Silsilə dağlar da titrər adından,
Aman, kor hicranın aman əlindən.

Fəqət alovlanan bir ocaq təki
Səpdiyi közləri yığmır lalələr.
Sanki hücumdadır al bayraq təki,
Yaşıl çəmənlərə sığmır lalələr.

Bəlkə də bir geniş meydandan ötrü
Dərəyə enibdir, yala çıxıbdır.
Yox! Yaman darıxıb insandan ötrü,
Qırmızı yaylıqla yola çıxıbdır.

Dayanır gülləri seçən qızlarım,
Heyrətdən qaşları çatılır burda.
Lalələr üstündən keçən qızlarım
Sanki tonqallardan atılır burda.

Qızlar lalə dərir... Kiçik əllərə
Lalənin gözünün giləsi düşür.
Soyuqdan büzüşən nazik əllərə
Yanan ləçəklərin şöləsi düşür.

Bəs arxadan gələn o səs nə səsdir,
Oğlumdur! Yüyürür, büdrəyir, qalxır.
– Qızlar, lalələri dərməyin, bəsdir,
Lalələrsiz qalar çəmənlər axır...

Eh, mehriban balam, nə deyim sənə,
Hələ uzandıqca arada hicran, -
Təzə lalələrə dönəcək yenə
Qəlbləri göynədən yarada hicran.

Lalələr hicranın közləri kimi
Sinədə, dodaqda, gözdə yanacaq.
Yanıqlı bir şeirin sözləri kimi
Dərədə, təpədə, düzdə yanacaq..

***1977.***

## AĞACLARIN GÖZ YAŞI

Ağacların gözləri
Yaşıl yarpaqlarıdır.
Sanma büllur damlalar
Bahar növraqlarıdır.
Ağaclar da ağlayır
Gəlməsə də xoşları.
Yaşıl yarpaqlarında
Çağlayır göz yaşları...
Bəlkə haçansa sevən
Cavanları anırlar.
Altlarında bağlanan
Peymanları anırlar.



Sonra ürəklərini
Nisgillə oxudurlar.
Nakam məhəbbətlərə
Göz yaşı axıdırlar.
Yox! Ürək məhəbbətə
Möhtac yaranmış, möhtac!
Nə yalan peyman olsun,
Nə də ağlayan ağac!
Bəli! İşıqlı gözü
Xatırladan hər yarpaq,
Peymanın barmağında
Zümrüdə dönsün ancaq!

***1983.***

## BÜLBÜLÜN GÖZ YAŞI

Bülbül ağlayanda ovutma nahaq,
Göz yaşı islatsın qoy yanağını.
Bülbül göz yaşıyla təmizlər ancaq
Bağda ləkə düşmüş gül yarpağını.

Yox! Leysana dönsə göz yaşı bağda,
Müşküldür ləkənin getməsi, müşkül!
Odur ki, düşünüb bu dəhşət haqda
Daha da şiddətlə ağlayar bülbül...

Ancaq məğrur bülbül kiriyər sonda
Əbədi nisgildən yoğrulan daş tək.
Gülün surətini qəzəblə onda
Öz gözündən silər alovlu yaş tək.

***1983.***

## BÜLBÜLLƏR MƏCLİSİ

Pardaqlı ulduzlar çıxıb pöhrədən,
Axşam da büsatlı axşam kimidir.
On dörd gecəlik ay saxsı nehrədən
Təzəcə yığılan çalxam kimidir.

Ötən bülbüllərin od nəfəsindən
Gecə damla-damla əriyir çalxam.
Yerin zərrin tacı göy qübbəsindən
Dağların başına tökülür aram...

Bəs necə? Sehrli bülbül nəğməsi
Ayın da canına yayılır, axı!
O da əridikcə şəffaf zərrəsi
Gümüş abidəyə çevirir dağı...

Həm zildə oxuyur bülbül, həm pəsdə,
Susdumu? İlhama gəlir özgəsi.
Fəqət nur süzülən budaqlar üstdə
Nə özü görünür, nə də kölgəsi.

Elə şaqraq nəğmə başlayır onlar,
Dağlar gülümsəyir fərəh içində.
Arabir zəngulə xoşlayır onlar,
Bulaqlar çağlasın cəh-cəh içində.

Bəli! Yardımlının hər qarışında
Növbəylə oxuyur sarı bülbüllər.
Min havayla çalır səs yarışında
Bir simləri yaşıl tarı bülbüllər.



Sanki dağlardakı xınalı daşlar
Qırmızı ayaqlı çil-çil kəklikdir.
Başında palıdlar səflənən qaşlar
Saçı göy daraqlı şanapipikdir.

O gözəl quşlar da susur yerində,
Daha nə su içir, nə dən dənləyir.
Donur bülbüllərin sənət sirrində,
Min nadir bəstəli nəğmə dinləyir.

Dürlü çeşmələr də şırıltısıyla,
Sirli yarpaqlar da pıçıltısıyla,
Zərli sünbüllər də xışıltısıyla
Səs verir dağların bülbüllərinə.

Ağacdələnlər də taqqıltısıyla,
Əsən budaqlar da şaqqıltısıyla,
Uçan durnalar da qaqqıltısıyla
Səs verir dağların bülbüllərinə.

Çiçəklər ətirli yağışlarıyla,
Dalğalar cürətli axışlarıyla,
İnsanlar sürəkli alqışlarıyla
Səs verir dağların bülbüllərinə.

Bülbüllər ilhamlı, mən həyəcanlı,
Yadıma bir nəğmə dənizi düşür.
Mehriban qocalı, qaynar cavanlı
Təbrizin “Şairlər məclisi” düşür.

Əvvəl Füzulinin bir təzə halla
Qədim divanını açardıq orda.
Ustad qayıtdıqca getdiyi yolla
Biz də qabağına qaçardıq orda.

Sözə o başlardı... Hər qəzəlini
Təmkinlə oxuyub fikrə dalardı.
Qürbətdə itirib öz gözəlini,
Sanki Vətənindən xəbər alardı.

Başını divandan qaldırıb hərdən
Bizə qərib-qərib baxardı şair.
Odlu nəfəsilə durduğu yerdən
Bizi də yandırıb yaxardı şair.

Gah axar, gah batar, gah ucalardıq
Ləngərli misralar ləngərində biz.
Dünya görməsək də tez qocalardıq
Şairin bir dünya kədərində biz.

Parçalanmış qəlbin şikayətindən
Bizim də qəlbimiz qəlpələnərdi.
Fəqət ilhamının şeiriyyətindən
Qəlblərə incilər səpələnərdi...

Sonra biz ustaddan icazə alıb,
Şeir oxumağa başlardıq orda.
Hansı şeirə isə naxışlar salıb,
Hansı şeiri isə xoşlardıq orda.

Məclisdən çıxardıq... Dağ küləkləri
Tərli alnımızdan öpərdi yolda.
Badam ağacları ağ çiçəkləri
Qalibin başına səpərdi yolda...

Yadıma qürurlu könüllər təki
Həm sənət, həm döyüş dərsləri gəlir.
Bu növbəylə ötən bülbüllər təki
Şair dostlarımın səsləri gəlir...

*1977.*



## GÜNƏBAXAN

O, nəmli torpağa düşdüyü çağdan
Günəşə həsrətlə ayağa qalxar.
Şamama ulduzlar qopmamış tağdan,
Lalələr açacaq üfüqə baxar.

Günəşi sevinclə qarşılar səhər,
Axşam intizarla yola salar o.
Çiyninə baş qoyan yetimə bənzər,
Sarala-sarala tənha qalar o.

Sabahsa günəşi salamlar başı
Zirvə başındakı zərrintac kimi.
Əlvan şəfəqlərdən yağan daş-qaşı
Toxumlu ağzıyla udar ac kimi.

O qədər günəşə baxar ki, axır,
Özü də balaca bir günəş olar.
Görsə cığırlara qaranlıq yağır,
O qızıl şəfəqli çığırlar salar.

Cığırlar günəşin səxavətini
Zərli misralarla yazar torpağa.
Təmənnadan uzaq dəyanətini
Yalnız yaxınlığa yozar torpağa.

O söz qoşmasa da ana günəşə
Bir sarı köynəkli nəğməkar təki,
Övladlıq borcunu duyar həmişə,
Önündə baş əyər minnətdar təki...

*1980.*

## SANKİ

Günəş yarıya qədər
Dağın dalında batıb.
Sanki qürub yerində
Kim isə tonqal çatıb.
Göy tərsinə çevrilmiş
Qara sac olur yenə.
İçində ağ ulduzlar
Qovurur dənə-dənə.
Sanki bəşərə daim
Ağ buğda qovurur göy,
Bir dən də nə dağıdır,
Nə də ki, sovurur göy.
Xeyr! Xeyr! Hər dənə
Gözünü yetirir o.
Bilir bir dən itəndə
Bir insan itirir o...

***1980.***





## SEVGİ

Sevgi nədir? Şimşək! Hansı ürəyə
Bir odu düşərsə, alovlanar o.
Ürək yürüyərsə üzü küləyə,
Ürəyin içində buxovlanar o.

"Bezib" azadlığın mənzərəsindən
Sevgi də dustaqlıq zənciri taxar.
Yalnız bir ürəyin pəncərəsindən
Bu boyda dünyaya qürurla baxar.

Ürək döyündükcə riqqət içində
Nigaran-nigaran dinər sevgi də.
Bir məhrəm xoşbaxtın şəfqət içində
Munis surətinə dönər sevgi də

***1980.***

## ƏLVAN DÜNYA

Kim deyir məhəbbət ünsiyyət deyil,
Kim deyir məhəbbət təravət deyil,
Kim deyir məhəbbət qətiyyət deyil,
Kim deyir məhəbbət hərarət deyil,
Kim deyir məhəbbət qüdsiyyət deyil,
Kim deyir məhəbbət həqiqət deyil,
Kim deyir məhəbbət sədaqət deyil,
Kim deyir məhəbbət dəyanət deyil,
Kim deyir məhəbbət ədalət deyil,
Kim deyir məhəbbət səadət deyil,
Kim deyir məhəbbət hekayət deyil,
Kim deyir məhəbbət şeiriyyət deyil,
Kim deyir məhəbbət ülviyyət deyil,
Kim deyir məhəbbət əzəmət deyil?



Məhəbbət nə xülya, nə də röyadır,
Yox! Yox! Özü boyda əlvan dünyadır.
Yazlı sinəsində bir nəsil yaşar,
Gülü bir fəsil yox, hər fəsil yaşar.
Haçan yerə-göyə sığışmaz çətri,
Həyata nə saçar? Məhəbbət ətri!

***1981.***

## MƏHƏBBƏT DƏ QIZILGÜLDÜR

Yaxşı olar ayaq üstdə
Sən süzəsən qızılgülü.
Tələsik yox, asta-asta
Sən üzəsən qızılgülü.

Yoxsa sanma əllərində
Büllur şehlər inci olar.
Yox! Yox! Yumşaq əllərinə
İynə-iynə tikan dolar.

Sənin qorxun qızılgülü
Diksindirsə şimşək kimi,
Rəngini də, ətrini də
Aparmazmı külək kimi?

Onda nadir qızılgül də
Adi çiçək olar axı.
Sonra belə bir qızılgül
Kimə gərək olar axı.

Məhəbbət də qızılgüldür,
Öz rəngi var, öz ətri var!
Qədirbilən ürəklərdə
Öz hörməti, öz xətri var!

Məhəbbətdə tələsənlər
Uduzurlar baxtlarında.
Naşılığı qınayırlar
Öz kamillik vaxtlarında.

Məhəbbət bir tufan deyil,
Arasından tez keçəsən.
O elə bir dondur, gərək
Yüz ölçəsən, bir biçəsən.

Məhəbbət də göyərəndə
Əvvəl-əvvəl qönçə olar.
Düyününü yoxlamasan
De, pardaxı necə olar?

***1981.***

## GÖZƏLLİYİN MƏNASI

Sinəndə qoşalaşan
Heyvamıdır, narmıdır?
Hələ bahar gəlməmiş
Düymələşən barmıdır?
Yox! Bahar yubansa da,
Özün bahar kimisən.
Gözəllik dünyasında
Nadir nobar kimisən.
Sənin qaynar gözlərin
Məhəbbət bulağıdır.
Ağ əlin ağ zanbağın
Təzə-tər yarpağıdır.



Sanki həmişə mavi
Büllura dönsün deyə,
Gah nəğməli varağa,
Gah nura dönsün deyə,
Ürəyi təlatümlü
Dənizin də bənizi,
Sən mavi gözlərində
Çimdirirsən dənizi.
Sən daha da pardaxlan,
Sən daha da gözəlləş,
Sən daha da şeirləş,
Sən daha da qəzəlləş!
Sənin pərəstişkarın
Bəlkə bir yox, yüz olsun!
Hər ulduz gözlərinə
Heyran qalan göz olsun!
Ancaq coşğun həyatın
Keşməkeşli yolunda,
Gah dumanlı yolunda,
Gah günəşli yolunda
Demə ki, “gözəllərin
Əzizidir gözəllik”.
Sevginin etibarlı
Kənizidir gözəllik!

***1980.***

## GÖZƏL YARANMASA

Sanki kasıb gözəllərin
Üst-başı da gözəl olur.
Dərd əlindən ağlayanda
Göz yaşı da gözəl olur.

Bəli! Sanki gözəlləşir
Baxışında kədərlər də!
Al günəşlə gözəlləşmir
Boz buludlu səhərlər də?
Ancaq gözəl yaranmasa
Hansı məğrur xanım özü,
Daş-qaşlara bürünsə də
Yenə kasıb olar düzü.
Gözəllərsiz ucuzlaşar
Nemət dolu dünyamız da.
Gözəllərsiz adiləşər
Hikmət dolu dünyamız da.

*1982.*

## YAŞ

Şair! İlham dolu aləminlə sən
Dedin Füzulinin ustadlığından.
İndi gileylənən qələminlə sən
Yazma gözəllərin kasadlığından.

Demə əsil gözəl yoxdur dünyada,
Hanı Füzulinin yazdığı gözəl?
Gözəllər gözəli çoxdur dünyada,
İstəsən şeir yaz, istəsən qəzəl...

Məgər hər gözəlin dərin baxışı
Ulduz dolu göydən əngin deyilmi?
Məğrur gözəllərin qiymət yarışı
Zəngin sərgilərdən zəngin deyilmi?

Gözlər buludlansa, dönüb şimşəyə
Buludu dağıdar canan gülüşü.
Ümidi itirən bom-boş ürəyə
Təsəlli axıdar canan gülüşü...



Bəli! Az deyildir mehriban dilbər,
Eyham da, ülfət də, işvə də bilər.
Hər qaşları hilal, gözləri ülkər
Səni bu yaşında sevə də bilər.

Yox! Gözəllər tacı olsa bir dilbər,
Könlünü oynadar yerindən ancaq.
Öz məhrəm baxışlı sevgilin qədər
Səni duya bilməz dərindən ancaq.

*1980.*

## TALEYİN TÖHFƏSİ

Gözəllər var, gözləri
Özlərindən də gözəl!
Danışanda səsləri
Sözlərindən də gözəl!
Gözlər üstə qonanda
Uzun, qara kirpiklər,
Bir şəvə çəpər çəkər
Hardan hara kirpiklər.
Naxışlı şaxtadan da,
Yanğılı istidən də,
Qanadlı küləkdən də,
Zəhərli tüstüdən də
Gözəl-gözəl gözləri
Sədaqətlə qoruyar.
Bəli! Ayıq kirpiklər
Keşiyə də yarıyar!
Ancaq gözəl gözləri
Nəzərdən qoruyanda,
Bəlkə də ən dəhşətli
Xətərdən qoruyanda,

Cinayət də törədər
İnsafsız adam kimi.
Öz-özünə xəyanət
Eləyən ilham kimi.
Kirpiklər sanmasın ki,
Məhəbbət dolu gözlər,
Təravət dolu gözlər,
Şeiriyyət dolu gözlər,
Bir mahirdən də mahir
Rəssamın lövhəsidir.
Yox! Xəsisdən də xəsis
Taleyin töhfəsidir.
Ulduz-ulduz yanarlar
Gözəlliyin yolunda.
Dustaq ola bilməzlər
Şəvə çəpər dalında.

***1979.***

## ÇƏPƏR KİRPİKLƏR

Titrək kirpiklərin ətir dağıdır,
Bəlkə yaz gəlməmiş bənövşələşib?
Mənim ömrümün ki, payız çağıdır,
Ürək həm nəzilib, həm şüşələşib.

Yox! Yox! Kirpiklərin qanad çalmasın,
Səni bu pərvazda qınar ürəyim.
Bəli! Dost kirpiklər düşmən olmasın,
Tək bir təkanla da sınar ürəyim.

Kirpiklər dayansın! Axı kim istər
Kirpiklər bir çəpər ola gözlərə?
Bu qısa ömürdə sən qayğı göstər,
Mən doyunca baxım, ala gözlərə...

***1981.***



## QARA GİLƏLƏR

Gözəl! Yolun nə çən, nə də ki, qardır,
Taleyin – Xoşbaxt ol! – deyibdir sənə.
Bu qədər ki, gözəl rayihən vardır,
Yazın nəfəsimi dəyibdir sənə?

Dağların şehləyən dumanlığında
Kim deyir zirvəyə qalxa bilmərəm?
Qara gözlərinin qaranlığında
Elə azmışam ki, çıxa bilmərəm.

Gülüm! Dan yerindən çıxan günəş tək
Sevgi də doğular ürəyimizdə.
Yanıb-tüstülənsə hisslər küləş tək,
Sevgi də boğular ürəyimizdə.

Yox! Yox! Aramızda körpüdür ülfət,
O təbii qalsın! Ütülənməsin!
Hisslər alovlansın! Nə olar? Fəqət
Heç yerdə, heç zaman tüstülənməsin!

Nemətlər neməti eşqə biganə
Milçək bal yedikcə şişib “fil” olar.
Ürəyi sevgiylə dolu pərvanə
Şamın alovunda yanıb kül olar.

Atəş var, sevginin öz atəşi tək?
Gah baxışda yanar, gah da güzgüdə...
Şaxtada parlayan qış günəşi tək
Aldadıcı olur soyuq sevgi də.

– Mən parlağam! – deyə öyünməsin qar,
Yox! Alov da donur naxışlarında.
Bir zağlı xəncərin parıltısı var
Sənin hərarətli baxışlarında.

Sənin gözlərinə baxdığım zaman
Az qaldı torpağa yıxılam, gülüm!
Mən sənin əlini sıxdığım zaman
Sən qoyma mən özüm sıxılam, gülüm!

Sən ipək telinə gül bağlayanda
Üzüyünün üstdə qaş olum mən də!
Hönkürə-hönkürə sən ağlayanda
Gözündə bir damla yaş olum mən də!

Yox! Ağlama gülüm! Fəlakət dolu
Sellər gözlərinə yığıla bilər.
Ala gözlərinin hərarət dolu
Qara gilələri boğula bilər.

***1986.***

## AFƏT

Gün düşməyən, gül bitməyən
Bir qayaya dönmə, afət!
Əl çatmayan, ün yetməyən
Bir dünyaya dönmə, afət!

Yaşamadım mən yanğısız,
Kim yaşayar de, duyğusuz?
Mən ilhamam! Sən qayğısız
Bir mayaya dönmə, afət!

Yalan dolu dillər yağlı...
Aldanmasın hüsnün ağlı!
Həya xoşdur! Dili bağlı
Bir həyaya dönmə, afət!



Gün hesabsız, ay hesabsız...
Bir il varmı de, əzabsız?
Aləm sussa, sən rübabsız
Bir dəryaya dönmə, afət!

Sən Günəşsən! Mən əl açan,
Haçan işıq alım, haçan?
Tək özünə işıq saçan
Bir ziyaya dönmə, afət!

Dodağımda şirinləşən,
Ürəyimdə sərinləşən,
Gözlərimdə dərinləşən
Bir röyaya dönmə, afət!

***1988.***

## HEYRƏT

Qızıllaşan saçın hamı sanardı
Alov topasıdır çiyinlərində.
Yaxına düşənin könlü yanardı
Qızıl hörüklərin düyünlərində...

Düyünlər açılan zaman sazaqda
Tellər şölə-şölə parıldayardı.
Dalğası axdıqca sanki qulaqda
Qızıl çeşmə suyu şırıldayardı...

Sanma mat qaldığım qızıl qaşını
İndi düşündükcə xiffət edirəm.
Qarlı qış kəsməmiş hələ qarşını
Öz gümüş qaşıma heyrət edirəm.

Gülüm! Sənsə gültək pardaxlan, ancaq,
Gözünə düşməsin şəbnəm tül kimi.
Sənin yaz ətrinə bələnsin torpaq,
Özünsə qışda da solma gül kimi!

***1982.***

## SEVGİLİM

Söyüdün yamyaşıl yelpiklərinin
Sərin kölgəsində yatanda insan,
İstərəm mən qara kirpiklərinin
İsti kölgəsində dincələm, inan.

Kirpiklər döydikcə solğun üzümə
Könlündən könlümə alov ələyə.
İşığı azalmış yorğun gözümə
Günəşli gözündən şəfəq çiləyə.

Tar dinə, simləri görməsə gözüm
Susam! Rübabına dalam, sevgilim!
Ancaq öz sevdiyim rübabı özüm
Sənin tellərində çalam, sevgilim!

*1980.*

## MƏNİM İLKİM

Qəribədir bu həyatın iştəkləri,
İgidlik var, özü ölüm, adı hünər!
Əlvansa da hər insanın dilәkləri,
Xəstəlik var, adı şəkər, özü zəhər.

Bu dünyada neçə aşıq bilə-bilə
Məsləkini qurban verdi sevgisinə.
Gözlərindən sevinc yaşı gilə-gilə
Səpələndi məşuqunun güzgüsünə.

Mənsə ağır sınaqlardan çıxa-çıxa,
Məsləkimə qurban verdim sevgimi də.
Kirpiyimi-kirpiyimə sıxa-sıxa,
Göz yaşımda boğdum suçsuz ilkimi də.

*1982.*



## İKİ TOY

Sarı şallı ağacı
Döydükcə boz sazaqlar,
Sanki budaqlar üstdən
Qopub düşən yarpaqlar
Yazdan qalıb saralan
Sevgi məktublarıdır,
Əl boyda günəşlərin
Yerdə qürublarıdır...
Düşür payız axşamı
Dərələrə, dağlara,
Gör mənim quş xəyalım
Uçur hansı çağlara.
Yadındamı Təbrizdə
Gəzdiyimiz gecələr?
Göyün gülşənindəki
Qızıl-qızıl qönçələr?
Sanki gəlib bizə də
Çatırdı ətirləri.
Meh dolu sinəmizdə
Yatırdı ətirləri.
Qönçələrin hər biri
Bir sevdanın baxtıydı.
Nə susmaq, nə yorulmaq,
Nə uyumaq vaxtıydı.
Sən gözəl yaransan da
Nə mələk, nə pəriydin.
Yox! Hansı şairinsə
Yazılmamış şeiriydin.
O çağları andıqca
Dincəlir xəyalım da.
Kobud təmas içində
İncəlir xəyalım da.

Biz ki, toy eləmədik,
Arzumuz soldu, gülüm!
Yeganə övladımız
Ayrılıq oldu, gülüm!
Sən açıq ürəyində
Açılmamış qönçələr,
Yolumu intizarla
Gözləyəndə gecələr,
Tale Ayı qayçıyla
Doğrayıb bilə-bilə,
Sənin şəvə saçına
Səpibdir gilə-gilə.
Yazırsan "Möcüzəni
Kimsə gözləməz düzü.
O haçansa, hardasa
Özü baş verər, özü.
Mən səni gözləyirəm
Hələ də möcüzə tək.
Sağ-salamat gələsən
Bakıdan Təbrizədək.
Yolun tozlu olarsa
Süpürgə aramaram.
Yox! Süpürgə arasam
Sevgiyə yaramaram.
Sulu kirpiklərimlə
Təmizlərəm yolunu.
Sən gələsən, boynuma
Dolayasan qolunu".
Gözlə! Sanma hər yerdə
Qəflətən uçular yol.
Bir yandan bağlananda,
Bir yandan açılar yol.



Sevənlərin əlləri
Əzəldən xınalıdır.
Ancaq sanma saralmış
Xəzəldən xınalıdır.
Yox! Laləsi qızaran
Çəməndən xınalıdır.
Günəşin şəfəqində
Çiməndən xınalıdır.
Babalar günahkarı
Sözüylə döyüb, gülüm!
Özləri yıxılanlar
Ağlamaz deyib, gülüm!
Mənim günahım nəydi?
Vətəndən ayrılmağım.
Söz gülləri əkdiyim
Gülşəndən ayrılmağım.
Mən dözdüm... Məni ancaq
Uzun hicran ağlatdı.
Zaman-zaman gah aşkar,
Gah da pünhan ağlatdı.
Sanma səni bir daha
Yadıma salmaram mən.
Yox! Səni ana-ana
Kirpik də çalmaram mən.
Kirpiyini endirən
Vüsalı necə gözlər?
Baxa-baxa həm gündüz,
Həm də ki, gecə gözlər.
Hələ ayrılıq biçir
Neçə don öz boynuna.
Bizim toyumuz qalıb
Vətənin öz toyuna.

***1978.***

## GİROV

Qələmlər yazsa da mədəniyyətdən,
Hər şey bu dünyada tələbdən doğur.
Nəzakətin özü səmimiyyətdən,
Kobudluğun özü qəzəbdən doğur.

Yox! Lovğa kişi də, məğrur qadın da
Gərək nəzakətlə dinsin həmişə.
Kobudluq əriyib qəzəb odunda
Nəzakət mumuna dönsün həmişə.

Yanıb damla-damla töküldüyünü
Şam öz işığında görsə də, susar.
Səhər dan yerinin söküldüyünü
Dünyaya o müjdə versə də, susar.

Qız var, hərarətlə dolu ovsun tək
Üzünə dəydikcə oğlan nəfəsi,
Sevgi dənizində əsən yosun tək
Riqqətlə titrəyər köks qəfəsi.

Qız var, cilovlayar öz həvəsini,
Təvəqqeylə dolu ovsuna uymaz.
Sevdiyi oğlanın od nəfəsini
Vüsal gününədək yaxına qoymaz.

Sən elə təmizdin, elə təmizdin,
Bir dodaq dəyməmiş çeşmə kimiydin.
Sən elə əzizdin, elə əzizdin,
Min arzudan doğan nəğmə kimiydin.

O nadir nəğmənin hərarət dolu
Nəqəratı nəydi? Ancaq məhəbbət!
İki mehribanın sədaqət dolu
Gözlərindən baxan parlaq məhəbbət!



Sənin ecazlaşan hüsnün bir yana,
Məni nəzakətin heyran qoyardı.
Söhbətim ağzımda çatmamış sona,
Həssas baxışların məni duyardı.

Sən heykəldən sakit təbiətinlə
Ədasız gözəldin, ədasız gözəl!
Sən ipəkdən zərif ünsiyyətinlə
Vidasız gözəldin, vidasız gözəl!

Alovlu sükutun məni sıxsa da,
Macal verməzdin ki, ah çəkəm, gülüm!
Qürurla sanardım, igid çoxsa da,
Sınaqda, dözümdə mən təkəm, gülüm!

Bəli! Dözümə də sevgidir arxa,
Yoxsa mən tək qalan ələ dönərdim.
Min maraqla dolu göz baxa-baxa
Elə yanardım ki, külə dönərdim.

Mən yanmadım... Sənin odun-alovun
Neçə imtahanda yoxladı məni.
Bəlkə öz taleyin olub girovun
Dünyada səninçin saxladı məni.

Bir töhfə tapmadım... Mən sənə ancaq
Arxası yazısız şəkil yolladım.
Sanki neçə-neçə niyyətə dayaq
Vətənimiz boyda nisgil yolladım.

Gözlərimə baxma, gözlərimdəki
Nisgil dənizində bata bilərsən.
Sözlərimi oxu, sözlərimdəki
Arzuya cəsarət qata bilərsən.

Mən o cəsarətlə bir qartal təki
Zirvədən-zirvəyə qanad çalaram.
Dünyanı gəzərəm bir xəyal təki
Tək sənin yanında məskən salaram.

***1978.***

## YADINDA VARMIDIR?

Tələsmə saçıma sən qar deməyə,
Yadında varmıdır, cavandıq biz də!
Ancaq sevgimizi aşkar deməyə
Bilmirəm nə üçün yubandıq biz də!

Göydə ulduzlara maraqla baxdıq,
Yerdə ürəyimiz yandı qəndil tək.
Qoşa çaya dönüb yanaşı axdıq,
Birləşə bilmədik iki sahil tək.

İndi o sevgiyə möhtaclar kimi
Günahkar sayırıq özümüzü biz.
Səmtinə yıxılan ağaclar kimi
Keçmişə dikirik gözümüzü biz.

***1981.***

## İKİ XƏYAL

Demə başa çatdı dünənin yolu,
Xatirə yazmağın mənası nədir?
Yox! Sevinc gətirən uğurla dolu
Bu günümüz sabah bir xatirədir.



Qiymətli şeylərlə dolsa da evim,
Könlümün sərvəti xatirələrdir!
Bir ecazkar muzey olsa da evim,
Ömrümün zinəti xatirələrdir.

Tək zirvəyə qonan çəndən xəbərsiz
Zümrüd çəmənlərdə yanaşı gəzdik.
Sən məndən, mən də ki, səndən xəbərsiz
Xəyalda bir könül sirdaşı gəzdik.

Sən gülün başına dolanan zaman
Mən sənin başına dolandım, gülüm.
Sən qəfil leysanda talanan zaman
Mən sənin oduna qalandım gülüm!

Leysan talanından qorunaq deyə,
Qayada sığındıq bir-birimizə.
Odlu gözlərimiz baxdıqca göyə,
Göy də su caladı, su, yerimizə...

Bizsə tərpənmədik... Demə xəyalda
Sən məni gəzibsən bir həmdəm kimi.
Xəyalım uçanda doğma mahalda
Mən səni gəzmişəm bir məhrəm kimi...

Nəfəsimiz yanıb dodağımızda,
Havada qarışdı biri-birinə...
Xəcalətdən pörtən yanağımızda
Damlalar çevrildi həya tərinə...

Yuyuldu güllərin çətirləri tək
Sənin ağ əllərin, incə əllərin.
Bir sevgi şeirinin sətirləri tək
Çiynimə səpildi qara tellərin...

***1982.***

## SƏMİMİYYƏT

Mən dondum buzda da, yandım közdə də,
Bir əzab varmıdır həsrətin təki.
Əngin dərədə də, geniş düzdə də
Ürəyimi sıxır kəlbətin təki.

Bəlkə – Səmimiyyət! – söyləyək bir də,
O təmiz ürəkdən düzlük alandır.
Yoxsa səmimiyyət olmayan yerdə
Duyğu da saxtadır, söz də yalandır!

Özün elə gülsən güllər içində,
Səni gözdən düşən şeh də yaralar!
Çöhrən elə türdür tüllər içində,
Onu yaz nəfəsli meh də yaralar!

Gözün nə qədər də yaraşıqlıdır,
Gah yaşıl, gah qonur, gah göydür gözün.
Mənimçin həm əlvan, həm işıqlıdır,
Hər şeyli dünyada hər şeydir gözün.

İllər dalğa-dalğa coşan sellərin
Sahilləri aşan axarlarıdır.
Sənin həyat dolu şümşad əllərin
Ömür qayığımın avarlarıdır...

Gözəlin hüsnünü duya bilməyən
Günəş dolu gözlər korlar kimidir.
Üzlərdən kədəri yuya bilməyən
Donmuş göz yaşları qorlar kimidir!

Demə sən gözəldin nadir surəttək,
Mən gözəlliyimə göz ki, yummadım.
Ancaq neçə-neçə gözəl nemәttək
Gözəlliyimdən də heç nə ummadım.



Gəl! Günəş bayraqlı vicdanımızla
Boynumuza alaq günahımızı!
Yenə də əvvəlki peymanımızla
Birgə qarşılayaq sabahımızı.

Şəvə tellərindən daha da parlaq
Uzun kirpiklərin sıx çəpər olsun!
Gözündə günəşi qorusun ancaq,
Gözünə nə bulud, nə yağış dolsun!

Şimşəkli gözündə leysanlanan yaş
İslatmaq istəyir al yanağını.
Yox! Şimşəkli leysan yağmayaydı kaş,
Yadlar görməyəydi çağlamağını!

Unutma! Gözlərin parlayan yaşı
İncidir, gövhərdir, ləldir, mərcandır!
Çalış! Yaxşı qoru nadir daş-qaşı,
Hayıfdır, hər şeyçin tökmə, amandır!

Eh! Məğrur baxardı mənə bir zaman
Təbəssümlə dolu göz şəkilimdə.
İndisə gözü də yorğun bir insan
Məndən dinclik umur öz şəkilimdə.

Payız xəzəlini yandırma nahaq,
Odlu şəfqətlə bax solğun üzünə.
Ağacdan həsrətlə ayrılan yarpaq
Onsuz da alışır özü-özünə.

Əxlaq kitabıdır dünyada vicdan
Arzuya çıraqdır, əməyə bəzək!
Arzuyla, əməllə yaşayan insan
O kitabı tez-tez oxusun gərək!

Demirəm sözümü döyüşdə sına,
Heç yerdə, heç zaman döyülmərəm mən.
Deyirəm özgələr qalsın bir yana,
Hətta özümə də əyilmərəm mən!

Gəl anaq əvvəlki büsatımızı,
Qayıdaq sevgidə öz yerimizə.
Bəlkə də günahsız həyatımızı
Yenidən həsr edək bir-birimizə...

Dediyim sözləri diqqətlə dinlə,
Acı xatirəyə çevrilmə ancaq.
Sən elə əvvəlki şəfqətlə dinlə,
Həsrətin odunda kövrəlmə ancaq.

Gözlərin dolmasın asiman təki
Yaşı ulduz-ulduz axmasın, aman!
Sənin təbəssümün kəhkəşan təki
Mənim taleyimdə yansın hər zaman!

***1981.***

## SEVGİ ODU

Qüdsiyyətlə dolu nəğmələrinlə
Gözümdə qüdsiyyət kəhrizi səndin!
Şeiriyyətlə dolu nəğmələrinlə
Könlümdə şeiriyyət dənizi səndin!

Uzağa çəkildin... Çağlayan dalğan
Sinəmdə daşlaşdı yanıq həsrəttək!
Mənsə taleyimin göyündən yağan
Göz yaşımı içdim duzlu şərbəttək.

Ömürdə payızdır... İçdiyim suda,
Yediyim çörəkdə payız dadı var.
Daha çatmasa da şəfqətin dada,
Hələ ürəyimdə sevgi odu var!



Çiyninə töksən də hörüklərini,
Buludda al günəş olma, amandır!
Qatara düzülmüş kirpiklərini
Gözlərinin üstə salma, amandır!

Uzun kirpiklərin tikanlar kimi
Çəpərə dönməsin gözlər boyunca.
İşıq həsrətlisi insanlar kimi
Nurlu ulduzlara baxım doyunca.

Ayrılıq yamandır... Sanki sərhəddə
Daşdan ayrılanda daş da ağlayır.
Sərhədsiz havanı bölən həsrətdə
Quşdan ayrılanda quş da ağlayır...

***1980.***

## HARDAN, KİMDƏN BİLİM?

Hardan, kimdən bilim, bəlkə də elə
Sən məni sevirsən məndən xəbərsiz.
Ömrümün cavanlıq çağından hələ
Mən səni sevirəm, səndən xəbərsiz.

Gözəllik özü bir, doqquzu donsa,
Gülüm! Mənim üçün onu da sənsən!
Xəyalım dünyada haraya qonsa,
Elə ilki də sən, sonu da sənsən!

Tellər, şəvə tellər, dalğalı tellər,
Daha itirsə də təravətini,
Azalda bilməmiş ağ telli illər
Ürəkdə məhəbbət hərarətini...

Hardan, kimdən bilim intizar kimi
Sənin məndən uzaq vəziyyətini?
Yağışlı, günəşli novbahar kimi
Tez-tez dəyişilən təbiətini.

Hardan, kimdən bilim kamsız məhəbbət
Kamlı xatirəyə dönüb, dönməyib?
Tək sənin özünə məlum hərarət
Sirli ürəyində sönüb, sönməyib?

***1981.***

## OLDUN

Mən nəydim? Bir bəxtiyar,
Dərdə salan sən oldun!
Ürəyimdə intizar,
Saçlarımda dən oldun!

Mən batdım qəm selində,
Gördü qız da, gəlin də...
Sən zirvələr belində
Ucaldıqca şən oldun!

Azadlığımı aldın,
Məni zindana saldın...
Özünsə qanad çaldın,
Al günəşlə tən oldun!

Mən çağırdım imdada,
Sən gəlmədin fəryada,
Şəfəq dolu dünyada
Gözlərimdə çən oldun!



Gözəllər diyarında,
Ömrümün baharında,
Nəğməmin axarında
İtib-batan ün oldun!

Dövranın keçdi qış tək,
Gözündən axan yaş tək...
Hüsnün uçdu bir quş tək,
Sən də axır mən oldun!

***1983.***

## İKİNCİ ÖMÜR

Yaxşılar yaxşılarla
Rastlaşsa, gözlər gülər.
Şəfəqli dodaqlarda
Mehriban sözlər gülər.
Sanarsan ki bu görüş
Ən məhrəm ünsiyyətdir.
Səadətlər içində
Ən böyük səadətdir.
Gülüm! Bu düz dünyanın
Çarpaşıq yollarında,
Zirvələrə dırmaşan
Sarmaşıq yollarında
Addımlayan baxtımız
Bir-birinə tuş oldu.
Gözlərini açmamış
Bahar keçdi, qış oldu.
Bəli! Sevgimiz qara
Döndü tellərimizdə.
İstisisə əbədi
Qaldı əllərimizdə...

Mən özümə nə naşı,
Nə peşiman deyirəm.
Ağ zirvəli sevgimin
Önündə baş əyirəm.
Sevginin qarşısında
Sən də əyil dünyada!
Gülüm! Əzabsız sevgi
Sevgi deyil dünyada!
Unutma ki illər də
Yeriyir insan kimi.
Ömrümüzün üstündən
Keçsə də karvan kimi,
Ovcumuzdan doğacaq
Həqiqətin günəşi,
Məhəbbətin günəşi,
Sədaqətin günəşi...
Könlümüzdəki inam
Canımıza yayılır.
O məhrəm günəşlərin
Zəmanəti sayılır.
Demə inamdan yazma,
Alovsuz kömürdür o.
Yox! Bəlkə uğur dolu
İkinci ömürdür o.

***1984.***

## SEVGİ MƏCRASI

Deyirlər oğlanın dodağı açar
İstədiyi qıza məhəbbətini.
Deyirlər oğlanın baxışı saçar
İstədiyi qıza sədaqətini.



Sən isə qız idin! Qərib oğlana
Bir söz deməsən də özün dilinlə,
Könül niyyətini mərdi-mərdana
Dilsiz kağız üstə yazdın əlinlə.

Mən isə ilk günlər duya bilmədim
Yazdığın məhəbbət məktublarını.
Sonralar cavabsız qoya bilmədim
Gələn səmimiyyət məktublarını.

Doğrusu özüm də bilmədim haçan
Mənim "hə" sözümü dilimdən aldın.
Kürə ürəyimdə od-alov saçan
Dəmir iradəmi əlimdən aldın.

Haram oğurluqlar ana torpağın
Doğruçu dilində qəbahət oldu!
Mənim könlümüsə oğurlamağın
Səninçin bir halal səadət oldu!

Sahildə başını çiynimə qoyub
Həm yaxşı, həm yaman gününəm dedin.
Özündə əyilməz qətiyyət duyub
Ölsəm də, qalsam da səninəm dedin.

Mənimsə baxışım üfüqü yardı,
Demədim səninəm mən də hər zaman.
Yolumu gözləyən bir diyar vardı,
Özüm də özümün deyildim, inan!

Tellərin dəyəndə üzümə mənim
Canımda sevginin şimşəyi çaxdı.
Gözün sataşanda gözümə mənim
Həsrət buludunu yandırdı-yaxdı...

Əlimlə isindi soyuq tellərin,
Hərarəti keçdi yanaqlarına.
"Qala"da açılan qızılgülllərin
Qızartısı qondu dodaqlarına.

Sənsə tellərini daldan düymüşdün,
Şəvəsi düşmüşdü qulaqlarına.
Yumşaq, qara, yüngül çustlar geymişdin
Yalın, ağ, balaca ayaqlarına.

Əlimlə oxşamaq istədim hərdən
Sənin yaraşıqlı ayaqlarını.
Boz qəzəb dalğası bürüdü birdən
Şəfəq təbəssümlü dodaqlarını.

Qoymadın ülviyyət ehtiras dolu
Duyğuya baş əysin bir igid kimi.
Əlimi qaldırıb ehtizaz dolu
Dik sinənə basdın bir ümid kimi.

Bilirdin məğruram! İnsanam fəqət,
Duyğular oyanır gözəllikdən də.
İradə, mətanət, ehtişam, siqlət
Ucada dayanır gözəllikdən də.

İmtahan zamanı rəfiqən özü
Kitabı oxuyub çıxsa da başa,
Neçə yol desə də hər tanış sözü,
Qulaq asa-asa düşməzdik başa.

Ya dərsi arada unudub tamam
Qaş-gözlə kənardan söhbət edərdik.
Ya da könlümüzdə sabaha inam,
Sonsuz arzularla fikrə gedərdik...



Nə zaman acardıq, şəfqət içində
Tələsik açardın dəri sumkanı.
Ortaya qoyardın qəzet içində
Ətirli pendiri, yumşaq bulkanı.

Kinoya gedəndə axıra qədər
Diqqətlə baxmazdıq niyə, bilməzdik.
O nədən danışır? Eh, neçə nəfər
Bizdən soruşsaydı, deyə bilməzdik.

Yaxşı yadımdadır səpələnən qar,
Ağaclar sahildə biz-biz olmuşdu.
Buzlu çiynimizdə təpələnən qar
Bizi isindirən ağ köz olmuşdu.

O köz qoymadı ki, kiçik çillədə
İsti canımıza soyuq yeriyə.
Sahilə yağsa da qarlar hələ də
Bahar arzusuyla döndük geriyə.

Sevgində ilk dəfə arzuna çatdın,
Yalqız sevgilinin yudun başını.
Dolçanın soyumuş suyuna qatdın
Çeşmə gözlərinin isti yaşını.

Bir gecədə gültək açılıb soldun,
Könlündə yaralı xatirə qaldı.
Sən ərə də getdin, ana da oldun,
Təkcə o xatirə bakirə qaldı.

Kim deyər ki, özü sevməyən zaman
Neçə ilk sevgiyə şahid deyildir?
Fəqət gənc qəlblərdə qocalan hicran
Tək sənə, tək mənə aid deyildir!

Bəli! Haçan kama çatıbsa fəraq,
Sevib-sevilənlər nakam qalıbdır.
Günəşi qaralan taledə ancaq
Nisgillə sozaran bir şam qalıbdır.

Mənim can evimdə yanan çırağı
Bir qız alışdırmış qəlb tellərilə.
Sevgimin əlindən düşən bayrağı
Təzədən qaldırmış mərd əllərilə.

O həssas könlüylə dərdə yananın
Dünyada dayağı mən olmuşam, mən!
O dörd uşaq nazı çəkən ananın
Beşinci uşağı mən olmuşam, mən!

Sən də inanarsan desəm ki, bəlkə
Vəfa sınağında təkdi o qadın.
Həyatda öz ömür yüküylə birgə
Mənim də yükümü çəkdi o qadın.

Hüsnümüz gül dolu bir sərgi deyil,
Ömrün payızında yaşayır indi.
Bəli! İki ürək ilk sevgi deyil,
Nəvə qayğıları daşıyır indi...

Sən də ilk sevginin yanma oduna,
Yoxsa alovunda kül olar ürək.
Qışqıran sevginin ilkin dadına
Elə ilkin hayı çataydı gərək!

***1980.***

## OĞRUN BAXIŞ

Ay qarşıma çıxan gözəl,
Gəncliyimdə çıxaydın kaş!
Mənə oğrun baxan gözəl,
Gəncliyimdə baxaydın kaş!



Duyub vüsal vaxtını sən,
Sınayaydın baxtını sən,
Hicranın tac-taxtını sən
Gözlərimdə yıxaydın kaş!

Qarlı qışa düşsəydim mən,
Dik sinəmdə donsaydı çən,
Bir ürəklik odunla sən
Yandıraydın-yaxaydın kaş!

Yaz güləndə şən könül tək,
Oxuyaydım mən bülbül tək...
Hər nəğməmi qızıl gül tək
Sən yaxana taxaydın kaş!

Alışanda yayda dilim,
Çatmayanda suya əlim,
Sən bulağa dönüb gülüm,
Ürəyimə axaydın kaş!

Payız yarpaq salanda da,
Qartal qanad çalanda da,
Mən ətəkdə qalanda da,
Sən zirvəyə qalxaydın kaş!

***1988.***

## BÜLLUR

Sən ecazkar gözəlsən,
Dodaq gül, buxaq büllur.
Sanki canlı heykəlsən,
Əl büllur, ayaq büllur.

Din! Bəlkə yer üzündə
Büllurdandır sözün də?
Ulduz-ulduz gözündə
Çağlayan bulaq büllur.

Gəl əyləşək üz-üzə,
Büllur qatsın söz-sözə...
İkimiz də göz-gözə
Bir yerdə olaq büllur.

*1981.*

## NƏSƏN?

Danış sən şəkilsən, yoxsa təranə,
Sən möcüzəsən, yoxsa hikmətsən, nəsən?
Danış sən realsan, yoxsa əfsanə,
Sən təzadsan, yoxsa vəhdətsən, nəsən?

De, kimə məbədsən görüşünlə sən,
De, kimə talesən gülüşünlə sən,
Yer üstə şahanə yerişinlə sən
Yer boynunda ağır minnətsən, nəsən?

Kimi isidibsən qılığında sən,
Kimi dondurubsan soyuğunda sən,
Gündüzün ağappaq işığında sən
Qapqara saçınla zülmətsən, nəsən?

Sən odu ürəkdən alan ilhammı,
Şeirə misra-misra dolan ilhammı,
Aşiqi yanğına salan ilhammı,
Ya gözlərdə donan heyrətsən, nəsən?



Gözəlin gözündən məhəbbət yağar,
Gözəlin dilindən şeiriyyət yağar,
Gözəlin sözündən mərhəmət yağar,
Sən canları alan afətsən, nəsən?

Fəsildə mən payız, sən bahar kimi,
Bəhərdə mən vağam, sən nübar kimi...
Tamarzı qaldığım bir diyar kimi
Sən də əl çatmayan nemətsən, nəsən?

*1980.*

## QARAÇI QIZI

Qaynar həyatınla sən bəzən cəsur,
Bəzən də hürkəksən, qaraçı qızı!
Sənətin başında zirvədən məğrur
Al-əlvan çələngsən, qaraçı qızı!

Donsa təbiətdə çay, bulaq, ümman,
Rəqsin dona bilməz həyatda bir an.
Sən canlı sənətin köksündə inan,
Döyünən ürəksən, qaraçı qızı!

Sənin qar şöləli yanağın da ağ,
Sənin nur tanalı qulağın da ağ,
Sənin nəğmə yazan ayağın da ağ,
Sanki ağ çiçəksən, qaraçı qızı!

Şəlalə saçın var, gözündən qara,
Vəfasız aşiqin üzündən qara,
Hafiz divanının sözündən qara
Gözlərdə bəbəksən, qaraçı qızı!

Səndə fərəh də var, səndə nalə də,
Səndə ay da yanır, səndə halə də,
Bəlkə göydən düşüb yerdə hələ də
Alışan şimşəksən, qaraçı qızı!

Amalın bütövdür, bir yanlıq deyil,
Yanğın əbədidir, bir anlıq deyil,
Sənin şirinliyin bir şanlıq deyil,
Bal dolu pətəksən, qaraçı qızı!

***1982.***

## CƏRRAH QIZ

Şöhrətin dolaşır ana torpağı
Hüsnün təbiətdən bir vergi kimi...
Əlində parlayan cərrah bıçağı
Bəxtində bərq vurur bir güzgü kimi.

Sanma nicat uman xəstə insanın
Köksünü yarırsan əziyyətlə sən.
Yox! Həyat yolunun üstə insanın
Dostuna dönürsən dəyanətlə sən.

Hardasa gizlənən ölümü tapıb
Dərhal öldürürsən öz bıçağınla.
Həyatı ölümün əlindən qapıb
Yenə güldürürsən öz bıçağınla.

Sevişən könüllər müşküldə qalsa
Ağ göyərçin olub dada çatırsan.
Yolunda qranit qayalar olsa
Cərrah bıçağınla qazıb atırsan.



Səni sevəninsə məhəbbətini
Alovlu sinədə görə bilmirsən.
O yanır... Sən isə sədaqətini
Nədənsə yenə də görə bilmirsən.

Sən bıçaqla deyil, kirpiklərinlə
O sinəni yarsan, nə var, görərsən.
Bütün ömrü boyu dediklərinlə
Uyuşacaq qəlbi aşkar görərsən!

Bilərsən alovlu axın içində
Sənin ucbatından xətərdədir o.
Elə bil döyüşür yanğın içində
Məhəbbət uğrunda səngərdədir o.

Sən bıçağınla yox, məhəbbətinlə
O qəlbi qurtarsan cəllad ölümdən,
İnan xilas olar dəyanətinlə
İki sevən qəlbli həyat ölümdən.

O qəlbi sevməsən axtar hər yeri,
Zövqünü sınaqda yoxla yenə də.
Gör ki ucbatından haçandan bəri
Hansı qəlb gül olur başqa sinədə...

Sən o qəlbi yaşat od nəfəsində,
Özünü xoşbəxt et, onu bəxtiyar.
Qarşılıqlı eşqin yer kürəsində
İlki bəxtiyardır, sonu bəxtiyar!

Yoxsa neçəsinin səadətini
Dardan qurtarsa da əlin bıçaqla,
Özünün gecikmiş məhəbbətini
Yollarda gəzərsən yenə çıraqla...

***1980.***

## DEMƏ

Demə yaxasında ulduzu yoxdur,
O gözəl bəs nəyin qəhrəmanıdır?
Gözündə ulduzlar o qədər çoxdur
Deyirəm göz ömrün kəhkəşanıdır!

Qadın dağ olsa da qadındır ancaq,
Qoynu gül balalar gülüstanıdır.
O qadın xoşbaxtdır, əməkdən qabaq,
Həyatda gözəllik qəhrəmanıdır!

Bəli! Yarış olsa kişi hünərdə,
Qadın gözəllikdə yarışmalıdır.
Gözəllik növraqda, hünər zəfərdə
Vətənin hüsnünə qarışmalıdır.

***1984.***

## TOYDA GÖRÜŞ

Toydur... Geniş otaq olsa da sərin,
Sanki bir ocaqlıq od canımdadır.
Sənin öz yanında əyləşib ərin,
Mənim də sevgilim öz yanımdadır.

Sənsən bu otaqda odlu baxışla
Canımı döndərən yanar ocağa...
Bilsəydim odlusan, məni bağışla,
Sənlə əyləşməzdim qabaq-qabağa...

Sirrin gizlisə də açıqdır yaxan,
Ağ şölələr saçır sinən qar kimi...
Şəfəqləri mavi donuna axan
Dırnaqların aldır gilənar kimi.



Uzun, nazik, kövrək, ağ barmaqların
Bəlkə də gilənar budaqlarıdır?
Gilənara bənzər al dırnaqların
Bəxtinin alışan çıraqlarıdır...

Ancaq al çıraqlar düymələr təki
Bağlamaq istəmir açıq yaxanı.
Hərarətlə dolu nəğmələr təki
Yandırmaq istəyir sənə baxanı.

Kimi müğənniyə qulaq kəsilir,
Kimi oynayana tutur üzünü.
Xəyalın rübaba ortaq kəsilir,
Özün çəkməyirsən məndən gözünü.

İnsan öz evində bilmirəm nədən
Duymur səadəti, itkin salınca.
Sonra öz təqsiri üzündən gedən
Küskün səadətin düşür dalınca...

Mənim sevgilimsə hörüklərilə
Çələng etməsə də sədaqətini,
Daim çəpərlənən kirpiklərilə
Qoruyur bir evin səadətini...

Sən də alov saçan baxışlarını
Ürəyi üşüyən ərinə zillə.
Sevgi artırsa da naxışlarını,
Sən iki gözünü birinə zillə.

Ya mən tələsmişəm gələm dünyaya,
Ya sən gecikibsən, gülüm, hardasa.
Ya da belə yazıb qələm dünyaya,
Sənə yetişməsin əlim hardasa.

Bahar gecikəndə dağın da gündə
Göz yaşına dönər başının qarı.
Yaman gecikibsən sevgində sən də,
Çalış həyatında gecikmə barı!

*1980.*

## BİR MƏCLİSDƏ

Məclis qızışmışdı... Nə qədər adam
Həm tost qaldırmışdı, həm danışmışdı.
Mənim könlümdəsə yorulmuş ilham
Hələ nə dinmişdi, nə alışmışdı.

Gözlərimə ərklə baxan tanışlar
Nə olar, – dedilər – bir şeir oxu!
Mən susdum... Heyrətlə dolan baxışlar
Səni gözləyirik, – dedilər – axı.

Dediniz mən xahiş edirəm, canım,
Bir şeir deyəsiz... Sözə baş əyim!
– Yox! – dedim – siz xahiş etməyin xanım,
Əmr edin, bir nədir, min şeir deyim...

*1981.*

## ÖMÜR

Dünyada qocalmaz şey yoxdur hələ,
Təkcə gənclik neyi ürək qocalmır.
O neyin gözləri tutulsa belə,
Səsində çağlayan dilək qocalmır.



Yaratmaq eşqilə çırpınan insan
De, hansı diləyə əlini atmır?
Calanıb dövrana keçsə də dövran,
Yenə min diləyə bir ömür çatmır.

Deyirəm cavanam sevgi önündə
Yaşım çox olsa da kədərim yoxdur.
Demə qocalmışam, güzgü önündə
Hələ də özümdən xəbərim yoxdur.

Görüşür baharla payız yanımda,
Günəş gözlərimdə kölgələşibdir.
Daha cavan, gümrah, doğma canım da
Mənimki deyildir, özgələşibdir...

Demirəm yığmağa çıxa biləydim
Al-əlvan gülləri Vətən düzündən.
Deyirəm əlimlə yığa biləydim
Dərin qırışları munis üzündən.

Bəlkə qocalığın naxışlarında
Cavanlığın hüsnü düşüb itməsin!
Mehriban üzünün qırışlarında
Gözəllik çeşməsi axıb getməsin!

Köksünü döysə də payız yelləri
O çeşmə parlasın büllur güzgütək.
Gülaba döndərsin solan gülləri
Həmişəbaharlı cavan sevgitək.

Şaqraq qəhqəhəylə gülən cavanlıq
Bilmirəm qayğısız nəğmədir, nədir?
Niyə asta-asta gələn cavanlıq
Gedəndə asta yox, tələsik gedir?

Bəlkə o qorxur ki, iki əlinlə
Tutub yaxasından saxlayasan sən?
Tükənməz arzunla, şirin dilinlə
Yolunu üzünə bağlayasan sən?

Mən sənə ulduz da dərərəm, ancaq
Demə çox uzaqdır, dərə bilmərəm.
Sənə nə istəsən verərəm, ancaq
Tək cavanlığını verə bilmərəm.

Bəli! O məharət sığmaz gücümə,
Axı mənim gücüm sözlərimdədir...
Yox! Yox! Qəhərlənmə, küsmə, incimə,
Sənin cavanlığın gözlərimdədir...

Ulduz nəyə gərək? Özün ulduz ol,
Düşsən gözlərimin qaranlığına.
Əzizim! İstəsən bir gündə min yol
Sən gözlərimdə bax cavanlığına!..

***1984.***





## ELƏ AĞLAMA!

Buludum! Məktubların
Nədir? Hicran yarası!
Nə yaxşı haradasa
Kəsilməyir arası.
Yazırsan tək qalmışam
Mən qızların içində.
Unutma! Ay da təkdir
Ulduzların içində.
Gecələr şölələnir
Ulduzlar çıraq-çıraq.
Bilinməyir saralan
Ulduzdur, yoxsa yumaq.
Göy ulduz dənizidir,
Göz işləməz dibinə.
O qoymaz sarı yumaq
Yerə düşüb çibinə.
Günəşlə dolu gözlər
Tanrının vergisidir.
Gözəlin bəlkə də ilk
Gözəllik sərgisidir.
Daha mehriban olar
Üzə üz dəysə, gülüm!
Bir fəlakət törəyər
Gözə göz dəysə, gülüm!
Amandır, zülmətdə də
Gözün çəkməsin şölə!
Qorxuram ecazlaşan
Odu nəzərə gələ.



Yazırsan dolduğumçun
Qürublara borcluyam.
Sənə yazdıqlarımçun
Məktublara borcluyam.
Məktublar yorulsa da
Yollarda qasid kimi,
Bilirəm, məndən sənə
Danışır şahid kimi.
Bəzən basıb keçəndə
Dərələri, düzləri,
Gur yanan işıqlar da
Kor eləyir gözləri.
Sən də gur yandın... Ancaq
Alıb ixtiyarını,
Gözlərimdə artırdın
Görmək iqtidarını.
Bilmədim sinəndəki
Necə atəşdi, gülüm!
Hələ sənin özün yox,
Adın günəşdi, gülüm!
Həmişə ağlayıram
Gizlində zülüm-zülüm...
Günəşim! Alovlanır
Göz yaşım dilim-dilim...
Göydən yağışın səsi
Gəlmir qulaqlarıma.
Ancaq odlu damlalar
Düşür yanaqlarıma.
Şehin də öpmədiyi
Yanaqlarımda yanır,
Gileyi tükənməyən
Dodaqlarımda yanır.

Günəşləşmək istəyir
Sanki bütün bədənim.
Bəlkə mənim odumla
İşıqlana Vətənim.
Sanıram yer də, göy də
Mənlə birgə ağlayır.
Halıma tək doğma yox,
Həm də özgə ağlayır.
Sən ki yağış deyilsən,
Niyə elə yağırsan?
Unutma, göz yaşından
Çəkidə sən ağırsan.
Sanma dünyada yalnız
Siqlət ağırlıqdadır.
Yox! Həm də cürət dolu
Qüdrət ağırlıqdadır.
O qədər yaş axıdıb
Buludlu gözün sənin,
Mələklərin üzündən
Təmizdir üzün sənin.
Yox! Göz yaşı axsa da
İftixarla çağlamaz.
Özləri yıxılanlar
Heyrətlənər, ağlamaz.
Göz yaşı sel olsa da
Tufan qopara bilməz.
Ürəkdən bir dərdi də
Yuyub apara bilməz.
Ağlama! Qoyma qara
Almasları su alsın.
Sonra dəyərlərini
Tamam aşağı salsın.



Ağlama! Sənə yükdür
Niyyət dolu başın da.
İncə kirpiklərinə
Yük olar göz yaşın da.
Ağlama! Ürəyini
Yumşaltmasın göz yaşı.
Yoxsa döyüşə bilməz
İradən zülmə qarşı.
Ağlama! Heyfin gəlsin
Ulduz dolu gözünə.
Həyatda ağlamağı
Peşə etmə özünə.
Göz yaşında çimən yol
Sürüşkən olar, gülüm!
Ağlağan düz getsə də,
Avara qalar, gülüm!
Ağlağanı hissiz yol
Belədən-belə atar.
Ağlağan yalvarsa da,
O baxmaz... Elə atar.
Ağlama! Daha bəsdir.
Bir az toxtad özünü.
Yaylığın yoxsa, ipək
Saçınla sil gözünü.
Susdur hıçqırığını,
Titrəməsin şax səsin.
Haçansa, haradasa
Sənə baxanlar desin,

Sanki qara alovlar
Yığışıbdır gözünə,
Kainat boyda gecə
Sığışıbdır gözünə.
Onsuz da şən baxmamış
Səadətin gözünə,
Biz ağlaya-ağlaya
Gəlmişik yer üzünə.
Ah da çəkmə! Alova
Yerikləyərsən gülüm!
Ürəyindəki odu
Körükləyərsən gülüm!
Sonra öz alovunda
Sən yanıb kül olarsan,
Bir yellə öz baxtının
Kor gözünə dolarsan.

Yazırsan qış nemətlə
Ötdü yüklü qatar tək,
Sən ömrümdən sürətlə
Keçdin odlu bahar tək.

Sevgin nəydi? Bir şərbət!
Ardını kəsdi həsrət...
Ağzımda dadı fəqət
Qaldı şirin nobar tək.

O nobardı binəmdə,
Qürurum da, tənəm də,
Hayıf kövrək sinəmdə
Daş bağladı qubar tək.



O qubarı elimdə,
Gizlətsəm də telimdə,
Haray dolu dilimdə
Köpüşkədi qabar tək.

Sıxılanda ürəyin,
Ərimәsin diləyin,
Sən də sərtləş fələyin
Çıxartdığı qərar tək!

Qəribədir, hər zaman,
Ovçudan qaçar ceyran,
Mənsə ovçumu inan,
Axtarıram şikar tək.

Yadımdadır, deyərdim
Qaynar həyat ümmandır.
Dünyada ən dəhşətli
Bir şey varsa, hicrandır.
Sonra bildim hicran da
Keçib-gedən dumandır.
Gah məsum-məsum baxan
Günəş doğar içindən,
Gah da ki, göz ağardan
Dolu yağar içindən...
Bəs təklik? Sükutuyla
Hicrandan da yamandır.
Nəğmə dolu toyda da
O darıxan insandır!
Bir-birinə istilik
Calamırmı iki köz?
Ulduz olsa da dönməz
Kəhkəşana tənha göz.

İki sevgilini də
Tək düşünmək ağırdır.
Qanadı sınmış sevgi
Şikəst, yetim, fağırdır.
Eh, dünyada o qədər
Təklik çəkmişəm ki, mən,
Kölgəmdən də ayrılmaq
İstəmirəm, inan, sən!
Sən bu boyda dünyaya
Barmaqarası baxma!
Dünya beş günlük deyil,
Yaşına qara yaxma!
Möhkəm saxla yadında,
Sonu yoxdur dünyanın.
Daim öyrənilsə də
Sirri çoxdur dünyanın.
Səadət vurulsa da
Ömrə bir sikkə kimi,
Fəlakət səadəti
İzləyər kölgə kimi.
İşə bax, bu dünyada
Mənə məhrəmdən məhrəm,
Gah isti, gah da soyuq,
Gah həlim, gah da ötkəm
Əllərimin içində
İtirdim əllərini.
Sonrasa xəyalımda
Bitirdim əllərini.
Yoxsa çətində-darda
O əllərsiz neylərdim?
Məndən qaçan dözümü
Mən nə təhər əylərdim?



Qürbət yalnız düşdüyün
Uzaq məmləkət deyil.
Qürbəti məsafəylə
Ölçmək kifayət deyil.
Yox! Yox! İki ayağın
Ayrılsa bir-birindən,
O da yaxın qürbətə
Düşəcəkdir yerindən.
Sevgilərdə ilk sevgi
Əzizdən də əzizdir.
Şirindən də şirindir,
Təmizdən də təmizdir.

Yazırsan axşam düşüb
Ürəyim çarpır, aman!
Sən içində olsan da
Yaman darıxır, yaman.
Sanki göy nəhəng ağac,
Ulduzlar ağ gilasdır.
Yox! Yox! Tufanda göyə
Səpələnmiş almasdır.
Bəli! Hər yanan ulduz
Bir xəzinə daşıdır.
Nakam dilrubaların
Üzüyünün qaşıdır...
Səndən sonra üzümə
Neçə-neçə göz baxdı.
Yox! Yox! Yalnız baxmadı,
Alışdı, yandı, çaxdı.
İnadla zilləndisə
Bəbəyi bəbəyimə,
Bir zərrə işığı da
Düşmədi ürəyimə.

Kim birinci yarına
Xəyanət etsə əgər,
Bunu ikinci yarı
Unuda bilər məgər?
Yox! Yox! Üzünə çırpar
Yarının əvvəl-axır.
Sədaqətli olmaqda
Sevgi sevgiyə baxır.
Yoxsa ikinci yar da
Bir fürsət güdə bilər.
Öz birinci yarına
Xəyanət edə bilər.
Füsunkar kəndimizin
Nəyi yoxdur dünyada?
Gülləri daşlarından
Daha çoxdur dünyada.
Mənsə haçan bağlarda
Gəzməyə başlayıram,
Qönçə tökən gülləri
Daha çox xoşlayıram.
Sakinlər bilməyir ki
Fırıldaq, yalan nədir?
Aşkarda "kömək", amma
Gizlində talan nədir?
Yox! Həyat nəğmələri
Dinir bir avaz üstdə.
Şaha əyilməyənlər
Əyilir namaz üstdə.
Xeyir-dualar verir
Uğurlara ürəkdən.
Arabir də acıyır
Qüsurlara ürəkdən.



Dünyaya neçə-neçə
Qayğısız körpə gəlir.
Dünyaya gözlərindən
Nur səpə-səpə gəlir.
Sonra özü bu boyda
Dünyadan böyük olur.
Bəli! Dünyadan həssas,
Dünyadan müdrik olur.
Hikmətlər aləmində
Möhkəmlədir yerini,
Ancaq aça bilməyir
Dünyanın hər sirrini.
Yox! Yox! O təlatümlü
Dənizə ləpə deyir.
Ulduzlarla danışan
Zirvəyə təpə deyir.
O öləndəsə dünya
Ağı deyir ləpə tək.
Müdriki son mənzilə
Yola salır körpə tək.
Bəs onda əsil müdrik
Kimdir? Tarix danışsın!
Kitabında varaqlar
Varaqlara qarışsın!
Əsil müdrik yüz il də
Sonranı görsün gərək!
Sabahın özülünü
Bu gündən hörsün gərək!
Təpədən dırnağadək
Çevrilsə də fəryada,
Ömründə bir dəfə də
Səhv etməsin dünyada.

Düzdür, biz səhv etmədik,
Sevişmək nöqsan deyil.
Ancaq bilmədik dövran
Vəfalı həyan deyil.
Yadındamı vəfadan
Düşəndə söhbətimiz,
Yadımızdan çıxardı
Öz halal qismətimiz.
Mən başımı çiyninə
Qoya-qoya deyərdim,
Sevginin hikmətini
Duya-duya deyərdim:
Sevgi qızıl Günəşdir,
Hicran qara dumandır.
Namərd vəfasızlıqsa
Hicrandan da yamandır.
Vəfasız Allah olsa,
Onu bağışlamaram.
İnadım günah olsa,
Onu bağışlamaram.

Yoluma gül səpsə də,
Cibimə pul təpsə də,
Ayağımdan öpsə də,
Onu bağışlamaram!

Hər yerdə dönə-dönə
Tərif desə də mənə,
Yadda saxlasın yenə,
Onu bağışlamaram!



Matəmə bürünsə də,
Zavallı görünsə də,
Arxamca sürünsə də,
Onu bağışlamaram!

Dik boynunu büksə də,
Göz yaşları töksə də,
Ürəyimə çöksə də,
Onu bağışlamaram!

Qəbrimin üstə gəlsə,
Fəryadı göyü dəlsə,
– Bağışla! – deyib ölsə,
Onu bağışlamaram!

Gecələr asimanda
Qabaq-qabağa duran,
Bir-birinin halını
Sakit baxışla soran
Mehriban ulduzlara
Həsəd aparıram mən.
Taleyimin üzünə
Yaman qabarıram mən.
Biz dünyada o dilsiz
Ulduzlarca olmadıq.
Sevib-sevildik... bir gün
Bir mənzildə qalmadıq.
Məncə o ulduzlar da
Adi ulduzlar deyil.
Yana-yana əriyən
Sarı cılızlar deyil.

Yox! Yox! Bəşəriyyətin
İncə diləkləridir.
Hələ pardaxlanmamış
Qönçə diləkləridir.
Haçan pardaxlanacaq
O qönçələr? Bilinmir.
Haçan rahatlanacaq
Düşüncələr? Bilinmir.
Bal şirin olmasaydı
Onu yeyərdilərmi?
Dadına məmnun-məmnun
Bəh-bəh deyərdilərmi?
Bizim sevgimizə də
Bir mahal şirin dedi.
Əfsus ki, onu biz yox,
Acgöz ayrılıq yedi...
Nakam sevgi qönçədə
Solan gülə bənzəyir.
Nəğməsini deməmiş
Susan dilə bənzəyir.
Bir ocaq yandırmağın
Özü də səadətdir.
Ocağın alovu da,
Közü də səadətdir.
Yox! Yox! Hələ bu azdır,
Ocaqdan ocaq doğur.
Bəli! Cəlaldan cəlal,
Növraqdan növraq doğur...
Bizsə bir ocaq nədir?
Bir od da yandırmadıq.
Yanğılı nəğməmizlə
Bir ud da yandırmadıq.



Yox! Yox! Bir od yandırdıq,
Ancaq ürəyimizdə...
Sonra yaman at çapdı
Sazaq ürəyimizdə.
Çoxdan eşitməsəm də
Sənin məhrəm səsini,
Göz yaşımla gözümdə
Toxuyuram əksini.
Hər şeydən yaxın görəm
Mübariz surətini.
Təkrar-təkrar dinləyəm
Mehriban söhbətini.
Nəfəssiz bir heykəlik
Mən sənsiz, sən də mənsiz.
Alovsuz bir məşəlik
Mən sənsiz, sən də mənsiz.

Bir çətirsiz çiçəyik,
Bir ətirsiz küləyik,
Bir qanadsız diləyik
Mən sənsiz, sən də mənsiz.

Bir yarımçıq dastanıq,
Bir növraqsız dövranıq,
Bir bölünmüş ünvanıq
Mən sənsiz, sən də mənsiz.

Bir kölgəsiz sahilik,
Bir işıqsız mənzilik,
Bir uğursuz nisgilik
Mən sənsiz, sən də mənsiz.

İnsan mərd, ürək nəcib,
Baxtına arzu nəsib...
Qərib yaşarıq, qərib,
Mən sənsiz, sən də mənsiz.

Sevgimiz təzə qönçə,
Zaman sərt, duyğu incə...
Necə dözərik, necə,
Mən sənsiz, sən də mənsiz.

Sanki biz bir dəfə yox,
Neçə dəfə doğulduq.
Heyhat! Öz içimizdə
Yana-yana boğulduq.
Sanki bu boyda dünya
Yoxmuş öz növrağıyla,
Odlu harayımızı
Eşidə qulağıyla...
Kim deyir şirin-acı
Xatirələr hədərdi?
Mənim yadımdadır ki,
Sənin zəhlən gedərdi
Küçədə məğrur-məğrur
Yeriyən gözəllərdən.
Bir odlu baxış altda
Əriyən gözəllərdən.
Deyərdin məğrur gözəl
Günəşə də qabarar.
İradəsiz qüruru
Yüngül meh də aparar.
Ehtiyac şələ-şələ
Yüklənsə də dalına,
Laqeyd-laqeyd baxardın
Sən dünyanın malına.



Deyərdin nə qıtlıqdan,
Nə də kasadlıqdan qorx!
Dövran qılınc qaldırsa
"Məhrəm" cəlladlıqdan qorx!
Demə ki güzəranda
Korluğumuz olmasın.
Dilə ki gözümüzdə
Korluq yuva salmasın!
Qapalı sirlərə də
Açıq gözlə baxaq biz.
Ömrümüz tufanlaşsa
Şimşək-şimşək çaxaq biz.
Sən məğrurdun! Nə bəyə,
Nə xana baş əyərdin.
Mən həycana düşəndə
Sən təmkinlə deyərdin:
Bu qarışıq zamanda
Nə məzlum, nə zalım ol!
Daim vicdanına qul,
İradənə hakim ol!
Həqiqəti kül altda
Basdırsalar kələklə,
Külü sovrulub gedər
Bir əsimlik küləklə.
Onda həqiqət deyə
Sən də yorma özünü.
Yox! Eşmə həqiqətin
Gizlədilmiş közünü.
Həqiqət başın üstdə
Yanacaq günəş kimi.
O ürəkdən-ürəyə
Axacaq atəş kimi...

Yadındamı yaylaqda
Obalar yatan zaman,
On dörd gecəlik Aya
Baxardıq heyran-heyran...
Gözəl Aya heyrətlə
Mən baxanda qayada,
Sən məni qısqanardın
Təbəssümlü Aya da.
Qayasa ağ işığı
Sümürdükcə bulaq tək,
Özü də şölə-şölə
Alışardı çıraq tək.
Mənim qara tellərim
İşıqda parlayardı.
Yox! Tellərimin üstə
Sanki göy qarlayardı.
Başıma baxa-baxa,
Sən təlaşa düşərdin.
Qarın nur olduğunu
Sonra başa düşərdin.
Sevincdən ulduz-ulduz
Gözümdə donardı yaş.
Deyərdim bu sevgimiz
O Aya bənzəsin kaş!
Ürəyimə günəşdən
Od düşməsə, nə zərər,
Təki sənin mehriban
Ürəyindən hər səhər,
Mənim buz ürəyimə
Od düşə, alov düşə.
Qoymaya tellərimə
Qar düşə, qırov düşə.



Bulud başımız üstdən
Keçəndə xəyal kimi,
Biz zirvədən-zirvəyə
Qalxardıq qartal kimi.
Yerə-göyə sığmayan
Çılğın qartalın özü,
Qonduğu zirvə üstdə
Məğrur zirvədir, düzü.
Sonra da zirvələrdən
Enib gedərdik çaya.
Dizimizi çəmənə,
Dodağımızı suya,
Dayayıb buz şərbəti
Qurtum-qurtum içərdik.
Yanaşı əksimizi
Büllurlardan biçərdik.
Çayın nəğməylə dolu
Füsunkar sinəsində,
Su işığa dönərdi
Sevginin binəsində...
Qəribədir, ecazkar
Həyatda tarix boyu,
Alovu da səngidən
Savalanın buz suyu
Qığılcım sevgimizi
Soyuda bilməzdi, yox!
Hökmümüz düz yolundan
Qayıda bilməzdi, yox!
O, vəfa bayrağını
Ömürdən biçməliydi.
Tufanların içindən
İnamla keçməliydi!

Mən zirvəydim, yola döndüm,
Səni gözləyə-gözləyə.
Mən çinardım, kola döndüm,
Səni gözləyə-gözləyə.

Mən bahardım, qışa döndüm,
Mən bulaqdım, daşa döndüm,
Mən bəbəkdim yaşa döndüm,
Səni gözləyə-gözləyə.

Mən dənizdim, çaya döndüm,
Mən qoşaydım, taya döndüm,
Mən sükutdum, haya döndüm,
Səni gözləyə-gözləyə.

Mən təpəydim, düzə döndüm,
Mən sarbandım, izə döndüm,
Mən alovdum, közə döndüm,
Səni gözləyə-gözləyə.

Mən tufandım, mehə döndüm,
Mən leysandım, şehə döndüm,
Mən arzuydum, "eh"ə döndüm,
Səni gözləyə-gözləyə.

Mən tarixdim, huşa döndüm,
Mən doluydum, boşa döndüm,
Mən gizliydim, faşa döndüm,
Səni gözləyə-gözləyə.

Nə yaxşı ki, dünyada
Təskinli röyalar var.
Gah günəşli, gah da ki,
Çiskinli röyalar var.



Bəli! Röyalar karvan,
Mənsə yorğun sarbanam!
Səninlə görüşdüyüm
Röyalara qurbanam!
Günəş də kölgələnir,
Ulduz da silkələnir,
Sevgi elə məbəddir
Mehdən də ləkələnir.

Vicdandan yol salınmaz,
Arzu inkar olunmaz.
Hər şey pulla alınsa
Sevgi pulla alınmaz.

Həyat həqiqət sevir,
Ömür təravət sevir.
Dənizdən daha artıq
Sevgi qüdsiyyət sevir.

Deyərdin sevgi mələr,
Taledən imdad dilər...
Yar yarının dalınca
Haraya desən gələr.

– "Sol!" deyib gülə hicran,
Atdı yad ələ hicran...
Nə elə sevgi olsun,
Nə də ki, belə hicran!

Hicranda vicdan hanı?
Görüşə güman hanı?
Dərdimə nəfəsindən
Şəfalı dərman hanı?

Odsuz ah yel kimidir,
Yaşlı göz göl kimidir.
Vəfasız sevgi varsa,
Ətirsiz gül kimidir.

Zəminin çəni qanlı,
Sünbülün dəni qanlı,
Özünü öldürən mən,
Kənd görür səni qanlı.

Nə ola, göy yaylaqda,
Mən gözləyəm bulaqda...
Sən gələsən... Sularda
Axıb gedə fəraq da.

Ay doğan gecələrdə,
Oxuya küçələr də...
Vüsal çiçəklərinə
Çevrilə qönçələr də.

Yox! Sən elə ağlama,
Mənim solğun çiçəyim.
Axı sən ağlayanda
Suya dönür ürəyim.
Onsuz da yazıq insan
Həyata göz dağıdır.
Dünyanı görməmişdən
Göz yaşları axıdır.
Bəli! Dünya baxmayır
Nə boya, nə də səsə,
Çağalıqdan öyrədir
Ağlamağı hər kəsə.



İnsan mehriban olar
Sevəndə, seviləndə.
İnsan qəhrəman olar
Sevəndə, seviləndə.

Ağzından alov yayar,
Dağı dağ üstə qoyar...
Sevgini allah sayar
Sevəndə, seviləndə.

Qışda da baharlanar,
Saçları tumarlanar...
Gözləri xumarlanar
Sevəndə, seviləndə.

Könlündə nə din olar,
Nə həsəd, nə kin olar,
Bir sevinci min olar
Sevəndə, seviləndə.

Deyər bir küləyəm mən,
Gərək gül ələyəm mən,
Kiməsə gərəyəm mən
Sevəndə, seviləndə.

Ulduzlara – yan! – deyər,
Sevənləri – an! – deyər,
Körpələrə can deyər
Sevəndə, seviləndə.

Görüşlü gecələrdə,
Uzanar küçələr də...
Güllənər qönçələr də
Sevəndə, seviləndə.

Gülüşlər şaqraqlaşar,
Sükutlar uzaqlaşar...
Yarpaqlar çıraqlaşar
Sevəndə, seviləndə.

Ülfət də gözəlləşər,
Söhbət də gözəlləşər,
Niyyət də gözəlləşər
Sevəndə, seviləndə.

Duyğular təzələnər,
Sorğular təzələnər,
Yuxular təzələnər
Sevəndə, seviləndə.

Gecə kəndimiz Aydan
Özünə don biçəndə,
Biz kəhkəşan çətirli
Küçələrdən keçəndə,
Görənlər desəydi də
Bəxtiyar qoşalardı,
Sənin ala gözlərin
Dolardı, boşalardı.
Ürəyimdə deyərdim
Bu nə təhər baxışdır.
Doluxsunanda bulud,
Ağlayanda yağışdır...
Sən demə elə onda
Damıbmış ürəyinə,
Sən həsrət qalacaqsan
Öz sevgi diləyinə...



O qədər göz yaşları
Axıtmış ki insanlar,
Bəlkə də ona görə
Şordur bütün ümmanlar?
Bir ömrü göz yaşında
Çürütmək mütilikdir.
Bir ömrü od içində
Yandırmaq qətilikdir.
Döyüşkən bir millətin
Qızı niyə ağlayır?
– "Yaman gecikdi vüsal"
Deyə-deyə ağlayır.
Göz yaşı müqəddəsdir,
İnan bulaqlarına!
Qoyma göz yaşın axıb
Düşsün ayaqlarına.
Yox! Sən özünü üzmə,
O yaşda da gözəlləş.
Ancaq qaynar həyatda
Sən nə don, nə heykəlləş!
Şirin xatirələrin
Sirdaşın olsun daha!
Gözlərin yaşla deyil,
Xəyalla dolsun daha.
Demirəm ki gözlərin
Buludla da dolmasın.
Ancaq bircə anlıq da
Təbəssümsüz olmasın!
Göz yaşı içində də
Gözəl olur təbəssüm.
Bəli! Su dəyməyəndə
Sanki solur təbəssüm.

Sənin gözlərində də
Pardaxlansın təbəssüm.
Üzünə zülmət qonsa
Çıraqlansın təbəssüm.
Yadımdadır, ən gözəl
Bir musiqiydi səsin.
İstərdi səhər-axşam
Elə sevgidən desin.
Gecələr mənzərələr
Nadirdən nadir idi.
Çəmənlər süfrə idi,
Qayalar çadır idi,
Ulduzlar sarı idi,
Hilal çəhrayı idi,
Bulud miçətkən idi,
Yaylaq çarpayı idi.
Ancaq o çarpayıda
Biz yatmazdıq, gəzərdik.
Ayaqdan düşsəmiz də
Yorğunluğa dözərdik.
Məni məhrəm rayihən
Etsə də bihuş kimi,
Həycan dolu ürəyim
Çırpınsa da quş kimi,
Mən səni bir dəfə də
İyləməkdən qorxardım.
Möhləti öz yolundan
Əyləməkdən qorxardım.
Qıymazdım sən solasan
Vüsala qədər, gülüm!
Hələ günəş çıxmamış
Açıla səhər, gülüm!



Səndən ötrü həmişə
Əssəm də yarpaq təki,
Hardansa gələn həsrət
Amansız sazaq təki,
Məni sənin əlindən
Min zülümlə qopardı.
Xəyalına gəlməyən
Neçə yerə apardı.
Vay ondan ki, baxt sənə
Göz verə, işıqsa yox.
Sevdiyi diyarında
Yar qala, aşiqsə yox.
Neçə-neçə dağ keçdim mən,
Səni axtara-axtara.
Min bulaqdan su içdim mən,
Səni axtara-axtara.

Könlümdə yar sirri getdim,
Süzüb göyü, yeri getdim.
İrəli yox, geri getdim
Səni axtara-axtara.

Sevgin mənə ünvan oldu,
Xatirələr həyan oldu...
Cilid-cilid dastan oldu
Səni axtara-axtara.

Dərd alsa da təpərimi,
Gülüm! Uddum qəhərimi...
Yolda açdım səhərimi
Səni axtara-axtara.

Qar yağsa da tellərimə,
Həsrət qaldım ellərimə.
Yandım sənsiz illərimə
Səni axtara-axtara.

Kim deyir at çapmadım mən?
Xəyallardan qopmadım mən?
Təsəlli də tapmadım mən
Səni axtara-axtara.

Yolu yola caladım mən,
Odu oda qaladım mən,
Öz ömrümü taladım mən
Səni axtara-axtara.

Küləklərdə, yağışlarda,
Töyşüdükcə yoxuşlarda,
Özüm itdim baxışlarda
Səni axtara-axtara.
İndisə yaşayırıq
Mən zirvə, sən günəş tək.
Ancaq yaxınlığımda
Alovlanan atəş tək,
Sən məni bircə an da
İsidə bilməyirsən.
– “Məni isit!” Desəm də,
Eşidə bilməyirsən.
Sən özün incəlsən də
Hilallaşan Ay kimi,
Xatirən ürəyimdə
Suyu daşan çay kimi
Yaman genişləndirir
Köhnə sahillərini.
Daşlara da danışır
Kövrək nisgillərini...



Meyvəsiz bir bağ nədir?
Heyrətlə dolu giley!
Gözəlsiz bir kənd nədir?
Nadir heykəlsiz muzey.
Sən də gözəldin... ilkin
Hüsnünü duyan da mən!
Xəyalında gözəllik
Allahı sayan da mən!
Sevginin üzüyünün
Gözəlliksə də qaşı,
Qədrini bilməmişəm
Mən nabələd, mən naşı...
Balan olmadı... indi
Güc bəslə qollarında!
Bu laqeyd dünyanın
Qurbanlı yollarında,
Titrəyən addımlarla
Yeriyə-yeriyə biz,
Yanğınları içində
Əriyə-əriyə biz,
Azaldıqca azaldıq,
Biçildikcə biçildik,
Ovulduqca ovulduq,
Kiçildikcə kiçildik.
Ölüm müsibət açdı
Məhəbbətin başında.
Sonra nakam bir qızın
Alovlu göz yaşında,
Bu dərdə yana-yana,
Yudu qara üzünü.
Təmizliyə çıxara
Bəlkə özü özünü.

Mən haqdan danışanda
Zaman döydü dilimi.
Bəli! O qıza-qıza
Yaman döydü dilimi.
Düzdür, mən döyüldükcə
Sevincim yox oldu, yox!
Ancaq itirdiyimdən
Qazancım çox oldu, çox.
Kim deyir döyüləndən
Nişan qalmaz dünyada?
Yox! Sünbül döyülməsə
Buğda olmaz dünyada.
Sanma mən döyüldükcə
Ürəyim də yuxaldı.
Yox! Özüm ustalaşdım,
Təcrübəm də çoxaldı.
Axırda təcrübəmlə
Mən döydüm dövranı, mən.
Dövranın zirvəsinə
Qaldırdım insanı mən!
Biz döyüşə-döyüşə
Yaşamalıyıq hələ.
Vüsalı dilimizdə
Daşımalıyıq hələ.
Təki taleyin qışı
Ağartmasın gözünü.
Yolda xəstəlik bizə
Yetirməsin özünü.
Düşmənəm təravəti
Talayan xəstəliyə.
Vay ondan ki, namərdlik
Mərdliyi üstəliyə.



Təzadlı dünyamızda
Qərar nədir? Qətilik!
Alovlu nəfəsiylə
Əriyir buz mütilik...
Yanan torpaq yanında
Təpərsiz qərar özü,
Havayı axıb gedən
Suya bənzəyər düzü.
Millət haçan qul olur?
Haçan artır "günahı"?
O zaman ki, döyüşdə
Yerə qoyur silahı.
Bəli! Taleləri də
Silah təyin eləyir.
Ömürləri ya məğmun,
Ya da təmin eləyir.
Qəhrəmanlığı isə
Ürəkdən öyrənək biz!
Qoltuğa sığınmaqdan
Biryolluq iyrənək biz!
Ürək təhlükələrlə
Üz-üzə gəlsin deyə,
Başa dolananları
Gözlərdən bilsin deyə,
Dərin qoltuqda deyil,
Dik sinədə yerləşir.
Bir təhlükə duydumu,
Cürət ilə birləşir.
Təhlükə iradəni
Bərk çəkəndə sınağa,
Ürək özünü dərhal
Şəstlə verir qabağa.

Dünya bir tamaşadır,
Hüsnünü duymayan var?
Yox! Yox! Gözəlliyindən
Doyan var, doymayan var.
Ancaq gözəl dünyaya
Doyunca baxmaq özü,
Qismətlərin içində
Bir səadətdir düzü.
Mən amansız istibdadla
Qapışmışam bu dünyada.
Mən vicdansız istibdadla
Çarpışmışam bu dünyada.

Yaşamışam şax qürurla,
Həm ziyanla, həm uğurla.
Tək olanda, min cəsurla
Tanınmışam bu dünyada.

Donanda qış küləyindən,
Yananda yaz şimşəyindən,
Dözümümün ətəyindən
Yapışmışam bu dünyada.

Sanma mən sənin yalnız
Sözlərini sevmişəm.
Yox! Həm də günəş dolu
Gözlərini sevmişəm.
O gözlər özlərində
Gizlərdi hər sirrimi.
İndi bir məmləkətdə
Tapa bilmir yerimi.
Yazma qürbətə mənlə
Cüt getmək istəmədin.
Bəlkə məni özünə
Yük etmək istəmədin.



Ona görə həsrətə
Xəcil günahkar, mənəm.
Yox! Dünyada bəlkə də
Əsil günahkar mənəm.
Sənin bu mülahizən
Özü də bir günahdır.
Günahkarlar ilk gündən
Sənə, mənə agahdır.
Günah adlandırıldı
Mənim savab diləyim.
Deyəndə dilim yanır,
Deməyəndə ürəyim.
Harda əyləşdim, sanki
Tikan üstdə əyləşdim.
Həsrətdən yanan neydən
Yaza-yaza keyləşdim.
Dedim evlənməsəm də
Kişi olacağam mən!
Əvvəl necə vardımsa,
Elə qalacağam mən!
Evli oldu, olmadı,
Kişi elə kişidir!
Dünyada həm bir evə,
Həm bir elə, kişidir!
Kişilik yerli-yersiz
Özünü öymək deyil.
Kişilik vaxtlı-vaxtsız
Döşünə döymək deyil.
Bəs nədir? Cəsarətin
Mərd sifətli əməli!
Təpədən-dırnağadək
Fədakarlıq heykəli!

Yox! Sən məni yandırma,
Göz dağın olar külüm.
Mən səndən öz xoşumla
Ayrılmamışam, Gülüm!
Səndən yönüm ayrıldı,
Üzümsə ayrılmadı.
Səndən özüm ayrıldım,
Gözümsə ayrılmadı.
Adın dilimdən düşsə,
Söz nəyimə gərəkdir?
Ünvanını tapmasam,
Göz nəyimə gərəkdir?
Sənin gül dodaqların
Gülüşlə açılanda,
Donmuş kədərlərinin
Yuvası uçulanda,
Sıxılmış ürəyim də
Sevinclə açılardı.
Titrək dodaqlarımdan
Misralar saçılardı.
Yalqız gülüm! Ovqat da
Hisslərlə yazılıdır.
Özün yaxşı bilirdin
Tək səndən asılıdır
Təlatümlü ömrümün
Fərəhi də, qəmi də,
Ürəyimin odu da,
Kirpiyimin nəmi də.
Mən öz səadətimi
Qarşımda görə-görə,
Bəxtiyarlıq tacını
Başımda görə-görə,



Hayıf ki xəyalımı
Uçurmuşam uzağa.
Mən bir bağ ola-ola
Dönmüşəm bir budağa.
Yalnız gözəllik deyil
Gözəlin iftixarı.
Yox! Düyünlər açmasa
Baxtının iqtidarı,
Gözəllik pardaxlanmaz
Naxışlar arasında.
Məhrəm körpüyə dönməz
Baxışlar arasında.
Sanma gözəllik yalnız
Bir həssas duyğu istər.
Yox! Həm də mehribandan
Mehriban qayğı istər.
Yoxsa ki o əriyər
Zirvədəki qar kimi.
Simləri qopub düşər
Nəğmə dolu tar kimi.
İnsanları yaradan
Mehriban təbiətdir.
Daim yaratdığından
Nigaran təbiətdir.
O bilir, kam qədəhi
Tamam-kamal dolmayır.
Özü gözəl olanın
Baxtı gözəl olmayır.
Sən də gözəldin... Ancaq
Baxtın gözəl olmadı.
Bəli! Sevdin, sevildin,
Vaxtın gözəl olmadı.

Sənə də dönük çıxdı
Dövran dünya üzündə,
Gözəl həyat özü də
Çirkinləşdi gözündə.
Yanılıbdır gözəldə
Vəfa olmaz deyənlər.
Gözəl sonadək əhdə
Sadiq qalmaz deyənlər.
Yox! Gözəl var, vəfası
Özündən də gözəldir!
Məhəbbətdən yoğrulmuş
Sözündən də gözəldir!
Sevdiyini gecələr
Yuxuda da izləyir.
Bu dünyadan köçəndə
Məzarda da gözləyir...
Deyirlər məndən sonra
Fellərə uymayıbsan.
Yaradan əllərini
Qoynuna qoymayıbsan.
Yox! Gecələr əksimi
Xalçada toxuyubsan.
Mən sağ qalım deyə sən
Dualar oxuyubsan.
Tənhalığın soyuğu
Haçan səni üşüdüb,
İntizar qulaqların
Bir məhrəm səs eşidib.
Mən o nadir xalçadan
Həsrətlə baxıb sənə,
Sevgiylə naxışlanmış
Şeir demişəm yenə...



Sən arxasız-imkansız
İnsanlara da inan!
Məndən sənə deyilən
Yalanlara da inan!
Demə axı yalanlar
Nələr deyir insana?
Bəzən yalanların da
Xeyri dəyir insana.
Bir ölüm xəbərini
Yalana yozmaq özü,
Bir yamanlıq deyildir,
Bir yaxşılıqdır düzü.
Məni selə atsalar
Batmaram! Yox! Axaram!
Yenə sahillərdəki
Qayalara qalxaram.
Zirvədə dayanaram
Sənət heykəli kimi.
Səni xatırlayaram
Vətən gözəli kimi!
İlhamın ümmanında
Boğulmayan bir insan,
Adi selin içində
Boğula bilməz, inan!
Şair ölməyir! Varmı
Yaradan ömrün sonu?
Şair o zaman ölür
Vətən unudur onu...
Vətənin yaddaşında
Qalmasam da mən özüm,
Hər daşında qalacaq
Heç olmasa bir sözüm.

Yadındamı yaylaqda
Tufanlar qabaranda,
Kövrəlmiş qayaları
Yerindən qoparanda,
Nəğmələr fəryadlara
Dönərdi yaylaq üstdə.
Savalan ağır-ağır
Durardı ayaq üstdə.
Bəli! O əyilməzdi
Məşhur pəhləvan kimi.
Savalan yaşayardı
Elə Savalan kimi.
Bir Savalan şələsi
Yoxdusa kürəyimdə,
Bir həsədə dönərdi
Quş boyda ürəyimdə
Savalanın ölkəyə
Sığışmayan vüqarı.
Tufanlı üfüqlərdən
Yığışmayan vüqarı.
İndi nə tufanlar var,
Nə də yaralı güllər.
Savalanla aramda
İllər qalanıb, illər!
Mən həsrət leysanıyam,
Misra-misra yağıram...
Savalan dərdləriylə
Savalandan ağıram...
Ancaq sanma ki yalnız
Ayaq üstdə dururam.
Yox! Yolları yollara
Qata-qata yoruram...



Bəli! Arzuma doğru
Addımlayıram müdam.
Axı bir yerdə dursa
Heykələ dönər adam.
Kim ki öz sağlığında
Cansız bir heykəl olar,
Pardaxlanan ömrünün
Axırı xəzəl olar.
İndi ki dərdləşirik,
Yaxşı qulaq as mənə.
Heç kimə açmadığım
Sirri də açım sənə.
Nənəm istəyərdi ki,
Gözündən yayınmayım.
Mən bələd olmadığım
Sularda yuyunmayım.
Dünyada təmiz olum
Mən əziz uşaq kimi.
Ancaq sadə olmayım
Mən təmiz uşaq kimi.
Yox! Özümə müəllim
Saysam da zamanı mən,
Diqqətlə ayırd edim
Yaxşını, yamanı mən.
Məğrur sözlər qopsa da
Odlu dilimdən mənim,
Yamanlığa yaxşılıq
Gəlsin əlimdən mənim.
Arabir nə xərcliyim,
Nə də ki, ruzum olub.
İnsanlara yaxşılıq
Birinci arzum olub.

Qapılara pulla yox,
Qələmlə getmişəm mən.
İnsanlara şeirimlə
Yaxşılıq etmişəm mən.
Yaxşılığı kim yerə
Gömsə də nadan kimi,
O haçansa göyərib
Qalxacaq fidan kimi.
Sonrasa həmişəlik
Yaşayacaq dünyada.
Dəyişməz bir ünvanı
Daşıyacaq dünyada.
Yazma sən sənətini
İlhama bələyəndə,
Şeirə sözlər yerinə
Alovlar ələyəndə,
Zamanın ələyində
Günlərin ələkləndi.
Arzun qönçədə qaldı,
Həsrətin çiçəkləndi.
Daha bu yaşda da sən
Niyə yanırsan, niyə?
Onsuz da çox yanmısan
Sən – Vətən! – deyə-deyə.
Sənin ki yanmağını
Vətən özü də anır.
Alovundan sənətə
Düşən közü də anır.
Ancaq Vətən olsa da
Gözəl, zəngin, möhtəşəm,
Kimisinə cənnətdir,
Kimisinə cəhənnəm...



Gülüm! Şam içindəki
İpdən alışan kimi,
Dibində möhürləşən
Muma qarışan kimi,
Mən də ürəyimdəki
Hərarətdən yanıram.
Şeirimə qarışmağı
Əbədiyyət sanıram.
Günəş də qürub çağı
Daha şiddətlə yanır.
Ayaqları altında
Üfüq heyrətlə yanır...
Bəlkə o yerin-göyün
Fədakar xeyirxahı,
Mehribandan mehriban
Ecazkar xeyirxahı,
Qızardıqca tarixin
Yuxusuz gözü kimi,
Gizli duyğuları da
Parlada özü kimi.
Daş dünyanı təzədən
Qızıl şəfəqlə hörə.
Naxışlarını hələ
Görməyənlər də görə!
Mən də öz aləmimdə
Yandım son közümədək.
Arzumdan nisgilimə,
Duyğumdan sözümədək.
– Od! – deyə əl vurarsa
Kim tarixin külünə,
Mənim sönməz odum da
Dəysin soyuq əlinə...

Yazma ayrılıq mənə
Yalnız odu andırır.
Öz yazdığım varaqlar
Əllərimi yandırır.
Daha yaza bilmirəm,
Yaş dolur gözlərimə.
Göz yaşımla mən nöqtə
Qoyuram sözlərimə.
Məktubumun sonunda
Yazmasam da öpürəm,
Hazıram yaşla dolu
Kirpiyimlə süpürəm
Sənin gəldiyin yolu,
Uzununa-eninə.
Günəş də nəğmə deyə
Bu vüsalın şəninə!
Nə deyirəm, Günəş də
Nəğmə deyər o yerdə.
Ancaq yaş gözlərindən
Mən öpə-öpə bir də,
Qoymaram zülüm-zülüm
Ağlayasan, Buludum!
Sən gərək saçına gül
Bağlayasan, Buludum!
O gül rayihə saça
Gülşənin qızı kimi.
Yox! Vəfalı sevginin
Gecikmiş yazı kimi.
Fələk nədir? Hökmüran!
Yağış, dolu, qar onun.
Kim bilir nə zamandan
Beş keçisi var onun.



Beşini də bir "məhrəm"
Qapıya sürür o da.
Neçə üzlü dövranda
Belə üz görür o da.
Mənim sərvətim isə
Nisgil dolu sevgimdir.
Döyüş yolum həyatım,
Söz sənətim güzgümdür.
Sanma ki hisslərimiz
Yansa da kəhkəşan tək,
Həsrətimiz sonsuzdur
Dibi yox asiman tək.
Bəlkə əbədiyyətdən
Biçilmiş donu vardır?
Yox! Yox! Sonsuzluğun da
Nöqtəli sonu vardır.
Mənim ürəyim isə
Sonsuz söz yatağıdır.
Sap-sap arzularımın
Al-əlvan yumağıdır.
Çağlayan xatirələr
Şirindən-şirin olur.
Ancaq gündüzlər dayaz,
Gecələr dərin olur.
Sanma ki nakam sevgi
Yalnız xoş xatirədir.
Gözəl bir günüylə də
Daim xoş xatirədir!
Unutma ki dünyada
Günəşli qış da olar.
Ürəkdə alışıbsa,
Sevgi hər yaşda olar.

Mən səndən ayrılanda
Bulaq başında idim.
Anamız kəndimizin
Oğlu yaşında idim.
İndi qara tellərim
Topa-topa ağarmış.
Sən demə günəşə də
Quşbaşı qar yağarmış.
Sənin yanına dönsəm
Sevgi yadigarı tək,
Dönərəm kəndimizin
Müdrik sənətkarı tək.
Gülüstan kəndimizdə
Güllər gözəl nemətdir.
Arada bitən tikan
Gül dərənə zillətdir.
Tikana rəğbətimiz
Yaman dəyişir, yaman.
Halbuki bakir gülü
Tikan qoruyur, tikan!
O gül güllər içində
Daha ətirli olur.
Gül sevənin yanında
Daha xətirli olur.
Bəs hicrandan doğulan
Vüsal nə təhər olur?
Qarlı gecədən sonra
Qızaran səhər olur.
Ağlayan-ağlayanı
Öpə-öpə ovudur.
Ağrılı, ürəyinin
Ağrısını unudur...



Diləyin mövcudluğu
Kimə, nəyə gərəkdir?
Əməlin mövcudluğu
Yerə-göyə gərəkdir.
Ot ki var, gah yol üstdə,
Gah yol altında bitir.
Gah işıqda parlayır,
Gah qaranlıqda itir...
Bizim yolumuzunsa
Üstdə ot yox, gül bitər.
Hicranlı günlərimiz
Biryolluq sona yetər!
Ümid də insan ilə
Gah ağlayar, gah gülər.
İnsandan əvvəl deyil,
İnsandan sonra ölər.
Bəli! Xatirə keçmiş,
Ümidsə gələcəkdir.
Kim bilir, hansı necə
Yaşaya biləcəkdir.
Yox! Mən bilirəm gülüm,
Ümid necə olacaq.
Məhrəm nəfəsimizlə
Açan qönçə olacaq...

***1978.***

## HİCRAN YOLU

Daş sükutlu otağı
Diksindirdi zəng səsi.
Telefonda tanıdım
Mənə zəng vuran kəsi.
Təbrizdə fədaiydi,
Bakıdasa həkimdir.
Fəqət boz şinelli gənc
Ağ xalatlı nədimdir.
O mənə dedi, dünən
Qızım gəlib vətəndən.
Sənin gəlişini də
Gözləyirəm dünəndən.
Dostum danışırdısa
Xoşbəxt bir adam kimi,
Öz şöləsindən özü
Kövrələn bir şam kimi,
Sevincin riqqətindən
Özü də kövrəlirdi,
Səsi də kövrəlirdi,
Sözü də kövrəlirdi.
O vətəndən çıxanda
Soyuq qış küləyində,
Qızı iki aylıqdı
Öz isti bələyində.
Biləndə xalamdan da
Xəbər gətirib o qız,
Müjdə üfüqlərimdə
Doğdu təzə bir ulduz...



Özüm sanki tufanda
Titrəyən bir vələsdim.
Sanki iki qonağın
Görüşünə tələsdim.
Dostumun evindəyəm...
İki aylıq o çağa,
İndi yaşlı anadır
İki böyük uşağa!
Qonaq danışır... Səsi
Səhənd şəlaləsidir.
Qızaran yanaqları
Savalan laləsidir.
Yox! Vüsallı səsində
Araz hicranı vardır.
Dodağını yandıran
Ömür dastanı vardır.
Sanma al yanaqları
Yanan dağ laləsidir.
Ürəyindəki hicran
Odunun haləsidir.
O danışır... Gələndə
Culfadan gəlmişəm mən.
Sizin ünvanınızı
Orada bilmişəm mən!
Gəldiyimi bir qadın
Öyrənmişdi, bilmişdi.
Ürəyi yana-yana
Görüşümə gəlmişdi.
Deyirdi ki, o tayda
Bircə bacım oğlu var.
Onun şair ürəyi,
İnqilabçı ağlı var.

Balamın adı Əli,
Təxəllüsü Tudədir.
Bu taydan nə arxayın,
Nə də ki, asudədir.
Bir qədər narahatdır,
Bir qədər də məğrurdur.
Bu tayda da məşhurdur,
O tayda da məşhurdur.
Gəlmişəm ki, o taya
Gedib-gələn adamdan
Xahiş edim, bir soraq
Gətirsin tək balamdan.
Könlümün sözünü də
Deyim, çatdırsın ona!
Axı kimsəsizimə
Həm xalayam, həm ana!
Gizli zindanlardakı
Zəncirlənən igidlər,
Dəmirlər arasında
Dəmirlənən igidlər,
Dişiylə qəfəsləri
Sındıranda pələngtək,
Döyüşə atılanda
Doldurulmuş tüfəngtək,
Sanki ana ceyran da
Son nəfəsi qalınca
Culfaya qədər gəlib
Balasının dalınca...
Qonağı dinlədikcə
Şair könlüm alışır.
Qonaq susur. Elə bil
Xalam özü danışır...



Savalan ətəyindən
Durub bura gəlmişəm.
Uşağımı yollardan
Sora-sora gəlmişəm.
(Nə olsun dörd uşaqlı
Bir evə dayağam mən,
Xalamın nəzərində
Hələ də uşağam mən.)
Zənn etməyin qocalıb
Ağlımı itirmişəm.
Bacımın yadigarı
Oğlumu itirmişəm.
Burnu ata burnuydu,
Gözü ana gözüydü,
Sözü nənə sözüydü,
Özü elə özüydü...
O gedəndən dünyada
Neçə fəsil dəyişib,
Neçə dövran dəyişib,
Neçə nəsil dəyişib...
Qaranquşlar, durnalar
Uçub-gedib uzağa,
Yenə də vətən deyə
Gəlib doğma torpağa.
De, sən haçan gəlirsən
Ay gözümün işığı!
Tək mənim yox, bir nəslin
Qüruru, yaraşığı!
Gəl ki, qalana bilər
Saçımın ağ qarı da.
Sönə bilər gözümün
Olan-qalan nuru da.

Bəs onda səni necə
Tanıyaram, ay bala!
Səni də, taleyi də
Qınayaram, ay bala!
Arxamdakı Savalan,
Qarşımdakı Arazdır.
Gör mənim saçım bəyaz,
Onlarınkı bəyazdır!
Gözlərimi tutsa da
Hicranın acı suyu,
İki göz də borc alıb
Baxıram Araz boyu...
Deyirəm bəlkə balam
Keçəndə Araz üstdən,
Hansı nəğməsə ötüb
Könlündəki saz üstdən.
Savalan övladının
Əksi Arazda qalıb,
Andı Arazda qalıb,
Səsi Arazda qalıb...
Sən ki, məndən də yaxşı
Tanıyırsan dayını,
Hər il ayırdı bala,
Sənin meyvə payını...
Uzunboğaz armuddan
Al yanaqlı naradək,
Hamısını saxladı
Bu bardan o baradək...
Sənsə aşıb gəlmədin
Hicran yüklü dağları.
Yoxsa yadından çıxıb
"Babanəzər" bağları?



Alması ağ nabatdı,
Heyvası sarı baldı.
Qırmızı alçasının
Yarı köz, yarı baldı.
Bəlkə sən unutmusan
Nəğmə dolu "Gözə"ni.
Qayalar yarıb gələn
Büllur sulu "Gözə"ni.
Yayda buzlu suyunda
Sərinləyir insanlar.
Qışda buğlu suyunda
Yanır çimən çobanlar...
Ay mənim uşaqlığı,
Gəncliyi itən balam,
Gəlmişəm o yerləri
Sənin yadına salam.
Hər gülün öz ətri var,
Mixək qərənfil deyil,
Nərgiz yasəmən deyil,
Lalə qızılgül deyil.
Hər yerin öz hüsnü var,
Savalan Səhənd deyil,
Təbriz Urmiyə deyil,
Ərdəbil Mərənd deyil.
Bu dünyada dedikcə
Böyükdür doğma diyar.
Fəqət hər guşəsinin
Öz ətri, öz hüsnü var!
Axı qədim yurdumuz
Yaranmasaydı əlvan,

Təzə-tər sözümüz də
Əlvan olmazdı, inan!
Öz ana yurdumuza
Vurulsaq da özümüz,
Görkəminə baxmaqdan
Yorulardı gözümüz.
Yaxşı ki, ətri, hüsnü
Daha da əlvanlaşır.
Ürəkdə heykəlləşir,
Dodaqda dastanlaşır.
Taleyin ucbatından
Çoxda ki savadsızam.
Fəqət nə ürəksizəm,
Nə də ki, muradsızam!
Sənin ağzından çıxan
Hər dəyərli sözü mən,
Ağızlardan eşidib,
Öyrənmişəm düzü mən.
Arazın daş körpüsü
Bağlasa yollarını,
Xalan körpü eləyər
Öz ağac qollarını...
Təki bu körpüylə gəl
Torpağına, daşına.
İstəsən ayaq da qoy
Ürəyimin başına.

Ay mənim sorağımı
Şeirlərimdən alan!
Təkcə şeir yazmaqda
Məşhur deyildir balan.
Döyüşdə də məşhurdur,
Cürətdə də məşhurdur,



Sevgidə də məşhurdur,
Ülfətdə də məşhurdur,
Dözümdə də məşhurdur,
Cəfada da məşhurdur,
İlqarda da məşhurdur,
Vəfada da məşhurdur.
Bir nəslin yetim oğlu
Məşhur adam olalı,
Millətin kişisidir,
Külfətin ağsaqqalı...
Azərbaycan bir ana,
Culfa bir göz təkidir.
Təəssüf ki, baxışı
Bir deyildir, ikidir.
Ana əvəzi xalam,
Nənə əvəzi xalam,
Mehriban Vətənimin
Mənə əvəzi xalam!
Mən səndən nə usanıb,
Nə də ki doyub gəldim.
Öz xalamı öz anam
Təbrizdə qoyub gəldim.
Yadımdadır üzümə
Odlu çiban çıxırdı.
Yanırdım, gözlərimdən
Tüstü-duman çıxırdı...
Arzularım qalmışdı
Başsız iş otağımda.
Mən nigaran-nigaran
Yatırdım yatağımda.

Bir otaqda dostlarla
Mən danışıb gülürdüm.
Nə isitmə duyurdum,
Nə titrətmə bilirdim.
Bir otaqda əl açıb
Sən yalvarırdın göyə.
Göz yaşı axıdırdın,
"Can, yetim balam!" deyə.
Belə ürək sahibi
Bir xala yana-yana,
Bilmirəm necə dözmüş
Bir ömürlük hicrana?

Biz ayrıldıq, sən qaldın
Evimdə ana kimi.
Yox! Yaşıl işıq saldın
Yoluma sona kimi.

Saçın ömrün baxçası,
İpək saplar boxçası...
Başda hicran xalçası
Toxudu hana kimi...

Dolaşdın torpağını,
Arazın qırağını,
Lalələr ayağını
Boyadı xına kimi...

Araz çıxdı qarşına,
Qarışdı göz yaşına...
Dalğaları başına
Bağladın cuna kimi...



Əsdi sahil nəsimi,
Eşitmədin səsimi.
Gözlərində əksimi
Əks etdin ayna kimi.

Ömür eniş-yoxuştək,
Xəyal qanadlı quştək.
Gəlləm ya qaranquştək,
Yada ki, durna kimi!

İnsan od nəfəsilə
Dənizi qaynatsa da,
Hər ovcunda qayalı
Bir dağı oynatsa da,
Vətəni ütüləndə
Alışar da, yanar da.
Vətəni kövrələndə
Titrəyər də, sınar da.
Yerləri təlatümlü,
Göyləri ildırımlı,
Günləri keşməkeşli,
Yolları sıldırımlı,
Qartallaşan ömrümün
Həmişəbaharında,
Gecə-gündüz çağlayan
Nəğməmin axarında,
Gah azadlıq, gah millət,
Gah da ki, Vətən oldum.
Özüm öz ilhamımın
Selində itən oldum.
Bu tayda qardaşlarım
Hər gün qayğıma qalır.
O taydan danışanda
Maraqla xəbər alır:

Sənə hansı ürəkdən
Yanan qalıb o tayda?
Atan qalıb o tayda,
Anan qalıb o tayda?
Yox! Deyirəm nə atam,
Nə anam var o tayda.
Bir evdə iki evli
Bir xalam var o tayda.
Bir evi o taydadır,
Bir evi bu taydadır.
Yol getmək, yol qayıtmaq
Xalamda bir qaydadır.
Nə etmək? O, dünyada
Ana yadigarıdır.
Oğul nigaranıdır,
Görüş intizarıdır.
O tək deyil, bir kəndlik
Nəslim qalıb o tayda.
Savalan bünövrəli
Əslim qalıb o tayda.
Bilirəm! Kəndimizdə
Çörək də var, su da var.
Yorğun-arğın insanın
Şirin yuxusu da var!
Mənimsə içdiyim su
Canıma sinməyibdir.
Yataqda gözüm yatıb,
Kirpiyim enməyibdir.



Sənin yerin boş qalıb
Süfrəmin kənarında.
Burulğana dönübsən
Yuxumun axarında...
Gələrəm! Qəlb oduna
Göz yaşımı səpərəm.
Gələrəm! Ehtiramla
Dönə-dönə öpərəm,
Dalğalar arasından
Mənə sarı uzanan,
Səhər, günorta, axşam,
Gecəyarı uzanan,
Suları əlçim-əlçim
Əriyən əllərindən.
Payızın sazağında
Göyərən əllərindən.
Baharın şimşəyində
Qaralan əllərindən.
Ümidin bayrağına
Sarılan əllərindən.
Günəşsiz baxçandakı
Üşüyən güllərindən,
Ağ günün həsrətilə
Ağaran tellərindən...
Zənn etmə ki, yanmamış
Parlayıram, ay xala!
Zənn etmə ki, yağmamış
Gurlayıram, ay xala!

Bu sözləri yazıram
Xalaxətrin qalmasın.
Gözlərin Araz üstdən
Yaşlı yollar salmasın.
Yox! Yox! Mən vətəndaşam,
Fədaiyəm, şairəm!
Görmədiyim işləri
Görməyə də qadirəm!
Göz nurundan qalmamış,
Ürək isə odundan.
Neçə ömür yaşamış
Bir ömürün adından –
Mən qalxıb Savalana
Dünyanı görməliyəm!
Günəşli zirvəsindən
Hesabat verməliyəm!

***1979.***



## QARTAL UÇUŞU

*1979-cu ilin payızında Tehran universitetindən gəlmiş bir qrup azərbaycanlı tələbəylə görüşdüm. Onlar mənə Cənubi Azərbaycan ziyalılarının Tehranda nəşr etdiyi "Çənlibel" qəzetinin dörd nömrəsini hədiyyə verdilər. Bu poemanı o hərarətli görüşün unudulmaz təəssüratıyla yazdım.*

Xəyalıma gəlməzdi,
Gözləməzdim, doğrusu,
Ürəyimdə çoxdankı
Bir vüsalın arzusu, –
Doğma yurdumdan gələn
Gənclərlə görüşəm mən.
Həsrətlə qucaqlaşam,
Həycanla öpüşəm mən.
Çox da şimşəklər altda
Cürətlə qanad çalan,
Yeri lərzəyə salan,
Göyü lərzəyə salan,
Bir inqilab nəğməli
Fırtına quşlarıdır!
Bu utancaq gənclərin
Hələ nə yaşlarıdır?
Yox! Ehtiyac insanı
Min xəyala daldırır.
Uçruma da tullayır,
Zirvəyə də qaldırır.
O vaxt ki mən özüm də
Həyatımdan incikdim,
Döyüşə atılanda
Bu gənclərdən kiçikdim.

Məni araya almış
Neçə qız, neçə oğlan.
Düşüncəli üzlərdə
Təbəssüm əlvan-əlvan.
Həniriylə isinib
Bu odun, bu atəşin,
Sanıram fırtınadan
Sonra doğan günəşin
Şəfəqləri düşəndə
Dərələrə, düzlərə,
Neçə-neçə topası
Qonub solğun üzlərə.
Hərənin nəfəsində
Bir gülşənin ətri var.
Doğma torpağımızda
Öz yeri, öz xətri var.
Burda Təbriz, Urmiyə,
Ərdəbil ləhcəsiylə
Nəğmələr qanadlanır,
Qoşmalar gəlir dilə.
Burda sazlar ritmilə
Enib-qalxan qollardır!
Burda hicran notları
Ən yanıqlı xallardır.
Burda, Araz ləngərli
Sıx kirpiklər mizrabdır.
Burda vüsal havası
Ən fərəhli rübabdır.
Qəlbləri zirvələrə
Uçmaq eşqiylə dolu
Balalara qocaman
Qartal göstərər yolu.



Mənim isə bələdçim
Bala qartallar oldu.
Gəzdiyimiz məmləkət
Doğma mahallar oldu.
Astara yolundakı
Yaşıl tuneldən keçdim.
Qoxladığım güllərin
Büllur şehini içdim.
Yaşıl işıq yandırdı
Yarpaqlar yolum üstdə,
Külək başını qoyub
Uyudu qolum üstdə.
Pilləli gədikləri
Qalxıb keçdim bir anda.
"Oxqay!" – deyib dərindən
Nəfəs aldım Heranda.
"Can!" dedi dərədəki
Sərin-sərin axan çay,
Mənə şəfəqlə dolu
Gözlərilə baxan çay...
Dağların döşü yaşıl,
Başı qardı, qrovdu...
Sanki yaşıl sinidə
Qalanmış ağ plovdu.
Buludu əlçim-əlçim
Kirpiyimlə daradım,
Dağların arasında
Savalanı aradım.
Hicran tozlu yollarla
Qalxdım neçə zirvəyə,
Bir şair həsrətiylə
Baxdım neçə zirvəyə.

O boyda Savalandan
Nə iz, nə nişan gördüm.
Yorğun gözümə axan
Çiskinli duman gördüm.
Ağ xalatlı Savalan
Baxırdı insan kimi.
Şəfa mücəssəməsi
Ağ saçlı loğman kimi.
O istəyirdi aşa
Dərmanların həddini,
Sularıyla sağalda
İnsanların dərdini.
Baxdım ona! Təlaşdan
Qurudu dodaqlarım.
Doğma torpaqlar üstdə
Titrədi ayaqlarım.
Dodağımın barını
Yumaq həvəsində mən,
Neçə fincan çay içdim
"Həsən qəhvəsi"ndə mən.
Göydən bir şeh düşməmiş
Sünbüllərin üzünə,
Gədikdən aşıb endim
Geniş Xalxal düzünə.
Bu diyar özü boyda
Bir çörək süfrəsidir!
Günəşi – təbəssümlü
Bir kəndli çöhrəsidir.
Ərdəbil böyüyübdür
Xəyalın vüsətitək.
Əzəmət nəğməkarı
Memarın niyyətitək.



Dörd tərəfində tək-tək
Kəndlər ki, yerləşibdir,
Alovlu döyüşlərdə
Şəhərlə birləşibdir.
Min heyrətli sualla,
Min diqqətli maraqla,
O qocaman şəhəri
Mən dolaşdım ayaqla.
Gördüm tufanlar döyən
Tanış küçələrini.
Şölələri sönməyən
Sənət qönçələrini.
Şeyx Səfi! Dünənin
Ən zəngin məqbərəsi.
Şeyx Səfi! Bu günün
Ən miskin məqbərəsi.
Danışdı, tükənmədi
Gileyli söhbətləri.
Özü də bilmir hara
Daşınmış sərvətləri.
Başaçıq, ayaqyalın,
Bir məzar üstə getdim.
Ana dilli şairi
Bir də ziyarət etdim.
"Qohumlarım var!" deyə
Düşdüm soraq-sorağa.
Getdim doğma kəndimiz
Qədim Çanaxbulağa.
Məni görcək sevincdən
Ağlayan kim, gülən kim?
Bu dünyadan gedən kim,
Bu dünyaya gələn kim?

Köpüklü Neştərinin
Köksü dama-damadır.
Ya notlu simfoniya,
Ya sözlü poemadır...
Axıb-gedir... dilində
Min-min rübab bəslənir.
Mənim gənclik nəğməmin
Xalları da səslənir...
Əyildim, saf suyundan
Vurdum üz-gözümə mən.
Sanki təzədən gəldim
Dünyada özümə mən.
Gördüm güllü sahillər
Ətir qoxuyur yenə.
Meyvə dolu bağlarda
Qızlar oxuyur yenə:
"Könlüm gülmür gümansız,
Yuxum gəlmir həyansız".
Sonra "Qatar qaya"yla
Mən öpüşə-öpüşə,
Qalxdım qayalar tacı
Savalanla görüşə.
Ürəyimdən dilimə
Axan sözü deməmiş,
Qollarımı havada
Açdım genişdən geniş...
Yol gözləyən ağ saçlı
Mərd anamı qucum mən.
Təklikdən buza dönmüş
Bəxt aynamı qucum mən.



Qollarımsa çatmadı
Ülvi ana boynuna.
O duydu... Özü basdı
Məni doğma qoynuna...
Sərdaba çağlayırdı
Qayalar arasında.
Suyundan buğ qalxırdı
Daş sədli məcrasında.
Anam gördü Sərdaba
Durulaşır bulaqtək.
Məni torpaq yollarda
Toza batmış uşaqtək,
Şimşəklərin səsində,
Qartalların qıyında,
Sabunsuz yuyundurdu
Sərdabanın suyunda...
Axı uşaqlığımda
Çəkib isti əlini,
Tək Sərdaba yatırdı
Qıçlarımın yelini.
İndi məhrəm nəfəsi
Kükürdlə dolu qaynaq,
Hicranlı ürəyimdə
Ağrımı kəsdi ancaq.
Nirdə yadıma düşdü
Dövranının Şahmarı.
Varlıların qənimi,
Yoxsulların qahmarı.
O qocaman fədai
Ədalət timsalıydı,
Sədaqət timsalıydı,
Ülviyyət timsalıydı!

Mərd ömrü döyüşlərdə
Uçdusa xəyal kimi,
Bir insan yadda qaldı
Neçə cür timsal kimi.
Sayındayam, ağ bulud
Dağların ağ yaylığı,
Silir alnımda səf-səf
Duran isti muncuğu...
Saçımı oxşadıqca
Ətir dolu küləklər,
Məni baş əyə-əyə
Salamlayır çiçəklər.
Yadıma düşür... hələ
Bu gədikdə bir zaman,
Mənə quşbaşı qarla
Meydan oxuyan tufan.
Kirpiklərimdə qrov
Bağladısa sırsıra,
Sığnacağım oldusa
Xaraba karvansara,
Könlümün alovunu
Döndərərək vulkana,
Mən də meydan oxudum
Buz nəfəsli tufana...
Bildim, zülmət dalında
Günəşli səhərim var!
Dünyada Təbriz boyda
Abad bir şəhərim var!
Sərabdayam, hər diyar
Məşhurdur nemətilə.
Sərab da tanınıbdır
Duzunun şöhrətilə.



Bu şeirli, nəğməli,
Duz-çörəkli torpaqda,
Neçə-neçə mənzildə,
Neçə-neçə ocaqda,
Bu inqilab sərvətli
Sərabın duzu vardır.
Talelərə səpilən
Narın ulduzu vardır.
Zənn etmə ki, təmasda
Sərindir sakinləri.
Yox! Ülfətdə baldan da
Şirindir sakinləri.
Yadıma gəlir, gəncdim
Qırxaltının qışında.
Təbrizə gedən zaman
Üstüaçıq maşında,
Qıvrılıb açılırdım
Sancıdan yumaq kimi.
Ağlamaq istəyirdim
Ağrıdan uşaq kimi.
Bir evdə ağbirçəkli
Bir fədai anası,
Mehriban anaların
Surətinin aynası,
Mənə zəncəfil çayı
Verdi öz əllərilə.
Sancım biryolluq getdi
Soyuq qış yellərilə...
Gənclik xatirəsilə
Yenə Şibliyə qalxdım.
Haçandan görmədiyim
Gözəl Təbrizə baxdım.

Ulduzları sayrışan
Köynək geymişdi səma.
Başını körpə ayın
Üstə əymişdi səma.
Qızıl saçlı ay isə
Çatıb hilal qaşını,
Səmanın dizlərinə
Söykəmişdi başını.
Yatırdı maviliyin
Bal yuxusu içində.
Təbrizdən pərvazlanan
Gül qoxusu içində.
Tələsdim Təbrizimə, -
İnqilab səngərimə.
İnsanların sayıyla
Milyonçu şəhərimə.
Kimsə deməsin mənə
Çox yazırsan Təbrizdən.
Keç neçə qarlı dağdan,
Neçə mavi dənizdən.
Şəhərlər var, dünyada
Bir-birindən qəşəngdir,
Bir-birindən qədimdir,
Bir-birindən nəhəngdir,
Bir-birindən təmizdir.
Olsun! Ancaq mənimçin
Təbriz elə Təbrizdir!
İlk dəfə o şəhərdə
Dərk etmişəm özümü.
Döşümdə medal olub
Zəfərlərin düzümü.



Ali təhsil görməmiş
Vəzifə görmüşəm mən.
Azad ilham uğrunda
Döyüşə girmişəm mən.
Həm fədai paltarı
Geyinmişəm əynimə,
Həm mədəniyyət yükü
Götürmüşəm çiynimə.
Bığ yerim tərləməmiş
Kamil yaşa dolmuşam.
Bir sənət ocağının
Ağsaqqalı olmuşam.
Bir atalar məsəli
Yadıma düşdü yenə.
“Keçən günə gün çatmaz,
Calasan günü günə”.
Gəncdim. Başa düşmədim
Bu nə təhər məsəldir?
Dedim əgər bu günüm
Dünənimdən gözəldir,
Daha neçin hüsnüylə
Ürəyimə yatmasın,
Ya özünə çatmayan
Keçən günə çatmasın?
Sonra bildim bu məsəl
Ən böyük etirafdır.
Bu hikməti yaradan
Söz mülkündə sərrafdır.
O məsəlin mənası
Həm dərin, həm kövrəkdir.
Başa düşməkçin ancaq
Baş ağartmaq gərəkdir.

Bəli! Ömrün qışında
Zirvəyə çatan zaman,
Gəncliyinin yazını
Həsrətlə anır insan!
Təbrizdəyəm, göz yaşım
Sevinir gilə-gilə.
Ana dilli "Çənlibel"
Dolaşır əldən-ələ...
Sol yanda əzəmətlə
Çənlibel ucalıbdır.
O gəncdir... başı üstə
Buludlar qocalıbdır.
Buludlar dəlilərin
Papağına bənzəyir.
Yox! Ölməz Koroğlunun
Bayrağına bənzəyir...
Haçandır ki, sahibsiz
Dalğalanır havada.
O döyüşlər qartalı
Dustaqdır daş yuvada.
Bəli! Çənlibel daş-daş,
Kərpic-kərpic qopubdur.
Gəlib döyüşən yurdda
"Gündəliyə"* hopubdur.
Sağ yanda Qırat çapır,
Çənlibeldə dörd nala.
Hardansa dalğa-dalğa
Səs gəlir: Uğur ola!

* qəzet



Bəs hanı qoç Koroğlu,
Görünmür atın üstdə?
O mərd selin içində,
O igid odun üstdə,
Gedərdi yağılarla
Əlbəyaxa döyüşə.
Bəs indi niyə getmir
Dəlilərlə görüşə.
Aydındır! O Vətənin
Şöhrətinə dönübdür,
Tarixin zəfər dolu
Söhbətinə dönübdür.
Deyin, bəs onda hanı
Bu günün Koroğlusu?
Hanı od diyarının
Od oğlu, nur oğlusu?
Qalxıb minə Qırata,
Qılıncından od saça,
Ağır darvazaları
Açа, taybatay aça...
Dəliləri hünərlə
Apara eldən-elə.
Buludlu Çənlibeldən
Günəşli Çənlibelə...
Dikbaşlı yağıları
Diz çökdürə önündə.
Aşıq Cünun saz çala
Qalibiyyət günündə.
Yadlar görə nə qədər
Yanılıbdır sözündə.
Koroğlu ölməyibdir,
Yaşayır yer üzündə!

***1979.***

## KİTABIN İÇİNDƏKİLƏR

Əli Tudə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5
Kökdən düşməyən rübab . . . . . . . . . . . . . . . . . . . . . 9

***İnsan düşünür***

Şairin xəyalı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 18
Zirvədən-zirvəyə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19
Şair saçlı ağac . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 20
Yaşayır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 20
Bir an . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22
Tələsir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 23
Etiraz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 25
Siz özünüz dediniz . . . . . . . . . . . . . . . . . . . . . . . 26
Dan yeri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 29
Pərsəng . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
Ömür - arzu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
Damarlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
Kişi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 32
Desin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 34
Körpü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35
Siyasət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36
Deyil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37
Tərəddüd-qətiyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . 40
Məhəbbət - nifrət . . . . . . . . . . . . . . . . . . . . . . . . 42



Qonşular . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44
Pıçıltı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
Keçir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46
Dünya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 47
Süd - atəş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
Həyat . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49
Torpaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50

***Yurdum – anam***

Yurdum – anam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52
Ürəyim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52
İstərəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
Vətən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 55
Doğmalıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56
Savalanım . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 57
Heran . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60
Şibli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 63
Urmiyə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
Meşkin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 67
Təbriz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 69
Təbriz axşamı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 71
Ərkim mənim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 73
Gülüstan bağı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 74
Şah gölü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 76
Göy məscid . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 77

***Şirin xatirələr***

Kimə bəlli deyil . . . . . . . . . . . . . . . . . . . . . . . . . 80
İyirmi bir Azər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81
Vahid yollu ünvanlar . . . . . . . . . . . . . . . . . . . . . 82

Fədakar insanlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 85
Ver mənə! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 87
Möhürlü xalça . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 88
Sənin təranən hanı? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 90
Mavi dalğalarda . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 92
Təbriz nəğməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 94
Təbriz notları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95
Turist . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 97
Şeir təşnəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 99

***Kəndimizi istəyirəm***

Savalan zirvəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 102
İki Çanaxbulaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 104
Kəndimizi istəyirəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . 110
Görüşsüz görüş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 114
Sərhəd dərələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 117
Ey Vətən! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 119
Sadə ləqəblər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 120

***Döyüş illəri***

Döyüş yollarında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 122
Tehran . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 123
Məhək daşı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 126
İki aləm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 128
Alovlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 130
Əfsər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 133
Güllər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 135
İki töhfə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 137
"Zalım-məzlum" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 139



Mərəz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 141
Sərvət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 142
Dövran təzələnir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 145
Nəğməli gecələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 146
Olmasaydı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 148
Bilirəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 150
Mənim kitabım . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 153
Gəlləm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 155

***Doğmalarım, əzizlərim, yaxınlarım***

Bütöv kam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .158
Ata . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 160
Əbədi sevgi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 163
Mənim anam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 164
Ata evində . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 169
Nənələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 171
Niyə? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 173
Dərzi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 176
Gülsüm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 178
Məktublar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 182
Məktub . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 183
Sevimli xalam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 185
Ayda görüşürük . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 188
Vüsal körpüsü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 190
Bayatılı məktublar . . . . . . . . . . . . . . . . . . . . . . . . . 191
Mehribanım . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 195
Sevgilimin yuxusu . . . . . . . . . . . . . . . . . . . . . . . . . 197
Qısqanclıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 198
Təzadlı misralar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 199
Səhər də, axşam da . . . . . . . . . . . . . . . . . . . . . . . . 201
Mənim qızlarım . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 202

Sabahın həkimi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 205
Pərvanə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 206
Əvəz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 207
Qan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 208

***İthaf***

Qoruyaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 212
İki Səhənd vardı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 213
Ayrılıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 215
Gəl bir qucaqlaşaq! . . . . . . . . . . . . . . . . . . . . . . . . 217
Sehrli saz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 219
Ay Kərəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 220
Segah . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 221
Atalar sözü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 223
Yaşıl dolaylar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 224
Beşinci oğul . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 227
Doğma heykəl . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 229
Sular durulur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 232
Hələ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 234
Kür şairi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 235
Ülfət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 236
İlk addımlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 239
Nar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 248
Sən hardan biləydin . . . . . . . . . . . . . . . . . . . . . . . . 250
Qüdrət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 253
Tufanlı illər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 255
Bir qoşma oxudun... . . . . . . . . . . . . . . . . . . . . . . . . 258
Ay dost . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 259

***Təbiət danışır***

Dağlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 262
Dağ oxuyanda . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 263



Dərə – zirvə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 264
Zirvədə qəbir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 264
Şöləli məqbərə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 265
Tək palıd . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 268
Əttar şəlalə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 271
Bulaq təsəllisi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 272
Çeşmələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 274
Şimşək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 275
Qızıl qayçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 276
Yağışdan sonra . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 277
Ay bahar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 279
Bənövşə dözümü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 280
Yanan lalələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 281
Ağacların göz yaşı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 282
Bülbülün göz yaşı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 283
Bülbüllər məclisi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 284
Günəbaxan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 287
Sanki . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 288

***Məhəbbət də qızılgüldür***

Sevgi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 290
Əlvan dünya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 290
Məhəbbət də qızılgüldür . . . . . . . . . . . . . . . . . . . . . 291
Gözəlliyin mənası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 292
Gözəl yaranmasa . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 293
Yaş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 294
Taleyin töhfəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 295
Çəpər kirpiklər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 296
Qara gilələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 297
Afət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 298
Heyrət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 299
Sevgilim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 300

Mənim ilkim . . . . . 300
İki toy . . . . . 301
Girov . . . . . 304
Yadında varmıdır? . . . . . 306
İki xəyal . . . . . 306
Səmimiyyət . . . . . 308
Sevgi odu . . . . . 310
Hardan, kimdən bilim? . . . . . 311
Oldun . . . . . 312
İkinci ömür . . . . . 313
Sevgi məcrası . . . . . 314
Oğrun baxış . . . . . 318
Büllur . . . . . 319
Nəsən? . . . . . 320
Qaraçı qızı . . . . . 321
Cərrah qız . . . . . 322
Demə . . . . . 324
Toyda görüş . . . . . 324
Bir məclisdə . . . . . 326
Ömür . . . . . 326

***POEMALAR***
Elə ağlama! . . . . . 330
Hicran yolu . . . . . 374
Qartal uçuşu . . . . . 387



**ƏLİ TUDƏ**

NƏĞMƏLİ GECƏLƏR

VII cild

Kitab Natiq Əli Tudə oğlu Cavadzadənin
şəxsi vəsaiti ilə çap olunub.

**Redaktor** *Natiq Cavadzadə*
**Rəssam** *Nazim Rzaquliyev*
**Kompüter yığımı** *Yaqut Rəhimova*
**Kompüter işləri** *Sevda Allahverdiyeva*

Çapa imzalanmışdır 09.08.2016. Kağız formatı 60x90 1/16.
Fiziki çap vərəqi 25,5. Şərti çap vərəqi 25,5. Qarnituru Times.
Sifariş 2096. Tiraj 500.

---

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az 1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99412) 5380010. Faks: (99412) 5380014.
E-mail:azerb_nesch@mail.ru